ƏBDÜRRƏHMAN CAMİ

SEÇİLMİŞ ƏSƏRLƏRİ

“ÖNDƏR NƏŞRİYYAT”
BAKI–2004

*Bu kitab "**Əbdürrəhman Cami.** Yusif və Züleyxa"*
(*Bakı. Azərnəşr, 1965*) *və "**Əbdürrəhman Cami.** Baharistan"*
(*Bakı. Azərnəşr, 1964*) *nəşrləri əsasında təkrar nəşrə hazırlanmışdır*

Fars dilindən tərcümə edənlər: **Mübariz Əlizadə**
Rəhim Sultanov

891.55 - dc 21
AZE
Əbdürrəhman Cami. Seçilmiş əsərləri. Bakı, "Öndər nəşriyyat", 2004, 320 səh.

Əsrin böyük alimi və filosofu kimi tanınan Əbdürrəhman Cami Şərq aləmində, xüsusən Orta Asiyada poeziyanın inkişafında müstəsna xidməti olan mütəfəkkir sənətkarlardandır. Tacik-fars ədəbiyyatının bu böyük klassiki özündən sonra zəngin bədii yaradıcılıq irsi qoyub getmişdir.

Oxucuların diqqətinə təqdim olunan kitaba qüdrətli şairin iki əsəri: "Yusif və Züleyxa" ilə "Baharistan" daxil edilmişdir.

Parlaq zəkalı şairin məhz bədii-fəlsəfi ruhlu "Yusif və Züleyxa" mənzum romanı onun şöhrətini daha çox yüksəldən, onu dünyaya tanıtdıran əsəridir.

"Baharistan" isə Caminin nəsr əsərləri içərisində bədii əhəmiyyəti ilə seçilənidir. Bu əsər XIII əsrin məşhur şairi Sədi Şirazinin "Gülüstan"ına nəzirə olaraq yazılmışdır.

ISBN 9952-416-36-8

© "ÖNDƏR NƏŞRİYYAT", 2004

Azərbaycan Respublikasının Prezidenti
İLHAM ƏLİYEVİN
“Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında”
12 yanvar 2004-cü il tarixli sərəncamı ilə nəşr olunur və ölkə kitabxanalarına hədiyyə edilir

ÖN SÖZ

Əbdürrəhman Cami tacik-fars ədəbiyyatının böyük klassiklərindən biri, Şərq aləmində şeir, sənət və ictimai fikrin inkişafında müstəsna rolu olan mütəfəkkir sənətkarlardandır. Onun zəngin yaradıcılıq irsi – rəngarəng bədii lirikası, "Həft-ovrəng" adı ilə məşhur olan yeddi poeması, didaktik-fəlsəfi əsərləri bütün dünyada şöhrət qazanmış, bir çox dillərə tərcümə olunmuş, Şərqdə, xüsusilə Orta Asiyada şerin və ictimai fikrin inkişafına güclü təkan vermişdir.

Böyük şair, musiqişünas, filosof və alim Əbdürrəhman Nurəddin ibn Əhməd hicri qəməri ilə 817-ci il şəban ayının 8-də, miladi ilə 1414-cü il noyabrın 7-də Cam şəhərində (Xorasan) anadan olmuşdur.

Cami çox kiçik yaşlarından oxumağa başlamış, ilk təhsilini atasından almış, sonra isə Herat şəhərinin Xuş bazarında olan Dilgəş mədrəsəsində oxumuşdur. Burada Caminin müəllimi dövrünün məşhur sufilərindən olan görkəmli ərəbşünas mövlana Cüneydi Üsuli idi.

Cami son dərəcə istedadlı və zəhmətsevən olduğundan, kitabları tez oxuyub qurtarır və bir müdərrisdən başqasına keçirdi. Cami ilə məşğul olan müəllim və müdərrislər onun hafizəsinə heyran qaldıqlarını bildirir, bunu başqalarına deməkdən çəkinmirdilər. Məsələn, dövrünün ən görkəmli müəllimi və bilikli alimlərindən hesab edilən mövlana Xacə Əlaəddin Əli Səmərqəndi demişdi ki, o ömründə Cami qədər hafizəli və istedadlı şagird görməyibdir.

Bir az sonra Cami, Heratda tədris edilən bütün elmlərə kifayət qədər yiyələndikdən sonra məlumatını artırmaq, xüsusilə də Heratda zəif tədris edilən təbiət elmlərini öyrənmək üçün Səmərqəndə getmək qərarına gəlir və orada məşhur astronom Uluqbəyin yaxın əməkdaşlarından olan Qazizadə Ruminin nücum və başqa təbiət elmləri sahəsində oxuduğu mühazirələrə qulaq asır.

Caminin Səmərqənddəki müvəffəqiyyəti heç də Heratdakından az olmur. O, Səmərqənddən Herata qayıtdıqda, öz tələbkarlığı və çətin imtahan götürməsi ilə şöhrət tapmış, "Baharistan"da adı çəkilən mövlana Əli Quşçiyə həndəsə və cəbrdən imtahan verir. Əli Quşçi sualı axıra çatdırmamış Cami onun nə demək istədiyini başa düşür və dərhal cavab verir, özünün Səmərqəndə səfərinin hədər getmədiyini sübut edir.

Cami sufi təriqətlərindən nəqşbəndiliyi seçmiş və öz mürşüdü olaraq şeyx Sədəddin Kaşqarinin ardınca getmişdir. Bahəddin Nəqşbəndinin dediklərinə ciddi riayət etməyi tələb edən şeyx Sədəddin Kaşqari Caminin tərbiyəsinə böyük fikir verir və onun nəqşbəndi təriqətinin mürşüdü olmasına çox çalışırdı. Cami də öz növbəsində Sədəddin Kaşqarinin məsləhətlərinə əməl edir, onun göstərişlərindən kənara çıxmırdı.

Caminin hələ lap cavan vaxtlarından şerə böyük həvəs göstərdiyini yazırlar. Onun elmə məlum olan ən qədim əsəri 856 (1452)-cı ildə Əbdülqasim Babura ithaf etdiyi "Müəmma haqqında risalə"dir.

Cami olduqca çox yazmışdır. Yuxarıda adı çəkilmiş kitab onun ilk əsəri kimi nəzərə alınarsa, təxmini hesablamaya görə, Cami ömrünün sonuna qədər qələmi yerə qoymadan, ildə azı bir-iki əsər yazmışdır. Caminin əsərlərinin miqdarı haqqında müxtəlif fikirlər vardır. Bu əsərlərin sayını onun müridi və ən yaxın dostu, böyük özbək şairi Əlişir Nəvai – 35, Şah İsmayılın oğlu Sam Mirzə – 45, Caminin tərcümeyi-halını yazan Əbdülqafur Lari – 47, Şirxan Ludi "Miratül xəyal" ("Xəyal güzgüsü") adlı təzkirəsində isə 99 göstərir. Y.E.Bertelsin fikrinə görə, 45-47 rəqəmləri həqiqətə daha yaxındır.

Cami Əlişir Nəvainin məsləhəti ilə birinci divanı "Fətihətəş-şəbab", yəni "Gəncliyin başlanğıcı", ikinci divanı "Vəsitətül-İqd", yəni "Həmayılın ortası", üçüncü divanı "Xatimətül-həyat", yəni "Həyatın sonu" adlandırmışdır. Cami divanlarını Nəvainin təklifinə görə belə adlandırdığını müqəddimədə özü qeyd edir.

Caminin "Nəfəhatül-üns" və "Həzəratül-Qüds", yəni "Müqəddəs yerlərdən əsən dostluq nəsimi" əsəri özündən əvvəl yaşamış sufilərin, həməsri olan sufi şair və alimlərin həyatına həsr edilmişdir.

Cami əsərlərini dövrünün məşhur hökmdarlarına ithaf etməkdən boyun qaçırmamış və ya qaçıra bilməmişdir. Son dərəcə qürurlu, böyüklərə baş əyməyən Caminin, əsərlərini müxtəlif hökmdarlara həsr etməsinin əsas səbəbini camişünaslar çox haqlı olaraq, onun məhz əsərlərinin məzmunuyla əllərində külli-ixtiyar olan hökumət başçılarına təsir göstərməkdə, onları ədalətə, mərhəmətə sövq etməkdə görürlər. Doğrudan da, Caminin bütün əsərlərində, fəlsəfi-ictimai istiqamətindən asılı olmayaraq, insanpərvərlik, ədalət və səxavətin tərənnüm edildiyini görürük. Cami nəqşbəndi təriqətinin mürşüdü və şeyxi mövqeyinə yüksəldikdə də heç vaxt təəssübkeş-fanatik, dindar olmamış, ədaləti, mərhəməti, düzlüyü möminlikdən üstün tutmuşdur. Cami çoxlu səfər etmiş və bu səfərlər zamanı müxtəlif sufi şeyxləri, alim, şair, incəsənət ustaları, dövlət xadimləri ilə, şah, sultan, xaqan və müxtəlif silkə xas olan adamlarla görüşmüşdur.

Cami 1472-ci ilin payızında Məkkəyə ziyarətə getmək qərarına gəlir. O, bu səfərində Nişabur, Səbzəvar, Bəstam, Damqan, Qəzvin, Həmədan, Kərbəla, Məkkə, Mədinə, Dəməşq, Hələb və Təbriz kimi şəhərləri gəzir və onların bəzilərində aylarla qalıb oradakı alimlərlə görüşür, bəzən isə ciddi mübahisə etməli olur.

1492-ci il noyabr ayının əvvəllərində Cami özünü pis hiss etməyə başlayır, xəstəliyi get-gedə şiddətlənir, nəhayət, məhərrəmin 17-də, yəni noyabrın 8-də səhər vəfat edir. Dəfn mərasimi Nəvainin yaxından iştirakı ilə təşkil edilir.

Caminin ölümünə Nəvai tarixi maddə yazmış, onu məşhur Hüseyn Vaiz oxumuşdur. İki beytdən ibarət olan bu şeirdə əbcəd hesabı ilə Caminin 894 hicri, yəni 1492-ci ildə vəfat etdiyi bildirilir.

Cami özündən sonra böyük bir miras qoyub getmişdir. Alimlər Caminin əsərlərinin sayını 50 qəbul edirlər ki, bunlardan da 34-ü nəsr, 16-sı şeirlə yazılmışdır.

Şairin "Yusif və Züleyxa" mənzum romanı onun şöhrətini daha çox yüksəldən, onu bütün dünyaya tanıtdıran əsəridir. Poemanın mövzusu bizim eramızdan bir çox əsrlər əvvəl yaranan, Afrika və Asiya xalqlarının folklorunda geniş yayılan, "Tövrat", 'İncil" və "Quran" kimi dini kitablarda öz əksini tapan bir neçə görkəmli şairlər tərəfindən qələmə alınan didaktik-əxlaqi və sönməz məhəbbət dastanından alınmışdır. Bu mövzunun həm Camiyə qədər və həm də Camidən sonra bədii ədəbiyyatda dönə-dönə işlənməsinə, nəzm və nəsrlə təkrarən yazılmasına baxmayaraq, "Yusif və Züleyxa" dedikdə Cami və Cami dedikdə, "Yusif və Züleyxa" fikrimizdə canlanır.

Bu əsərlə "Şahnamə"nin taleyi arasında müəyyən bir oxşarlıq vardır. Belə ki, Firdovsiyə qədər və Firdovsidən sonra bir çox şahnamələr yazılmışsa da, dünyada ancaq bir şahnamənəvis şair, yəni Firdovsi və bir "Şahnamə" – Firdovsinin əsəri tanınmış və əbədi həyat hüququ qazanmışdır.

Əbdürrəhman Cami əsrinin ən qüdrətli şairi, böyük alim və mütəfəkkiri idi. Şairin parlaq zəkası yalnız yaşadığı əsrin və yaratdığı mühitin çərçivələri daxilində məhdud qalmayıb, ümumbəşəri vüsət kəsb etmiş və onun dünyagörüşlərində insan səadəti kimi ülvi bir amal əsas yer tutmuşdur. O, fikrinin vüsəti, yaradıcılıq zəkasının parlaqlığı ilə məsnəvilərində bir ustad və müəllim kimi xatırlayıb vəsf etdiyi dahi Azərbaycan şairi Nizami Gəncəvi kimi bəşəri qayələri, sadə insanların səadətini və ümumiyyətlə, humanizmi əsas meyar qəbul etmiş və insanın ləyaqətini, əzəmətini hər şeydən uca tutmuşdur.

"Yusif və Züleyxa" mənzum romanındakı müsbət qəhrəmanların mənəvi-əxlaqi səciyyəsi şairin fəlsəfi-didaktik görüşlərinin istiqamətini müəyyənləşdirmək üçün ən möhkəm əsas ola bilər. Caminin böyüklüyü ondadır ki, o öz qəhrəmanlarını əfsanəvi dastanlardan alsa belə, onların arzu və əməllərini, gündəlik qayğı və fəaliyyətlərini, mübarizə və inkişaflarını real aləmlə, ictimai həyatla, bəşər cəmiyyətinin təbii və zəruri qanunları ilə bağlayır; xeyrin şər qüvvələr üzərindəki qələbəsinin çətin və fədakarlıq tələb edən mübarizə yollarına işıq saçır.

"Yusif və Züleyxa", birinci növbədə, bəşəri eşq, pak məhəbbət dastanıdır. Yusif də, Züleyxa da təmiz və ülvi eşqin bütün məziyyətlərini duyan, onunla yaşayan və öz məqsədlərinə çatmaq üçün ən ağır imtahanlardan çıxan səciyyəvi qəhrəmanlardır. Şair belə bir eşqi həm öz qəhrəmanları, həm də bütün insanlar üçün əsas keyfiyyət hesab edir:

Eşqdir aşiqi saxlayan cavan,
Onu tanıtdıran, onu ucaldan!
Məcnun içməsəydi bu meydən əgər,
Yada salardımı onu bir nəfər?!
Minlərlə ağıllı, idraklı insan
Sevib-sevilmədən getmiş dünyadan!
Onlardan nə bir ad, nə nişan vardır.
Nə dillər əzbəri bir dastan vardır!
Varsa da dünyada bir çox gözəl quş,
Onların adını hamı unutmuş.
Zövq əhli eşqdən danışsa əgər,
Bülbüllə pərvanə adını çəkər!

Caminin nəzərində eşq insanları həyatın hər cür çirkinliklərindən, feodal cəmiyyətinin fərdiyyətçilik hisslərindən qoruyur, mənəvi cəhətdən onu yüksəldir, paklıq və ülviyyət məqamına çatdırır. Caminin bütün əsərlərində olduğu kimi, "Yusif və Züleyxa" əsərində də şairin dini-təriqət görüşlərindən irəli gələn motivlərə təsadüf edirik. O öz oxucusunu əsərin baş qəhrəmanı olan Yusifin camalı və kamalı ilə, hələ onun dünyaya gəlməsindən bir çox əsrlər əvvəl "aləmi-zərr"də (ruhlar aləmində) tanış edir. Yusifin sərgüzəşti, onun Züleyxa ilə olan eşq macərası, yuxular, vəhylər (ilahi ilham) vasitəsi ilə müəyyən olunur. Qəhrəmanın həyatındakı ən ağır dəqiqələrdə səmalar elçisi Cəbrayıl onun yanına gəlir, məsləhətlər verir, gələcək işlərində səbirli və səbatlı olmağı ona tövsiyə edir. Lakin bunlar əsərdə ikinci dərəcəli və həm də əhəmiyyətsiz yer tutur. Bu kimi ricətlər bir çox hallarda Caminin yaradıcılıq zövqü və dünyagörüşlərindən deyil, mövzunun mənşəyi və çoxəsrli tarixindən irəli gələn ötəri hallardır. Əsərdə qoyulan başlıca məsələ, yəni Yusiflə Züleyxanın coşqun eşqi Caminin qələmi ilə əflatuni-ilahi eşq deyil, tamamilə real, bəşəri məhəbbət kimi verilir və bütün hadisələr də həmin real məhəbbət ətrafında öz təbii məcrasında cərəyan edir.

Əsərin bədii-fəlsəfi ruhunu anlamaq üçün onun baş qəhrəmanları olan Yusiflə Züleyxanın müəllif tərəfindən necə səciyyələndirildiyi barədə, qısa da olsa, danışmaq lazım gəlir. Şair bu iki qəhrəmanın hər birini özünə xas olan mənəvi, psixoloji və əxlaqi cizgilərlə təsvir etmişdir. Bu cizgilər arasında ümumilik, eyniyyət ünsürləri olsa da, fərqlənmə, fərdilik ünsürləri əsas yer tutur. Yusifin səciyyəvi məziyyətini sakitlik, dözümlük, təmkin və vüqar təşkil edirsə, Züleyxa öz coşqunluğu, məqsədə çatması üçün hər cür təhlükənin gözü içinə baxması ilə səciyyələnir. Hər iki qəhrəman biri digərini sevir, lakin Yusif öz həyat yolunda sağlam düşüncəni, etikanı, ləkəsiz əxlaqı, təmiz vicdanı rəhbər tutur; iki sevgilini bir-birindən ayıran maneələrin təbii yolla aradan

qaldırılacağına inanır, məqsədə çatmaq üçün mənliyinə və mənəviyyatına zidd olan heç bir hərəkətə yol vermir. Bütün əsər boyu şair, baş qəhrəmanının bu xüsusiyyətini qabarıq şəkildə nəzərə çatdırmağa çalışır. Budur, Yusif Züleyxa ilə növbəti deyişmələrinin birində öz eşqini və riayət etdiyi etikanı belə izah edir:

Gəl, məni bu günah işə çağırma!
Məsumluq şişəmi daş ilə qırma!
Vurma ətəyimə üsyan ləkəsi,
Yandırar cismimi şəhvət şöləsi...
Bu gün əl götürsən yaxamdan əgər,
Bu xəlvət binadan buraxsan əgər,
Uzaqda olsam da, ləzzət alarsan.
Bir gün kama çatıb razı qalarsan.
Murada çatmağa tələsmə zinhar!
Gec dəyən meyvələr ləzzətli olar.
Toruna gec düşən qaragöz ceyran,
Yaxşıdır, tez düşən dəcəl dovşandan.

Yusif təkcə hüsnü ilə dünyanı heyran edən əfsanəvi bir gözəl və eşqi ilə ürəkləri dağlayan bir aşiq deyildir. O, sözün əsl mənasında bir insandır. Cami mütəfəkkir bir şair olaraq Yusif surətini tipik, müsbət insan surəti kimi qələmə almış və insanlığa xas olan bütün məziyyətləri və gözəl sifətləri bu surətdə cəmləşdirmişdir. Yusif ağıl, kamal mücəssəməsidir. O, zəhməti şərəf işi bilir. Hər işə bacarıq və mətanətlə qoşulur, istedad və fədakarlıq nümunələri göstərir. O, müdrik dövlət adamıdır, öz tədbirləri ilə xalqı aclıq və ölüm fəlakətindən qoruyur. Vəzirlik və sonra şahlıq dövründə hakimiyyətdə ədaləti rəhbər tutur, insanları səadət nemətinə çatdırır. Yusif xeyirxah və alicənab bir insandır. Həyatının ən ağır dəqiqələrində olduğu kimi, hökmdarlıq məqamına yüksəldiyi dövrdə belə, ancaq bir arzu ilə – insanlara yaxşılıq etmək, onların dərdinə, qəminə şərik olmaq arzusu ilə yaşayır. O, hətta öz düşmənlərinə belə kin bəsləmir, qisas hissi ilə yaşamır, yamanlıq müqabilində yaxşılıq etməyi özünə borc bilir.

Züleyxa surəti isə əsərdə tamamilə başqa bir planda verilmişdir. Onun idealı yalnız eşqdir. Bu eşq Züleyxanın varlığına hakimdir. O, hələ ilk gənclik çağında yuxuda görüb vurulduğu, eşqi ilə divanə olub zəncirləndiyi, sorağı ilə atasının şahlıq büsatını və doğma yurdunu tərk edərək qürbət ellərə düşdüyü, sonra isə Misirdə bir qul kimi satın alıb evinə gətirdiyi Yusifin vüsalına çatmaq üçün insan qüdrəti daxilində olan hər cür tədbirlərə, hiyləyə əl atır. Yusifin əksinə olaraq, Züleyxa eşqində çılğın və pərvazsızdır. O, məhəbbət naminə öz qulunun qarşısında kənizə çevrilib xidmətdə dayanır, onun önündə

diz çöküb yalvarır, gecələr sübhə qədər ağlayıb sızlayır, sevgilisini xəlvətə çəkib vüsal istəyir, intiharla onu hədələyir, bütün tədbirləri boşa çıxdıqda ona böhtan atıb zindana göndərir, lakin etdiyinə peşman olur, pərvanə şamın başına dolanan kimi məhbus yarının başına dolanır, eşq atəşində alışıb yanır, vaxtsız qocalır, gözləri kor olur, beli bükülür, sərvətini canan yolunda əldən verib dilənçi vəziyyətinə düşür, ancaq eşqindən dönmür və öz məqsədinə nail olur. Züleyxa eşqi elə bir qüvvət bilir ki, onun qarşısında heç bir maneə dayana bilməz. Belə maneələrə rast gəldikdə o, hər şeyi, hətta özünün və sevgilisinin həyatını ayaq altına alıb keçmək, irəliləyib murada çatmaq əzmindədir. Züleyxanın vüsal təmənnasını rədd edən Yusifə onun verdiyi bu cavabda eşqinin və ehtirasının böyük qüdrəti aydın bir surətdə təcəssüm etdirilmişdir:

...Çıxma istəyimə qarşı, yoxsa mən,
İntihar edərəm sənin əlindən!
Gəl qucu boynumu, qucmasan əgər
Öz əlimlə kəsər boynumu xəncər.
Bil ki, dolanmasa qolun boynuma,
Düşər nahaq qanım sənin boynuna!
Vuraram xəncəri bir süsən kimi,
Gül kimi qızardar qan köynəyimi.
Ayrılıq dağıyla odlanar canım,
Sənin həsrətindən qurtarar canım...

Cami bu iki qəhrəmanın mənəvi, etik xüsusiyyətlərini, onların əxlaqi səciyyələrini qarşı-qarşıya qoyur, Yusif surətinin məziyyətlərinə üstünlük verib, haqq qazandırır. Əsərin sonunda sevgililər bir-birinə qovuşub murada çatırsa, bu xoş nəticəyə onları çatdıran Züleyxanın coşqun ehtirası deyil, Yusifin həqiqi bəşəri hissləri, yüksək mənəviyyatı, səbir və mətanəti olmuşdur. Yusifdə olan bu məziyyətlər Züleyxanı da islah edir, ondakı çılğın ehtirasın səmimi bəşəri duyğulara əsaslanan pak bir məhəbbətə çevrilməsinə kömək edir.

"Yusif və Züleyxa" eyni zamanda didaktik bir əsərdir. Ölməz məhəbbət dastanının hər bir fəslini oxusaq, onun qəhrəmanlarının ağır və mürəkkəb həyat yolunun hər addımına nəzər salsaq, müdrik bir filosofun, həkimanə məsləhətlərlə gələcək nəsillərə həyat dərsi və insanlıq adabını öyrətdiyinin şahidi olarıq. Bu cəhətdən kitabın sonunda şairin ruzigardan şikayəti, oğluna nəsihəti və əsərin xətmi barədə yazdığı parçalar daha qiymətli və daha ibrətamizdir. Şahların saray mühiti ilə yaxından tanış olan, belə bir mühitin insanların başına nə kimi fəlakətlər açdığını gözü ilə görən şair, haqlı olaraq, oğluna xitabən bütün oxucularına belə müdrik məsləhətlər verir:

Şahların hüzuru yanar bir oddur,
Tüstütək bu oddan çalış uzaq dur!
Oddan yüksələrsə işıq məşəli,
Uzaqdan faydalan, getmə irəli!
Qorxuram o oda məftun olasan,
Həyat işığından məhrum qalasan!
Vəzifə axtarma, əgər ağlın var
Ki, gah təyin edib, gah çıxararlar.
Elə bir kürsüdə oturma ki, sən,
Başqası qaldırsın səni yerindən!

"Yusif və Züleyxa" dastanı əsrlərdən bəri xalqımızın şüurunda yer tapmış, dilində əzbər olmuş, folklorumuzda variantları yaranmış, şairlərimiz bu əfsanəvi aşiqlərin ülvi məhəbbətini tərənnüm etmiş, atalarımız oğullarına və qızlarına Yusif və Züleyxa adlarını vermiş, analarımız onların şəkillərini zərif xalçalar üzərində, ipək pərdələrdə toxumuşdur.

Caminin nəsr əsərləri içərisində daha çox bədii əhəmiyyətə malik olanı "Baharistan"dır. "Baharistan" XIII əsrin məşhur didaktik şairi Sədi Şirazinin "Gülüstan"ına nəzirə olaraq 1487-ci ildə yazılmışdır. Bu zaman Caminin 73 yaşı var idi. Caminin əsərləri içərisində "Baharistan" xüsusi yer tutur. Cami əvvəlcə "Baharistan" tipli bir əsər yazmaq fikrində olmamış, yalnız Sədinin "Gülüstan" kitabını oğluna oxuyaraq, "birdən" bu fikrə düşmüşdür.

"Baharistan" da "Gülüstan" kimi səkkiz fəslə ayrılır və onun hər fəslinə "rövzə", yəni "bağ" adı verilir. "Baharistan"nın birinci fəsli məşhur sufi şeyxlərinin kəlamlarına, ikinci fəsli alim, filosof, hikmət sahibləri və dünya görmüş adamların rəvayət və hekayətlərinə, üçüncü fəsli şahlar və hökmdarlar haqqındakı rəvayət və hekayələrə, dördüncü fəsli əliaçıqlıq və səxavətə, beşinci fəsli məhəbbət və sevgiyə, altıncı fəsli lətifə və hazırcavablığa, yeddinci fəsli şairlərin həyat və yaradıcılığına həsr edilmişdir. Sonuncu, səkkizinci fəsli heyvanların dilindən danışılan hekayət və rəvayətlərə aiddir.

Xatırlatmaq lazımdır ki, Cami XV əsrdə yaşamış, nəqşbəndilər təriqətinin başçılarından biri olmuşdur. Bütün mütərəqqi fikirlərinə baxmayaraq, onun yaradıcılığında dövrü ilə əlaqədar olan, müasir tələblərə cavab verməyən hekayə və rəvayətlər vardır. Lakin bunların heç biri Cami yaradıcılığının mahiyyətini təşkil etmir. Cami yaradıcılığında bizim üçün faydalı olan cəhət onun əsərlərindəki humanizm, ədaləti və düzlüyü tərənnüm edən motivlərdir.

Mübariz Əlizadə
Rəhim Sultanov

Yusif
və
Züleyxa

XİTAB

İlahi, solmayan bir gül ver bizə!
Ümid qönçəsini aç üzümüzə!
O qönçə bəzəsin ilham bağını,
Ətriylə doldursun gül damağını.
Bu möhnət evində minnət qoymadan,
Məni nemətinə qərq et, Yaradan!
Minnətdar olmaqla ol mənə rəhbər,
Olsun təşəkkürün dilimdə əzbər!
Paklıqdan, ağıldan barındır məni,
Sözümlə fəth edim bütün ölkəni!
Könlümdə gövhərdən bir xəznə yarat!
Ver o xəzinədən dilimə barat!
Sən açdın təbimdə özün nafəmi[1],
Mişkimin ətriylə doldur aləmi!
Yağsın qələmimin dilindən şəkər!
Yazdığım şeirlər qoxusun ənbər!
Qalmamış sənətə, sözə etibar,
İndi bu namədən bir quru ad var!
Bu şirin badələr məclisində mən,
Bir nişan görmürəm bu təranədən!
Çəkib badələri başa həriflər,
Nə qədər şərab var, içib getmişlər!
Görünmür məclisdə püxtə bir adam
Ki, olsun əlində mey dolu bir cam!
Cami, gəl utanma, özünü yetir!
Safından, xıltından bizə mey gətir!

[1] Nafə – mişk mənbəyi olan ahu göbəyi

EŞQ FƏZİLƏTİNİN BƏYANI VƏ ƏSƏRİN NƏZMƏ ÇƏKİLMƏSİNİN SƏBƏBİ

Eşqsiz bir könül, könül deyildir,
Eşqsiz bir vücud su ilə gildir.
Könüldən getməsin məhəbbət qəmi,
Tərk etsin eşqsiz könül aləmi.
Aləmin varlığı eşq ilə qəmdir,
Məhəbbət aləmi ülvi aləmdir!
Fələk gərdiş edir eşq ilə ancaq,
Eşqin fitnəsilə dolmuşdur afaq,
Eşqin əsiri ol, get, azad yaşa,
Qəmini sinənə salıb, şad yaşa!
Eşqin badəsindən könül məst olar,
Sevib-sevilməyən xudpərəst olar.
Eşqdir aşiqi saxlayan cavan,
Eşqlə dünyada ucalar insan.
Məcnun içməsəydi bu meydən əgər,
Yada salardımı onu bir nəfər?
Minlərlə ağıllı, idraklı insan,
Sevib-sevilmədən getmiş dünyadan,
Onlardan nə bir ad, nə nişan qaldı.
Nə dillər əzbəri bir dastan qaldı.
Varsa da dünyada bir çox gözəl quş,
Onların adını hamı unutmuş.
Zövq əhli eşqdən danışsa əgər,
Bülbüllə pərvanə adını çəkər.
Dünyada yüz işə qol qoysan belə,
Eşqdir hamıdan yüksək mərhələ.
Məcazi olsa da, eşqə könül ver,
Həqiqət mülkünə eşq rəhbərdir.
Əvvəl əlifbanı öyrənməmişsə,
Quranı oxumaq bilməz bir kimsə!
Eşitdim mürşüdə dedi bir nəfər,
Həqiqət yolunda ol mənə rəhbər!
Dedi ki, eşqlə tanış deyilsən,
Aşiq ol, sonradan yanıma gəl sən!

Surət şərabından sərxoş olmadan,
Məna şərbətini dadmazsan, inan!
Lakin o şərabdan bir cam içərək,
Çox tez bu körpüdən keçəsən gərək.
İstəsən vaxtında mənzilə çatmaq,
Bu yolda nə durmaq olar, nə yatmaq.
Allaha şükür ki, yaşadıqca mən,
Çəkmədim əlimi eşq ətəyindən.
Mişkimi nafəsiz görən dayələr,
Nafimi[1] kəsdilər, eşq oldu xəncər.
Anam dodağıma döş qoyan zaman,
Əmdim eşq südü, o süd oldu qan.
Saçım süd rəngində olsa da bu gün,
Getməz damağımdan dadı o südün.
Qocaya, cavana baxmaz məhəbbət,
İndi də könlümlə bağlayıb ülfət,
Deyər: – Cami, aşiq sayılmaz qoca,
Aşiqlik adını uca tut, uca!
Yarat aşiqlikdən elə bir dastan
Ki, qalsın o səndən aləmdə nişan!
Yarat bir əsər ki, adın ucalsın,
Sən ölüb gedərkən, yerində qalsın.
Eşqin sədasını eşidən zaman,
Quş tək qanadlandı bədənimdə can.
Durdum xidmətində canla-başla mən,
Sehrlər yaratdım öz qələmimdən.
Allahın köməyi olarsa əgər,
Əkdiyim bu ağac haqdan bar verər.
Eşqin atəşindən bir od qalaram,
Yanar bu atəşdə ağıllar tamam
Tüstüdən fələklər qara bağlayar,
Sonsuz ulduzların gözü ağlayar.
Sözü bir məqama çatdırım ki, mən
Göylər hünərimə söyləsin: "Əhsən!"

[1] Naf – göbək

SÖZ FƏZİLƏTİ ÇƏMƏNİNDƏN GÜL TOPLAYIB DƏSTƏ DÜZƏLTMƏK VƏ ƏSƏRİN NƏZMƏ ÇƏKİLMƏSİ SƏBƏBİNİN TAMAMLANMASI TELİ İLƏ ONU BAĞLAMAQ

Eşq divanının bəzəyi sözdür,
Eşq gülzarının çiçəyi sözdür.
Ağlın bar-bəhəri söz olmuş ancaq,
Dünyada yadigar tək söz qalacaq!
Hər nə ki dünyada bizdən yaranmış,
Aqillər demiş ki, sözdən yaranmış.
Sözün nəfəsilə canlandı qələm,
Varlıq lövhəsinə nəqş etdi rəqəm.
Sözün çeşməsini qələm ki açdı,
Hikmətdən saf, təmiz fəvvarə saçdı.
Dünyada yüksəkdə, alçaqda nə var,
Həmən fəvvarədən məst olub qalar.
Dodaq o təsirdən nüktələr[1] saçar,
Məna gülşənində gül kimi açar.
Atar ətəyinə nəfəs əlini,
Gülşəndən çıxarar o şux gəlini.
Açar qapısını önündə qulaq,
Düşər ayağına bihuş olaraq.
Könül qarşılayar sevinclə onu,
Ürək qönçə kimi qucar boynunu.
Gah dodaq sevincdən açılıb gülər,
Gah da qəm-qüssədən ağlayar gözlər.
Gülər qəmlilərin dodağı ondan,
Gülən insanları odur ağladan,
Onda bu hikməti gördüyümçün mən,
Çəkmərəm əlimi, bil, ətəyindən.
Alışdım pir verən meydən içərək,
İndi də göylərdə mən uçam gərək,
Qəlbimdə gizlənən sirri bildirəm,
Dünyanı ağladam, həm də güldürəm.

[1] Nüktə – incə mənalı söz

Köhnəlmiş Xosrovla Şirin dastanı,
Şirin sözlə tapım yeni sultanı.
Məcnunla Leylinin bitmiş söhbəti,
Başqa bir aşiqin çatmış növbəti.
Yusiflə Züleyxa eşqindən həmin,
Şəkər yeməlidir, tutisi təbin.
Allah bu dastanı bəyənmiş özü,
Mən də qaldıraram göylərə sözü.
Tanrı ki, vəhyində vermişdir xəbər,
Yəqin onda olmaz yalandan əsər.
Kimsənin xatiri bizdən şad olmaz,
Yalanı doğruya qatarsaq, bir az.
Sözün doğruluqdur hüsnü, kamalı,
Ay da naqis olsa, solar camalı.
Yalançı səhərin işığı olmaz.
Ağarmış olsa da üfüqü bir az,
Doğruçu səhərlə söküləndə dan,
Qaldırar bir qızıl bayraq asiman.
Yalanı sənətlə bəzəsən əgər,
Onun çırağına nur verər hünər.
Çirkinin əyninə atlas biçmə, gəl,
İpək donla çirkin görünməz gözəl.
Gözəl ola bilməz ipəklə çirkin,
Çirkin, qiymətini salar ipəyin.
Əniyi gül üzə sürtəsən gərək,
Gözəlin hüsnünü artırar bəzək.
Ənik yaxılsa da çirkin bir üzə,
Baxanda çirkinlik dəyəcək gözə.
Bütün məşuqlardan Yusif gözəldi,
Belə bir hüsn ilə adı yüksəldi.
Bir gözəl vəsfində gedərsə söhbət,
"Yusifi-sanidir" deyərlər, əlbət.
Aşiqlər içində Züleyxa təkdi,
Hamıdan ondakı eşq yüksəkdi.
Eşqə ömrü boyu meylini saldı,
Şah ikən, əsiri-eşq olub qaldı.
Qocalıb taqətdən düşdüyü zaman,

Eşqin qüdrətilə oldu novcavan.
Ağladı eşq ilə, güldü eşq ilə,
Doğuldu, yaşadı, öldü eşq ilə,
Onlardan söz açıb mən birər-birər,
Qələmin ucuyla saçaram gövhər.
Nadir inciləri sərf etdikcə mən,
Yaranar yeni bir xəznə hikmətdən.
Təkcə arzum budur, bir nəcib insan,
Məhəbbətnaməmi oxuyan zaman,
Namə tək üzümdən üzün örtməsin,
Qələm tək hərfimə barmaq sürtməsin.
Əsərdə taparsa əgər bir xəta,
Açmasın başıma min bir macəra!
Bacarsa, səhvimi eyləsin islah,
Bacarmazsa, sussun, olmasın bədxah!

QEYB GECƏ MƏCLİSİNDƏ YUSİF CAMALININ ŞƏMİNİN İŞIQLANMASI VƏ ADƏMİN KÖNÜL PƏRVANƏSİNİN O ATƏŞƏ YANMASI DASTANI

Məna dənizindən inci tapanlar,
Asiman vəhyindən xəbər tutanlar,
Bəşər tarixini yazmaq istərkən,
Verdilər belə bir xəbər Adəmdən:
Mənəvi göz ilə baxdığı zaman,
Adəmə nəslini verdilər nişan.
Durmuş peyğəmbərlər səf-səf aşikar,
Hər səfin öz yeri, öz məqamı var.
Övliya[1] səf çəkib başqa bir yanda,
Dayanmış xidmətə hazır hər anda.
Onların ardında yaradaraq səf,
Ordular bir tərəf, şahlar bir tərəf.
Düzülüb sıraya başqa xəlayiq,
Hərəsi bir işə, bir ada layiq.

[1] Övliya – dini rəhbərlər

Hamıya diqqətlə baxınca Adəm,
Canlandı gözündə yeni bir aləm.
Ay kimi Yusifə sataşdı gözü,
Ay deyil, o idi günəşin özü!
Məclisdə hamıdan şam tək seçilir,
Hüsnü qarşısında hamı kiçilir.
Günəş qarşısında ulduz itən tək,
Gözəllər önundə itmişlər, gerçək!
Çiyninə dilbər tək salmışdır rida[1],
Ayağı altında yüz dilbər fəda.
Hüsnünün kamalı həddini aşmış,
Vəslində idrakın özü də çaşmış.
Əynində ilahi lütfündən xələt,
Başında parlayır taci-səltənət!
Alnında səadət sübhü açılır,
Üzündən zülmətə işıq saçılır.
Vücud zülmətindən pak ola-ola,
Durmuş peyğəmbərlər ondan sağ-sola.
Mələklər yanında bir dövrə vurmuş,
Bayraqlar qaldırıb, nizamla durmuş!
Bu günəş qəndilin pak mehrabına,
Bir uca səs ilə edərlər səna.
Adəm heyran oldu o cah-cəlala,
Təəccüb içində daldı xəyala:
İlahi, bu kimdən almış yaraşıq?!
Kimin gözlərinə bəxş edir işıq?!
Haradan yar oldu ona səadət?!
Haradan bu camal, bu şan, bu şövkət?!
Səs gəldi: o sənin nuri-didəndir,
Kədərli qəlbini sevindirəndir!
Yəqub gülzarında bir növnəhaldır[2],
Xəlil səhrasında cavan ğəzaldır[3]!
Cəlalda keyvanla yanaşı durar,
Şah olar, Misirdə taxta oturar!

[1] Rida – uzunətəkli üst paltarı.
[2] Növnəhal – cavan ağac, tingə
[3] Ğəzal – ahu, ceyran

Hüsn camalını görən gözəllər,
Qibtədən olarlar hamı xuncigər,
Odur güzgü tutan ay camalına,
Nəyin var xəznəndə bağışla ona!
Dedi: – Bəxşiş ona könlümü verdim,
Camalın altıda dördünü verdim.
Yəni gözəlliyi qıl üçə qismət,
İki pay ona ver, xalqa bir, fəqət!
Günəş tək camalı nur saçan zaman,
Çıxsın gözəllərin hüsnü sıradan.
Sonra o dilbəri basdı bağrına,
O təmiz qəlbini bəxş etdi ona.
Alnından öpərək necə bir ata,
Ona öz meylini eylədi əta!
Oğlunun şövqündən açdı gül kimi,
O gülü oxşadı bir bülbül kimi.

YUSİF CAMALININ FİDANI QEYB GÜLZARINDAN HƏYAT BAĞÇASINA GƏTİRİLİR VƏ YƏQUBUN GÖZ YAŞI ZÜLEYXANIN KÖNÜL EŞQİ İLƏ ONU BƏSLƏYİR

Bu surətpərəstlik evində hər kəs,
Növbətlə varlıqdan dəm vurur əbəs.
Hər zaman həqiqət eləyir zühur,
Hər dövrün özünə məxsusdur bu nur.
Dəyişməz vəziyyət olsa dünyada,
Bir çox nur örtülüb gedərdi bada!
Fəzadan itməsə günəş işığı,
Ulduzlar almazdı bu yaraşığı.
Şaxta vurmasaydı qışda çəməni,
Yazda bəzəməzdi güllər gülşəni.
Dünyanı tərk edib getdikcə Adəm,
Şeysin[1] mehrabına üz tutdu aləm.

[1] Şeys – əfsanəvi peyğəmbər adı

O da getdi, İdris oldu peyğəmbər,
Xalqa həq dərsini oxudu əzbər.
Uçduqda göylərə İdrisin ruhu,
Dinin keşikçisi etdilər Nuhu.
Elə ki, tufana Nuh düşüb batdı,
Xəlilullah gəlib bir din yaratdı.
O vaxt ki, yığıldı dəvət süfrəsi,
İshaqə yetişdi dəvət növbəsi.
O da bu aləmi tərk edən zaman,
Yəqub səs qaldırdı Hüda dağından.
O, daha bir geniş süfrə açaraq,
Şamdan Kənanadək qaldırdı bayraq!
Kənanda salınca daimi məkan,
Sərvəti, övladı artdı durmadan.
Qoyunun, quzunun yox idi sanı,
Tutdu qarışqa tək sürü səhranı.
On bir oğlu vardı Yusifdən başqa,
Yusifi can kimi sevirdi, əmma!
Yusif o dəmdə ki gəldi dünyaya,
Hüsnü də bir rəqib kəsildi aya.
Könül bağçasında bir nəhal idi,
Canlar səmasında bir hilal idi.
Xəlil gülşənində açdı bir çiçək,
Nərgisdən zərifdi, süsəndən göyçək.
İshaqın bürcündən bir ay ucaldı,
Dünyanın gözünə o işıq saldı.
Yəqub bağında bir lalə açaraq,
Həm məlhəmi oldu, həm də çəkdi dağ.
Kənanda doğuldu bir gözəl ceyran,
Ona həsəd çəkdi sərasər Kənan.
Nə qədər anası sağ idi onun,
Süd ilə şəkərin yudu oğlunun.
Bəsləyib çatdırdı iki yaşına,
Əcəl zəhər qatdı onun aşına.
O həq dəryasında əziz inciydi,
Anasız bir yetim qalıb incidi.
Ata gördü, inci olacaq tələf,

Bacısı bağrını elədi sədəf.
Can quşu bibidən pərvəriş aldı,
Sevinc gülşənində qol-qanad çaldı.
Böyüyüb boy atdı bir fidan kimi,
Dil açıb danışdı xoş zəban kimi.
Bibisi mehrini ona bağladı,
Bir an görmədikdə qəmdən ağladı.
Gecələr qucuyub yatdı baş-başa,
Gündüzlər günəş tək qıldı tamaşa.
Onsuz istəməzdi, olsun bir günü,
O idi şad edən qəmli könlünü.
Yusifə qalmışdı Yəqub tamarzı,
Könlündə yaşadı daim bir arzu.
Ürəyi istərdi hər gün, hər gecə,
Yusif öz yanında olsun ölüncə.
Dedi: – Əziz bacım, bilirəm, inan!
Yusifçin yarpaq tək əsirsən, inan!
Lakin onsuz olmuş həyatım acı,
Məni gəl möhnətdən qurtar, ey bacı!
Onu göndər mənim xəlvətgahıma,
Son qoy hicranıma, son qoy ahıma.
Yəqubdan bu sözü bacı eşitdi,
Zahirdə əmrinə itaət etdi.
Lakin düşündü ki, qursun bir hiylə,
Yusifi verməsin əldən əliylə.
İshaqdan qalma bir kəməri vardı,
Haqq yolda işlənib, çapar-çapardı,
Hər kəs bağlasaydı onu belinə,
Çatmazdı fələyin əli əlinə.
Görcək ayırırlar Yusifi ondan,
Kəməri bağladı belinə pünhan.
Elə bağladı ki, tutmadı xəbər,
Bilmədi belinə bağlanmış kəmər.
Yəqubun yanına göndərdi xoşhal,
Sonra haray çəkib, saldı qalmaqal
Ki, aman o kəmər itmiş evimdən,
Hər kəsi görüncə tutaraq həmən,

Təpədən-dırnağa gəzirdi arvad,
Çoxların gəzdisə, tapmadı bir zad.
Elə ki Yusifə yetişdi növbət,
Axtarıb, kəməri tapdı, nəhayət.
Beləydi şəriət hökmü o zaman
Ki, qanun sayardı dindar hər insan,
Əsir aparardı hər mal yiyəsi,
Oğurluq üstündə tutulan kəsi.
Baş tutdu bibinin qurduğu kələk,
Yusifi apardı oğru deyərək.
Evi işıqlandı, şənləndi üzü,
Lakin əcəl çatdı, bağlandı gözü.
Elə ki Yəquba çatdı bu xəbər,
Qəlbindən silindi iztirab, kədər,
Yusifi apardı yanına dərhal,
Bacı matəmində çəkmədi məlal.
Başqa oğulların daşın ataraq,
Yusifə qiblə tək tapındı ancaq.
Xəstə ruhu tapar Yusifdən şəfa,
Gözləri alardı hüsnündən ziya.
Yusiflə oturar, Yusiflə durar,
Yusifin mehrilə min büsat qurar.
Bəli, o yerdə ki belə bir ay var,
Günəşin özü də kölgədə qalar.
Acizəm, vəsf edim mən o dilbəri,
Hüsnünə valehdir hurilə pəri.
Eşq fəzasında bir parlaq aydı,
Parlayıb, nurunu aləmə yaydı.
Ay deyil, günəşdən parlaqdı, inan!
Göydə parlayan ay nur alır ondan.
Yanıldım, mən ona afitab dedim,
Durnagöz bulağa mən sərab dedim.
Misli heç olmayan müqəddəs bir nur,
Varlıq aləminə gəlmişsə, odur!
Dünya gəlişiylə olmuşdur abad,
Yusifə onunçun verildi bu ad!
Yəqubun qəlbinə mehri sığmazdı,

Yolunda can qoysa, yenə də azdı.
Çünki məftun idi hüsnünə onun,
Huridən, mələkdən gözəl oğlunun.
Məğrib ölkəsində gözəl Züleyxa,
İsmət pərdəsində oturub tənha,
Yuxuda görməklə o gül camalı,
Eşqini coşdurdu onun xəyalı.
Yaxın, uzaq bilməz, coşsa məhəbbət,
Ülvidir ondakı yenilməz qüdrət!

CAMAL GÜNƏŞİNİN TÜLUYU İLƏ MƏĞRİB ÖLKƏSİ MƏŞRİQ OLAN ZÜLEYXANIN ƏSLİ-NƏSƏBİ HAQQINDA

Xəznəsində sonsuz söz dürrü olan,
Şair xəbər verdi keçmiş zamandan
Ki, Timus adlı şah Məğrib-zəmində,
Namusda tək idi öz aləmində.
Cəlalı, şövkəti, mülkü, ordusu,
Qəlbində qalmazdı heç bir arzusu.
Səadət rəmziydi başının tacı,
Taxtı fələklərdən alar xəracı.
Ordusu, cövzadən[1] bağlayar kəmər,
Qılıncına bəxti bəxş edər zəfər.
Var idi Züleyxa adlı bir qızı,
Dünyanın misilsiz parlaq ulduzu.
Qız deyil, aləmin göz işığıydı,
Şahlıq xəznəsinin yaraşığıydı.
Dilimi vəsfində aciz bilərək,
Xəyalıyla təbi sınayam gərək.
Saçı tək asılım başdan aşağı,
Qəlbimə nur saçsın hüsn çırağı.
Köməyimə çatsın o şirin ləblər,
Vəsf edim hüsnünü, bəlkə birtəhər.

[1] Cövza – qədim astronomiyada bürc adı

Rəhmətdən yaranmış sərv qaməti,
Gülşənə bəxş etmiş o lətafəti.
Su içib şahlığın sərçeşməsindən,
Sərvi çəmən içrə salmış nəzərdən.
Ariflər yolunda saçı tor qurmuş,
Mişk onun saçına qul olub durmuş.
Tükləri birbəbir ayırıb daraq,
Saçı ortasında qurmuş incə tağ.
Nafəni bölmüşdür darağın dişi,
Mişkdən müşküldür nafənin işi.
Zülfü səmən kimi düşmüş aşağı,
Kölgədə qalmışdır gülün budağı.
Qoşa hörükləri iki hindu tək,
Şümşad sinəsində ip eşir, gerçək!
Fələk bəzəyərkən gül camalını,
Gümüş lövhə olmuş onun alını.
Sağında, solunda o gümüş lövhün,
Mişk ilə iki nun[1] yazmış sərnigun.
Yazmış öz əliylə sənətkar ustad,
İki nun altında iki gözəl sad[2]
Nunlardan uzanan mim[3] həlqəsinə,
Burnu bir əlifdir[4] gümüşdən yenə.
Əlifə artırıb ağız sifrini[5],
On dəfə artırmış hüsnün qədrini
Sini[6] görünməkçin dodağı qaçmış,
Mimin düyününü[7] dişiylə açmış.
Üzü nümunədir İrəm bağından,

[1] "Nun" – ərəb əlifbasında "N" hərfi ucları yuxarı səmtə çevrilmiş hilal şəklində yazılır. Şair, Züleyxanın qaşlarını başıaşağı yazılmış "N" hərfinə oxşadır.

[2] Ərəb əlifbasında "sad" gözlü (S) hərfi yumurtavarı halqa şəklində yazılır. Burada Züleyxanın gözlərinin təsbehidir.

[3] Mim həlqəsi – ərəb əlifbasında "Mim" (M) hərfinin çox kiçik halqası olur. Burada ağzının kiçikliyini göstərən mübaliğəli təşbih kimi işlənmişdir.

[4] Əlif (a) ərəb əlifbasında şaquli düz xətt şəklində yazılır. Burada gözəlin burnu həmin hərfə oxşadılır.

[5] Ağız sifri – ağız sifrə (nöqtəyə) oxşadılır.

[6] Sin (dişli s) hərfi – dişlərə təşbehdir.

[7] Mimin düyünü (bax mim halqası – ağız).

Orada çiçəklər açmış al-əlvan,
Zənci uşağı tək o gül bağında,
Qara bir xalı var hər yanağında.
Zənəxdanı vardır xalis gümüşdən,
Bir abi-həyatdır, ölməzsən, içsən.
Buxağına baxan ariflər deyər,
Süzmüş o çeşmədən süd ilə şəkər.
Zənəxdanı baldır, buxağı qəndab,
Ürəkdə qalarmı daha səbrü-tab?
Gərdəni bəyazdır fil sümüyündən,
Ahudan bac alar ondakı gərdən.
Sinəsi zərifdir gül yarpağından,
Köynəyi altında gül olmuş pünhan.
Bir cüt nur dağıdır iki məməsi,
Necə dağ, bəlkə də, kafur[1] çeşməsi.
İki nar yetişmiş tək bir budaqda,
Səba olmalıdır gözdə, qulaqda.
O gümüş qollar ki qoynuna almış,
Gümüş qiymətini birə-beş salmış.
İncidən pakizə o dilbər üçün
Ağzı dualıdır möminlər bütün.
Pərilər üzərlik olub oduna,
Dua bağlayırlar candan qoluna.
Şahların qəlbini qarət edərək,
Yengində gizlətmiş cüt gümüş bilək.
Silər könüllərdən əli hər qəmi,
Yaralı sinəyə qoyar məlhəmi.
Əldə barmaqları, sanki bir qələm,
Yazar ürəklərə eşqdən rəqəm.
Dırnaqları vurmuş könüllərə xal,
Bədrin üzərinə artırmış hilal,
Aya pəncə atmış beş barmağıyla,
Ay saralıb-solur pəncə dağıyla.
Beli tük qədərdir, tükdən də incə,
Bəlkə də, bir tükün üçdə birincə.

[1] Kafur – ağ rəngli, tünd qoxulu maddə.

Belinə bağlasa kəmər bir tükdən,
Qırılardı beli bu ağır yükdən.
Qarnı ağ mərmərdir o şux gözəlin,
Göbək kəsən dayə, sağ olsun əlin!
Sağrısı bir dağdı, xalis gümüşdən,
Tükdən asılı dağ görməmişəm mən!
O dağa bir nəfər əl vursa ancaq,
Xəmir tək içində quylanar barmaq.
Lakin pərdədədir hələ şux gözəl,
Onun sağrısına toxunmamış əl.
Göbəkdən aşağı, dizdən yuxarı,
Nə varsa unudaq, gəlin onları!
Çəkmiş o yerlərə ismətdən hasar,
Nə fikir yol tapar, nə göz sataşar.
Onun baldırları, zənn edirəm mən,
Hüsnünə sütundur sadə gümüşdən.
Bir gül dəstəsidir, vallahı, nurdan,
İşıqsız gözlərdən qalmışdır pünhan.
Səfası güzgüyə meylini salmış,
Ədəblə önündə diz çöküb qalmış.
Onunla diz-dizə oturan kəslər,
Səadət üzünü güzgüdə görər.
Demə, baldırından ayağı kəmdir,
Lətafətdə o gül sabitqədəmdir.
Dabanından tutmuş pəncəsinədək,
Olduqca zərifdir, gül yarpağı tək.
Aşiqin gözünə o ayaq bascaq,
Göz yaşı ayağa qabar salacaq.
Topuğu vəsfində nə deyim, aman!
Nə desəm, ariflər tapacaq nöqsan.
Bəzəyi heç vəsfə gələrmi? Düzü,
Bəzəyə o pəri bəzəkdi özü.
Gövhərlə doluydu başdakı tacı,
Hər gövhər böyük bir ölkə xəracı!
Qulaqlarındakı bir cüt güşvara,
Qəlbi məftun edər, canı avara.
Qırsa boynundakı boyunbağını,

Ətəklə cib tutmaz gövhər dağını.
Telində minalı telbəndi vardı,
Minlərlə gövhəri satın alardı.
Lütf ilə edərkən aləmə ehsan,
Kafiydi bircə qaş qolbaqlarından.
Qızıldan mən sizə vermirəm xəbər,
Düşmüş ayağına, xəlxal olub zər.
Hərdəm ki naz ilə taxta oturar,
Rumla Çin ipəyi içrə qərq olar.
Misir atlasından xələt geyərək,
Gəzərkən görünər tavusdan göyçək.
Günəş boylanarkən sübh dəmində,
Görər onu yeni libas əynində.
Bir cibə iki yol o aparmaz əl,
Ay tək yeni bürcdən çıxar o gözəl.
Ayağını şahlar belə öpməmiş,
Təkcə ətəyinə məxsusdur bu iş.
Yalnız köynəyidir onu qucuyan,
Ancaq öz qoynunda yatır o canan.
Dayəsi olmuşdur qaragözlülər,
Pərəstardır ona pəriüzlülər.
Minlərlə huri tək yaşıdı vardı,
Xidmətində gecə-gündüz durardı.
Heç zaman könlünə qonmamış qubar,
Nə də ayağında tikan yeri var.
Sevməmiş, sevməyir hələ bir kəsi,
Yaddır xatirinə eşqin həvəsi.
Tər nərgiz gülü tək yatır hər gecə,
Səhərlər oyanır necə bir qönçə.
Gəlincik oynadır körpələr kimi,
Xəlvətə çəkilir pərilər kimi.
Oyunbaz fələkdən yoxdur xəbəri,
Oyunla gününü keçirir pəri.
Dünyanın dərdindən, qəmindən, azad
Yaşayır asudə, ömür sürür şad.
Kim bilir, nə kələk quracaq fələk?
Hamilə gecələr nə doğar, görək?

YUSİF CAMALI GÜNƏŞİNİN QILINCINI ZÜLEYXA İLK DƏFƏ YUXUDA GÖRÜR VƏ QINDA OLAN BU QILINCLA ÖLDÜRÜLÜR

Gənclik günləri tək sevinc gətirən,
Bir gecə ki xoşdu aydın səhərdən.
Yatıb rahatlanır quş da, balıq da,
Hadisə ayağı yox ortalıqda.
Ulduzlar göz vurur, ay işıq saçır,
Nurlu bir səhərə gecə yol açır.
Darğanın huşunu almış əlindən,
Zəngi susdurmuşdur zəng tərpədən.
Quyruğunu edib boynunda halqa,
İtlər uyumuşdur, səs salmaz, əsla!
Yarasa qanaddan çəkmişdir xəncər,
Sübhün carçısı da yatmış bixəbər.
Şahlıq sarayının bürcündə duran,
Keşikçi bir xaşxaş görmüş uzaqdan.
Xaşxaş xəyalıyla fikrə dalmışdır,
Yuxu taqətini əldən almışdır.
Sarsılıb yuxunun sərt hücumundan,
Təbilçalan qalmış təbil çalmaqdan.
Hələ eşidilmir azançı səsi.
Oyatmaz yuxudan o da bir kəsi.
Şəkər ləblərini yummuş Züleyxa,
Nərgizi getmişdir şirin yuxuya.
Telləri sarılmış balışın üstə,
Yataqda uzanmış, sanki, güldəstə.
Saçı ipək kimi olmuş pərişan,
Qızarıb yanağı ipək balışdan.
Surət görən gözü yuxuya dalmış,
Lakin qəlbindəki göz açıq qalmış.
Bu zaman qapıdan gəldi bir cavan,
Nə dedim? Cavan yox, bəlkə də, bir can!
Qərq olub vücudu nur bulağında.
Hurini talamış cənnət bağında.
Hüsn-camalını almış əlindən,

Qoymamış huridə əsər qəmzədən.
Ucalan qaməti təzə şümşaddır,
Azadlıqda qolu sərvi-azaddır.
Çiyninə düşmüşdür zülfü zəncir tək,
Ağlın əl-ayağın bağlamış bərk-bərk.
Alnında çeşmə tək dalğalanır nur,
Ay, günəş önündə baş əyib durur.
Pakların mehrabı[1] kaman qaşları,
Kölgəsində bəslər bir cüt xumarı.
Behişt bağçasında ay üzü bir gül,
Qaşının qövsidir o aya mənzil.
Çəkib gözlərinə naz sürməsindən,
Vurar sinələrə ox müjəsindən[2].
Gülümsər dodağı – şəhd ilə şəkər,
Danışsa, ağzından xalis qənd tökər.
Dişləri şəffafdır, safdır incidən,
Üzüdür günəşə ziya bəxş edən.
Gülərsə, Sürəyya nur səpər yerə,
Püstə qibtə edər duzlu ləblərə.
Buxağı üstündə bir alma durur,
Buxaq o almadan asılı sudur.
Mişkdən dağ vurmuş xalı yanağa,
Qonmuş gül bağına bir qara qarğa.
Gümüş kimi qoldan, biləkdən sazdır,
Belinə bir incə tük desən, azdır.
Züleyxa göz açıb üzünə baxdı,
Bu baxış od olub canını yaxdı.
Bir camal gördü ki, olmaz bəşərdə,
Nə huri, nə qılman, nə pərilərdə.
Ondakı surəti, camalı gördü,
Bir deyil, eşqinə yüz könül verdi.
Verdi qamətinə qəlbində məskən,
Könlündə bir fidan əkdi eşqindən.
Ürəyi yaxıldı gizli bir oda,

[1] Pakların mehrabı – qaşlar müqəddəs adamların mehrabına oxşadılır.
[2] Müjə – kirpik

Səbri, dini getdi bu oddan bada.
Ənbər zülflərinə qəlbi oldu bənd,
Hər tükü canının telinə peyvənd.
Qaşının tağını gördüyü anda,
Yuxulu gözləri qərq oldu qanda.
Ləbləri qəlbinə bal şəhdi süzdü,
Dişi kirpiyinə mirvari düzdü.
Gümüş biləyindən divanə oldu,
Önündə qul deyil, pərvanə oldu.
Görüncə üzündə o mişkin xalı,
Üzərlik tək oda tutuşdu halı.
Alma buxağından sarsıldı canı,
Asan dərmək olmaz elə almanı.
İlahi, bu necə surət, nə sima?!
Surətdən daha da üstündür məna!
Züleyxa unutdu Züleyxalığı,
Surətdən mənaya keçdi varlığı.
Əgər o mənadan tutsaydı xəbər,
Həqiqət yolunda açardı şəhpər.
Lakin o, surətə olaraq məftun,
Məna nəzərindən gizləndi onun.
Hamımız yapışıb vahi[1] surətdən,
Qalmışıq xəbərsiz bir həqiqətdən.
Surətdən mənaya gedib çatmadan,
Könül surətgəri dərk etməz bir an!
Kuzənin içində su görsə əgər,
Təşnə, o kuzəni başına çəkər.
Sərin bir bulağın başında insan,
Söhbət açarmı heç ucuz saxsıdan?!

[1] Vahi – xəyali, ötüb-keçən

SƏHƏR NƏSİMİ ƏSƏRƏK ZÜLEYXANIN YUXULU NƏRGİZ GÖZLƏRİNİ AÇIR VƏ GECƏKİ RÖYANIN XƏYALINDAN QÖNÇƏ KİMİ ÜRƏK QANINI UDUB, DODAQLARINI MÖHÜRLƏYİR

Səhər gecə quşu edincə pərvaz,
Səhərin xoruzu qaldırdı avaz.
Məhəbbət nəğməsi başladı bülbül,
Qönçə yorğanını atdı qızıl gül.
Tər qondu şəbnəmdən gülün üzünə,
Bənövşə yüz bəzək verdi özünə.
Züleyxa yenə xoş yuxuya dalmış,
Gördüyü yuxunun fikrinə qalmış.
Yatmamış, huşunu itirmiş, bəlkə,
Yuxusu barədə qəm çəkə-çəkə.
Kənizlər düşdülər ayaqlarına,
Dayələr güc verdi dodaqlarına.
Öpüşlə sildilər xumarı gözdən,
Atdı o lalə tək örtüyü üzdən.
Günəşlə ay doğdu yaxalığından,
Baxdı hər tərəfə heyran, nigaran.
Gecəki dilbərdən görmədi əsər,
Qönçə tək, özünə qısıldı dilbər.
İstədi saxlasın hicran yasını,
Gül tək parçalasın öz libasını.
Lakin həya gəlib oldu dəstgir,
Vurdu ayağına sərvdən zəncir.
Sirrini saxlardı qəlbində nəhan,
Necə ki daş içrə ləl olur pünhan.
Qəlbi qönçə kimi qanla dolsa da,
Dərdini açmazdı qohuma, yada.
Dildə kənizlərə söylər hekayət,
Qəlbi öz-özündən qılar şikayət.
Zahirdə gülərdi o şəkər kimi,
Qəlbi düyün-düyün, neyşəkər kimi.
Baxsa da əğyarın üzünə hər an,

Könlü ayrılmazdı bir an yarından.
Danışıb gülsə də müsahiblərlə,
Qəlbində eşq odu çəkərdi şölə.
Könül ixtiyarı çıxmış əlindən,
Bir an ayrılmazdı eşq aləmindən.
Nəhəng ağzındaydı bu eşq ancaq,
Onu axtaranın ayağı çolaq.
Götürməz yarından ayrı bir qədəm,
Xəyalı ayrılmaz könlündən bir dəm!
Danışsa, yar ilə danışar hər an,
Ondan istəyərdi dərdinə dərman.
Min dəfə göylərə yüksəldi ünü,
Ta ki axşam oldu o möhnət günü.
Gəldi aşiqlərin yoldaşı gecə,
Dərdli könüllərin sirdaşı gecə.
Onunçün üstündür gecə gündüzdən,
O pərdə yırtandır, bu pərdə tikən.
Gecə qucaqlayıb qəmdən dizini,
Kədər divarına qoydu üzünü.
Çəkdi göz yaşından telləri saza,
Gətirdi könlündə eşqi pərvaza.
Nalədən bir nəğmə başladı o dəm,
Yüksəldi naləsi gah zil, gah da bəm.
Yarın xəyalıyla o qalınca tək,
Gözündən, dilindən inci tökərək,
Dedi: – Sən kimsən, ey pakizə gövhər?!
Qəmindən tökərəm gözdən incilər!
Könlümü ovladın, adın demədən,
Yerini, yurdunu bildirmədin sən!
Bilmirəm, adını kimdən soruşum?
Gedib məkanını kimdən soruşum?
Əgər padişahsan, ünvanın nədir?
Aysansa, mənzilin, məkanın nədir?
Mənim tək olmasın heç kəs giriftar!
Qəlbimi əlimdən almısan, ey yar!
Xəyalın yuxumu etmişdir haram,
Qəlbimdən, gözümdən qan axar müdam,

Yuxusuz qalıram bütün gecəni,
Qəminin atəşi yandırır məni.
Rəhm edib oduma, su çilə, barı!
Şölə tək baş alıb, qalxma yuxarı.
Bir güləm, güllərin içində əziz,
Həyat çeşməsinin suyundan təmiz.
Nə küləyin əli başıma çatmış,
Nə də ayağıma bir tikan batmış.
Qəmzənlə ağlımı aldın başımdan,
Saldın yatağıma minlərlə tikan.
Güldən zərif olan vücudum necə,
Tikanlar içində qalsın hər gecə?!
Gecə sübhə qədər bu idi işi,
Ağlayıb-sızlamaq oldu vərdişi.
Səhər göstərəndə parlaq üzünü,
Yudu göz yaşıyla qanlı üzünü.
Dodağı yaş idi göz yaşlarından,
Quru toz çilədi, qurutdu haman!
Nəhayət, gül kimi girdi yatağa,
Qamətiylə bəzək verdi yatağa.
Bu oldu adəti hər gün, hər gecə,
Pozmadı adəti bir tük qədərcə.

ZÜLEYXANIN ƏHVALINI GÖRƏN KƏNİZLƏR HEYRƏTƏ DÜŞÜR VƏ EŞQ DÜYÜNÜ DAYƏNİN BARMAQLARI İLƏ AÇILIR

Ox atsa bir yerə eşqin kamanı,
Təqdir tuta bilməz əldə qalxanı.
Bu oxun mənzili ürəkdə olar,
Xaricdə yüz izi olar aşikar.
Aqillər demişlər, can lövhünə yaz,
Nə mişki, nə eşqi gizlətmək olmaz!
Mişki yüz pərdədə saxlasan belə,
Qoxusu çıxacaq pərdədən çölə.
Züleyxa eşqini gizlədib hər an,
Sinədə qəm toxmu əkirdi pünhan.

Lakin gizli toxum göyərib həmən,
Boy atıb görünər gözü hər yerdən.
Gah ağlar, yaş ilə islanar üzü,
Yaş nədir, təmiz qan axıdar gözü?
Kirpiyindən axan hər bir qətrə yaş,
Edər qəlbindəki gizli sirri faş.
Könül atəşiylə çəkdiyi ahdan,
Yol açıb göylərə qalxardı duman.
Qopunca köksündən odlu bir nəfəs,
Kabab qoxusunu duyardı hər kəs!
Yeyib-yatmamaqdan gecə-gündüzü,
Saralıb-solardı gül kimi üzü.
Bilməzdi dünyanın bağında hələ,
Bitməmiş ürəyi dağsız bir lalə.
Kənizlər görüncə onda bu halı,
Olmaq istədilər mətləbdən halı.
Lakin bilmədilər səbəb nə olmuş?
Nə üçün məlahət çiçəyi solmuş?!
Biri dedi: – Ona yoxdur bərabər,
Yəqin ki, dəymişdir ona bədnəzər!
Başqası söylədi: – Pəridən, divdən,
Ona bir sədəmə çatmış, deyəsən!
Biri dedi: – Məncə, sehrkarlardan,
Birisi tor qurmuş, düşmüş o canan!
Digəri söylədi eşqdir, yəqin,
Eşqin əsiridir qəlbi dilbərin!
Lakin o görməmiş hələ kimsəni,
Yuxuda vurmuşdur şaxta gülşəni.
Hərənin fikrində doğdu bir güman,
Götür-qoy etdilər bir xeyli zaman.
Lakin ürək sirri olmadı aşkar,
Nəticə vermədi bu danışıqlar.
Onun bir füsunkar dayəsi vardı
Ki, yüz füsunkarı alıb satardı.
Eşqin yollarında sınaqdan keçmiş,
Sevib-sevilməyin meyini içmiş.
Aşiqlə məşuqu çatdırıb vəslə,

İncik könülləri almışdı ələ.
Gəlib, gecə öpdü qədəmlərindən,
Dedi: xidmətində qocalmışam mən.
Bir təzə qönçəsi şahlıq bağında,
Yaraşmaz xar gəzsin gül yanağında.
Ürəyin şad olsun, ləblərin gülsün,
Başına taleyin nuru tökülsün.
Gözəllik bağının cavan sərvisən,
Canımın tutisi uçmaz sərindən.
Bir arxa oxşaram suyum vəfadan,
Səni kənarımda bəsləmiş zaman.
Üzünü ilk dəfə görən mən oldum,
Göbəyin mehr ilə kəsən mən oldum.
Mişklə, gülabla çimdirdim səni,
"Gülümsən!" deyərək, dindirdim səni.
Könlümü pərdə tək çəkdim sazına,
Yüz tellə bağlanıb könlüm nazına.
Döşümdən süd əmdi şəkər ləblərin,
Qanımla bəsləndi o gül peykərin.
Gecə beşiyinin yanında durdum,
Səhərlər üzünə mən bəzək vurdum.
Yeridimsə, daim tutdun əlimdən,
Yatdımsa, uyudun sinəm üstə sən.
Bir gülsən, qamətin sərvdən gözəl,
Hələ çəkməmişəm ətəyindən əl.
Sənin xidmətində hazır durmuşam,
Sənինlə bir durub, bir oturmuşam.
Hər yerə getmişsə sərv qamətin,
Kölgə tək düşmüşəm, ardınca sənin,
Qarşında durmuşam oturanda sən,
Yatanda, payinə baş qoymuşam mən.
İndi də, keçmişdə olduğu kimi,
Hazıram, göstərəm sədaqətimi.
Niyə gizlədirsən sirrini məndən,
Sirdaşı yad bilib, üz döndərirsən?
De görüm, kim səni bu hala saldı?
Kim səni möhnətə, məlala saldı?
Gül kimi nə üçün soldun açmadan?

Kimin qüssəsindən oldun pərişan?
Nə üçün gül üzün soldu, saraldı?
Ahın tüstü kimi göyə ucaldı?
Günəşdən nə üçün döndün hilala?
Nə üçün uğradı hüsnün zavala?
Yəqin ki, qəlbinə bir ay hakimdir,
Gizlətmə, aydın de, bu ay bəs kimdir?
Bil ki, bir mələk tək göyə qalxsa da,
Müqəddəs nur kimi göydə axsa da,
Əfsunla, sehrlə ram edərəm mən,
Göydən yer üzunə endirərəm mən.
Pəri tək gizlənsə dağda, meşədə,
Sahirəm, təcrübəm var bu peşədə.
Sehrlə tutaram meşə içində,
Sənə yetirərəm şişə içində.
Əgər bəşərdirsə sevdiyin o yar,
Tezliklə silinər könlündən qubar.
Bəndə yox, bir Allah olsa da böylə,
Kim sənin vəslini istəməz, söylə?!
Züleyxa gördü, çox mehribandır o,
Hal duyan, iş görən bir insandır o.
Əlacsız qalaraq dedi düzünü,
Ulduzla bəzədi öz ay üzünü.
Söylədi: Bilmirəm, istəyim nədir?
Açarı tapılmaz bir xəzinədir.
Simurqla həmyuva olan bir quşdan,
Nə deyib-danışım, nə verim nişan?
Simurqun adını bilir insanlar,
Addan da məhrumdur sevdiyim o yar.
Dərdli öz dərdinin adını bilsə,
Acı da görünər şirin hər kəsə.
Hicran acı qılsa ağız dadını,
Ağzı şirin olar, çəksə adını.
Dil açıb dayəyə o nazlı dilbər;
Sirrini söylədi ona sərasər.
Yuxusundan onu qıldı xəbərdar
Ki, nədən könlündə qalmamış qərar!
Dayə fikrə dalıb, düşündü bir az,

Bildi ki, bu dərdə əlac tapılmaz.
Bəli, hər kəs üçün aydındır mətləb,
Naməlum bir şeyi etməzlər tələb.
Bir şeyin adını bilməsə insan,
Onu axtararsa, adlanar nadan.
Dayə çox düşünüb, aradı tədbir,
Bildi ki, əlacı nəsihətdədir.
Dedi: Bu iş olub divlər əliylə,
Divlər peşəsidir məkr ilə hiylə.
Girərlər bir gözəl insan donuna,
Bizi yandırarlar eşqin oduna.
Züleyxa dedi: Yox, bu mümkün deyil,
Div elə bir şəklə girə bilməz, bil!
Bir vücud ki, əslən, şərdən yarana,
Mümkünmü, geyinsin mələk donuna?!
Dayə dedi: Belə yuxu çin olmaz.
Yalançın ağıllı saralıb, solmaz!
Züleyxa dedi: "Yox, deyildir, yalan,
Yalan, düz adamı çıxarmaz yoldan.
Həqiqət söyləmiş arif adamlar.
Ki, əyri əyrini, düz düzü tapar.
Dayə dedi: Sən ki ağıllı qızsan,
Gəl bu əfsanəni çıxart yadından!
Züleyxa dedi ki, "Olsaydı mümkün,
Girməzdim altına bu ağır yükün.
Lakin mən nə edim, taqətim bitmiş,
İxtiyar cilovu əlimdən getmiş?
Daşın üstündəki naxışdan möhkəm,
Qəlbimdə iz salmış ağır dərdü qəm,
İstər külək əssin, axıb gəlsin sel,
O naxış bu daşdan silinən deyil!"
Dayə onu görcək eşqdə möhkəm,
Nəsihət dilini bağladı o dəm.
Atasına dedi bu macəranı,
Yandı qəm oduna atanın canı.
Ata da tədbirdə aciz qalaraq,
Dedi: "Bu düyünü haqq açar ancaq!"

ZÜLEYXA YUSİFİ İKİNCİ DƏFƏ YUXUDA GÖRÜR VƏ EŞQ ONU CÜNUN UÇURUMUNA ÇƏKİR

O könül xoşdur ki, eşqə mənzildir,
Dünyanın işindən məstü qafildir.
Belə könüllərdə bir şimşək çaxar,
Səbri də, ağlı da yandırıb-yaxar.
Qalmaz rahatlıqdan onda bir əsər,
Qəm dağı gözünə bir çöp görünər.
Canı məlamətə edərək adət,
Eşq artar, təsirsiz qalar məlamət.
Züleyxa ay kimi əridi bir il,
Oldu hilal kimi heçliyə mayil.
Bir gecə hilal tək əyilib durmuş,
Göz yaşı şəfəqi içrə oturmuş.
Deyərdi: Ey fələk, nələr etdin sən?
Gül üzüm saraldı sənin zülmündən!
Əydin qamətimi, qıldın bir kaman,
Məlamət oxuna eylədin nişan.
Məni boş bir xəyal əlinə verdin,
Dərdü qəm əlindən cana yetirdin.
Qəlbimdə yer saldı nuri-məhəbbət,
Yuxumda canlandı o munis surət.
Nə gəlib yanımda oturur bir an,
Nə gəlir yuxuma o mahi-taban.
Xoşbəxtlik olardı mənimçün əgər,
Yuxuma girsəydi bir də o dilbər.
Bəxtim oyanardı ağır yuxudan,
Görsəydim yuxuda onu bircə an.
Yatsam da, yuxuda dincəlməz gözüm,
Bilmirəm, bu dərdə mən necə dözüm?!
Bəxtim oyanaydı, ey kaş, yuxudan,
Yuxuma gələydi, bir də o canan!
Gecə keçib gedir həsbhal ilə,
Züleyxa məşğuldu bu xəyal ilə.
Yuxu gözlərinin üstünü aldı,
Yatmadı, bir zaman o huşsuz qaldı.

Vücudu yataqda dincəlməmişkən,
Qapıda göründü yenə gülbədən.
İlk dəfə könlünü ovlayan oğlan,
Göründü gözünə ay kimi haman.
Gözəl surətinə salınca nəzər,
Qalxıb ayağına düşdü o dilbər.
Yeri öpüb dedi: – Ey sərvi-rəvan,
Qoymadın qəlbimdə sən tabü-tavan.
O xaliq ki səni nurdan yaratmış,
Ləkəsiz, eyibsiz bir can yaratmış.
Bütün gözəllərdən tutmuşdur əziz,
Dirilik suyundan təmizsən, təmiz!
Yandırıb üzündə şəmini hüsnün,
Məni pərvanə tək yaxıb büsbütün,
Verib can bağına qəddinlə zinət,
Dodağın ruhlara bəxş edər qüvvət.
Qara zülflərini qılaraq kəmənd,
Edib hər tükünə könlümü peyvənd.
Vücudum belin tək döndü bir tükə,
Ürəyim ağzın tək oldu bir tikə.
O tanrı naminə, dilə gəl, dilə,
Rəhm edib, sözümə bir cavab söylə!
Söylə, ey hüsnüylə canımı alan,
Kimsən, adın nədir, haralardansan?
Hansı mədəndənsən, ey parlaq gövhər?
Haranın şahısan, mənə ver xəbər?
Dedi: – Bir insanam Adəm nəslində
Bu sudan, torpaqdan yaranmışam mən!
Doğrudan da, mənə aşiqsən əgər,
Əhd-peymanında sadiqsən əgər,
Əziz tut eşqimi, vəfalı ol, gəl,
Mənim sözlərimə əməl et, əməl!
Ləblərin dəyməsin heç bir yad dişə,
Qoyma ki, incini bir almaz deşə!
Eşqimdən sinəndə dağ varsa əgər,
Mənim də qəlbimi bu dağ əridər.
Eşqindən könlümə çəkilibdir dağ.
Olmuşam dərdinə, qəminə ortaq!

Züleyxa görüncə onu mehriban,
Bu şirin sözləri eşitcək ondan.
Sevincdən o pəri divanə oldu,
Odlara alışan pərvanə oldu.
Canı şölələndi, ciyəri yandı,
Yuxudan necə bir sərməst oyandı.
Ürəkdə dağ kimi qalandı qəmi,
Ahının tüstüsü tutdu aləmi!
Bir idi sevdası, yüz oldu birdən,
Başının qovğası keçdi həddindən!
Ağlın cilovunu əldən buraxdı,
Nə məsləhət qandı, nə sözə baxdı.
Qönçə tək qan oldu köksündə ürək,
O qanı torpağa tökdü lalə tək!
Yanağı eşqində saralıb-soldu,
Zülfünü yad edib, saçını yoldu.
Dayələr dövrünü-bərini aldı,
Halə tək o bədri halqaya saldı.
Elə ki halqadan bir yol açardı,
Ox kimi aradan çıxıb qaçardı.
Nə təqib bilərdi, nə də məlamət,
Küçəyə gedərdi o sərv qamət.
Qönçə tək bəndini açsaydı hələ,
Gül kimi pərdəsiz qaçardı çölə.
Atası tutunca xəbər halından,
Yığıb təbibləri istədi dərman.
Düşünüb, daşınıb, tökdülər tədbir,
Dedilər: – Ən yaxşı tədbirdir zəncir!
Zəncir hazırlandı xalis qızıldan,
Hər bir halqasında ləl ilə mərcan.
Asıldı qıçından bir zindan kimi,
Xəznə üzərində bir ilan kimi.
Hüsnün xəznəsiydi o gözəl canan,
Hər xəznə üstündə yatar bir ilan.
Bağlancaq ayağı qızıl ilanla,
Ağlayıb deyirdi ahü-fəğanla:
– Eşqin zəncirinə bağlamışsa yar,
İkinci zəncirə nə ehtiyac var?!

Fələk təzələdi ürək dağımı,
Saldı bu zəncirə əl-ayağımı.
Mənim ki qalmamış taqət dizimdə,
Çıxılmaz olmuşdur yollar gözümdə.
Bu ağır zəncirə bağlamaq neçin?
Sinəmi zülm ilə dağlamaq neçin?
Palçığa batmışdır sərvin ayağı,
Müşküldür oradan çıxıb qaçmağı.
Bağban necə baxar belə tədbirə
Ki, suyu salmışlar bəndi-zəncirə.
Zəncirə bağlansın gərək o dilbər
Ki, məni bir anda salmış dərbədər.
Bəlkə, ağır-ağır qədəm qoyunca,
Lalə yanağını görüm doyunca!
O bir şimşək kimi çaxıb tez gedir,
Qəlbimi yandırıb tarümar edir.
Taleyim yar olsa, onu saxlaram,
Bu qızıl zəncirlə tutub bağlaram.
Tamaşa edərəm doyunca ona,
Bu qara günlərim yetişər sona.
Nələr danışıram? – O nazlı dilbər,
Ayağına bir toz qonarsa əgər,
Çulğayar canımı dağ kimi möhnət,
Şadlığa, sevincə qalaram həsrət.
Razı olarammı qəm-qüssə etsin?
Gül tək ayağını zəncir incitsin?
Bu cür aşiqanə əfsanələrdən,
Birisi hədəfə tuş dəydi birdən.
Yarıldı sinəsi haman yaradan,
Yıxıldı, necə bir yaralı ceyran.
Bir zaman dünyadan qaldı bixəbər,
Az sonra özünə gəldi o dilbər.
Divanə könlünə tabe olaraq,
Başladı çalmağa yenə əl-ayaq.
O gah ağlayırdı, gah da gülürdü,
Bir an dirilirdi, bir an ölürdü.
Haldan-hala düşüb hər ləhzə, hər an,
Tam bir il bu halla yaşadı canan.

ZÜLEYXA ÜÇÜNCÜ DƏFƏ YUSİFİ YUXUDA GÖRÜR. ADINI VƏ YERİNİ BİLİR VƏ AĞLA GƏLİR

Gəl, ey eşq, işlərin çox qarışıqdır,
Peşən gah savaşmaq, gah barışıqdır!
Gah ağıllıları dəli edirsən,
Gah da divanəyə ağıl verirsən.
Gözəllər zülfünü zəncir edərək,
Aqili bağlarsan divanələr tək.
O zülfün bəndini açdığın zaman,
Ağıl çırağına nur gələr ondan.
Züleyxa bir gecə səbrü qərarsız,
Qəmlə həmdəm idi özü qəmxarsız.
Başına çəkirdi möhnət camını,
Almışdı əlindən eşq aramını.
Ənbər saçlarını qəmdən yolurdu,
Ah ilə başına kül sovururdu.
Düşdü üzü üstə qara torpağa,
Torpağı döndərdi gül üzü bağa.
Tökdü nərgizindən qanlı yaşları,
Süsən tək dil açıb, andı dildarı.
Qəlbindən qəm teli bağladı saza,
Yar ilə başladı razü-niyaza.
Dedi: – Ey səbrimi qarət edən yar,
Pərişan könlümdə qoymayan qərar!
Mənə qəm gətirdin, qəmxar olmadın.
Könlümü ovladın, dildar olmadın,
Deyərdim, gülərdim, yaşayardım şən.
İndi zəncirinə bağlanmışam mən!
Adını bilmirəm, çağırım, barı,
Yerini bilmirəm, axtarım yarı!
Qönçə tək o qədər qan yedim qəmdən,
Axırda gül kimi çıxdım hərəmdən.
Demirəm, gözündə əziz bil məni,
Özünə bir yazıq kəniz bil məni.
Kənizin könlünü lütfünlə qıl şad,
Möhnət zindanından gəl, elə azad!

Mənim tək bağrı qan olmasın heç kəs,
Məni rüsvay etdi bu eşqi-həvəs.
Dünyaya sığmayır anamın qəmi,
Atama güldürdüm bütün aləmi.
Məni tərk etdilər pərəstarlarım,
Yalqızlıq qəmilə keçir rüzgarım.
Canımı bir çöp tək saldım odlara.
Kimsəsiz mən hara, yanar od hara?
Danışıb könlüylə şivən qopardı,
Nəhayət, o gülü yuxu apardı.
Gözü məst olunca yuxu camından,
Gəldi yuxusuna yenə də canan.
Nə qədər gözəldi camalı, bilsən,
Vəsfində daha söz tapmayıram mən.
Tutdu ətəyindən Züleyxa yavaş,
Tökdü ayağına gözdən qanlı yaş.
Dedi: – Ey qəlbimi möhnətə salan,
Bu ağlar gözümdən yuxunu alan!
Səni o xaliq ki, yaratmış səni,
Hər iki dünyada ucaltmış səni,
Azalt könlümdəki qəmi, qubarı
Adını, yurdunu aç, söylə, barı!
Dedi: – Təkcə bunu arzu edirsən?
Qoy deyim, Misirdə yaşayıram mən.
Məni əziz tutar Misir sultanı,
O mənə vermişdir şövkəti, şanı.
Züleyxa elə ki ünvanı bildi,
Elə bil, yüzillik ölü dirildi.
Dinlədi yarını o nazlı afət,
Başına huş gəldi, canına qüvvət.
Yuxuda taleyi ona oldu yar,
Divanə yatmışdı, oyandı huşyar.
Tutunca sevdiyi o aydan xəbər,
Yenidən ağıllı oldu o dilbər.
Çağırdı, kənizlər gəldi hər yandan,
Dedi: – Qəm yükünü atın boyundan.
Aparın atama bu xoş müjdəni,

Silin xatirindən qəmi, qüssəni.
Deyin ağlım, huşum gəlmiş yerinə,
Qurumuş arxıma su gəlir yenə.
Gəl, qızıl zənciri aç ayağımdan,
Daha divanəlik etmərəm, inan!
Qoyma ayağımı qalsın zəncirdə,
Öz əlinlə gəl aç, bağlama bir də.
Bu müjdə atanın könlünü açdı,
Az qala başından huşu da qaçdı.
Özünü bir vurğun kimi itirdi,
Nəhayət, o nazlı sərvə yetirdi.
Gümüş ayağından açdı ilanı,
Zəncirdən qurtardı sərvi-rəvanı.
Önündə torpağa düşüb dayələr,
Qızıl taxta onu dəvət etdilər.
Naz ilə əyləşdi taxt üstə canan,
Başına tac qoydu xalis qızıldan.
Pərilər onunla həmxanə oldu,
O şəmin başına pərvanə oldu.
Yaşıdlarla məclis qurdu o dilbər,
Tuti tək ləbindən axıtdı şəkər.
Başladı söhbətə, dodağı qaçdı,
Bir çox ölkələrdən söz-söhbət açdı.
Hekayə söylədi Rumdan, Həbəşdən,
Misrin adını da çəkirdi bəzən.
Elə ki, Misirdən başlandı söhbət,
Əzizin də adı çəkildi xəlvət.
Bu adı dilində edincə əzbər,
Sayə tək torpağa düşdü o dilbər.
Gözündən sel kimi axıtdı qanı,
Göylərə yüksəldi ahı, fəğanı.
Sanki bütün aləm çıxdı yadından,
Gah yardan danışdı, gah diyarından.
Yalnız yar sözünü edərdi təkrar,
Başqa söz ağzına almazdı zinhar!

QONŞU PADŞAHLAR ZÜLEYXAYA ELÇİ GÖNDƏRİR VƏ ZÜLEYXA ÜMİDSİZLİKDƏN SARSILIR

Züleyxa solsa da eşq dərdindən,
Aləm danışırdı gözəlliyindən.
Söz düşsə hər yerdə hüsnündən onun,
Dinləyən hər kəsi edərdi məftun.
Şahlar məclisinə qovğa salardı,
Sevdası şahları əsir alardı.
Vəsl ümidiylə hey zaman-zaman,
Elçilər gələrdi bir çox diyardan.
Züleyxa əl çəkib divanəlikdən,
Ağıllı bir dilbər oldu yenidən.
Başladı gəlməyə elçi karvanı,
Şamın padişahı, Rumun sultanı.
Ona elçi gəldi tamam on nəfər,
Calal dərgahına dəxil düşdülər.
Birisi keçirdi mülkü-malından,
Biri göstərirdi möhri-Süleyman.
Vəslinə yetməkçin başqa hökmdar,
Bütün ölkəsini edirdi nisar.
Hər yerə üz tutsa o dilbər ancaq
Təxtü-tac, səltənət onun olacaq!
Hər hansı ölkəyə getsə Züleyxa,
Önündə tacidar düşər torpağa.
Şamda bir ay kimi tutarsa aram,
Xalq ona baş əyər hər səhər, axşam.
Əgər Rum elini edərsə qəbul,
Rumlular önündə olacaqdır qul.
Hər elçi danışır bir şah adından,
Qasiddir hərə bir dərgah adından.
Züleyxa eşitcək bu həngaməni,
Əhvalı pozuldu, əsdi bədəni.
Söylədi: – Misirdən yoxdurmu gələn?
Misirli eşqində xar olmuşam mən.
Mənim könlüm ancaq Misrədir mayil.
Misirdən gəlməmiş elçi, nə hasil?!

Yarın diyarından bir külək əssə,
Misrin torpağını gözümə səpsə,
Yüz dəfə xoşdur o külək, mənimçin
Ki, Çindən gətirər ətrini mişkin.
Atası çağırdı elə bu zaman,
Oturtdu önündə şən və mehriban.
Dedi: – Ey gözümün işığı olan,
Sənինlə xatirim şadlanar hər an.
Şahlar ki, hər biri bir tacidardır,
Dünyada şöhrəti, izzəti vardır.
Hüsnündən almışdır ürəkləri dağ,
Hamısı axtarır vəslindən soraq.
Hər biri göndərmiş elçilər bizə,
Ümid əli atmış ətəyimizə.
Deyim hər elçidən bir dastan sənə,
Tanış ol, fikrini aç, söylə mənə.
Hər hansı ölkəni tutarsa könlün,
Orada tutular toyun, düyünün.
Ata danışırdı, o susur ancaq
Könlündə yaşayır başqa bir maraq.
Xoşdur qulaq asmaq söhbətə əgər,
Danışan verərsə yardan bir xəbər.
Bir çox ölkələrdən söz açdı ata,
Lakin Misri qəti salmadı yada.
Anladı ətrafda elçilər çoxdur,
Ancaq ki, Misirdən istəyən yoxdur.
Ata söhbətindən ümidi kəsdi,
Qəlbi yarpaq kimi titrəyib əsdi.
Qalxdı, qan-yaş doldu şəhla gözünə,
Qəlbində deyirdi özü-özünə:
– Niyə məni doğdu anam, ilahi?!
Süd verib, söylədi “balam” ilahi!
Bilmirəm, nə tale sahibiyəm mən?
Yüz bəla çəkirəm öz taleyimdən!
Dənizdən bir bulud qalxarsa əgər,
Sirab olsa ondan bütün təşnələr,
Bir içim istəsəm mən də o sudan,

Su deyil, başıma yağdırar al qan!
Məndən nə istəyir, bilmirəm, fələk?
Deyirəm, ey fələk, yaxamdan əl çək!
Əgər istəmirsən, mən görüm yarı,
Onu etinasız gəl etmə, barı!
Mənim ölümümü istərsən əgər,
Hazıram ölməyə, bu baş, bu xəncər!
Əgər istəyirsən, qəm çəkməyim mən,
Qəlbimdə qəm dağı yaratdın nədən?
Saman dağ altında nə qədər dözər?
Bir çöp qəm selində nə qədər üzər?
Qəlbimdə zülmündən yüz yara vardır,
Rəhm qıl ki, ömür bietibardır.
İstər mən şad olum, istərsə qəmgin,
Günüm acı olsun, ya da ki şirin,
Sənə nə dəxli var, nəçiyəm, kiməm?
Əlimdən nə gələr, nəyə qadirəm?
Əgər yüz xərməni versələr yelə,
Bir arpa zərərin olarmı söylə?!
Minlərlə gülləri veribsən bada,
Soldurub, öldürüb, salmısan oda.
Züleyxa ağlardı hər gün, hər gecə,
Qəlbi qanla dolu, sanki, bir qönçə.
Göz yaşı axıdıb, matəm qururdu,
Başına yüzəlli kül sovururdu.
Atası gördü ki, işi yamandır,
Misir sevdasıyla ürəyi qandır.
Şahanə xələtlər hazırlayaraq,
Elçiləri başa saldı bir sayaq,
Dedi: Qızım üçün hələ əvvəldən,
Misrin Əzizinə söz vermişəm mən.
Ağıl sahibləri çox yaxşı bilir,
Hər işdə qələbə birincinindir.
Məşhurdur aləmdə bu gözəl məsəl:
Meyvəni qoparar tez uzanan əl.
Elçilər ayrılıb vida etdilər,
Əliboş, naümid çıxıb getdilər.

ZÜLEYXANIN ATASI MİSİR ƏZİZİNİN YANINA ELÇİ GÖNDƏRİR, ZÜLEYXA EŞQİNİ ONA BİLDİRİR VƏ ƏZİZ ONU QƏBUL EDİR

Qəmdən Züleyxanın qəlbi dağlıydı,
Ümid qapıları ona bağlıydı.
Olar hər gecənin nurlu gündüzü,
Qara günlülərin gülərmi üzü?
Ata gördü, qızı gedir əlindən,
Əlacı mümkündür Misir elindən.
Qərara gəldi ki, arif bir insan,
Misirdə bu dərdə axtarsın dərman.
Misrin Əzizinə salam yetirsin,
Züleyxadan ona işarə versin.
Ağıllı dostlardan seçdi bir nəfər,
Tərifə layiqdi ondakı hünər.
Qiymətli töhfələr verərək ona,
Göndərdi Əzizi-Misrin yanına.
Sifariş etdi ki, ey böyuk insan,
Sənin astananı öpər bu dövran.
Həmişə Allahdan istəyirik biz,
Əzizsən, olasan gün-gündən əziz!
İsmət pərdəsində bir günəşim var,
Ayın ciyərinə nur saçan nigar.
Məqamı ucadır ulduzdan, aydan,
Kölgəsin günəş də görməmiş, inan!
Sədəfdə incidən safdır o dilbər,
Hüsnü cilvələnsə, ulduzlar sönər.
Qorxar ki, ulduzlar görər üzünü,
Aya baxanda da örtər üzünü.
Təkcə güzgü onun üzünü görmüş,
Zülfünü tək daraq darayıb hörmüş.
Kimsə ayağına qoymamışdır baş,
Təkcə zülfü düşər ayağa birbaş.
Həyətdə gəzərkən o zaman-zaman,
Ətəkləri öpər ayaqlarından.
Bəzək görməmişdir onun yanağı,

Neyşəkər dadmamış şəkər dodağı.
Onunçun gizlənər camalı güldən
Ki, gül rüsvaylıqla çıxmış pərdədən.
Nərgiz şərab içər, yada göz vurar,
Odur ki, o gözəl nərgizdən qaçar.
Kölgəsi yanınca getməsin deyə,
Ay, Günəş çıxarkən, çıxmaz küçəyə.
Suda əks etməsin deyə surəti,
Sevməz bulaq üstə sözü, söhbəti.
Daim pərdədədir, evdə oturur,
Pərdə xaricində yüz büsat qurur.
Bütün şahlar olub hüsnünə aşiq,
Görməz o kimsəni eşqinə layiq.
Rumdan Şama qədər tac sahibləri,
Bağrı qan olmuşdur, lakin o pəri,
Kimsəyə baş əyməz məğrur duraraq,
Bircə Misr elinə meyli var ancaq.
Rumdan söz düşəndə qəlbi sıxılar,
Rumlu şum[1] yaranmış, deyir o nigar.
Söyləsən, yanında yaxşı yerdir Şam,
Deyər: Gündüzü də görünər axşam.
O tapar təsəlli Misrin adiylə,
Misr üçün göz yaşı dönmüşdür Nilə.
Bilmirəm, bu işə nə olmuş səbəb?
Misirdən o gözəl nə edir tələb?
Bəlkə də, torpağı o yerlərdəndir,
Qisməti, ruzusu o ellərdəndir?
Qəbul etsən əgər, eylə xəbərdar,
Göndərim, yanına gəlsin o nigar.
Hüsnüylə verməzsə evinə bəzək,
Bir qaravaş olub, ev süpürəcək.
Misrin Əzizinə çatcaq bu xəbər,
Onun sevincini tutmadı göylər.
Dedi: Məndə hanı elə ləyaqət
Ki, belə bir işə edim cəsarət?

[1] Şum – uğursuz

Şah məni torpaqdan qaldırır deyə,
Yeri var ki, başım yüksələ göyə.
Mən o torpağam ki, uca buluddan,
Üstümə çilənir lütf ilə neysan.
Yüz dilim olsa da, necə bir süsən,
Acizəm, bu lütfün təşəkküründən.
Şah mənə mərhəmət qılırsa izhar,
İtaət edərəm bəxtim olsa yar.
Başım ayaq olar, gözlərim başmaq,
İstərəm, baş üstə murada çatmaq.
Lakin Misir şahı o ulu sultan,
O qədər xidmətə vermişdir fərman,
Bir saat yanından gedərsəm əgər,
Qılıncla başımı bədəndən üzər.
Şah mənim üzrümü qəbul edərək,
Məndən inciməsin, əfv etsin gərək.
Əgər razı olsa, xalis qızıldan,
İki yüz kəcavə bəzərəm, inan!
Qoşaram minlərlə incəbel kəniz,
Ayüzlü, sərvboy, şirindil kəniz.
Qullar göndərərəm gündən işıqlı,
Behişt hurisindən çox yaraşıqlı.
Dodaqları şirin, dilləri şəkər,
Bellərində xalis qızıldan kəmər.
İpəkdən, xaradan arxalıq, papaq,
Qızıl yəhər ata minərlər ancaq.
Kənizlər günəşdən xələt geyərlər,
Huri libasında görünər bəşər.
Ayın üzərində bəzəyərlər tağ,
Mişk ilə örtülər hər bir gülyanaq.
Qərq olar hamısı zərə, gövhərə,
Qızıl kəcavədə oturar hərə.
İstənilən qədər alim insanlar,
Dövlətin dayağı olan əyanlar,
Göndərim, o gülü böyük minnətlə,
Misrə gətirsinlər nazla, izzətlə.
Elçi bu sözləri eşitcək həmən,

Öpərək Əzizin qədəmlərindən,
Dedi: – Ey bu Misrə izzət bəxş edən,
Bizim ellərin də əzizisən sən.
Var bizim şahın da şəni, şövkəti,
Az deyil kimsədən onun dövləti.
Gəlməz kənizləri, qulları saya,
Hüsndə rəqibdir hər biri aya.
Onun xidmətində amadə duran,
Çoxdur ağacların yarpaqlarından.
Çöldəki qumlardan çox ləl, mərcan,
Səxavətli əli vermişdir ehsan.
Razılıq istərdi o səndən ancaq
Bil ki, cavabından razı qalacaq.
O şirin meyvənin həsrətindəsən,
Tezliklə göndərər, xatircəm ol sən.

MİSİR TƏRƏFDƏN QƏBUL NƏSİMİ ƏSİR VƏ ZÜLEYXA KƏCAVƏSİNİ GÜL QÖNÇƏSİ KİMİ O ÖLKƏYƏ APARIR

Misirdən qayıdıb, elçi gəldi şad,
Qıldı Züleyxanı möhnətdən azad.
Ona Əzizindən xoş xəbər çatdı,
Qüssəni unutdu, dərdini atdı.
Gül açdı taleyi, sanki oldu yaz,
Bəxtinin quşu da elədi pərvaz.
Yuxudan qonmuşdu qəlbinə məlal,
Açdı düyününü şadlıqla xəyal,
Bəli, hər yerdə ki şadlıq, ələm var,
Ya xəyaldan, ya da yuxudan doğar.
Yuxudan, xəyaldan azad bir könül,
Həyatın yükünü hiss edər yüngül.
Züleyxanı görcək atası xoşhal,
Cehizlər seçməyə başladı dərhal.
Toy üçün ayırdı minlərlə pəri,
Rumlu dilbərləri, rus gözəlləri.

Hamı püstə ağız, məmələri nar,
Üzləri gül ilə bəzənmiş gülzar.
Telləri salmışdır sayə yanağa,
Qara hörükləri sığmaz qucağa.
Vəsmə qaşlarına salmamış kölgə,
Yoxdur üzlərində ənlikdən ləkə.
Ənbərlə lalənin qəlbini yaxmış,
Qulağa incidən sırğalar taxmış.
Minlərlə işvəli, qəmzəli qullar,
Fitnələr törədən igid oğullar,
Kəc qoyub ləldən başlara papaq,
Mişk saçlarını yan darayaraq.
Papaqlar altından görünür kəkil,
Sanki bəzəmişdir laləni sünbül.
Hər biri geyinmiş ipəkdən paltar,
Qönçə kimi nazik, neyşəkər tək dar.
İncə bellərində qızıldan kəmər,
Hər tükdən asılmış vurğun ürəklər.
Min at seçdi, hamı gözəl, xoşəndam,
Çapanda yel kimi, duranda aram.
Çovqanla vurulan topdan qıs-qıvraq,
Ot üstündə axan sudan yumuşaq.
Sağrısına kölgə düşsə qamçıdan,
Məşriqdən məğribə sıçrayar haman.
Səhrada bir vəhşi gur kimi süzər,
Dəniz dalğasında qu kimi üzər.
Dırnağı möhkəmdir çaxmaq daşından,
Quyruğu yanında heçdir xizəran[1].
Uca dağ önündə yorulub qalmaz,
Heç zaman fərmandan çıxıb, baş almaz.
Min dəvə ayırdı hamısı cavan,
Qaragöz, qaradiz, hərə bir ceyran.
Hərəsi tərpənən sütunlu bir dağ,
Nə qədər yol getsə, bilməz yorulmaq.
Hamısı zahidlər kimi az yeyən,

[1] Xizəran – düz və möhkəm ağac növü

Möhnətə qatlaşan, şükür eyləyən.
Təvəkküllə keçən yüz biyabanı,
Gül kimi çeynəyən quru tikanı.
Uzaq səhralarda yemsiz, yuxusuz,
Zənglərin səsiylə keçən qorxusuz.
Hədiyyə bağladı yüz dəvə yükü,
Hər yükü alardı böyük bir mülkü.
Rum eli, Misir, Şam ipəklərindən,
İki yüz məfrəci doldurdu həmən.
Xəznədən yaqutla ləli taladı,
İki yüz sandığa gövhər qaladı.
Ənbərlə əbirdən[1] yüklər tutaraq,
Hər yerdə düşərgə salsaydı sarvan.
Mişklə doldurub iki yüz tabaq.
O yer seçilməzdi Çin səhrasından.
Atanın əmriylə Züleyxa üçün,
Kəcavə quruldu otaqdan üstün.
Pərdələr asdılar sünbüllə uddan,
Lövhələr asdılar qızıldan hər yan.
Səqfi minalandı Cəmşid çətri tək,
Qızılla verdilər üstünə bəzək.
Mirvari asmalar, qızıl mismarlar,
Bayırında parlar, içində parlar.
Yüz bəzək vurdular zərü-zibadan,
Pərdələr atlasdan, fərşlər dibadan[2].
Züleyxa əyləşdi onda şadman,
Oldu Misrə tərəf naz ilə rəvan.
Necə bir gül uçar yaz küləyindən,
Çaparaq gedirdi o nazikbədən.
Hər yeri o sənəm etdikdə mənzil,
İrəm gülşənini qılardı xəcil[3].
Qullar atlarını salıb cövlana,
Kənizləri cilvə saçır hər yana.
Hər kəniz zülfünü tor kimi qurar,

[1] Əbir – Şərqdə geniş yayılmış ətir
[2] Diba – ipək parça növü
[3] Xəcil – xəcalət çəkən

Bir qulu o torda edər giriftar.
Hər qulun naz oxu səf yara-yara,
Açar bir kənizin bağrında yara.
Bir yanda dilbərlik, işvə, qəmzə, naz,
Bir yanda aşiqin könlündə niyaz.
Minlərlə sevilən, minlərlə sevən,
Yüz işvə satan var, yüz könül verən.
Belə gedirdilər mənzilbəmənzil,
Misrə yaxınlaşır hər gündə məhmil[1].
Züleyxa bəxtindən razı qalaraq,
Misrə tez çatmağı istərdi ancaq.
Deyərdi: Könlümü tərk edər kədər,
Bu hicran gecəsi tez olar səhər.
Bilməzdi, o gecə hələ tul tapar,
Ondan sübhə qədər yüzillik yol var.
Getdilər hey gecə-gündüz bilmədən.
Misrin sərhədinə çatdılar həmən
Bir nəfər qasidə verildi fərman,
Atını çaparaq ötsün karvandan.
Qasid bir quş kimi açaraq şəhpər,
Misrin Əzizinə yetirdi xəbər.
Dedi: – Qalx ayağa, dayanmaq olmaz,
Hazırlaş etməyə taleyi pişvaz.
Bu müjdə Əzizi-Misrə çatınca,
Elə bil, dünyanı verdilər ona.
Misrin hər yerində carçı çəkdi car
Ki, pişvaza çıxsın bütün ordular!
Xəbər yetirdilər elə, obaya,
Hər kəsin nəyi var, qoysun ortaya.
Əsgərlər bəzənsin zərə, zivərə,
Qərq olsun hamısı dürrə, gövhərə.
Yüz min qul seçilsin igid, qəhrəman,
Hamısı gülüzlü, aybəniz, cavan.
Hər yəhər üstündə bitsin bir ağac,
Qullar başlarına qoysun qızıl tac.

[1] Məhmil – karvan

Kənizlər yeddişər düzəltsin dəstə,
Hamısı otursun kəcavə üstə.
Misir gözəlləri şirin dil ilə,
Pişvaza çıxsınlar dəstə gül ilə.
Xanəndə məclisə gəlsin sazıyla,
Açsın könülləri xoş avazıyla.
Udun qulağını ud çalan bursun,
Ruhları oxşayan bir məclis qursun!
Yüksəlsin göylərə neyin nəvası,
Çalınsın ruhverən vüsal havası.
Canda qəm odunu söndürsün rübab,
Kamança qoymasın ürəklərdə tab.
Qoşsun öz səsini bu sədaya dəf,
Yürüsün rəqs ilə canana tərəf.
Belə bir cəlalla çıxdılar yola,
Nə kədər yol tapdı, nə qubar yola.
Ay kimi bir neçə mənzil getdilər,
Gözəllər günəşi aya yetdilər.
Uzaqdan göründü böyük bir karvan.
Parlardı minlərlə qübbələr nurdan.
Karvan nəhayətsiz buluda oxşar,
Buludda jalə tək ulduz sayrışar.
Yüksəldi mərkəzdə uca barigah,
Gözəllər səf çəkdi, düzüldü sipah[1].
Əziz gəlib endi şahanə atdan,
Yol aldı çadıra tərəf şadman.
Çıxıb qarşısına elliklə hərəm,
Öpdü ayağını gözəllər o dəm.
Söylədi hamıya: – Salam, mərhaba!
Üzlər gülümsədi, şad oldu o da.
Hal-əhval soruşdu hər kəsdən Əziz,
Dedi: – Yoruldunuz, zəhmət çəkdiniz.
Bu zaman sevdiyi gözəl şeylərdən,
Varını bəxşişə başladı həmən.
Qullar bağışladı gülüşü şəkər,

[1] Sipah – qoşun

Başda qızıl tacı, belində kəmər.
Yəhəri qızıla tutulmuş atlar,
Quyruq və yalında cəvahiratlar.
Dağ qədər yun parça, dağ qədər ipək,
Bəxş etdi cəvahir o ətək-ətək.
Misir şirnisini tay-tay qaladı,
Sərin şərbətlərlə çölü suladı.
Bəzədi səhranı nazü-nemətlə,
Gəlib üzr istədi o mərhəmətlə.
Dedi: – Sabah yola çıxacaq karvan.
Döndü mənzilinə gül kimi xəndan.

ZÜLEYXA ÇADIR DEŞİYİNDƏN MİSİRİN ƏZİZİNİ GÖRÜR VƏ ALDANDIĞINI BİLİB FƏRYAD QOPARIR

Hoqqabaz ruzigar, bu qoca fələk,
Görək nə yol ilə quracaq kələk.
O gah ümid ilə yaşadır bizi,
Gah qəmə döndərir sevincimizi.
Muradı göstərir bizə uzaqdan,
Edir könlümüzü nakamlıqla qan.
O zaman ki, çatıb Misrin Əzizi,
Nemətə qərq etdi qulu, kənizi.
Züleyxa çadırda öz dayəsilə,
Məşğuldu söhbətə yüz həvəs ilə.
İstərdi yarını görsün yaxından,
Dedi: – Ey qəmxarım olan dayə can!
Daha qalmamışdır könlümdə qərar,
Yarı görməyimə bir çarə axtar!
Qonşuluqda olsa vəfalı canan,
Aşiqin könlündə qalarmı tavan?
Bir susuz, bulağa çatarsa əgər,
Ağzı islanmazsa, yanğından ölər.
Züleyxanı görüb halı pərişan,
Dayə tədbir üçün çıxdı çadırdan.

Çadırın dövrünə-bərinə qaçdı,
İynə gözü boyda bir deşik açdı.
Züleyxa bayıra baxdı oradan,
Ah çəkdi, qəlbindən qopdu bir tufan!
Dedi: – Vay, qəribə işə düşdüm mən,
Divarım yıxıldı, ev hörülmədən.
Bu mənim gördüyüm o cavan deyil,
Ağlımı başımdan aparan deyil!
Bu deyil yuxuda gördüyüm afət,
Boş yerə bu qədər çəkdim əziyyət!
Əfsus ki, taleyim yenə də döndü,
Səadət ulduzum üfüqdə söndu.
Mən xurma əkdimsə, barı xar oldu,
Gözlədiyim rütəb[1] zəhrimar oldu.
Xəzinə uğrunda çəkdim çox zəhmət,
Qismətim əjdaha oldu, nəhayət!
Gülün ətri üçün çıxdım gülşənə,
Tikan nizəsini batırdı mənə.
Bir içim su üçün ciyərim ətşan,
Qumlu bir səhrada qaçıram hər yan.
Dilim susuzluqdan od kimi qızar,
Dodağım olmuşdur çat-çat, qan sızar.
Uzaqdan görünür gözümə bulaq,
Yıxıla-yıxıla gedirəm, ancaq.
Görürəm orada sudan yox əsər,
Quru şoranlıqdır bütün o yerlər.
Dağda libasımı verərək əldən,
Qəm dağı altında gizlənmişəm mən.
Daş dəymiş ayağım qabar-qabardır,
Nə getmək, nə durmaq qüdrətim vardır.
Qanlı gözlərimə görünür bəzən,
Dumanlı bir xəyal itirdiyimdən.
Gedirəm ki, çatım ona nagəhan,
Bəxtimdən olur bir yırtıcı aslan,
Dənizdə gəmimi daşa vurmuşam,

[1] Rütəb – yaş xurma

Bir taxta üstündə lüt oturmuşam.
Alıb ağuşuna məni dalğalar,
Aşağı, yuxarı atıb çalxalar.
Bir qayıq görünər gözümə birdən,
Nicat ümidilə sevinərəm mən.
Elə ki yaxına gələr bir qədər,
Görərəm nəhəngdir, mənə qəsd edər.
Yoxdur mənim qədər bədbəxt dünyada,
Kimsə mənim kimi düşməmiş oda.
Canan həsrətində gözü yaşlıyam,
Əlləri qoltuqda, başı daşlıyam.
Üzümə bir qapı gəl aç, ey fələk!
Allah xatirinə, yaxamdan əl çək!
Mənə yetirməsən sevdiyim yarı,
Əğyar didarıyla incitmə, barı!
Qəlbən sevdiyimlə bağladım peyman,
Səy ilə qoruyum xəznəmi hər an.
Rəva görmə mənə dərdi, ələmi,
Əjdaha əlinə vermə xəznəmi.
Ağlayıb sızladı bir xeyli zaman,
Axıtdı kirpikdən üzünə al qan.
Qopdu sızıltılar saf ürəyindən,
Üzünü torpağa sürtürdü qəmdən.
Bəxtin uçan quşu geri dönərək,
Səslədi qeybdən onu bir mələk;
– Ey yazıq, üzünü götür torpaqdan,
Bu müşkül edəcək işini asan.
Muradın bu Misrin Əzizi deyil,
Lakin onsuz olmaz muradın hasil!
Onunla yarını tapacaqsan, sən,
Onsuz yar vəslinə çata bilməzsən.
Onun ülfətindən qorxma, ey nigar
Ki, ismət qıfılın səlamət qalar.
Ondakı açarın dişi mumdur, mum!
Açar ki, mumdandır, hünəri məlum!
Gövhərin dərdini niyə çəkirsən,
Almaz işi gəlməz mumun əlindən!

Əlinə iynə yox, bir çöp götürsə,
Bəxiyə vurarmı dərzi ətləsə?
Paltarın yengində əl yoxsa əgər,
Boş paltar heç vura bilərmi xəncər?
Züleyxa elə ki bunu eşitdi,
Şükr üçün torpağa səcdəyə getdi.
Tərgidib naləni, ahı, fəğanı,
Qönçə tək bağrında gizlətdi qanı.
İntizar gözünü dikərək yola,
Gözlədi müşkülü, özü həll ola.

ZÜLEYXA MİSİRİN ƏZİZİ İLƏ BİRLİKDƏ MİSİRƏ GƏLİR VƏ MİSİRLİLƏR ONU QARŞILAYIB, BAŞINA TABAQ-TABAQ CƏVAHİR SƏPİRLƏR

Qızıl təbli döydü fələkdə səhər,
Gecə yolçuları köçüb getdilər.
Oldu ulduzların büsatı bərhəm,
Köçdülər fəzadan gecəylə bahəm.
Günəş yer üzünə qızıl ələdi,
Nurunu çəmənə, bağa çiləndi.
Tavus quyruğutək al-əlvan çəmən,
Tuti qanadına çevrildi birdən.
Gəldi Misir Əzizi ehtiram ilə,
Oturtdu o gülü qızıl məhmilə.
Əmr etdi düzülsün sıraya qoşun,
Alsın o məhmili araya qoşun,
Hər başa açılsın bir qızıl çətir
Ki, həm sayə salsın, həm saçsın ətir.
Hər çətir altında daş-qaşlı yəhər,
Taxt olsun, əyləşsin onda bir dilbər.
Yollansın çətirlər, kölgələr, təxtlər,
Otursun məhmildə bütün xoşbəxtlər,
Çalıb oxuyanlar başladı sözə,
Sarvanlar karvanı çəkdilər düzə.
Yüksəldi zəng səsi fələkə birbaş,

Göylər tabaq-tabaq yağdırdı şabaş.
Yürüyüb keçdikcə atlar, dəvələr,
Hilalla, bədrlə doldu o çöllər.
Gah o yan-bu yana çapıldı atlar,
Hilal bədr üzünə hey çəkdi çatar;
Gah da bədrin bəxti elə gətirdi
Ki, hilal onunla qədrin itirdi.
Yeri yaraladı atın dırnağı,
Ona məlhəm oldu dəvə ayağı.
Ahular məst oldu bu cah-calaldan,
Atların ayağı boş qaldı naldan,
Gözəllər dincəlir kəcavələrdə,
Sarvanlar səslənir hey pərdə-pərdə.
Şad idi onunla gələn kənizlər
Ki, hicran dərdini atmış o dilbər.
Sevinir Əzizin yaxın dostları
Ki, belə bir gözəl olmuş dildarı.
Züleyxa qəmgindi kəcavəsində,
Dağ qədər möhnəti var sinəsində.
Deyir: – Fələk, məni nə günə saldın,
Səbrü-qərarımı əlimdən aldın?
Bilmirəm, nə pislik etmişəm sənə,
Dərdü-qəm, işgəncə verirsən mənə?
Yuxuda könlümü ovladın əvvəl,
Ayıldım, yenə qəm çəkməz məndən əl.
Gah zəncirə çəkib divanələr tək,
Gah da zəncirimi açdın, ey fələk!
Sən ki müşkülümü etmədin asan,
Səhv edib düşündüm, çarə tapansan.
Bilmədim dərdimə edərkən çarə,
Məni salacaqsan eldən avarə.
Mənə yetməzdimi hicran ələmi,
Artırdın üstünə qəriblik qəmi?
Məlhəmin canımı əridirsə, ah!
Can əritməyindən, Allaha pənah!
Tor qurma yolumda, işlətmə kələk,
Səbrin quyusuna daş atma, əl çək!

Şadlıq müjdəsini verirsən yenə,
Çətin ki, taleyim olsun yar mənə.
Züleyxa fələklə edir dərd-dil,
Dedilər ki, budur çatdı Misir, Nil.
Misrin Əzizinə edib ehtiram,
Çıxmışdı pişvaza Misir əhli tamam.
Minlərlə piyada, atlı hər tərəf,
Nilin sahilində durmuşdu səf-səf.
Bir çox tabaqlarda parlayırdı zər,
Başqa tabaqlarda ləl ilə gövhər.
Necə ki, qərq olar qönçəyə gülzar,
Gövhərlər edildi torpağa nisar.
O qədər töküldü gövhər hər yandan,
Kəcavə örtüldü gövhərlə haman.
Örtmüşdü gövhərlə qızıl torpağı,
Torpağa dəyməzdi atın dırnağı.
Nala toxunduqca ləl ilə altın,
Atəş püskürürdü nalı hər atın.
Neçə mil boyunca əhali səf-səf,
Gedirdi sahillə şəhərə tərəf.
Nildə gövhərlərə qərq oldu bütün,
Hər balıqqulağı, hər sədəf o gün.
Çay elə qızılla, gövhərlə doldu,
Nəhəng də balıq tək zirehli oldu.
Şahanə calalla gedərək onlar,
Səadət evində oldu bərqərar.
Nə saray, cənnətlə durur yanaşı,
Ay ilə günəşdi kərpici, daşı.
Bir taxt qoyulmuşdu, hər şeydən əvvəl,
Şahın öz taxtından on dəfə gözəl.
Taxtı bəzəyərkən mahir sənətkar,
Qızıl işlətmişdir bir neçə xalvar.
Züleyxa gələrək bir dilbər kimi,
O taxta əyləşdi bir gövhər kimi.
Ürək dərdi qılmış canını xəstə,
Sanki oda düşdü qızıl taxt üstə.
Başına qoydular bir tac ləldən,

Dedilər: taxtla, tacla cilvələn!
Lakin o ağır tac üzdü cananı,
Sanki dağ altında qalmışdı canı.
Başına səpdilər hesabsız gövhər,
Lakin o, gövhəri sandı qəm, kədər.
Günəşi qibtəyə salan daş-qaşı,
O gözəl sanırdı qanlı göz yaşı.
Hicrandan bir ürək alarsa yara,
Taxt ona görünər bir taxtapara.
Eşqinin yolunda yüz başdan keçən,
Başında tac görsə, heç olarmı şən?
Bir göz ki, axıda həsrətlə qan-yaş,
Baxarmı dünyanı doldursa daş-qaş?

ZÜLEYXA YUSİF FƏRAQINDA GÜN KEÇİRİR VƏ AHU-NALƏ EDİR

Könül bir dilbərlə tutarsa aram,
Özgənin vəslinə heç olarmı ram?
Pərvanə uçarmı günəşə sarı,
Arzusu olmasa şəmin didarı?
Günəşin oduna yanar nilufər,
Çünki o, günəşin vəslini istər.
Bülbülə versən də yüz dəstə reyhan,
Qızılgül eşqiylə edəcək fəğan.
Bir içim su üçün yanana, əlbət,
Xoş gəlməz açasan şəkərdən söhbət.
Züleyxa yaşayır o şən sarayda,
Zər-zivər içində, lakin nə fayda?
Əziz qarşısında qul kimi durmuş,
Onunçün calaldan bir büsat qurmuş.
Pərəstarları var gül kimi incə,
Taqətdən düşürlər o dincəlincə.
Xidmətə hazırdır yüzlərlə kəniz,
Gözəllikdə Aydan, Günəşdən təmiz.
Qullar ipək geymiş bellərdə kəmər,

Həm özü şirindir, həm sözü şəkər.
Yüzlərlə sarayda zənci qullar var,
Hamı mələk kimi şəhvətdən kənar.
Hərəm gözəlləri hərə bir sona,
Təmiz ürəklərlə bağlanmış ona.
Gözəllik timsalı nazlı, nazənin,
Misirli xanımlar ona həmnişin.
Onunla bir yaşda, bir boyda olan,
Gözəllər başına dolanır hər an.
Züleyxa baxmayır yara, əğyara,
Mərhəmət göstərir hər bir nigara.
Zahirdə danışır, zahirdə gülür,
Qəlbində başqa bir yarı düşünür.
Şənlik büsatında şən oturanda,
Dodağı gülərdi, ürəyi qanda.
Dodağı xəlq ilə söhbət edərdi,
Ürəkdən yar deyib, xiffət edərdi.
Heç kəslə deyildi ülfəti möhkəm,
Yar ilə şadlanıb, yarla çəkər qəm.
Zahirdə dostlarla oturub durar,
Batində hamıdan kənar oturar.
Səhərdən axşama bu idi işi,
Dostlarla beləydi onun vərdişi.
Qaranlıq çöküncə gecə Züleyxa,
Ay kimi oturub kimsəsiz, tənha,
Yarın xəyalıyla pərdə qurardı,
Xəlvətdə ah çəkib, hey qan udardı.
Diz-dizə oturub yar xəyaliylə,
Dərdini açardı həsb-hal ilə.
Bağrına basaraq möhnət sazını,
Başlardı yar ilə raz-niyazını.
Deyərdi: – Ey mənim canım, ciyərim,
Mənə söyləmişdin Misirdir yerim.
Demişdin: – Adımdır Misrin Əzizi
Əzizliyi etsin həqq sənə ruzi.
Başımın tacıdır Əzizin adı,
Əzizdir bəxtimin qolu-qanadı.

Misirdə kimsəsiz qəribəm bu gün,
Vəslindən ümidim kəsilmiş bütün.
Mən hicran odunda nə qədər yanım,
Möhnət şəmi kimi daim odlanım?
Eşqimdən umidi kəsmək istərkən,
Bir mələk müjdələr verdi qeybdən.
Mən də o ümidlə hələlik sağam,
Ümidlə yaşayan solğun yarpağam.
Qəlbimdə camalın nəqş olub sənin,
Bir gün vüsalına çataram, yəqin!
Qəmində ağlayır, qızarır gözüm,
Səni hər tərəfdə axtarır gözüm!
Nə olaydı, bir gün yoldan gələrək,
Gözümün bürcündən çıxaydın Ay tək!
Bircə səni görsəm, qalmazdı dərdim,
Toy bəzmi qurardım, şadlıq edərdim.
İndi isə huşumu verərək əldən,
Çox zaman özümü itirirəm mən.
Xəyalın çəkərək aparır məni,
Özümü gəzərkən, tapıram səni.
Sənsən axtardığım iki dünyada,
Səni tapsam, özüm düşmərəm yada.
Bu sözlərlə edib gecəni səhər,
Bir an da yatmazdı o nazlı dilbər.
Səhərin nəsimi əsdiyi zaman,
Başqa bir hekayət başlardı canan.
Deyərdi: – Ey səba, ey əziz külək!
Səməni mişk ilə ətirləyərək,
Sərvə, yasəmənə bəzək verirsən,
Sünbülün telini darayır şanən.
Nə olar, halıma bir nəzər yetir!
Sevdiyim o yardan bir xəbər yetir!
Dünyada mən qədər qəmçəkən yoxdur,
Gözdən yaş yerinə qan tökən yoxdur.
Hicran xəstəsiyəm, dildarım ol, gəl!
Yandım qəm odunda, qəmxarım ol, gəl!
Yoxdur bu dünyada elə bir mənzil

Ki, olsun oraya getməyin müşkül.
Bir evə çəksələr hasar dəmirdən,
Yol tapıb, bacadan evə girərsən,
Yazığam, gəl məni bu dardan qurtar!
Lütf qıl, o itkin yarımı axtar!
Şahların mülkünü gəz qarış-qarış,
Yarımı hər yerdə tapmağa çalış!
Xəbər tut ayımdan hər bir diyarda,
Şahımı soraqlaş çox uzaqlarda.
Hər bağa, bağçaya çalış, sal güzər,
Hər bulaq başına yaxşı sal nəzər,
Gülümü axtar, tap cənnət bağında,
Sərvimi çalış, gör su qırağında.
Lütf ilə qıl Xütən çölünə xuram,
Nigarıstanında, Çinin tut aram!
Onun ətri ilə ahu tora sal,
Bir gözəl şəklini tut ona timsal!
Bu yurdu tərk edib getdiyin zaman,
Keçsən hər dərədən, aşsan hər dağdan,
Bir kəklik çıxarsa qarşına sənin,
Onu xatırlayıb, qucu gərdənin.
Qarşına çıxarsa yolda bir karvan,
Başçısı olarsa gözəl bir cavan,
Süz mənim gözümlə o novcavanı,
Çatdır bu ölkəyə sən o karvanı.
Görüm, bəlkə, odur mənim dilbərim?
Ümid bağçasından bir çiçək dərim.
Səhər keçdi, Günəş çıxdı cövlana,
Yaydı şüasını bütün cahana,
Züleyxa axıdıb qan-yaş gözündən,
Danışdı səbaya yardan, özündən.
Günəş fələklərə verərkən zinət,
Ay kimi məclisə gəldi o afət.
Sədd çəkdi önündə pərəstarları,
Camalı dostların oldu dildarı.
Onları birbəbir təmiz ürəklə,
Deyib danışdırdı minbir diləklə.

Zahirdə xoş gülüb, xoş danışardı,
Bağrında dağ qədər kədəri vardı.
Belə idi halı hər gün, hər gecə,
Dəyişməzdi aylar, illər keçincə.
Darıxanda qəlbi evdə o dilbər,
Gəzməyə çıxardı, hər axşam-səhər.
Görüncə sinəsi dağlı bir lalə,
Ah çəkib, ürəkdən edərdi nalə.
Lalələr görüncə o gül yanağı,
Bilərdilər vardır sinədə dağı.
Bəzən də sel kimi coşaraq həmən,
Nilin kənarında tutardı məskən.
Qəmindən söz açıb quranda matəm,
Göz yaşından Nilə dönərdi aləm.
Gah da dərd əlindən olaraq xəstə,
Çıxıb dayanardı yalqız, yol üstə.
Verərək əlindən ixtiyarını,
Çəkərdi yarının intizarını,
Deyərdi: Günəşə dönəcək Ayım,
Bu yoldan gələcək itkin humayım.
Cami! Gəl hümmətlə əl-ələ verək,
Yusifi Kənandan Misrə gətirək!
Qəlbi Züleyxanın yaman dardadır,
Ümidli gözləri intizardadır.
Daha intizarın çatmışdır sonu,
Yarın vüsalıyla sağaldaq onu.

QARDAŞLARI YUSİFƏ HƏSƏD APARIR VƏ ATALARINDAN ONU AYIRIRLAR

Keçmişdə yaşamış mahir bir ustad,
Edib söz mülkünü bu yolla abad.
Ki, artdı Yusifin getdikcə hüsnü,
Məftun etdi ona Yəqub könlünü.
Başqa oğullardan o göz çəkərək,
Saxladı gözündə onu bəbək tək.

Olduqca gün-gündən ona mehriban,
Qardaşlar həsəddən olurdu buryan.
Onun bağçasında bir ağac vardı,
Öz gözəlliyilə könül açardı.
Abidlər sayağı yaşıl geyinmiş,
Şaxəsi boy atıb, bara bürünmüş.
O ağac yüksəlmiş, sanki göylərə,
Kərəm sayəsini döşəmiş yerə.
Onun hər yarpağı şükr üçün bir dil,
Ağac da olarmı duaya qabil?!
Şaxəsi bir qəsrə bərabər idi,
Üstündə sərçəsi mələklər idi.
Yəqubun hər oğlu olcaq anadan,
Sidrəyə oxşayan yaşıl ağacdan,
O saat təzə bir şaxə baş verər,
Oğlan böyüdükcə, o da böyüyər.
Boy atıb kamala çatdığı zaman,
Əsa götürərdi haman budaqdan.
Yusifin bəxtiydi hamıdan faiq,
Elə bir xoşbəxtə əsa nə layiq?
O bir fidan idi can bağında tək,
Əlinə ağacdan əsa nə gərək?
O qardaşlarından gizli bir gecə,
Dedi atasına, xəlvət görüncə,
– Ey həqqin əzizi, böyük peyğəmbər,
Qolu qılınc kimi qazanan zəfər!
Allah dərgahına get iltimasa,
Göndərsin behiştdən mənə bir əsa.
Cavanlıq çağından ta qocalınca,
Hər yerdə gəzdirim onu yanımca.
Qoy çətin günümdə mənə yar olsun,
İzzətim onunla bərqərar olsun.
Ata əl götürdü həq dərgahına,
Yusifçin yalvardı öz Allahına.
Allahın qasidi endi sidrədən,
Əlində zəbərcəd bir əsa həmən,
Nə ona zamanın baltası dəymiş,

Nə dövran möhnəti qəddini əymiş.
Vəzndə yüngüldü, qiymətdə baha,
Ləkəsiz, eyibsiz, layiqdi şaha.
Dedi: – Bu allahın fəzilətidir,
Şahlığın dayağı, məziyyətidir.
Yusifə o töhfə güc, iman verdi,
Paxıllar həsəddən ölüb can verdi.
Gəlirdi onlara o haqq ağacı,
Vurulan yüz ağac zərbindən acı.
Oturub, düşünüb, fikir çəkdilər,
Ürəyə paxıllıq tumu əkdilər,
Həsəddir insanın başına bəla,
Onları paxıllıq çəkdi pis yola.

YUSİF GÜNƏŞİN, AYIN VƏ ON BİR ULDUZUN ONA SƏCDƏ ETDİYİNİ YUXUSUNDA GÖRÜR VƏ BU YUXU QARDAŞLARININ ONA QARŞI HƏSƏDİNİ ARTIRIR

Xoşbəxtdir gözünü surətdən çəkən,
Gözünü gizlədən yaman gözlərdən.
Qəlbən oyaq olub gözüylə yatan,
Kim görüb, yatarkən ayıq bir insan?
Bu fani aləmə yumub gözünü,
Başqa bir aləmdə görsün özünü?!
Yəqubun yanında Yusif bir gecə
Ki, onu sevirdi can-ciyərincə,
Balışa baş qoyub, rahat yatırdı,
Gülüş ləblərinə şəkər qatırdı.
Güldükcə Yusifin o şəkər ləbi,
Gəldi həyəcana Yəqubun qəlbi.
Nərgiztək gözünü Yusif açanda
Bəxti tək gözündən yuxu qaçanda,
Dedi: – Ey şəkəri xəcalət edən,
Niyə gülüş qopdu şəkər ləbindən?
Dedi: – Yuxu gördüm, Günəş ilə Ay,

On bir parlaq ulduz bir-birinə tay,
Hamısı qarşımda baş əydi mənim,
Səcdəyə gedərək, etdilər təzim.
Ata dedi: – Bəsdir, az danış bir az,
Bu sirri kimsəyə söyləmək olmaz!
Yuxundan tutsalar qardaşlar xəbər,
Sənə yetirərlər ayıqkən zərər.
Səndən min qüssə var ürəklərində,
Rahat qoyarlarmı səni yerində?
Onlar tab gətirməz paxıllığından
Zənnimcə, bu yuxu yozulur asan.
Atanı dinlədi, nə bilsin ancaq
Tədbir zəncirini külək qıracaq.
Yusif yuxusunu dedi birinə,
O da tez çatdırdı hər on birinə.
Bir sirri bilərsə ikicə nəfər,
Düşər dildən-dilə, dünyanı gəzər.
Bir həkim söyləmiş: – İki dodaqdan,
Başını tez verər bada bir insan.
Çox zaman dodaqdan bir sirr çıxmış,
Yüzlərlə igidin evini yıxmış.
Gözəl bir misal var həyatda, yoxla!
"Başını sevirsən, dilini saxla!"
Bir quş etsə əgər qəfəsdən pərvaz,
Tutub bir də onu bağlamaq olmaz!
Qardaşlar bu sirdən oldular qəmgin,
Artdı onlardakı qəzəb, həsəd, kin.
Dedilər: – Atamız düşünər nələr?
Vurur öz əliylə özünə zərər!
Niyə bir uşağa düşübdür meyli,
Uşaq ailədə olmuş tüfeyli.
Bu uşaq deyildir, bəladır, bəla!
Bizimlə düşmənlik edir bərməla[1]!
Özündən toxuyur gündə bir yalan,
Özünü qiymətə mindirir ondan.

[1] Bərməla – aşkar

Ona aldanmışdır bu miskin qoca,
Tutar xatirini hər şeydən uca!
Mehrini kəsmişdir bizdən büsbütün,
Yusifi tutar o hamıdan üstün!
Atamız bu qədər ondan çəkir naz,
Yenə bu calaldan o razı qalmaz.
İstər biz qul olaq, o isə ağa,
Hər gün qarşısında düşək torpağa.
Atamız salarkən ona xoş nəzər,
O, qürurla bizə arxa döndərər!
Gündüzlər səhrada çobanı bizik,
Gecələr evinin pasbanı bizik.
Bizimlə düşməni əzib xar edər,
Bizimlə dostlara iftixar edər.
Bəs onda hiylədən başqa nə görmüş
Ki, ona bu qədər ixtiyar vermiş.
Gəlin başımızın hayına qalaq,
Onu bir yol ilə avara salaq.
Gəlin, biz tədbirlə əl-ələ verək,
Onu bir kələklə evdən itirək.
Şoranlıqda bitsə bir tikan həmən,
O yeri qazmalı, ağac əkmədən.
Oturub bir yerdə tədbir tökdülər,
Əlac tapmaq üçün nəqşə çəkdilər.

YUSİFİ ATASINDAN AYIRMAQ ÜÇÜN QARDAŞLAR MƏSLƏHƏTLƏŞİRLƏR

Çətinliyə düşsə aqil bir insan,
Müşkülünün həlli olmazsa asan,
Başqa ağlı edər öz ağlına yar,
Onun yardımıyla düyün açılar.
Bir şəmin işığı çatmazsa evə,
Yandırar ikinci şəmi əlavə.
Lakin düz adamlar işidir bu iş,
Onlar ki düzlüklə artıb yüksəlmiş.

İki əyri gedən, əyri düşünən
Birləşsə, əyrilik aşar həddindən.
Yusif qardaşları yığılıb bir gün.
Qurdular belə bir tor Yusif üçün:
Birisi dedi: – O işlədir hiylə,
Canını alaq biz məkrin əliylə.
Gərək biz də quraq ona bir kələk,
Rəhmə yol vermədən qanını tökək.
Qurtarmaq istəsən əgər yaxanı,
Çalış, yerə axsın, düşmənin qanı.
Öldürsək, bilin ki, bu sirr açılmaz!
Ölüdən heç zaman çıxmamış avaz!
Digəri dedi: – Bu, insafdan deyil,
Olaq bir uşağın qətlinə mayil.
İstəsək biz ona sədmə yetirək,
Başqa yolları var, neçin öldürək?!
Çalışaq, aparaq şəhərdən kənar,
Ya döyək, ya qoyaq, özü ölsün xar.
Əvvəlcə, ayıraq onu atadan,
Quru bir səhrada qoyaq sərgərdan.
Vəhşilər məskəni elə bir çöl ki,
Hər yanında gəzsin canavar, tülkü.
Olmasın suyu göz yaşından səvay,
Çörəyi sayılsın Günəş ilə Ay!
Kölgəsi gecənin zülməti olsun,
Tikanlar yatağı qisməti olsun,
Orada bir müddət gəzib-dolansın,
Sonra da can verib, gora yollansın.
Bizim xəncərimiz qana batmadan,
Əlindən qurtaraq beləcə asan
Başqası söylədi: – Qətldir bu da,
Canlı bir insanı salırıq oda.
Səhrada ac-susuz qalıb ölməkdən,
Yaxşıdır qılıncla doğransa bədən.
Məsləhət budur ki, çölü axtaraq,
Qaranlıq, darısqal bir quyu tapaq.
Cah-calal taxtından onu endirək,

Zillətlə quyuda bir məskən verək.
Qoy qalsın quyuda yalqız, kimsəsiz,
Ölsə də, qatili sayılmarıq biz.
Bəlkə də, oradan keçdi bir karvan,
Düşərgə salaraq qaldı bir zaman,
Su üçün quyuya dol saldı biri,
Yusifi oradan çıxardı diri.
Yəqin ki, deyəcək tapmışam bir qul,
Yainki edəcək özünə oğul.
Bizim əlimizdən yetmədən xətər,
Özü bu yerlərdən rədd olub gedər.
Quyunu Yusifə görüncə rəva,
Hamısı düşdülər, sanki, quyuya.
Quyunun sirrindən qalıb bixəbər,
Özləri kəndirsiz ora düşdülər.
Ürəkdə ataya kin bağlayaraq,
Qardaşlar yaratdı möhkəm ittifaq.
Hamısı əhd edib, bağladı peyman,
İşə başladılar bir an durmadan.

QARDAŞLAR YUSİFİ ÇÖLƏ APARMAQ ÜÇÜN ATALARINDAN İCAZƏ İSTƏYİRLƏR

Dünyada hər qədər mərd adamlar var,
Əvvəlcə özünü unudar onlar.
Məhəbbət yolunda dönüb torpağa!
Əl atmaz riyaya, hiyləyə əsla!
Yetməz bir kimsəyə onlardan zərər,
Nə də xalq onlara ziyan yetirər.
Çətinlik önündə sarsılmaz onlar,
Ağır yük altında qırılmaz onlar.
Gecələr yatarlar kinsiz, kədərsiz,
Səhər oyanarlar nikbin, zərərsiz.
Yusif qardaşları o səhər tezdən,
Dünənki fikr ilə oyandılar şən,
Dilləri mehriban, sinələrdə kin,

Qanına susamış hamı Yusifin.
Ata hüzurunda gəlib durdular,
Ədəblə diz çöküb, cərgə vurdular.
Elə ki gördülər aranı xəlvət,
Məkr ilə saldılar hər yerdən söhbət.
Keçmişdən, bu gündən və gələcəkdən,
Söz-söhbət açaraq dedilər birdən:
– Evdə oturmaqdan bezmişik yaman,
Seyrə çıxmamışıq bir xeyli zaman.
Lütf edib icazə versəniz əgər,
Tədarüklə çölə çıxarıq səhər.
Gözümüzün nuru o Yusif hələ,
Uşaqlıq çağından getməmiş çölə.
Nə olar ki, o da bizimlə getsə,
Bizim başımızı göyə yüksəltsə?
Keçir ev küncündə gecə-gündüzü,
Darıxır ürəyi, saralır üzü.
Tutarıq əlindən çöldə gəzərkən,
Çiynimizdə keçər dərə-təpədən.
Birlikdə sağarıq süd qoyunlardan,
Şirin süddən içib, olarıq xəndan.
Yaşıl çəmənlikdə oynayarıq biz,
Lalələr içindən yol salarıq biz.
Gedək, lalələri birbəbir üzək,
Tac kimi Yusifin başına düzək.
Kəklik tək qısqıvraq tutub əlindən,
Gəzdirək harada var yaşıl çəmən.
Gedək, sürü-sürü ceyran otaraq,
Canavar görüncə, boynunu vuraq.
Qoy baxıb sevinsin, könlü şad olsun,
Qəlbi qəm-qüssədən bir azad olsun.
Nə qədər nəvaziş görsə də uşaq,
Onu əyləndirən oyundur ancaq.
Diqqətlə dinlədi Yəqub onları,
Sanki ürəyini böldülər yarı.
Dedi: – Aparsanız onu yanımdan,
Munisim qəm olar, həmdəmim fəğan.

Qorxuram edərkən seyr-siyahət,
Onu gözdən qoyub, edəsiz qəflət.
Qanlı bir canavar gələ üstünə,
Dişini qıcıya onun qəsdinə.
Zərif vücuduna yetirə zərər,
Mənim ürəyimə batıra neştər,
Hiyləgər qardaşlar bunu eşitcək,
Ataya gəldilər başqa bir kələk.
Dedilər: – Nə oldu, on bir pəhləvan,
Qorxub, aciz qaldı bir canavardan?!
Canavar nədir ki, şir olsa, əgər
Bizim əlimizdə tülküyə dönər.
Yəqub eşidərkən belə bir sözü,
Üzr gətirməyə qalmadı üzü.
Bəlanı gətirdi öz diyarına,
Yusifi tapşırdı qardaşlarına.

QARDAŞLARI YUSİFİ SƏHRAYA APARIR VƏ ZİLLƏTLƏ ONU QUYUYA SALIR

Fəğan, bu vəfasız fələk əlindən!
Ayı gündə atır bir yerə kindən!
Can çəmənliyində bir maral otlar,
Onu parçalayar zalım canavar.
Paxıllar Yusifi alıb getdilər,
Qurdlar bir quzunu şikar etdilər.
Nə qədər ki, ata baxırdı, onlar
Yusifə məhəbbət edirdi izhar.
Gah biri çiyninə alırdı yerdən,
Digəri bağrına basırdı bəzən.
Birisi silirdi tozu üzündən,
Başqası öpürdü şəhla gözündən.
Elə ki səhraya qoydular qədəm,
Məhəbbət yerinə başlandı sitəm.
Çiynindən saldılar sərt daş üstünə,
Sanki gül atıldı atəş üstünə,

Başmaqlar alındı ayaqlarından,
Gül ayaqlarına mıxlandı tikan.
Gülü utandıran o ayaqlara,
Daş ilə tikandan yetdi min yara.
Oldu ayaqları qanında qəltan,
Döndü laləzara çöllər o qandan.
Elə ki onlardan qalırdı geri,
Vururdu üzünə şillə hər biri.
Kəsilsin o əl ki, qıyar özünə,
Şillə ilə vurar ayın üzünə.
Elə ki keçərdi qabağa bir az,
Qardaşlar vurardı başına qapaz.
İlahi, bağlansın zəncirə o əl
Ki, ondan zərbələr alır bir gözəl!
İstərdi onlarla getsin yanbayan,
Tutub çəkərdilər qulaqlarından,
O əl ki dartardı zərif qulağı,
İlahi, kəsilsin onun barmağı!
Kimin ətəyindən tutub durardı,
O alıb Yusifi yerə vurardı.
Kimin ayağına düşsəydi nalan,
Başı kos olardı o ayaq çovqan.
Yalvarıb, birindən istəsə kömək,
Kömək istədiyi vurardı kötək.
Ümidi kəsildi qardaşlarından,
Gözündən lalə tək axıtdı al qan.
Bulaşdı torpağa, qərq oldu qana,
Dərdü-qəm əlindən gəldi fəğana.
Dedi: – Haradasan, ata can, ata?
Neçin Yusifini duymursan, ata?!
Gəl, oğullarının felinə bir bax!
Gör necə ağılsız, dinsiz olaraq,
Sənin zəhmətini yerə vurdular?!
Qəlbidaş, rəhmsiz, nankor oğullar!
Sənin can bağında bəslənən bir gül,
Ehsan yağışınla süslənən bir gül,
Gör, necə taqətdən düşüb, can verir?

Nə də ki susuzluq bir aman verir.
Ömür bağçasında əkdiyin fidan,
Bəsləyib, nazını çəkdiyin fidan,
Gör, necə kəsilmiş zülmün əliylə,
Sovrulub getmişdir səm küləyiylə?!
O Ay ki gecənin göz işığıydı,
Evinin, obanın yaraşığıydı,
Fələyin əliylə gəlmiş zavala,
Nur üçün əl açır miskin hilala!
Bu halda getdilər üç ağac qədər.
Yusif çox yalvardı, rəhm etmədilər.
Bir quyu başına çatıb, nəhayət,
Düşərgə saldılar, oldular rahət.
Zalımın qəlbi tək dardı o quyu,
Zülmətiylə bağrı yardı o quyu,
Ağzı əjdahanın ağzına bənzər,
Hər nəfəs çəkdikdə, udar yüz nəfər.
Mərdimazar kimi ürəyi dardı,
İçində hesabsız ilanlar vardı.
Qəm, kədər yağırdı hər tərəfindən,
Haqqında düşünən düşərdi əldən.
Mərkəzi uzaqdı, dibi qorxulu.
Havası üfunət, özü şorsulu.
Otursaydı orda bir anlıq hər kəs,
Darılardı nəfəs yolunda nəfəs.
Qardaşlar gəldilər qəti qərara
Ki, quyu Yusifçün dönsün məzara.
Yusif zülm əlindən fəryada gəldi,
Dağ-daş naləsindən imdada gəldi.
Daş onun halını bilsəydi, inan!
Əriyib, yumuşaq olardı mumdan!
Ağladı Yusifin halına göylər,
O daş ürəklərə etmədi əsər.
Nə cəfa etdilər o qönçə gülə,
Söyləsəm, qorxuram, od düşə dilə!
O qol ki, toxunsa behişt ipəyi,
Göyərərdi ondan incə biləyi.

Kəndir bağladılar keçi tükündən,
Hər tükü kəndirin oldu bir tikən.
Tük kimi o nazik incə belinə,
Bir ilan sardılar çal ipdən yenə.
Köynəyi alındı gül bədənindən,
Gül kimi lüt qaldı o zərif bədən.
Sallayıb bu halda onu quyuya,
İpini kəsərək, saldılar suya.
Parlaq bir günəşdi onun camalı,
Fələk dedi: – "Günəş suda qalmalı!"
Quyunun dibində var idi bir daş,
Yusif daş üstündə oturdu birbaş.
Sadə daş bununla bəxtəvər oldu,
Daş dönüb qiymətli bir gövhər oldu.
Şəkər dodağının bərəkətindən,
Şor su şirin oldu bal şərbətindən.
Üzünün nurundan quyu nur tapdı,
Sanki üzü aydı, nuru məhtabdı.
Zülfündən havası oldu müəttər,
Üfunətdən onda qalmadı əsər.
Camalı quyuya şölə salınca,
Qaçıb gizləndilər ilan, qarınca.
Bazbəndi içində bir köynək vardı,
Cəddi İbrahimdən o yadigardı.
İbrahimə onu göndərmiş Rizvan,
Sayəsində olmuş atəş gülüstan.
Cəbrayıl quyuya endi ərşdən,
Bazbəndi qolundan açaraq həmən.
Köynəyi çıxarıb dedi: "Al, geyin,
Qoy çılpaq qalmasın o gül bədənin",
Dedi: – Ey nəsibi olan dərdü ah,
Sənə bir sifariş göndərmiş Allah,
Deyir: – Səbr eləsin, tez bir gün gələr,
O xainlər ki sənə bu gün zülm edər,
Qarşında dururlar xəcil, pərişan,
Yerə baş dikərlər məhzun, pəşiman,
Bu pis işlərini bir-bir sayaraq,

Sirrini açmazsan onlara ancaq.
Tanıyıb bilərsən, kimlərdir onlar?
Onlar isə səni heç tanımazlar.
Yusif Cəbrayıldan eşitcək bunu,
Yetişdi dərdinin, qəminin sonu.
Oturdu quyuda barigah[1] kimi,
Daş taxtın üstündə xoşbəxt şah kimi.
Gəldi süfrəsinə behiştdən nemət,
Cəbrayıl onunla oldu həmsöhbət.

MİSİRƏ GEDƏN KARVAN QUYUNUN BAŞINA ÇATIR VƏ YUSİFİ ORADAN ÇIXARIR

Allahın adıyla yollanan karvan,
Həyat çeşməsinə bəxş eyləyir can.
Quyuya dol salsa o karvan əgər,
O dolun bürcündən ay tülu edər.
Yusif üç gün qaldı o dar quyuda,
Adətdir, təzə ay qalar quyuda.
Oldu dördüncü gün, açıldı səhər,
Yusifin könlündən silindi qəhər.
Bir karvan çıxaraq yola Yəməndən,
Misrə yola düşdü könülləri şən.
O quyu başına gəlib çatdılar,
Orada düşərgə, yurd yaratdılar.
Yusif bələdçisi olan bir karvan,
Düşərgə seçməkdə səhv etməz, inan!
Hamı susamışdı quyunu görcək,
Oraya cumdular çevik, sevincək.
Əvvəlcə yetişdi xoşbəxt bir insan,
Həyat çeşməsinə ilkin yol tapan,
O Xızır sifətli, dolçanı aldı,
Su üçün qaranlıq quyuya saldı.
Yusifə söylədi Cəbrayıl o dəm,

[1] Barigah – qəbul otağı

Hüsnünü görməyə təşnədir aləm!
Parlaq günəş kimi dolda otur, gəl,
Qaranlıq məğribdən məşriqə yüksəl!
Quyu kənarını üfüqə döndər,
Qoy alsın hüsnündən işıq üfüqlər!
Aləmi bəzəsin səndəki camal,
Qaranlıq dünyaya yüksəl, işıq sal!
Yusif daş üstündən tələsik durdu,
Saf bulaq suyu tək dolda oturdu.
Quyudan o dolu çəkən bəxtəvər,
Gördü, dol ağırdır, çətin yüksələr.
Dedi: – Nə səbəbdən dol ağır çıxar?
Yəqin, sudan başqa onda nəysə var?!
Elə ki quyudan çıxdı o çıraq,
Su çəkən bu sirrə heyran qalaraq,
Dedi: – Bəxtimə bax, qara quyudan,
Çıxmış nur mənbəyi bir mahi-taban!
Müjdə! Ki, şor suyun içindən bu gün,
Bir su çıxarmışam şərbətdən üstün!
Çöldə bir gül açdı onun üzünə,
Sataşmasın deyə yadlar gözünə,
Gizlicə apardı onu mənzilə,
İstəməzdi düşsün söhbəti dilə.
Bəli, xəznə tapsa bir nəfər əgər,
Gizlədə bilməzsə, yüz bəla çəkər.
Hələ yaxındaydı paxıl qardaşlar,
Onu izləyirdi durmadan onlar.
Gözdən qoymayaraq o kor quyunu,
Bilmək istərdilər işin sonunu.
Karvandan, Yusifdən tutunca xəbər,
Qaçaraq quyuya tərəf getdilər.
Səsləyib Yusifi çağıran zaman,
Yalnız əks-səda gəldi quyudan.
Yusifi tapmağa verib qərarı,
Baş alıb getdilər karvana sarı.
Gəzib axtardılar tər-qan içində,
Yusifi tapdılar karvan içində.

Tutaraq dedilər bu bizim quldur,
Vəfasız olsa da, yenə qəbuldur.
Tənbəldir, meyl etməz xidmətə, işə,
Fikri qaçmağadır bunun həmişə.
Doğrudur, gözəldir, bir ayparadır,
Satmaq istəyirik, çün avaradır.
Çirkin qul iş görər, hünər göstərər.
Qulun gözəlindən gözləmə hünər!
Bir qul ki işləməz, hey yeyər, yatar,
Dəyəri-dəyməzə sat, yaxan qurtar.
Biz əbəs qatlaşdıq ağır zəhmətə,
Hazırıq ki, sataq ucuz qiymətə.
Yusifi quyudan çəkib çıxaran,
Onu satın aldı qardaşlarından.
Deyirlər, Malikdi o şəxsin adı,
Azacıq pul verib Yusifi aldı.
Yığışıb yükünü bağladı karvan,
Yenə Misrə tərəf oldular rəvan.
Nadanlar bazara gətirsə Ayı,
Qədrini bilməyib satar havayı.
Misrin xəracıydı didarı onun,
Yüz cana dəyərdi göftarı onun!
Yəquba bəlliydi onun dəyəri,
Züleyxa gərəkdi ona müştəri!
Bir neçə pul üçün, ağlını bilən,
Səadət xəznəsin verərmi əldən?!

MALİK YUSİFİ MİSİRƏ ÇATDIRIR, PADŞAH ONLARIN GƏLMƏSİNDƏN XƏBƏR TUTUR VƏ ƏZİZİ ONLARI QARŞILAMAĞA GÖNDƏRİR

Malik xəznə tapdı zəhmət çəkmədən,
Qiymətli xəznəyə malik oldu şən.
O könül oxşayan ayı görüncə,
Şadlıqdan bilməzdi, otursun necə?!
Ruh verən ətrinin olub mayili,

Bir mənzil edirdi iki mənzili.
Misrə yaxınlaşdı o, uzaq yoldan,
Oldu Misr elinə qəziyyə əyan.
Dedilər, səfərdən qayıtmış Malik,
İbrani bir qula olaraq malik.
Hüsn fəzasında aydır o dilbər,
Gözəllikdə yoxdur ona bərabər.
Görməmiş hələ də min gözlə fələk,
Bütün yer üzündə bir elə mələk.
Misrin sultanına çatdı bu xəbər,
Qibtədən, həsəddən yandı o sərvər.
Gözəllik bağıdır, dedi ölkəmiz,
Belə gül hələlik görməmişik biz.
Cənnət gülşənində açsa da bir gül,
Misirli yanında yanıb olar kül.
Əzizə söylədi: – Durma, çıx yola,
Karvanı şəhərdən kənar qarşıla.
Get, o ay üzlünü öz gözünlə gör,
Sonra izzət ilə saraya gətir.
Əziz gəlib çatdı yolda karvana,
Nəzəri sataşdı mahi-Kənana,
Özünü, sözünü itirdi bütün,
İstədi önündə səcdəyə düşsün.
Lakin Yusif onu qaldırıb sonra,
Özü səcdə qıldı hörmətlə ona.
Baş ancaq o şəxsə gərək əyilsin
Ki, onun boynunda bir minnət bilsin.
Sonra Əziz verdi Malikə fərman
Ki, gərək saraya gəlsin bu oğlan.
Malik söylədi ki, bir sözüm yoxdur,
Sənin kərəminə ümidim çoxdur.
Lakin üzrlü tut bizi bir qədər,
Hamını yormuşdur bu ağır səfər.
İzin ver burada bir az dincələk,
Yolun his-tozundan biz təmizlənək.
Yuyunub geyinək, olaq tərtəmiz,
Şahın hüzuruna sonra gələk biz.

Əziz bu sözləri dinlədi, dərhal
Şahın hüzuruna qayıtdı xoşhal
Yusifin hüsnündən öz sultanına,
Danışdı, od saldı şahın canına.
Şah dedi: – Minlərlə ayüzlü cavan
Hər biri gözəllik mülkünə sultan.
Hamısı başında qızıl ərəqçin,
Əyninə zərxara libas geyinsin.
Bağlasın belinə minalı kəmər,
Gülsün ləblərindən tökülsün şəkər.
Hər biri gözəllik bağının gülü,
Hamı ağ buxaqlı, hamı gül üzlü.
Yusifi bazara çəkən zamanda,
Müştəri hüsnünü görən zamanda,
Hamı bu bəzəklə, bu calal ilə,
Dayansın üz-üzə mahcamal ilə.
Önündə səf çəksin bütün gözəllər,
Yusifin hüsnü qoy solsun bir qədər.

YUSİF NİL ÇAYINDA ÇİMİR VƏ CALAL İLƏ MİSİR PADŞAHININ BARGAHINA YOLA DÜŞÜR

Günəşin Yusifi, dördüncü gündə,
Parladı fələkdən Nilin üstündə.
Yusifə söylədi Malik: – Ey gözəl,
Sən də günəş kimi Nil üstünə gəl!
Günəşlə tozunu yu, ol tərtəzə,
Nili canındakı torpaqla bəzə.
Malikin əmriylə getdi o məhvəş,
Nil çayı yanında parladı günəş.
Əlini köynəyin altına saldı,
Səmən nilufərin altına daldı.
Başından götürdü zərrin papağı,
Çıxdı yumurtadan gecənin zağı.
Köynəyi başından çıxaran zaman,
Ətəyi şərq oldu, cibi günbatan.

Elə ki çiyninə toxundu köynək,
Sanardın günəşdən nur aldı fələk.
Belinə bağladı qara bir fitə,
Gümüş sərv bitdi Nil çayı üstə.
Nil rəngli fələkdən yüksəldi fəryad
Ki, Nil qədəmindən oldu Məhabad.
Kaş Nilin yerinə özüm olaydım,
Ayağından öpüb ləzzət alaydım.
Günəş istədi ki, diz üstə çöksün,
Qızıl çeşməsini o çaya töksün.
Bir sərab bilərək nur bulağını,
İstədi Nil yusun əl-ayağını.
Yusif qədəm qoydu çaya sahildən,
Tutdu su bürcündə ay kimi məskən.
Dünyaya nur saçan bir günəşdi o,
Örtdü əndamını bu günəşin su.
Çılpaq bədənilə dayandı suda,
Zövq alıb hüsnündən, canlandı su da.
Saldı saçlarını suya o mələk,
Saçları bənd vurdu suya zəncir tək.
Aşiqlər könlünü etməkçin şikar,
Tor kimi quruldu ənbərli saçlar.
Gah suyu başına töküb əliylə,
Ayı bəzəyirdi reyhan teliylə;
Gah da əndamına sığal verirdi,
Gülü barmağıyla şax-şax edirdi.
Təmizləndi yolun tozu-torpağı,
Sərv ilə bəzəndi Nilin qırağı.
Malikin qulundan istədi köynək,
Gülü zanbağ kimi bəzədi köynək,
Əyninə geyindi zərli dibanı,
Bəzəyi heyrətə saldı dünyanı.
Tacı ayı saldı qədir-qiymətdən.
Bağladı belinə kəmər hümmətdən.
Zülfünü çiyninə saldı o dilbər,
Misrin fəzasını çulğadı ənbər,
Mindi kəcavəyə, qeyb oldu üzü,

Qaldı kəcavədə dünyanın gözü.
Hava qaranlıqdı, qəzadan, o gün,
Örtmüşdü günəşi bulud büsbütün.
Yusifə söylədi Malik: – Ey gözəl,
Kəcavədən çıxıb, təxtgaha gəl!
Günəşsən, üzünü çıxar pərdədən,
Bəzə bu aləmi işığınla sən.
Yusif kəcavədən çıxınca həmin –
İşıqdan qamaşdı gözü aləmin.
Görənlər əvvəlcə etdilər güman
Ki, günəş çıxmışdır qara buluddan.
Lakin üfüqlərə edincə nəzər,
Gördülər üfüqdə günəş nə gəzər?
Hələ də günəşi buludlar tutur,
Yusifin üzündən yayılır o nur,
Baxanlar heyrətə gəldilər həmən,
Dedilər: – Ey yeri-göyü xəlq edən!
Bu parlaq ulduzda necə hikmət var
Ki, onun önündə günəş alçalar?
Misirdən pişvaza gələn gözəllər,
Dedilər: – Biz heçik, o varsa əgər!

ZÜLEYXA ŞAH SARAYI QARŞISINDA YUSİFİ GÖRÜR VƏ TANIYIR

Günəş camalını göstərən zaman,
Süha ulduzları gizlənər haman.
Züleyxa görməmiş o ay camalı,
İki mənzil qədər yardan aralı
Olsa da, mənadan tutmuşdur xəbər,
Canına od düşüb, yanırdı cigər.
Bilməzdi nə üçün canı odlanar?
Təsəlli tapmaqçın bir gün o naçar,
Səhraya çıxdı ki, gəzib, şad olsun,
Könlü dərd əlindən bir azad olsun.
Bir neçə gün dözüb qəmə, möhnətə,

Səbr ilə özünü saldı zəhmətə.
Çalışdı qayğısız eyş-işrət edə,
Lakin dərdü-qəmi artdı get-gedə.
Qəlbi açılmadı, çöldə, çəməndə,
Zənn etdi şad olar evə gedəndə.
Tələsik qalxaraq atın belinə,
Dönmək istəyirdi öz mənzilinə,
Məqsədi olsa da evinə çatmaq,
Şah qəsri yanından keçəndə ancaq
Görüb izdihamı eylədi heyrət,
Guya ki, Misirdən qopur qiyamət?
Soruşdu, dedilər: – Bu toy, təmtəraq,
Kənanlı bir qulçun qurulmuş ancaq!
Qul demə, günəşdir onun camalı,
Gözəllik mülkünün cahü-cəlalı.
Züleyxa ətrafa göz gəzdirərək,
Yarını tanıdı, o qulu görcək!
Çəkdi ixtiyarsız ürəkdən fəryad,
Huşunu itirdi o boyu şümşad!
Özünü toxtatdı kəcavə çəkən
Onu mənzilinə çatdırdı həmən.
Xəlvətə çəkilib bir az dincəldi.
Halı yavaş-yavaş özünə gəldi,
Dayəsi soruşdu: – Ey mahi-taban,
Nə üçün qopardın yanıqlı fəğan?
Nədən şivən etdi şirin ləblərin?
Acı bir hal ilə yıxıldın neçin?
Dedi: – Nə söyləyim mehriban ana!?
Nə desəm, qorxuram, canım odlana!
İzdiham içində o qul adlanan
Ki, bütün Misr olub hüsnünə heyran,
O mənim qəlbimdir, əziz canımdır,
Ona canım qurban, öz cananımdır!
Yuxuda görmüşəm mən o nigarı,
Almışdır əlimdən səbrü-qərarı.
Canım alovlanır, ürəyim yanır,
Qəmindən gözümdə qan dalğalanır!

Eşqi ixtiyarı əlimdən almış,
Məni bu qürbətə o çəkib salmış.
Elimdən, günümdən edib avara,
Bu qərib ölkədə qoymuş biçara.
Görürsən, illərlə daim ağlaram,
Mənə eyşü-işrət olmuşdur haram.
Bütün qəmlərimə bir odur səbəb!
Könül daim edər vəslini tələb.
Möhnətim ağırdır dağlardan, inan!
Özüm öz işimə qalmışam heyran!
Ayım boylanacaq kimin bürcündən?
Şəmim hansı bəzmi edəcək rövşən?
Kimin gözlərinə işıq verəcək?
Evi gülşən olub, açacaq çiçək?
Kimə can verəcək o şəkər ləblər?
Sərvi sayəsində kimlər dincələr?
O qara zülfləri kim hörər, açar?
O gümüş qaməti kim çılpaq qucar?
Kim onun yolunda candan keçəcək?
Tozundan gözünə sürmə çəkəcək?
O mənim halımı biləcəkdirmi?
Üzümə səadət güləcəkdirmi?
Dayə Züleyxanın dərdini qandı,
Şəm kimi od alıb, ağladı, yandı.
Dedi: – Gizlicə yan, gizlicə yandır,
Dərdini kimsəyə açma, amandır!
Səbri peşə etdin bir neçə illər,
Səbr ilə açılar bütün müşküllər.
Səbr ilə arzuna çatarsan, yəqin,
Qara buludlardan çıxar günəşin!

YUSİF QULLAR BAZARINDA HƏRRACA QOYULUR, ZÜLEYXA ONU ÇOX BAHA QİYMƏTƏ ÖZÜNƏ QULLUĞA ALIR

Nə gözəldir, o gün, xoşdur o rüzgar
Ki, vüsal bağından gül dərə dildar!
Ömür işıq ala dost çırağından,
Ürəyi sağala hicran dağından.
Yusifin şöhrəti tutdu hər yeri,
Misir əhli çıxdı ona müştəri.
Onu almaq üçün göstərib həvəs,
Varından-yoxundan çıxırdı hər kəs.
Eşitdim bir qoca dul arvad hələ,
Bir neçə kələf sap alaraq ələ,
Bazara qaçırdı, dedilər: – Dayan!
Həyana nə gəlmiş, budursa, mayan?
Dedi: – Bu kələfə, anlayıram mən,
Bir tük də verməzlər onun telindən.
Lakin istəyirəm Misir elləri,
Məni də saysınlar ona müştəri.
Carçı hər tərəfi gəzib çəkdi car:
– Eyibsiz, nöqsansız bir qul satırlar.
Üzü səadətin nurlu səhəri,
Ləbi məlahətin nadir gövhəri,
Söz yox əxlaqında, nəcabətində,
Belə qulu olan qalmaz çətində!
Dilinə gətirməz yalan söz hərgiz,
Əli, dili, gözü, sözüdür təmiz!
Bir nəfər cürətlə çıxıb irəli,
Bir bədrə qızılla durdu müştəri.
Əgər bədrədəki qızılı saysan,
Sayı min dənədir, çəkisi batman.
Başqa müştərilər at oynatdılar,
Yüz bədrə qızıla gəlib çatdılar!
Bir varlı söylədi: Qiymət deyil tam,
Yusifin vəznində mişk artırıram.
Əlavə eylədi başqa bilici,

Yusif ağırlıqda ləl ilə inci.
Cürbəcür qiymətli əmtiələrdən,
Qiymətin üstünə gəldi hər yetən.
Züleyxa tutunca hərracdan xəbər,
Qiyməti artırdı iki bərabər.
Başqa rəqiblərin kəsildi dili,
Hamının könlündə qaldı nisgili.
Əzizə söylədi: – Durma, pul gətir,
Qoyduğum qiyməti Malikə yetir!
Dedi: – Xəzinəmdə, ey gözəl dildar!
Mişk, gövhər, qızıl nə qədər ki var,
Danginə yetişməz, çəksən bazara,
Mən hara, o qədər xəzinə hara?
Züleyxanı tutdu Əzizin sözü,
İstədi qiyməti ödəsin özü.
Gövhərlə dolu bir sandığı vardı,
Ulduzlarla dolu bürcə oxşardı,
Hər gövhər, qiymətdə bir şahın tacı,
Misrin neçə illik bacı-xəracı.
Dedi: – Bunları ver, al o cananı.
Üstəlik canım da olsun qurbanı.
Əziz bir bəhanə gətirdi naçar
Dedi: – Bu oğlana şahın meyli var.
İstər ki, ürəyi təmiz bu oğlan,
Olsun şah evində qullara sultan.
Züleyxa dedi: – Get şahın yanına
Hazır dur qul kimi hər fərmanına!
Söylə ki, Yusifə hörmətim çoxdur,
Gözümə nur verən övladım yoxdur.
Başımı yüksəldib, göstərsin hörmət,
O qulla boynuma yükləsin minnət.
Ulduztək parlasın bürcündə azad,
Şah üçün qul olsun, mənimçin övlad.
Dinləyib Əzizi adil hökmran,
Boyun qaçırmadı iltimasından,
İcazə verildi, aldılar onu,
Bir oğul hesaba saldılar onu.

Evə gətirdilər könülləri şad,
Oldu Züleyxa da möhnətdən azad.
Şadlıq incisini kirpiklə deşdi,
Dedi öz-özünə: “Bu necə işdi?”
Yuxumu görürəm, yoxsa aşkardır?
Könlümün həmdəmi o şux dildardır?
Gecəm sona çatdı, açıldı səhər,
Tərk etdi canımı qəm, qüssə, kədər!
Daha nazənin yar məndən ayrılmaz,
Yeri var, eləsəm fələklərə naz!
Kəramət buludu bir sel qopardı,
Məlamət qumunu yuyub apardı.
Varmıdır dünyada mənimtək bir kəs?
Olsun qəm-qüssəsi şadlıqla əvəz?
Bir balıq kimiydim, su həsrətində,
İsti qum üstündə, işim çətində.
Bir bulaq dövrümü-bərimi aldı,
Məni qum üstündən dənizə saldı.
Qaranlıq gecədə azmışdım yolu,
Canım əzabdaydı, ürəyim dolu.
Üfüqdən göründü bir ay, nəhayət,
Onun işığında tapdım səadət.
Ölüm yatağına düşmüş xəstəydim,
Hicran niştərindən mən can üstəydim.
Nagəhan Xızr özü gəldi qapımdan,
Həyat suyu oldu dərdimə dərman.
Çox şükür, səadət yar oldu mənə,
Əlini yaxamdan çəkdi zəmanə.
O nəcib insana min canım qurban
Ki, yetirdi mənə bir belə canan.
Gövhər sandığını qırdımsa, nə qəm,
Gövhər mədənini əldə etmişəm.
Gövhər nəyə gərək, can olan yerdə?
Qurban olsun yara can da, gövhər də!
Bir neçə daş verib, bir can almışam,
Çox ucuz qiymətə canan almışam.
Biri İsa verib muncuq alarsa,

Haqqı var, ağlayıb şivən qoparsa.
Mən isə muncuqdan əl çəkib qaldım,
Qazancım odur ki, İsanı aldım.
Bu incə mətləbdə sındıraraq baş,
Gözündən tökürdü inci kimi yaş.
Gah baxıb Yusifin camalına lal,
Silinib gedirdi könlündən məlal;
Gah keçən günləri hey yad edirdi,
Könlünü vəsliylə dilşad edirdi.

AD QƏBİLƏSİ BAŞÇISININ QIZI YUSİFİN YANINA GƏLİR, ONA EŞQ ELAN EDİR, YUSİFİN NƏSİHƏTİ İLƏ TƏRKİ-DÜNYA OLUR

Sanma ki, məhəbbət yalnız gözdədir,
Çox zaman səadət şirin sözdədir.
Hüsn cilvələnsə əgər qulaqdan,
Canda taqət qalmaz, könüldə tavan.
Bir gözəl xoş sözlə dastan söyləsə,
Bu dastan hər kəsi salar həvəsə.
Bəşər bir-birini hələ görmədən,
Qiyabi olaraq sevişər bəzən,
Misirdə misilsiz bir gözəl vardı,
Ad qəbiləsinə o hökmdardı.
Ləbləri əqiqi[1] qiymətdən salar,
Gülsə, Misir ölkəsi şəkərlə dolar.
Şəkəri, şirnisi təbəssümünün,
Neyşəkər bağrına vurar min düyün.
Gülər ləblərindən tökərkən şəkər,
Şəkər heyrətindən barmağın dişlər.
Ağzına daralar şəkərin bağrı,
Nabat ürəyinə salardı ağrı
Dodağı nabatdan lətifdi qat-qat,

[1] Əqiq – qiymətli çəhrayı bəzək daşı

Önündə qiymətdən düşərdi nabat.
Nabat şişə kimi olsa da parlaq,
Olmaz şəffaflıqda ləbinə ortaq.
O huri dünyaya fitnə salmışdı,
Dünya camalına heyran qalmışdı.
Başçılar, əyanlar eşqinə düşmüş,
Gözəllər hüsnünün məşqinə düşmüş.
Lakin ətəyinə onun yetməz əl,
Kimsəyə baş əyməz o məğrur gözəl.
Hədsizdi sərvəti, hüsnü, vüqarı,
Gözucu baxmazdı bir kəsə sarı.
Yusifin vəsfini eşidən zaman,
Qəlbində məhəbbət duydu nagahan.
Bu tərif dillərdə gəzdikcə hər dəm,
Məhəbbət könlündə yer saldı möhkəm.
İstədi Yusifi görsün o dilbər,
Eşitmək tumundan görmək göyərər.
Tutdu qiymətindən azacıq soraq,
Yusifi almağa hazırlaşaraq.
Topladı qızılı, ipəyi, mişki,
Nadir gövhərlərdən min dəvə yükü.
Hər nəyin ki vardı qədri, qiyməti,
Əntiqə sayılan zəri, zinəti.
Götürüb Misirə tərəf yol aldı,
Dəvələr yükləndi, xəznə boşaldı.
Yayıldı ölkəyə onun şöhrəti,
Gəzdi ağızlarda sözü-söhbəti,
Dedilər ki, Misrə gəlib bir dilbər,
Hər yerdə Yusifdən soruşur xəbər.
Öyrəndi Yusifin gəzdiyi yeri,
Sevincək o yerə yollandı pəri.
Bir camal gördü ki, idrakdan uzaq,
Ruh kimi görməyib nə su, nə torpaq.
Mislini dünyada kimsə görməmiş!
Heç kəs oxşarını nişan verməmiş.
Üzünü görüncə yıxıldı huşsuz,
Özünü itirdi sözsüz, gülüşsüz.

Elə ki özünə gəldi bir qədər,
Qəflət yuxusundan oyandı dilbər.
Dil açıb danışdı özü birinci,
Hikmət xəznəsində axtardı inci.
Dedi: – Ey gözəllik rəmzi, timsalı,
Söylə kim bəzəmiş o gül camalı?
Günəşi parlatmış sənin alnında,
Ay sünbül yığandır nur xırmanında,
Hansı rəssam sənin şəklini çəkmiş?
Hansı bağban sənin sərvini əkmiş?
Qaşının tağına kim vurdu pərgar?
Saçını hörmüşdür hansı sənətkar?
Haradan su içdi üzünün gülü?
Kim əkib bəslədi o tər sünbülü?
Bu gözəl rəftarı kimdən öyrəndin?
O şirin göftarı kimdən öyrəndin?
Ay üzün lövhüdür hansı xamə[1]nin?
Zülfün baş hərfidir hansı namənin?
Görən nərgisini, söylə, kim açdı?
Gözündən yoxluğun yuxusu qaçdı.
Kim vurdu ağzına qıfıl yaqutdan?
Ruh qida, ürəksə güc aldı ondan!
Çənəndə qazıdı kim o quyunu?
Quyuya doldurdu həyat suyunu?
Üzünə o ənbər xalı kim vurdu?
Qarğaya gülşəndə kim yuva qurdu?
Yusif bu sözləri dinlədi ondan,
Cana qida verdi bal bulağından.
Dedi: – Bir ustadın əsəriyəm mən,
O mühit, mən isə kəməm qətrədən.
Kamal qələmindən nöqtədir fələk,
Camalı bağında aləm bir çiçək.
Nurundan hər zərrə bir afitabdır
Qüdrət dənizində fələk hübab[2]dır.

[1] Xamə – qələm
[2] Hübab – çadırvarı köpük

Camalı eybdən, nöqsandan təmiz,
Qayibdir nəzərdən, görməyirik biz,
Zatına güzgüdür bütün zərrələr,
Hər şeydə üzünün əksi görsənər.
Nə qədər gözəl var, diqqətlə baxsan,
Əksidir o zatın, görərsən asan.
Əksə valeh olma, əsli get axtar,
Əkslə əslin, bil, böyük fərqi var.
Olmaya, əsldən uzaq qalasan,
Əks çoxaldıqca nursuz qalarsan.
Çox qalmaz əksdə gördüyün səfa,
Bir günün rəngindən gözləmə vəfa.
Bəqa axtarırsan, əsli get, izlə,
Vəfa istəyirsən, əsldən gözlə.
O şey ki bu gündən sabaha qalmaz.
Dərdini ürəyə salmaq yaramaz.
Qız ki bu sirrdən oldu xəbərdar,
Bildi ki, Yusifdə başqa aləm var.
Dedi: – Tərifini eşidəndə mən,
Meyl etdim görməyə səni ürəkdən,
Bircə arzum vardı – vəslinə çatmaq!
Yolunda başımı elədim ayaq!
Üzünü görüncə düşdüm ayaqdan,
Dedim: – Canım olsun yolunda qurban!
Elə ki dilindən incilər saçdın,
Onun mənbəyinin sirrini açdın,
Bildim həqiqəti söz-söhbətindən,
Məni məyus etdin məhəbbətindən.
Sanki gözlərimdən açdın pərdəni,
Zərrədən günəşə çatdırdın məni.
Bu sirr indi mənə bir həqiqətdir
Ki, eşqin məcazi bir məhəbbətdir.
İndi ki bu sirri açdın mənə sən,
Əl çəkdim məcazi bir məhəbbətdən.
Haqq sənə yar olsun, açdın gözümü,
Cananla sirribir gördüm özümü.
Yadların eşqindən könlümü qırdın,

Vüsal mənzilinə məni çağırdın.
Hər tüküm birər dil olarsa, inan!
Hər biri haqqında deyərsə dastan,
Vəsfində tük qədər söyləyə bilməz!
Demək, təşəkkürün əlimdən gəlməz!
Sonra vidalaşıb, ayrıldı, getdi,
Mayanı, qazancı atıb tərk etdi.
Getdi, oturmadı öz mənzilində,
Bir məbəd tikdirdi Nil sahilində.
Dünyanın malını, mülkünü atdı,
Yoxsulun, möhtacın dadına çatdı.
Onun var-yoxunu tarac etdilər,
Bir parça çörəyə möhtac etdilər.
Artıq istəmədi zərli əsabə,
Başına bağladı qəzil patabə.
Gövhərli, minalı tacı unutdu,
Köhnə bir çalmanı şərəfli tutdu.
Atlası, tirməni çıxarıb həmən,
Güzgü tək geyindi paltar keçədən.
Cavahir dənəli qolbaq yerinə,
Palçıqdan bir təsbeh aldı əlinə.
O, məbəd küncündə tutaraq aram,
Döndərdi üzünü dünyadan tamam.
Gülxəndən bir ətək gül gətirərək,
Xəlvətdə düzəltdi özünə döşək.
Başının altına daş qoyub yatdı,
Ağrıdan şivəni göylərə çatdı.
Canını salaraq dərdə, təlaşa,
Verdi o məbəddə ömrünü başa.
Ömrü ibadətdə keçdi hər zaman,
Ölərkən əliboş, rahat verdi can.
Zənn etmə canını o verdi hədər,
Cananı yolunda can verdi dilbər.
Ey könül, mərdliyi o qızdan öyrən,
Onun matəmində qoparma şivən!
Bu qəmi unudub, çək öz qəmini,
Saxla öz yasını, öz matəmini.

Surətə pərəstiş etdin hər zaman,
Əsli, həqiqəti çıxardın yaddan.
Axtar həqiqəti surətdən əl çək,
Surət tez zavala uğrayar, gerçək!
Burax, daşlı yolda qədəm vurmağı,
Hər zaman məskən qıl yeni budağı.
Yüksəl, bu aləmin fövqündə otur,
Məna sarayında yüksəl, büsat qur.
Surət minlərlədir, məna bir ancaq
Surət sayanlardan uzaq qaç, uzaq!
Harada çoxluq var, pərişanlıq var,
Fələk də çoxluğa çəkmiş bir hasar.
Üstünə gələrsə güclü bir düşmən,
Çalış ki savaşa hasar çəkəsən.

ZÜLEYXA YUSİFLƏ MÜSAHİB OLUR VƏ ONA XİDMƏT EDİR

Elə ki Züleyxa oldu bəxtiyar,
Ona fələklər də verdi ixtiyar.
Bütün arzuları nəzərdən saldı,
Yusifə xidməti boynuna aldı.
Aldı zərli ipək, tirmə, xəz, atlas,
Boynuna tutdurub, tikdirdi libas.
Verdi qızıl taclar, qızıl kəmərlər,
Üstünə düzdülər parlaq gövhərlər.
Biçib-tikmək günü başa çatmışdı,
Libasların sayı üç yüz altmışdı.
İlin hər günündə hər səhər, əlbət,
Yusifə geydirdi bir yeni xələt.
Qızıl tac qoyarkən sultanı şərqin,
O da başqa bir tac qoyardı, zərrin.
Çıxanda sərv tək Yusif hər səhər,
Belinə bağlardı başqa bir kəmər.
Üzü bir günəşdə ürəklər açan,
İki gün çıxmazdı eyni yaxadan.

Gözəllik bağında sərvə edər naz,
Bir tacı iki gün başına qoymaz.
Bağlamaz belinə o ləbi şəkər,
Dalbadal neyşəkər kimi bir kəmər,
Hər səhər qoyduqca başa yeni tac,
O taca verərdi min öpüş, xərac.
Deyərdi: – Tacımdır ayaq torpağın.
Taledə olaydım kaş mən ortağın.
Köynəyi əyninə geyinən zaman,
Əvvəlcə bağrına basardı haman.
Deyərdi: – Bir sapın olaydım, ey kaş!
Onu ağuşuma alaydım, ey kaş!
O sərvin boynuna tutanda qəba,
Qəbaya deyərdi xəlvət Züleyxa:
– Könlümdə bir arzum vardır, sənin tək
Yusifi bağrıma basaydım bərk-bərk.
Hərdəm ki bağlardı belinə kəmər,
Könlündən keçərdi onun bu sözlər:
– Ey xuda, kaş qolum kəmər olaydı,
Bu hicran gecəsi səhər olaydı!
Elə ki zülfünə vurardı şanə,
Fəğana gələrdi, sanki divanə!
Zülfünü qılardı boynuna zəncir,
Tor qurub, əliylə düşərdi əsir.
Yusifə şam, nahar verməkçin özü,
Mətbəxdə keçərdi gecə-gündüzü.
Süfrələr döşəyib hər gün rəngbərəng,
Əlvan nemətlərlə verərdi bəzək.
İstəsəydi, halva bişirsin əgər,
Lazımı olsaydı badamla şəkər,
Dilini, dişini salaraq yada,
Sanardı qənd ilə badam halvada.
Bağda ağaclardan meyvə üzəndə,
Meyvəni süfrəyə, qaba düzəndə,
Deyərdi: – Bu oxşar al yanağına,
O biri meyvə də ağ buxağına.
Toyuğu, kəkliyi edəndə büryan,

Öz yanar bağrını anardı pünhan,
Rəngi xoş, təmi xoş mürəbbələrdən,
Verəndə yad edər onun ləbindən.
Süfrəyə hər zaman şərbət düzərdi,
Elə bil, şərbətdə nəbat üzərdi,
Hər nəyə meyl etsə bir mehman kimi,
Tez hazır edərdi şirin can kimi.
Yorucu gündüzlər başa çatanda,
Gecələr Yusifi yuxu tutanda,
Züleyxa salardı ipəkdən yataq,
Döşəyi, örtüyü, taxtı yumuşaq,
Gülə qərq olardı gül kimi bədən,
Lalə yanağından öpərdi səmən.
Könlündən qəm tozu silinsin deyə,
Züleyxa başlardı şirin hekayə.
Yusifə çalardı lay-lay nəfəsi,
Gözünü örtərdi yuxu pərdəsi,
Züleyxa şəm ilə olardı həmdəm,
Yanıb əriyərdi şəm ilə bahəm.
Sübhətək gəlməzdi yuxu gözünə,
Tikib gözlərini yarın üzünə,
İki məst ahusu səhərə qədər,
O ayın gözəllik bağında gəzər.
Kah nərgis gözüylə edib dərdi-dil,
Gah qönçə ləbinə olardı mayil;
Gah da gül üzündən dərərdi lalə,
Göz yaşı olardı gül üstə jalə.
Gah görür ləbində həyat bulağı,
Gah oxşar ruhunu büllur buxağı.
Gah ənbər zülfüylə başlayıb söhbət,
Deyərdi: – Ey qızılgüllə həmsöhbət,
Divlə həmaşiyan bir pəriyəm mən,
Odur, qan süzülür, didələrimdən.
Dilində şikayət, könlündə qubar,
Gecə sübh olunca, yatmazdı nigar.
Gecə də, gündüz də bu idi işi,
Ah çəkib, qan udmaq oldu vərdişi.

Qəmiylə Yusifə bir qəmxar oldu,
Xanımkən bir qula pərəstar oldu.
Bəli, qayda budur, aşiq can satar,
Məşuqə xidmətlə murada çatar.
Yığar kirpiyiylə yolundan tikan,
Qoyar ayağına gözüylə dərman,
Məşuqun könlünə yol tapsın deyə,
Canını yolunda verər hədiyyə.

YUSİF ZÜLEYXAYA ÖZÜNÜN QUYUYA SALINMA ƏHVALATINI SÖYLƏYİR

Bu şirin dastanı yazıb yaradan,
Belə bir əfsanə demiş o zaman;
Züleyxa Yusifi görməzdən əvvəl,
Bir gün dərd əlindən yandı o gözəl.
Tükəndi taqəti, səbri qalmadı,
Qəlbi iztirabdan azad olmadı.
Nə evdə bənd oldu başı bir işlə,
Nə könlü açıldı gediş-gəlişlə.
Gözündən yaş axdı, ürəyindən qan,
Heç yerdə qərarı tutmadı bir an,
Dayə ona dedi: – Ey əziz qızım,
Günəşim, ayparam, səhər ulduzum,
Olmaya, canına qəsd edib zaman,
Fələyin zülm əli tutmuş yaxandan?
Nə üçün əhvalın pozulmuş bu gün,
Kədər girdabına gömülmüş könlün?
Vücudun yel döymüş yarpağa oxşar
Ki, tutmaz bir ləhzə bir yerdə qərar.
Bu üzdən o üzə çevrilər hər dəm,
Yerini dəyişər qədəmbəqədəm.
İşi dolanmaqdır, gəzməkdir, ancaq
Bir yerdə etməyir mənzil o yarpaq.
Söylə, nə səbəbdən oldun biqərar?
Kim səni bu hala saldı, ey nigar?

Züleyxa söylədi heyranam bu gün,
Özüm öz işimdən peşmanam bu gün.
Könlüm qəm həmdəmi, dərd həmdəmidir,
Bilmirəm ki, bu qəm kimin qəmidir?
Səbrimi tükətmiş gizli bir kədər,
Canımı bir mübhəm qüssə əridər.
Bəlkə də tərpənməz bir torpağam mən,
Zərbələr alıram hər an küləkdən.
Onun təsirilə vücudum əsir,
Lakin bilməyirəm, nədir o təsir?
Dayə də burada kəsdi söhbəti,
Bilmədi dərdinin nədir illəti?
Elə ki Yusifə çatdı Züleyxa,
Ayrılıq daşını atdı Züleyxa.
Yusiflə oturub hər gün üzbəüz,
Söhbət edərdilər hər gecə-gündüz.
Sirrini açaraq Yusif bir gecə,
Söylərdi həyatı keçmişdir necə.
Hər şeydən danışıb dedi, nəhayət,
Quyu dastanından başlandı söhbət.
Quyu söhbətini eşidən kimi,
Züleyxa qıvrıldı bir örkən kimi.
Düşündü: bəlkə də bu o gün olmuş
Ki, canı odlara düşüb qovrulmuş?
Sonra ayı, günü hesablayaraq,
Yəqini oldu ki, o gündür, ancaq.
Bəli, yaxşı bilir arif olanlar,
Doğrudan, könüldən-könülə yol var!
Xüsusən aşiqin yüz para könlü,
O aşiq ki vermiş dildara könlü.
O könlün yüz yolu, yüz gözü olar,
O gözlər daima məşuqu arar.
Məşuqun əhvalı haman bu yoldan,
Aşiqin yanında görünər əyan.
Yarın ayağına tikan batarsa,
Batar aşiqinin ürəyi yasa.
Məşuqun zülfünə toxunsa külək,

Aşiqin ürəyi əsər yarpaq tək.
Məşuqun üzünə toz qonsa əgər,
Bu yükdən aşiqin beli bükülər.
Rəvayət edirlər ki, Leyli bir gün,
Niştəri götürdü qan almaq üçün.
Qoluna niştəri vurunca canan,
Məcnunun qolundan çöldə axdı qan.
Cami, gəl həzər et öz varlığından,
Saqın bu varlığın qəddarlığından!
Saflaş, ürəyindən kin hissini at,
Qəlbinə seyqəl ver, güzgü tək parlat!
Qeyb gözəlinin camal nuru tək,
Sənə Kəlimullah gücü verərək,
O nur ürəyinin gözünü açar,
Cananın sirrini, sözünü açar.

YUSİF ÇOBAN OLMAĞI ARZU EDİR

Nə xoşdur, aşiqə tale yar ola,
Dildarın könlündə payidar ola!
Unuda özünü-sözünü tamam,
Yarın arzusuyla yaşaya müdam!
Əgər can istəsə, əyilib yerə,
Ayaq torpağını öpüb can verə.
İstəsə könlünü qan edə qəmdən,
Gərək qan süzülə dərhal gözündən,
"Qalx!" desə, baş əyib itaət edə,
Yarın qulluğuna bir adət edə.
Qovsa, qələm kimi küsüb getməyə,
Çağırsa, namətək üz gizlətməyə.
Demişlər, peyğəmbər olarsa çoban,
Ümmətə hamıdan olar mehriban.
Yusifin sonsuzdu cahi-cəlalı,
Çoban olmaq idi ancaq xəyalı.
Tutdu bu arzudan Züleyxa xəbər,
Könlünü almağa çalışdı dilbər.

Əvvəl, tələb etdi sənətkarlardan,
Ona hazırlansın yaxşı bir sapan,
Qolları toxunsun qızıl tellərdən,
Yarın zülfü kimi mişkü ənbərdən.
Züleyxa istərdi dönsün bir tükə,
O sapan qoluna toxunsun, bəlkə!
Yusif ki, qaçır bu mehrü ülfətdən,
Əllərindən öpsün sapanla bəzən.
Sonra deyirdi ki: "Bu deyil hünər,
Ağırlığım düşsün ona tük qədər".
Gözündən axıtdı çoxlu qanlı yaş,
O yaşlarla düzdü sapana daş-qaş.
Nə qədər var idi qiymətli gövhər,
Qiymətsiz daş kimi atdı o dilbər.
Sonra çöldə, dağda sürü otaran,
Çobanlara verdi belə bir fərman
Ki, bütün sürülər gözdən keçilsin,
Onlardan bir neçə quzu seçilsin,
Gözəllikdə Xütən ahusu kimi,
Olsun otlaqlarda gül, sünbül yemi,
Tükü qıvrım olsun zənci tükü tək,
Rənginin yanında xar olsun ipək,
Beldən kök olsunlar, quyruqdan ağır,
Getsinlər köklükdən yol ağır-ağır.
Qoyunlar səhrada otlayan zaman,
Deyərdin, yağ seli axır hər yandan.
Külək sel üstündə oynayıb hərdən,
Bir zəncir düzəldir zərif tellərdən.
Qatıb qabağına Yusif sürünü,
Günəş mənzil etmiş həməl[1] bürcünü.
Sanki, ayrı düşmüş ahu sürüdən,
Qoyunlar içində tapmışdır vətən.
Züleyxa ağıldan, candan keçərək,
Gəzirdi ardınca, sanki, bir köpək.
Yusifə bir afət dəyməsin deyə,

[1] Həməl – baharın ilk ayı

Bir neçə gözətçi qoymuş sürüyə.
Hər yerdə izləyib öz dildarını,
Saxlayırdı əldə ixtiyarını.
Gah öz can mülkünə sultan edirdi,
Gah da çölə salıb, çoban edirdi.
Lakin nə çobanlıq, nə də sultanlıq,
Yusifin şəninə deyildi layiq!

ZÜLEYXA YUSİFDƏN VÜSAL TƏLƏB EDİR VƏ YUSİF ONU RƏDD EDİR

Aşiq bir gözələ vurulsa əgər,
Qəlbi hey sıxılar, səbri tükənər.
Vüsal damənində çatmazsa əli,
Xəyalda qucuyar o şux gözəli,
Ürəyi qan olub gözündən axsa,
Yarın camalına doyunca baxsa,
Göz yaşı quruyar, sevinər bişək,
İstəyər qucumaq, istəyər öpmək.
Qucuyub öpmək də olsa müyəssər,
Başqa təmənnaya düşər könüllər.
Eşqdən bir kimsə kama çatmamış,
Sevənlər ömründə rahat yatmamış.
Əvvəli ah çəkib, qan udmaq olmuş,
Sonu ya ölüm, ya unutmaq olmuş.
Ölümlə qan udmaq olmuş məhəbbət,
Aşiqə rahatlıq olarmı qismət?
Züleyxa Yusifi görməzdən əvvəl,
Yuxuda, xəyalda daim o gözəl,
Yarın didarını arzulayardı,
Belə bir görüşə yol arayardı.
Elə ki didarı müyəssər oldu,
Ürəyində başqa həvəs doğuldu.
Nail olmaq üçün yeni arzuya,
Özünü gah oda vurdu, gah suya.
İstərdi o sərvi qoynuna salsın,

Ləblərindən öpüb kami-dil alsın.
Bağa gül şövqiylə gələn bir insan,
Bağrı lalə kimi yanıb dağlanan,
Gülü görən kimi məst olar əvvəl,
Sonra dərmək üçün gülə atar əl.
Züleyxa vəsldən söhbət açırdı,
Yusif ondan, ancaq uzaq qaçırdı.
Züleyxa seyr edir onun üzünü,
Yusif ayağına tikir gözünü.
Züleyxa gözündən axıdır qan-yaş.
Yusif ondan qaçır hey yavaş-yavaş.
Züleyxa odlanır, şam kimi yanır,
Yusif bu atəşdən kənar dayanır.
Züleyxa həsrətlə bir görüş umur,
Yusif görməməkçün gözünü yumur.
Qorxudan baxmayır onun üzünə,
O fitnə axtaran çılğın gözünə.
Aşiq o görüşü hesaba almaz
Ki, üzündə yarın gözü iz salmaz.
Aşiq bir ümmidlə ah çəkib ağlar
Ki, üzünə baxsın məhəbbətlə yar.
Aşiqin halına yar göz örtərsə,
Haqlıdır, gözündən al qan tökərsə!
Züleyxa belə bir möhnətə düşdü,
Sarsıldı qüssədən, zillətə düşdü.
Dərdü-qəm xəzanı gəldi bağına,
Sarı lalə qondu gül yanağına.
Könlündə dağ qədər qəm yükü vardı,
Bu yük qamətini əyib qırardı.
Getdi dodağının xoş yaraşığı,
Söndü üzündəki şamın işığı.
Ənbər saçlarına dəymədi daraq,
Təkcə əli dəydi saçın yolaraq.
Güzgü qarşısında durmadı üzü,
Üzünü qoyduğu yer oldu dizi.
Ürəkdən üzünə bəs ki axdı qan,
Ənniyə ehtiyac duymadı canan.

Gözünə çəkməzdi sürmə bir ara,
Dünya görünürdü gözünə qara.
Ağlayan bir gözə sürmə nə yarar?
Göz yaşı sürməni yuyub aparar.
Yandı Züleyxanın qəlbi, nəhayət,
Dil açıb, özünə eylədi töhmət.
Dedi: – Ey bir qulun əsiri olan,
Əl götür bu qədər rüsvayçılıqdan!
Səni şahlıq taxtı edib sərəfraz,
Qulla eşqbazlıq sənə yaraşmaz!
Sən hələ ondakı təkəbbürə bax!
İstəməz Züleyxa vəslinə çatmaq!
Misir qadınları bilsələr əgər,
Məlamətlə məni həlak edərlər!
Belə söyləyirdi o gözəl, ancaq
Sözü diləyindən uzaqdı, uzaq!
Unutmaq olmazdı ona müyəssər,
Dərdi ovutmazdı bu əfsanələr.
Xoş demiş ürəyi dağlı eşqbaz,
Güldən rəng, mişkdən ətir kəm olmaz!
Bəli, qovuşarsa canla məhəbbət,
Onları ayırmaq müşküldür, əlbət.
Bir anda bədəndən ayrılarsa can,
Eşq ilə peyvəndi qırılmaz bir an.
Cananın yolunda aşiq verər can,
Aşiqə canından artıqdır canan!

DAYƏ ZÜLEYXADAN YANIB ƏRİMƏSİNİN SƏBƏBİNİ SORUŞUR

Dayə Züleyxanı görcək pərişan,
Soruşdu: – Gözündən niyə axar qan?!
Gözüm işıq tapar səni görəndə,
Ürəyim şənlənər üzün güləndə.
Könlündə qubar var, canında, ələm,
Bu halın səbəbi nədir, ey sənəm!

Daim yanındadır sevdiyin canan,
Nədən darıxırsan, nədən yanırsan?
O zaman ki səndən uzaqdaydı yar,
Yansaydın, deyərdim, sevənlər yanar!
İndi vüsal çağı bu yanmaq nədir?
Eşqdən şam kimi odlanmaq nədir?
Söylə, hansı aşiq qismətindədir
Ki, yarı qul kimi xidmətindədir?
Nə qədər xoşbəxtsən, olum qurbanın
Ki, sənə qul olmuş sənin sultanın!
Şahlığın tacına layiq bir sərvər,
Əmrinə tabedir, bəs deyil, məgər?
Üzünə doyunca baxıb şad yaşa,
Dünyanın qəmini at, azad yaşa!
Lalə yanağının rəngindən al kam,
Gözəl yerişini izlə, tut aram.
Dodağını görüb, canını bəslə,
O sərv qaməti oxşa həvəslə.
Züleyxa dayəni dinləyib durdu,
Qanlı yaş gözündən fəvvarə vurdu.
Axdı ürək qanı gözündən yerə,
Açdı qəlbindəki sirri bir kərə.
Dedi: – Ey anadan əziz, mehriban,
Dərdimdən xəbərdar deyilsən, inan!
Əfsus ki, bilməzsən qəlbimdə nə var?
Deyirsən, daima yanımdadır yar.
Durur xidmətimdə hər axşam-səhər,
Lakin o xidmətdən görmürəm əsər.
Yanımdan bir an da uzağa getməz,
Lakin bir baxışla məni şad etməz.
O susuz halına gərək ağlamaq
Ki, su içə bilməz yanında bulaq.
Görüncə şam kimi yanan üzünü,
Tikir ayağına iki gözünü.
Düşünüb, deyirəm özü-özümdən,
Ayağı gözəldir mənim üzümdən.
İstərəm göz açıb üzünə baxmaq,

Alnı düyümlənir, tökür qaşqabaq.
Mən onu etmirəm, lakin məzəmmət,
Onun etdiyinə tutulmaz qələt.
Qaşları bağrıma vurmuş düyümlər,
Düz işi o əyri qaşlar düyünlər.
O qədər düyünə düşmüş işlərim
Ki, ona baxmağa çatmır hünərim.
Dili dolanmayır mənə söz deyə,
Deməli, istər ki, aşiq qan yeyə.
Şövq ilə baxdıqca ləlinə hər an,
Axır gözlərindən qətrə-qətrə qan.
Arzumun fidanı olan qaməti,
Mənə meyl etməyə azdır rəğbəti.
İstərəm boyundan alma dərəm mən,
Yüz sədmə görürəm alma dərmədən.
Buxaq quyusundan mən istərəm kam,
Kədər quyusuna salar dilaram.
Ətəyin tutmağa can əlim çatmaz,
Ayağı altında olum payəndaz.
Dayə Züleyxanı dinləyib o dəm,
Dedi: – Çox çətindir bu dərdə məlhəm.
Qarşıya çıxan bir zəruri hicran,
Yaxşıdır belə bir acı vüsaldan!
Bir qəm yetirərsə hicran ələmi,
Belə vəslin olar iki yüz qəmi.

ZÜLEYXA DAYƏSİNİ YUSİFİN YANINA GÖNDƏRİR, ONDAN VÜSAL İSTƏYİR, YUSİF İSƏ ONU RƏDD EDİR

Dərdi sonsuz olan Züleyxa birdən,
Gördü, ummaq olar əlac dayədən.
Dedi: – Ey yüz kərə dadıma çatan,
Hər çətin günümdə əlimdən tutan!
Bir daha yardım et, mənə ol qəmxar,
Bu qəmli canımı qüssədən qurtar!

Qədəm qoy başıma, get ona tərəf,
Başım ayağından qoy tapsın şərəf.
Söylə: – Ey naz ilə boy atan fidan,
Ey üzü lətafət mülkünə sultan!
Camal bağçasından, naz gülşənindən,
Bitməmiş qəddin tək bir sərvü səmən,
Bir palçıq yoğurub könüllə candan,
Ona fidan salıb cənnət bağından.
O fidan yüksəlib atdı qol-budaq.
Dedilər: – Qəddindir, cürətsiz ancaq.
Zamanın anası doğandan bəri,
Doğmamış sənin tək bir saf gövhəri.
Adəmin gözünün işığı sənsən.
O gül üzün etdi aləmi gülşən.
Gözəlliyin olmaz heç bir bəşərdə,
Nə huri, nə mələk, nə pərilərdə!
Pəri utanaraq sənin hüsnündən,
Qaçıb gizlənmişdir insan gözündən.
Mələyin məskəni uca göylərsə,
Öpər ayağından, yerə enərsə,
Məqamını belə yüksəltmiş fələk,
Kölgəni aşiqə salasan gərək.
Züleyxa olsa da gözəl bir nigar,
Düşmüş kəməndinə ağlayıb sızlar.
O səni sevmişdir olarkən uşaq,
Çoxdandır işləyir könlündə bu dağ.
Üç kərə görmüşdür yuxuda səni,
Oduna yanaraq atmış vətəni.
Su kimi çəkilmiş zəncirə hərdən,
Atlanıb yel kimi çapmışdır bəzən.
İndi də canını əridir sevda,
Yeganə arzusu sənsən dünyada.
Nə qədər getməmiş həyatı əldən,
Rəhm elə, bir hal tut o şux gözəldən.
Sənin ləblərində dirlik suyu var,
Nə olar, bir qətrə ona qıl nisar?
Sənin qamətindir bar verən ağac,

Nə olar, meyvəndən yesə bir möhtac?
Razı ol, ləbindən öpüb kam alsın,
Bəlkə qəlbindəki yanğı azalsın.
İzin ver, yolunda olsun payəndaz.
Şaxəndən yaş xurma toplasın bir az.
Sən kimi sultanın nəyi əksilər?
Salsan ona sarı hərdənbir nəzər.
Onu Misr elləri tutsa da əziz,
İstər kənizinə olsun bir kəniz.
Dayənin sözünü Yusif eşitdi,
Dil açıb, hər sözü bir gövhər etdi.
Dedi: – Ey dünyada hər sirri bilən,
Bil ki, sözlərinə aldanmaram mən!
Satınalma qulam mən o dilbərə,
Mərhəmət görmüşəm ondan min kərə.
Böyükdür boynumda onun minnəti,
O mənə vermişdir nazü-neməti.
Əgər ömrüm boyu təşəkkür etsəm,
Yenə minnətindən çıxa bilmərəm.
İndisə duraraq xidmətində mən,
Qul kimi çıxmaram heç bir əmrindən.
Lakin ürəyində bir təmənna var,
Onu qəbul etsəm, xəyanət olar.
Bəd əməl istəyən nəfsin ucundan,
Ölərəm, xəyanət etmərəm, inan!
Mənə oğul demiş Misrin Əzizi,
Evinin əmini saymışdır özü,
Onun sayəsində tapmışam nemət,
Rəvadırmı edim ona xəyanət?
Belə yaratmışdır xaliq bəşəri,
Ayrıdır onların təbiətləri,
İnsandan it olmaz, itdən də insan,
Göyərməz heç zaman arpa buğdadan!
Həlalzadə olan nəfsini saxlar,
Zinadan törəyən olar zinakar!
İsrail sirri var sinəmdə mənim,
Cəbrayıl olmuşdur mənə müəllim.

İshaq ocağında aldım tərbiyə,
Nəslimcə layiqəm peyğəmbərliyə.
İbrahim bağında açan bir güləm,
Gizli sirlər ilə doludur sinəm.
Doğru yoldan azıb işləsəm günah,
Mənə nə deyərlər, Allaha pənah!?
Sən get, Züleyxanı bu yoldan qaytar,
Məndən umduğunu başından çıxar,
Ümid edirəm ki, pak olan Allah,
Qoymaz, həvəs üçün işləyək günah.

ZÜLEYXANIN ÖZÜ YUSİFİN YANINA GEDİR, ONA YALVARIR, LAKİN YUSİF ONUN TƏKLİFİNİ YENƏ DƏ RƏDD EDİR

Dayə Züleyxaya gətirdi xəbər
Ki, onun zəhməti verməmiş səmər.
Züleyxa bu sözü eşidən zaman,
Qıvrım saçı kimi oldu pərişan.
Kirpikdən axıtdı çiyər qanını,
Qara badamlardan yaş innabını.
Yürüdü sərvtək Yusifə sarı,
Sayəsi altına aldı dildarı.
Dedi: – Ayağının torpağıyam mən,
Bir an sağ qalmayım səni sevmədən!
Eşqinlə doludur hətta tüklərim,
Özümdən tük qədər yoxdur xəbərim.
Xəyalın cismimin can çırağıdır,
Kəməndin boynumun boyunbağıdır.
Canımı qəmlərə salan da sənsən!
Eşqinlə canımı alan da sənsən!
Könlümün qüssəsi gəlməz bəyana,
O dönmüş gözümdə bir qətrə qana.
Eşqin dəryasında qorxu bilmədin,
Təpədən-dırnağa qərq olmuşam mən.
Əgər damarımı deşsə qan alan,

Çıxar qan yerinə qəmin damardan.
Bu sözlər Yusifə çox etdi təsir,
Züleyxa soruşdu: – Bu halət nədir?
Sən mənim gözümsən, ağlasan əgər,
Bir daha gülmərəm ölənə qədər.
Bir qətrə yaş axsa kirpiklərindən.
Od düşər canıma, odlanaram mən.
Hüsnünün möcüzü sayılır bu da,
Su ilə salırsan canımı oda.
Yusif Züleyxanı görüncə qəmli,
Ürəyi atəşli, gözləri nəmli,
Züleyxa gözündən inci tökən tək,
Lələndən Yusif də gövhər səpərək,
Dedi: – Ağlayıram, bil, budur illət
Ki, mənə düşməyir əsla məhəbbət!
Doğma bibim sevdi məni bir zaman,
Məni rüsvay edib, dedi oğrusan!
Öz atam da məni çox sevdiyiçin,
Mənə qardaşlarım bəslədilər kin.
Atamın yanından saldılar uzaq,
Bu qürbət ölkədə olmuşam dustaq!
Sinəmdə fikirdən qan olur ürək,
Sən sevsən, başıma nələr gələcək?
Məşuqlar, adətdir, qısqanc olarlar,
Sevilmək mülkünə olub hökmdar.
Nə əvvəl, nə axır heç kəsi, əsla!
Şərik istəməzlər, eşqə, sövdaya.
Sərv gözəllikdə baş çəksə əgər
Kölgə tək yer ilə yeksan edərlər.
Səmada üzünü bəzəsə bir ay,
Qısqanclıq şimşəyi vurub edər zay.
Günəş ki fəzanın ovcuna çatar,
Onu həsəd əli məğribə atar.
Züleyxa dedi: – Ey nurlu çirağım!
Sənsən parlaq ayım, arxam, dayağım!
Demirəm, gözündə əziz bil məni,
Öz kənizlərinə kəniz bil məni.

Ürək məhəbbəti, sinə dərdindən,
Başqa şey gəlməyir mənim əlimdən.
Mən səni sevirəm canımdan artıq,
Düşmənlik gözləmək məndən, nə layiq?
Kim istər, öz əli canını alsın?
Kim istər ruhunu bəlaya salsın?
Eşqindən ürəyim para-paradır,
Dilinlə vurduğun bu nə yaradır?
Lütf qıl, ləbindən mənə busə ver,
Eşqimi qəbul et, murada yetir!
Mənimlə bu yolda yoldaş ol, barı!
Gəl, birgə keçək bu ağır yolları!
Yusif cavabında dedi: – Ey xanım,
Qulluq zəncirinə bağlıdır canım!
Qulunam, vəzifəm sənə qulluqdur,
Mənə qul əlindən gələn iş buyur!
Ağalıq gözləmə sən öz qulundan,
Məni utandırır dediyin ehsan!
Mən kiməm, sənինlə yaradıb ülfət,
Ağama, Əzizə edim xəyanət?!
Şahla bir duzdana barmaq uzadan,
Bir qulu layiqdir, öldürə sultan!
Gərək öz yerini tanısın hər qul,
Sən də gəl, məni qıl iş ilə məşğul!
Necə xidmətin var, buyruq ver mənə.
Can-başla edərəm itaət sənə!
Yəqin eşitmisən, məşhur məsəl var:
Qulun işləyinin qiyməti artar.
Çalışqan qulların könlü olar şad,
Tənbəl qul olunmaz qulluqdan azad.
Züleyxa dedi: – Ey bəxtiyar insan!
Qarşında əsgikəm bir qara quldan!
Hər yerdə bir işə başlayanda mən,
Yüz işçi yüyürür, tutur əlimdən!
Onlar ola-ola sənə iş demək,
Eyibdir, sən də bu fikrindən əl çək!
Yol yerimək üçün yaranmış ayaq,

Olmaz ki, gözü də biz ayaq sayaq.
Yerə ayaq qoysan, sənə güc verər,
Göz yerə dəyərsə, azar gətirər.
Yusif bu sözləri eşidib ondan,
Dedi: – Ey ürəkdən mənə mehriban!
Doğrudan, sevirsən əgər məni sən,
Arzumun əksinə getməməlisən!
Arzum işləməkdir, nə iş buyursan,
Dostluğa yaraşmaz maneə qursan!
Bir ürək sevirsə başqa ürəyi,
Diləyi olmalı, dostun diləyi!
Qılar istəyini dostuna qurban,
Öpər arzu dostun ayaqlarından.
Yusif Züleyxadan ayrılmaq üçün,
Söhbəti xidmətə həsr etdi bütün.
Qorxurdu yaxınlıq fitnə doğursun,
Fitnədən çalışdı uzaqda dursun.
Od ilə oynayan pambıq tez yanar,
Yaxşıdır oddan o qaçarsa kənar.

ZÜLEYXA YUSİFİ BAĞA GÖNDƏRİR VƏ ÖZ EŞQİ İLƏ ONU TƏQİB EDİR

Əfsanə bağının qoca bağbanı,
Belə nəzmə çəkmiş həmin dastanı.
Şəkər ləblərindən Yusif o qədər
Saçdı Züleyxaya qiymətli gövhər.
Züleyxa duşünüb daşındı bir az,
Gördü bu söhbəti uzatmaq olmaz.
Bir bağı var idi, amma necə bağ,
İrəm gülşəninin ürəyində dağ.
Bağın dövrəsinə çəkilmiş divar,
Divarda sarmaşıq hörmüşdür hasar,
Ağaclar çatmışdı budaq-budağa,
Sanki yar yarını almış qucağa.
Sərvin ətəyindən tutaraq çinar,

Yaşıl gərdəninə qolunu sarar.
Qızıl gül qönçədən taxta oturmuş,
Narvən başı üstə çətrini qurmuş.
Narınc ağacına bağ olmuş meydan,
Narıncı bir kosdur, budağı çövğan.
Meydanı görüncə rəqibdən xali,
Deyir: – Mən hamıdan aliyəm, ali!
Baş çəkib göylərə xurma ağacı,
Tutubdur onunla bağın rəvacı.
Hər salxım meyvəsi dadlı halvadır,
Xəstələr dərdinə şirin davadır.
Əncir şirə ilə, süd ilə dolmuş,
Bağda körpələrin dayəsi olmuş.
Hər əncir yeyən quş bir körpə kimi,
Əncirin döşünə vurar dimdiyi.
Günəş ağaclara min rəqəm çəkər,
Şəbəkə-şəbəkə zərqələm çəkər.
Bir-birə qarışar günəşlə kölgə,
Mişkdən vurular qızıla ilgə.
Günəşdən süzülən nurlu dalğalar,
Düzər gül dəfinə qızıl halqalar.
Bülbül cuşə gələr o halqalardan.
Oxuyar, yüksələr göylərə fəğan.
Söyüd budağını tərpətsə külək,
Arxlarda yüzlərlə balıq üzəcək.
Bağı süpürməyə yoxdur ehtiyac,
Şaxını süpürgə etmiş hər ağac.
Yaşılxət fərşidir təlim lövhəsi,
Tutulub gümüşə arxla dövrəsi,
Ariflər o lövhə salarkən nəzər,
Ölməz bir sənətin rəmzini görər.
Zər səpib qızıl gül aləmi bəzər,
Sarı gül aşiqin üzünə bənzər.
Səba bənövşənin hörmüş zülfünü
Sünbülün telindən açmış düyünü.
Laləni, reyhanı qucmuşdur səmən,
İpək don geyinmiş otlardan çəmən.

O bağda yan-yana bir cüt hovuz var,
Mərməri saf büllur kimi parlayar.
Hovuzlar bir üzdə cüt gözə bənzər,
Əyri-əyrisinə, düz-düzə bənzər,
Nə ona kərkidən dəymişdir yara,
Nə bunu yonarkən qopmuş bir para.
Nə onun çatılan yeri bəllidir,
Nə bunda bəndlərdən biri bəllidir.
Zənn edər onlara diqqətlə baxan,
Yaratmış peyvəndsiz, bəndsiz yaradan.
Züleyxa darıxıb bağa gedəndə,
Hovuzlar başında məskən edəndə.
Hovuzların biri südlə dolardı,
Digəri bal ilə ləbriz[1] olardı.
Gözəllər şahının yanına gələn,
Dayələr, kənizlər susayıb hərdən,
Hovuzdan süd alıb, bal götürərdi,
Qatıb bir-birinə şərbət edərdi.
Yusifi yenə də barındırdı bağ,
Hovuzlar yanında quruldu bir tağ,
Söhbətin tərkini qıldı Züleyxa,
Onu xidmət üçün göndərdi bağa,
Bülbül qızıl gülə dedi yavaşdan:
– Necə də yaxşı bağ, nə gözəl bağban!
Cənnətə oxşayan bir bağın ancaq
Bağbanı hüriylə Rizvan olacaq.
Züleyxa ayırdı yüz nəfər kəniz,
Hamısı bakirə, gül kimi təmiz.
Onları sərvtək düzdü sıraya,
Yüz ulduz xidmətçi oldu bir Aya.
Yusifə söylədi: – Mən sənə qurban,
Həlaldır, bunlardan yaxşı faydalan!
Cavanlıq dövrünün kamını al, gəl,
Vaxtını xoş keçir, şən yaşa, dincəl!
Sonra kənizlərə tapşırdı möhkəm,

[1] Ləbriz – dolub daşan

Dedi: – hamınıza mən əmr edirəm,
Yusifə xidmətdə can-başdan keçin,
Zəhər versə belə, tez alın için!
O bir can istəsə, siz yüz can verin,
Hərəniz yolunda can qurban verin.
Hər buyruq verərsə, şad olun əlbət,
Onun hər əmrinə qılın itaət!
Lakin hansınızdan götürərsə bar,
Əvvəlcə eyləyin məni xəbərdar.
Çılğınlıq üzündən Züleyxa yenə,
İncə naxış vurur arzu lövhünə.
İstərdi öyrənsin o kənizlərdən,
Hansıdır Yusifin xoşuna gələn.
Kimin vüsalına meyl edəcəkdir,
Onun yatağına kim gedəcəkdir.
İstərdi o kəniz yerinə xəlvət,
Bir gecə Yusifi etsin ziyarət,
O gözəl qaməti ağuşə alsın,
İlk dəfə qolunu boynuna salsın.
Barından gətirsin ağzını dada,
Bəlkə, bu yol ilə çatsın murada.
Dedi: – Yusif tutsun taxt üstə qərar,
Qıldı qədəminə canını nisar!
Əmr etdi kənizə, əysin ona baş,
Xidmətində dursun hər bir qaravaş!
Getdi, canı qaldı yarın yanında,
Yar dərdi yüklənib, qaldı canında.
Məşuqun əmrinə aşiq baş əydi,
O gərək hicrana könül verəydi.
Vüsal ki verməyir bəhrə dilbərə,
Xoşdur o vüsaldan hicran yüz kərə!
Hicran istəyirsə aşiqin könlü,
Gərək məşəqqətə dözsün sevgili!

KƏNİZLƏR YUSİFƏ YAXINLAŞIR, ONUN DİQQƏTİNİ CƏLB ETMƏK İSTƏYİRLƏR, YUSİF NƏSİHƏTLƏ ONLARI DÜZ YOLA DƏVƏT EDİR

Gecə güllü paltar geyindi göylər,
Fələyin gəlini oldu cilvəgər.
Pərvindən gərdənbənd taxdı boynuna.
Cilalı bir güzgü oldu Ay ona.
Kənizlər çıxdılar bağa gəzərək,
Hər biri özünə verdi min bəzək.
Səf çəkib Yusifin taxtı önündə,
Hamının diləyi birdi könlündə.
Biri şirin ləbdən tökərək şəkər,
Deyirdi: – Ağzını şirin et, dilbər!
Aç şəkər tüngünü bir tuti kimi,
Ləzzətlə ye mənim saf şəkərimi.
Digəri özündən açaraq söhbət,
Dedi: – Vəsfə gəlməz səndəki xislət!
Göz üstə yerin var, ol gözümə nur,
Bəbəklərim kimi gözümdə otur.
Bir ipək geyimli sərvboy sona
Dedi: – Gecə gəlib, məni qucsana!
Mislimi heç yerdə seçə bilməzsən,
Belə şux sərvimdən keçə bilməzsən.
Digəri zülfünə halqa vuraraq.
Dedi ki, halqada olmaz baş-ayaq.
Vəslinlə üzümə qapı aç, aman!
Asma halqa kimi məni qapından!
Biri də yengini vurub yuxarı,
Göstərib gül kimi zərif qolları,
Dedi: – Bəd nəzəri dəf edər bu əl,
Boynuna həmayıl edim, yaxın gəl!
Belinə saçından bağlayıb kəmər,
Tük ilə bəzədi tükü bir dilbər.
Dedi: – Gəl, qolunu belimə dola,
Eşqindən az qalır canım məhv ola.
Gözəllər hər biri bir minval ilə,

Vüsal istəyirdi həsbhal ilə.
Yusif gözəlliyin təzə bağıydı,
Kənizlər o bağın ot-alağıydı,
Hamının başında vardı bir həvəs,
Surətdə büt idi, özü bütpərəst.
Yusifin rəyini soruşsan əgər,
İstərdi doğruçu olsun kənizlər.
Onlara söz açdı hikmətdən, dindən,
Danışdı: nəfsdən, şəkdən, yəqindən.
Əvvəlcə dedi: – Ey gözəl kənizlər,
Aləmin gözündə candan əzizlər!
Əzizkən, çalışın, olmayasız xar,
Qoy aləm tanısın sizləri dindar!
Başımız üstündə vardır bir Allah,
Odur yoldan azan kəslərə pənah!
Rəhmətdən su vurmuş xəmirimizə,
Ağıl danəsini o əkmiş bizə
Ki, haman danədən bir nihal bitsin,
Bu can gülzarında kəmalə yetsin.
Yüksəlsin göylərə o ağac haman,
Meyvəsi – Allaha pərəstiş, iman!
Pərəstiş xaliqə layiqdir ancaq
Ondan başqasına olmaz tapınmaq!
Gəlin o xaliqə pərəstiş edək,
Onun qarşısında yerə döşənək!
Baş qoyaq səcdəyə ibadət üçün,
Baş bizə verilmiş itaət üçün.
O şəxsə baş əymək hədərdir, hədər
Ki, başla ayağı tutar bərabər!
Alıb öz əliylə daşdan büt yonar,
Olar o büt üçün dərdə giriftar.
Düşünməz ki, axır bu daş, nə daşdır?
İbadət etsə də, daş yenə daşdır!
Yusif sübhə qədər etdi movizə,
Haqqı başa saldı hər bir kənizə.
Hamısı təşəkkür edərək ona,
Baş əyib, düşdülər ayaqlarına.

Qıldı “şəhadəti” onlara təlqin,
Oldu ağızları o baldan şirin.
Elə bir baldan ki, bir barmaq vuran,
Həyatın acısı çıxar yadından.
Kim istər dünyada tapsın səadət,
Onun bir yolu var ancaq – “şəhadət”.
Oysa “şəhadət”lə hər yaman gözü,
Ağıllı qorunar pis gözdən özü.
Züleyxa yerindən qalxaraq səhər,
Yusifin yanına gəldi bixəbər.
Gördü: o kənizlər, o ayparalar,
Yığışıb Yusifdən din dərsi alar.
Bütləri sındırıb zünnarı qırmış,
Səcdəyə düşərək, qiyama durmuş,
Dilləri tövhidi etmişdir əzbər,
Xidmətə hazırdır hər gözəl dilbər.
Yusifə söylədi: – Ey gözəl canan,
Qəlbi aram edib, fitnə qoparan,
Üzündə başqa bir hüsn var bu gün,
Qərq olub cəmalın nura büsbütün.
Gecə nə etdin ki, artdı camalın?
Hüsndə bu yerə yetdi kamalın?
Nə yedin, bu hüsnü bəxş etdi sənə?
Baş oldun dünyanın gözəllərinə?
Yoxsa bu qızlarla yaxın olmağın,
Lalə yanaqlardan nura dalmağın,
Sənə bəxş etdi bu hüsni-cəmalı,
Verdi cəmalına yeni cəlalı?
Bəli, rəng götürər meyvə meyvədən,
Gözəllə əyləşsən, gözəlləşərsən.
Bu kimi sözlərdən çox dedi ona,
O bir söz almadı gül dodağına.
Həyadan gül kimi qızardı üzü,
Ağzını açmadı, dinmədi özü,
Utanıb, başını saldı aşağı,
İki gözü oldu, iki ayağı.
Züleyxa gördü, yan çəkir özünü,

Yenə də qaçırır ondan gözünü.
Həsrət atəşində canı odlandı,
Ümidi kəsildi, qəlbi dağlandı,
O nakam, canından ayrılıb yenə,
Qayıtdı qəm-qüssə, kədər evinə.

ZÜLEYXA DAYƏSİNİN YANINA GEDİR VƏ YUSİFİ YOLA GƏTİRMƏK ÜÇÜN ONDAN TƏDBİR İSTƏYİR

Eşq Züleyxanın bükdü qəddini,
Yusif saymazlıqda keçdi həddini.
Bir gecə dayəni çağırıb xəlvət,
Züleyxa göstərib mehrü məhəbbət.
Dedi: – Ey cismimə həyat bəxş edən
Görən gözlərimin çirağı sənsən!
Sənin zəhmətinlə bəslənmiş bu can,
Vücudum südünlə tapmışdır tavan.
Anamdan ziyadə sevirəm səni,
Sənsən boya-başa çatdıran məni.
Nolar ki, mehrinlə məni dünyada,
Çalışıb çatdırsan vəslə, murada?
Hicrandan nə qədər bağrı qan olum,
Cananın qəmində pərişan olum?
Mənimlə ki, belə biganədir yar,
Nə xeyri mənimlə həmxanədir yar.
Məşuq ki aşiqdən zəhləsi gedər.
Uzaqdır, yaxında olsa nə qədər!
Birləşə bilməzsə can ilə könül,
Su ilə torpaqdan nə olar hasil?
Dayə cavab verdi ki, ey pərizad,
Yanında hurini kimsə qılmaz yad.
Sənə xaliq vermiş elə bir camal
Ki, dinindən keçər hər sahib-kamal.
Əgər Çin rəssamı bir bütxanada,
Bir surət çəkərək sənə oxşada,
Ətrindən, yəqin ki, canlanar bütlər,

Üzünü görüncə, tapınar yeksər.
Dağ açıq görərsə, sənin surətin,
Gizlədər qəlbində öz məhəbbətin.
Bağa qədəm bassan, ey nazlı nigar,
Eşqdən canlanar quru ağaclar.
Ahular səhrada görsələr səni,
Kirpiklə yolundan yığar tikəni.
Şəkər ləblərinlə gəl-gəl çağırsan,
Quş havadan gələr, balıq dəryadan.
Belə bir hüsnlə bu məlal nədir?
Bu acizlik nədir, xəstə hal nədir?
Qəmzədən bir ox qoy kaman qaşına,
Ovla o dilbəri, çıxcaq qarşına.
O qıvrım saçından toxu bir kəmənd,
Bağla ayağına hər tükünlə bənd,
Cəzb qıl gözünlə gəlcək üz-üzə,
Ram edib, özünlə oturt diz-dizə.
O yarı qəddinlə addımlat bir an,
Lütfünlə onu et hüsnünə heyran!
Gül, ləbindən axıt şəhd ilə şəkər,
Şəhd ona yapışıb ardınca çəkər.
Ağ buxaq topuna sataşsa gözü,
Çovkan tək üstünə qalxacaq özü.
O qara xalına könlünü bağla,
Xalını göstərib qəlbini dağla!
Züleyxa söylədi: – Nə deyim, ana!
Yusifdən çəkdiyim dərdi qansana!
Göz açıb o mənə baxmayır bir dəm,
Nə çıxar önündə cövlan eyləsəm?!
Ayamsa, üzümü uzaqda görməz!
Günəşəm, nurumu torpaqda görməz!
Mən gözə nur verən bəbək də olsam,
Onun dar gözünə çətin yol tapam!
Əgər mənə tərəf baxsaydı bəzən,
Ya da əhvalımı sorsaydı hərdən,
Məni hicran dərdi belə yaxmazdı,
Ahımın alovu ərşə qalxmazdı.
Bəla o deyil ki, təkcə gözəldir,

Bədbəxtliyim odur ki, kəmməhəldir.
Dayə cavabında dedi bu zaman
Ki: Ey camalından günəş nur tapan!
Mənim xəyalıma bir tədbir gəlir,
Bəlkə də, dadına çata o tədbir?
Lakin bu iş üçün, söyləsəm aşkar,
Qızıl-gümüş gərək bir neçə xalvar!
Bir saray tikdirmək İrəm şəklində,
Əmr edək rəssama, fırça əlində,
Hər yanda sənətin gülünü əksin,
Yusiflə qol-boyun şəklini çəksin.
O saray Yusifin olsa məskəni,
Özüylə qol-boyun görərsə səni,
Camalının şövqü qəlbində doğar,
Canla-başla olar vəslə tələbkar.
Hər iki tərəfdən coşsa məhəbbət,
İşlər muradınca olacaq, əlbət!
Dayədən bu sözü eşidən zaman,
Züleyxa keçərək bütün var-yoxdan,
Tapşırdı dayəyə qızıl-gümüşü,
Dedi, gecikmədən başlasın işi.

DAYƏ SARAY TİKDİRİR, HƏR YERİ YUSİF VƏ ZÜLEYXANIN ŞƏKLİ İLƏ BƏZƏTDİRİR

Nağl edir bu dünya evini quran,
Dayə tikintiyə başlayan zaman,
Axtarıb, ölkədə tapdı bir memar,
Sənətdən xəbərdar, işdən xəbərdar.
Onun hünərini saysaydın əgər,
Hər bir barmağında vardı yüz hünər.
Həndəsə elmində keçmişdi həddi,
Rəsəd qanununa yaxşı bələddi.
"Məcəsti[1]" rəmzini həll edər asan,

[1] Məcəsti – İqlidusun məşhur həndəsə əsəri

"İqlidus[1]" keçməzdi elmi yanından,
İş vaxtı əlindən düşsəydi pərgar,
Barmağı çəkərdi yüz nəqşi-nigar.
Nəqşəsiz xətləri istəsə çəkmək,
Ona təbi edər bu işdə kömək.
Tişəni əlinə alarsa əgər,
Daş onun zərbindən xəmirə dönər.
Fikrini naxışa həsr edən zaman,
Yaradar min gözəl naxış xəyaldan.
Dünyada hər qədər imarət ki var,
Nəqşini bir dırnaq üstündə cızar.
Yaratmaq işinə edərsə iqdam,
Qələmlə dünyanı əks edər tamam.
Bir şəkil çəkərsə o ustad əgər,
Sənətilə ölü cismə can verər.
Daşda quş heykəli edərsə taraş,
Qanadlı quş kimi uçar ağır daş.
Dayənin hökmüylə o mahir ustad,
Zərrin bir kaşanə elədi abad.
Səadət sübhüydü səfalı bağı,
Arzu xəznəsiydi hər bir otağı.
Fərşi dəhlizlərin mərmərdən idi.
Qapılar şəvədən, ya zərdən idi.
Yeddi otaq idi onun xəlvəti,
Hər biri dünyanın gözəl cənnəti.
Hərəsinin daşı başqa rəng idi,
Safdı, hamar idi, həmahəng idi.
Səkkizinci göy tək yeddinci otaq,
Tapdı şəkillərlə başqa bir rəvaq[2].
Sənətkar ustanın coşdu ilhamı,
Qırx sütun dikəltdi, qızıldan hamı.
Vəhşi heyvanların şəklini çəkdi,
Evin hər tərəfi güldü, çiçəkdi.
Qızıl tavuslarla bağçası doldu,

[1] İqlidus – qədim yunan riyaziyyatçısı (eramızdan əvvəl III əsr)
[2] Rəvaq – tac

Sütunlar minalı ceyrandan oldu.
Ortada dünyanın gözü görməmiş,
Bəzəkli bir ağac göyə yüksəlmiş.
Budaqları qızıl, gövdəsi gümüş,
Başını firuzə yarpaqlar örtmüş.
Düzmüş hər budağa o yaradan əl,
Zümrüdqanadlı quş dimdiyində ləl.
Ağac yamyaşıldı çiçək içində,
Solmazdı xəzanda külək içində.
Quşları olmuşdu insanlara ram,
Bir yerdə dayanır hər səhər-axşam.
Rəssam hər tərəfə gül-çiçək əkdi,
Yusiflə Züleyxa şəklini çəkdi.
Qolboyun oturmuş sevgililər tək,
Eşqlə döyünür bir can, bir ürək.
Bir yerdə o əmir bunun dilini,
Bir yerdə bu qucmuş onun belini.
Tamaşa etməkçin evə gələnin,
Həsrətindən ağzı sulanar, yəqin.
Səqfində fələyin əksi olub nəqş,
Orada parlayır Ay ilə Günəş.
Sevgililər kimi Günəş də, Ay da
Qol-boyun olmuşdur haman sarayda.
Evin hər yanına baxanlar görər,
Bahar fəsli kimi açmışdır güllər.
Güllər qoşa-qoşa qucaqlaşaraq
Sarılmış bir-birə hey budaq-budaq.
Sarayın fərşində hər yerə baxsan,
İki gül görərdin qoşa, nazlanan,
Xülasə, o iki yarın timsalı,
Evdə qoymamışdı bir nöqtə xali.
Hər yana göz açıb baxasan əgər,
Onların surəti gözünə dəyər.
Ev belə tikildi cənnət bədili,
Artdı Züleyxanın Yusifə meyli.
Hər dəfə edərkən evə tamaşa,
Sel kimi, istərdi eşqdən coşa.

Şəklini görərsə aşiq cananın,
Hüdudu bilinməz şövqün, həycanın!
Qəlbində eşq odu yenidən yanar,
Sonsuz bir kədərlə qəlbi dağlanar.

ZÜLEYXA YUSİFİ YENİ SARAYA DƏVƏT EDİR VƏ ONDAN VÜSAL İSTƏYİR

Evin tikilişi axıra çatdı,
İndi də Züleyxa işə əl atdı,
Fərşinə döşədi ipək xalçalar,
Taxtını bəzədi altunla nigar.
Səqfinə cavahir qəndillər asdı,
Xoş ətir qoxusu sarayı basdı.
Könül nə istərsə, düzdü oraya,
Şövq ilə min bəzək vurdu saraya.
Hər şeydən, hər kəsdən ziyadə, ancaq
Yusifə o dilbər göstərdi maraq.
Bəli, cənnət belə, olmazsa canan,
Sevənlər gözündə çirkindir, inan!
İstədi, Yusifi tutaraq dilə,
Gətirsin saraya cah-calal ilə.
Xəlvətdə könlünə, bəlkə yol tapsın,
Vüsal meydanında atını çapsın.
Ruh verən ləbindən öpüb, alsın kam,
Tutsun ürəyini zülfündə aram.
Əvvəlcə özünə bəzək verərək,
Dedi: – Qoy Yusifdə titrəsin ürək!
Bəzəyə yox idi bir ehtiyacı,
Lakin istəyirdi artsın rəvacı.
Gül özü nə qədər xoş görünərsə,
Daha xoş görünər, şəbnəm düşərsə.
Verdi gül üzünə ənniklə bəzək,
Oldu yanaqları daha da göyçək.
Qaşının vəsmədən artdı kamalı,
Qövs-qüzeh oldu bayram hilalı.

Zülfünə bağladı ipəkdən telbənd,
Qıldı Çin mişkini telbəndə peyvənd.
Düzdü kürəyinə saçı Züleyxa,
Verdi ərğəvana[1] ənbərdən arxa.
Nazlı gözlərinə sürmə çəkərək,
Qara qul göründü göz içrə bəbək.
İstədi canana desin ərzhal,
Ənbərdən üzünə düzdü qara xal.
Yəni ki, eşq odun canıma dolmuş,
Könlüm o atəşə üzərrik olmuş.
Çəkdi ay üzünə nil ilə bir mil,
Gözəllik Misrini süslədi o Nil.
O xətt nil deyildi ayın üzündə,
Bəlkə də, bir mildi düşmən gözündə.
Görsəydi gözündə bəzəkçi nili,
Əlindən salardı sürməkeş mili.
Boyadı əlini şəfəq rənginə
Ki, aşiq könlünü salsın cənginə.
Ovcuna vuraraq incə naxışlar,
Dedi: – Əsir olar bu əlimdə yar!
Tutub yanağına tər innab çəkdi,
Yəni ki, göz yaşım innabi rəngdi.
On hilal yaratdı on barmağında,
Bir şəfəq söküldü hər dırnağında.
Bəzənib düzəndi bir qönçə kimi,
Qoydu qarşısına təzə geyimi.
Bir köynək geyindi gül bədəninə,
Gülü yaraşdırdı yasəmənino.
Qızıl gül şaxında açdı yasəmən,
Qolunda qızıl gül, cibində səmən.
Baxan zənn edərdi, bədəni sudur,
O su lalə ilə, güllə doludur.
Qəribə bir su ki, biləklərindən
İki gümüş balıq görünür həmən!
Su kimi saf idi gümüşi qollar,

[1] Ərğəvan – al (qırmızı) və ya çəhrayı rəngdə olan çiçək adı

Bir cüt balıq idi, sanasan, onlar!
Qollara bəzəkdi zər yaxalığı,
Zərlə həşyələmiş bir cüt balığı.
Üzüylə qolları deyir: – Bu nigar,
Aydan balığa tək fəth edib durar[1].
Köynəyin üstündən o nazik bədən,
Zərli bir don geydi Çin ipəyindən.
Min işvə-naz ilə o çinli sona,
Çin qumaşı içrə gəldi cövlana.
Bir xırman mişk idi başındakı sac,
Mişkə bəzək verdi minalı bir tac.
Düzdü ətəyinə, döşünə gövhər,
Tavus tək həyətə çıxdı o dilbər.
Gəzişir, ayrılmır lakin aynadan,
Özü-öz hüsnünə olurdu heyran,
Üzünə-gözünə baxıb o afət,
Hüsnünə verirdi ən yüksək qiymət.
Matahını görüb coşdu, öyündü,
Alıcı şövqiylə qəlbi döyündü.
Axtarıb tapmaqçın öz dildarını,
Göndərdi bir neçə pərəstarını.
Bu zaman qapıda bir ay göründü,
Cəlalda günəşə bir tay göründü.
Sanki, yaranmayıb torpaqdan, sudan,
Nur içində nurdu, o mahi-taban.
Bir qətrə hüsnüylə cahan nurlanar,
Hüsnünün bir hərfi yüz dastan olar.
Ona Züleyxanın gözü sataşdı,
Sanki, quru qamış oda tutaşdı.
Əlini tutaraq dedi: – Ey cavan,
Bəsirət əhlinə nurlu çıraqsan!
Qulluqda, vallahı, əvəzin olmaz,
Sənə hər bəxşişi az bilirəm, az!
Sənin qulluğuna qiymət verərək,

[1] Dini əfsanələrə görə, Ay fələkdə qərar tutur, yeddi yer tısbağası bir öküzün belinə yüklənmiş ki, o da bir balıq üstə dayanır. Misrada deyilir: Göylərin üstündən yerin təkinə qədər nə varsa, hamını Züleyxa gözəlliyi ilə fəth etmişdi.

Başını göylərə ucaldam gərək!
İstərəm haqqını ödəyim bu gün,
Təşəkkür etməkdir diləyim bu gün.
Gərək elə çıxam xəcalətindən
Ki, dünya danışsın səxavətimdən.
Onu dilə tutub, saldı qabağa,
Gətirib çıxardı ilkin otağa,
Elə ki, keçdilər qızıl qapıdan,
Züleyxa qıfıla verdi bir təkan.
Qapını bağladı, açdı dilini,
Başladı deməyə dərdi-dilini.
Dedi: – Arzum, eşqim, muradım sənsən,
Tək sənin eşqinlə yaşayıram mən.
Uşaqkən yuxuda gördüm camalın,
Yuxunu gözümdən aldı xəyalın.
Eşqinlə könlümü divanə etdin,
Məni dərdü-qəmlə həmxanə etdin.
Göz açıb üzünü görmədən bir an,
Düşdüm bu ölkəyə qərib, sərkərdən.
Çarəsizliyimdən düşdüm avara,
Yanıb qəm oduna, oldum biçara,
İndisə üzünü görməklə şadam,
Sən məndən qaçırsan, sevincə yadam.
At utancaqlığı, ülfətə alış,
Mənimlə bir kəlmə mehriban danış!
Yusif utanaraq dedi: – ol əmin,
Yüz şah mənim kimi qulundur sənin!
Məni qəm qeydindən gəl azad elə,
Lütfünlə könlümü bir an şad elə!
Sənlə bir pərdə arxasında, bil,
Belə tək qalmağım mənə xoş deyil.
Mən quru pambığam, sən odlu şimşək,
Mən mişkin ətriyəm, sən coşqun külək.
Bu pambıq o odla necə uzlaşar?
Ətir o küləyə necə qatlaşar?
Züleyxa saymadan onun sözünü,
İkinci otağa saldı özünü!

Yenə də qıfılı bağladı möhkəm,
Yusifin qəlbini sıxdı dərdü-qəm.
Yenə Züleyxanın yüksəldi ünü,
Açdı neçə illik sirrin üstünü.
Dedi: – Sən mənimçün əzizsən candan,
Məndən üz döndərmə, mən sənə qurban!
Ağlımı, huşumu verdim əlimdən,
İndi bir qapıdır, bir də sən və mən.
Deyirəm: dərdimin dərmanı ol gəl,
Əmrimdən çıxmaqdan daha götür əl!
Sözümə itaət etməsən əgər,
Özün inadından çəkərsən zərər!
Söylədi: – Bir iş ki, sayılır günah,
O işə qol qoymaq üsyandır, vallah!
O iş ki Allahın özü sevməyir,
Onda israr edən ancaq bəndədir!
O işi tutarsam, gərək xar olum,
Dünyada zillətə giriftar olum.
Bununla orada kəsildi söhbət,
Başqa bir otağı qıldılar xəlvət,
Züleyxa bir qıfıl asdı qapıdan,
Öz ürək sözünü söylədi əyan.
Hiylənin, kələyin yox idi sonu,
Otaqdan-otağa çəkərək onu,
Hər yerdə deyirdi yeni hekayət,
Öz ürək dərdindən başqa şikayət.
Altı ev keçdilər, yoxdu bəhrəsi,
Yenə şeşxanada qaldı möhrəsi.
Yeddinci otağa qoydular qədəm,
Dilək axtarırdı oradan sənəm.
Bəli, ümidini kəsməz sevənlər,
Qaranlıq gecədən doğar ağ səhər.
Yüz qapı açaraq ümid diləsən,
Qəm yemə, onlardan kömək görməsən.
Yeni bir qapını döy dayanmadan,
Bəlkə də, məqsədə çatasan ondan.

ZÜLEYXA YUSİFİ YEDDİNCİ OTAĞA GƏTİRİR, ONDAN MURAD İSTƏYİR, YUSİF ONU RƏDD EDİR

Bu sirli sarayın söz söyləyəni,
Belə nəql eləmiş bu hekayəni:
Elə ki yeddinci otağa çatdı,
Züleyxa ağlayıb, şivən qopartdı.
– Ey Yusif, gözümün üstə qoy qədəm,
Lütfündən bəzənsin bu nurlu hərəm.
Yusifi orada salaraq girə,
Dəmir qıfıl vurdu qızıl zəncirə.
Otaqda yox idi əğyardan əsər,
Paxıllar oradan tutmazdı xəbər.
Onun qapısından yadlar girməmiş,
Dostlar da oraya üz çevirməmiş.
Aşiqlə məşuqdan başqa yox bir kəs,
Nə darğa görünər, nə də bir əsəs[1].
Məşuqun üzünə bəzək verib naz,
Aşiq könlü edib şövqdən pərvaz.
O geniş meydanda həvəs odlanar,
Tamahın canına od düşüb yanar.
Məst olub Züleyxa yanında canan,
Əlini əlindən buraxmaz bir an.
Şirin sözlə salıb atəş canına,
Yusifi gətirdi təxtin yanına.
Özünü o taxtın üstünə saldı,
Ağladı, Yusifin seyrinə daldı.
Dedi: – Ey gülüzlü, mənə nəzər sal,
Könlümü lütf ilə bir dəm ələ al.
Günəş camalımı görərsə əgər,
Ay olub, üzümdən işıq əxz edər.
Məni dərd oduna yaxdığın yetər,
Həqarət gözüylə baxdığın yetər!
Ürək sözlərini deyib o nigar,
Eşqini Yusifə qılırdı izhar.
Onun fitnəsindən Yusif qorxaraq,

[1] Əsəs – gecə keşikçisi

Başını aşağı tuturdu ancaq.
Otağın fərşinə sataşdı gözü,
Gördü: Züleyxadır, bir də ki, özü,
İpək bir yataqda ikisi bərk-bərk,
Qucub bir-birini uzanmış, gerçək!
Oradan gözünü ayırdı birdən,
Başqa bir nöqtəyə baxınca həmən,
Özünü onunla gördü qol-boyun,
Pozdu əhvalını bu sirli oyun.
Qapıya, divara, baxdı hər yana,
İki gül oturub gördü yan-yana.
Göyə üz tutdu, ah, Allah amandır!
Gördü səqfdə də mətləb hamandır!
Artdı Züleyxaya meyli bu zaman,
Üzünə bir kərə baxdı mehriban.
Doğdu Züleyxanın könlündə ümid,
Zənn etdi, doğacaq üzünə xurşid.
Yaralı ahu tək qəmdən mələdi,
Könlünün qanını gözdən ələdi.
Dedi: – Mətləbimi rəva qıl, rəva!
Vəslinlə dərdimə dəva qıl, dəva!
Mən susuz, sən isə həyat suyusan,
Mən ölmuş, sən isə nuşdarusan[1]
Mən səndən uzağam, necə ki, canan,
Ölu candan olar, susuz bulaqdan.
İllərdir qəmində canım odlanar,
Şövqündən nə yemək, nə yatmağım var.
Məni qəm selində boğduğun, yetər!
Ac, susuz, yuxusuz qoyduğun yetər!
Səni and verirəm Allah eşqinə,
Şahların sultanı o şah eşqinə!
O hüsnə ki səndə xaliq yaratmış,
Dünyanı fəth edib, kamala çatmış.
O nura ki, sənin alnında parlar,
Ay olmuş önündə səcdəyə vadar.
Səni and verirəm kaman qaşına,

[1] Nuşdaru – əfsanəvi təsirli (sağaldıcı) dərman

Sərv qamətinə, uca başına,
Kaman qaşlarını çatan mehraba,
Zülfün kəməndini düyən qüllaba[1],
Könüllər ovlayan cadu gözünə,
Dünyanı bəzəyən o gül üzünə,
Bir tükə ki, ona sən bel deyirsən,
Bir sirrə ki, ağız zənn eləyirsən,
O gül yanağını bəzəyən xala,
Şəkər ləblərindən süzülən bala,
Həsrətində axan bu göz yaşıma,
Odlu ahlarıma, qəm sirdaşıma,
Üstümə dağ kimi yüklənən qəmə,
Könlümü odlayan dərdə, ələmə,
Bütün varlığımı əzən eşqimə,
Sonsuz qüruruna dözən eşqimə,
Rəhm qıl, ürəyim dönmüşdür qana,
Çətin işlərimi gəl, sal sahmana.
Bir çiçək dərməkçün sənin bağından,
İllərdir yanaram eşqin dağından.
Yaralı sinəmin məlhəmi ol, gəl!
Ətrinlə könlümün həmdəmi ol, gəl!
Hicrindən sarsılıb düşmüşəm oda,
Ver vüsal süfrəndən canıma qida.
Məndə süd, səndə ki, təzə xurma var,
Süfrə açmamağa nə bəhanə var?
Bu süddən, xurmadan cismimə can ver,
Həsrətlə ölməkdən mənə aman ver!
Yusif ona dedi ki, ey pərizad,
Sən varsan, pərini kimsə etməz yad,
Gəl, məni bu günah işə çağırma,
Məsumluq şişəmi daş ilə qırma!
Vurma ətəyimə günah ləkəsi,
Yandırar cismimi şəhvət şöləsi!
And olsun hər yerdə hazır Allaha,
Yaxşıya, yamana nazir Allaha!

[1] Qüllab – halqa, kitmək

Səxa[1] dənizində fələk bir hübab,
Zərrədir önündə nurlu afitab.
And olsun əcdadım pak insanlara!
Paklıqda oxşaram ancaq onlara!
Gövhərim onlardan almış yaraşıq,
Onlar ulduzuma vermişdir işıq!
Bu gün əl götürsən yaxamdan əgər,
Bu xəlvət binadan buraxsan əgər,
Mənim hörmətimdən feyzə çatarsan,
Mənim xidmətimdən razı qalarsan!
Kam alıb, ruh verən ləl-ləbimdən,
Könlün aram olar sərv qədimdən!
Murada çatmağa tələsmə zinhar,
Gec dəyən meyvələr ləzzətli olar!
Toruna gec düşən sürətli ceyran,
Yaxşıdır tez düşən çolaq dovşandan!
Züleyxa söylədi: – Bir susuz əgər,
Su tapsa, saxlarmı sabaha məgər?
Az qalıb ki, şövqün canımı alsın,
Qoymaram bu iş heç axşama qalsın.
Hanı məndə dəxi o səbrü-qərar,
Bu işi təxirə salam, ey nigar?!
Bir ləhzə mənimlə mehriban otur,
Sənə bu əmrdə nə mane olur?
Yusif ona verdi belə bir cavab:
Nədir qəlbində bu sonsuz iztirab?!
İki maneə var: rədd edir mehri,
Allahın qəzəbi, Əzizin qəhri.
Əziz duysa məndən nankorluq əgər,
Yüz dərdə, möhnətə giriftar edər.
Qılıncı sıyırar üstümə mənim,
Öldürər, köynəyim olar kəfənim.
Bir də ki, qiyamət günündə Allah,
Zinanı sayacaq ən ağır günah!
O, bəd əməllərə verərkən cəza,

[1] Səxa – səxavət

Qorxuram, adımı birinci yaza.
Dedi: – Əziz deyil qorxulu düşmən,
Onu işrət günü məst edərəm mən.
Bir camla canını yaxaram, bişək!
Yuxudan ayılmaz qiyamətədək!
Sən özün deyirdin, Allahım mənim.
Günahı əfv edər, rəhmdir, kərim!
Mənim içi dolu yüz xəzinəm var,
Bu xəlvət sarayda quylanmış onlar.
Allahın yolunda verərəm ehsan,
Məncə, keçər Allah günahlarımdan!
Yusif ona dedi: – Qoymaram ki, mən,
Bir kəs zərər çəksin mənim üzümdən!
Xüsusən, Əziz ki, tutaraq əziz,
Mənə bağışlamış misilsiz kəniz!
Mənim Allahıma gəlincə, inan!
Rüşvətlə könlünü çətin alasan!
Xəlq edib, müzd almaz heç birimizdən.
Rüşvətlə keçərmi təqsirimizdən?!
Züleyxa dedi: – Ey şahlardan xoşbəxt,
İstəsən, əlinə keçər tacü-taxt.
Qəlbimə qəm oxu vurmağın yetər!
Bəhanə gətirib durmağın yetər!
Bəhanə dediyin məkrü hiylədir,
Düz işi əyməkçin bir vəsilədir.
Əyri yol tutaram, Allaha pənah,
Sənin bu hiylənə dözmərəm, vallah!
Taqətim tükənmiş, məni qıl aram,
Necə olsa, gərək səndən alım kam!
Deməkdən yoruldum, etmədi əsər,
Muradım olmadı səndən müyəssər,
Daha kəs dilini, danışma, bir az,
Xeyr işdə gecikmək zərərsiz olmaz!
Quru qamış kimi yandığım zaman,
Sən ləzzət alırsan gur alovumdan!
Nə fayda bu oddan, tüstüsü əgər
Sənin gözlərinə qılmayır əsər.

Bu oda, tüstüyə sən oldun səbəb,
Barı, gəl oduma bir ovuc su səp!
Züleyxa sözünü çatdırdı sona,
Yusif rədd cavabı verərkən ona,
Züleyxa söylədi: – Bəsdir, danışdın,
Sözlə vaxt almağa yaman alışdın!
Çıxma istəyimə qarşı, yoxsa mən,
İntihar edərəm sənin əlindən!
Gəl, qucu boynumu, qucmasan əgər,
Öz əlimlə kəsər boynumu xəncər!
Bil ki, dolaşmasa qolun boynuma,
Düşər nahaq qanım sənin boynuna!
Xəncəri vuraram bir süsən kimi,
Qızardar gül kimi qan köynəyimi.
Ayrılıq dağıyla odlanar canım,
Sənin inadından qurtarar canım!
Əziz meyitimi qarşında görər,
Səni qatil bilib, vallah, öldürər!
Torpağın altında tutunca aram,
Canınla qovuşan canım alar kam!
Döşəyin altından aldı o dilbər,
Söyüd yarpağı tək yaşıl bir xəncər!
Yanan ürəyindən şivən qopardı,
Təşnə boğazına su tək apardı.
Yusif şimşək kimi sıçrayıb həmən,
Ki, tutub xəncəri alsın əlindən.
Dedi: – Bu əməldən əl çək, Züleyxa!
Səbirli olasan gərək, Züleyxa!
Bəlkə kama çatdın mənim vəslimdən,
Belə əbədilik ayrılma məndən.
Məhəbbət bürcünün ayı Züleyxa,
Yusifi mehriban görüncə daha,
Elə zənn etdi ki, Yusif olub ram,
Vüsala çataraq olacaq aram.
Xəncəri əlindən saldı, yönəldi,
Başqa bir məqsədlə yaxına gəldi.
Qolunu doladı belinə birdən,

Dalbadal busələr aldı ləbindən.
Qıldı incisini oxuna hədəf,
Etdi gövhərinə canını sədəf.
Yusif tuşlamadı oxu hədəfə,
İncini qoymadı yaxın sədəfə.
Könlü istəsə də, deşsin bir inci,
İsmət mane oldu ona birinci.
Züleyxa dil açıb hey yalvarırdı,
Yusif qaçmaq üçün yol axtarırdı.
O murad istəyir, hər dəm ağlardı,
Açdığı düyməni Yusif bağlardı.
Yusifin bir küncə üzü sataşdı,
Zərli bir pərdəyə gözü sataşdı.
Soruşdu: – Pərdədə kim var, bir dayan?!
Pərdənin dalında kimdir oturan?
Dedi: – Bir quvvədən çəkinirəm mən
Ki, çıxa bilmərəm onun əmrindən.
O qızıl bir bütdür gözləri gövhər,
İçini doldurmuş mişklə ənbər.
Mənim xaliqimdir o sənəm, deyə,
Düşərəm önündə hər an səcdəyə.
Dedim, sataşmasın gözümə gözü,
Pərdənin dalında gizlətdim, düzü.
Qoy məni görməsin günah iş üstə,
Din yolundan edən təbah[1] iş üstə.
Yusif fəryad etdi: – Bu barədə sus!
Yoxdur xaliqimdən xəbərin, əfsus!
Sən cansız gözləri salırsan saya,
Mən necə canlıdan etməyim həya?
Necə mən qorxmayım qadir Allahdan?
Xəbərsiz qalarmı o bu günahdan?
Bu sözlə özünü ataraq kənar,
Yataqdan çəkildi Yusif huşiyar!
Əlif uzaqlaşdı lam əlif-lamdan,
Şamdan uzaq qaldı o gümüş şamdan.

[1] Təbah – pis əməl

İti addımlarla Yusif qaçırdı,
Aradan çıxmağa yollar açırdı.
Hər bağlı qapıya çatdığı zaman,
Qıfıl qopub, düşür yerə qapıdan.
Barmağı olmuşdu, sanki, bir açar,
Hər işarəsiylə bir qapı açar.
Züleyxa sürətli addımlar atdı,
Sonuncu qapıda Yusifə çatdı.
Arxadan əlinə keçdi ətəyi,
Çəkib parçaladı ipək köynəyi,
Köynəyi yırtılmış bir qönçə kimi,
Çıxıb getdi əldən könül həmdəmi.
Züleyxa bu qəmdən nalə edərək,
Döşəndi torpağa qara kölgə tək.
Odlanan qəlbindən nalə yüksəldi,
Ney kimi coşaraq fəryada gəldi.
Nə qədər bədbəxtəm, – dedi, – ah, aman,
Küsüb o nazənin getdi yanımdan.
Əfsus ki, torumdan qaçdı o şikar,
Əfsus, o şəhdə ki, oldu zəhrimar.
Deyirlər, bir zaman ac bir hörümçək,
Gəzib axtarırdı özünə yemək.
Gördu bir tərəfdə oturub şahin,
Əlindən qurtarıb bir padşahın.
Hörümçək başladı tor toxumağa,
O məğrur şahini tora salmağa.
Quşun ətrafında hərlənib müdam,
Öz göbək suyunu işlətdi tamam.
Şahin qanadını bir kərə çaldı,
O tordan bir neçə qırıq tel qaldı.
O hörümçək mənəm, könlüm yaralı,
Düşdüm öz arzumdan ayrı, aralı,
Tel kimi qırılmış həyat damarım,
Quş kimi əlimdən uçmuş şikarım!
Əlimdə arzumdan, əməllərimdən,
Bir neçə qırıq tel qalmışdır həmən.

YUSİF ZÜLEYXANIN ƏLİNDƏN QAÇIR, ƏZİZ ONU GÖRÜR, LAKİN YUSİF SİRRİ AÇMIR, ZÜLEYXA YUSİFƏ BÖHTAN ATIR VƏ ƏZİZİ İNANDIRIR

Yazmış bu dastanı qələmə alan,
Yusif o saraydan çıxdığı zaman.
Gəldi qarşısına həyətdə Əziz,
Yanında bir dəstə əyan, qul, kəniz.
Yusifin halını gördü pərişan,
Əziz səbəbini soruşdu ondan.
Ədəblə söhbəti çatdırıb başa,
Yusif Züleyxanı etmədi ifşa.
Əlindən tutaraq Əziz hörmətlə,
Apardı içəri bir məhəbbətlə.
Züleyxa onları bir yerdə görcək
Dedi: – Yusif sirri açmışdır, demək.
Belə bir zənn ilə o şivən saldı,
Öz sirri üstündən pərdəni aldı.
Dedi: – Ey ədalət mizanı, söylə,
Onun cəzasını muəyyən eylə!
O sənin əhlinə etmişdir cəfa,
Mümkünmu özgəyə göstərsin vəfa?
Ağılsız, pərvasız qoşulub işə,
Qılmış xəyanəti özünə peşə.
Əziz ona dedi: – Sən, ey pərizad,
Söylə, nə olmuş ki, qopardın fəryad?
Dedi: – Sən bu ibri qula əvvəldən,
Mərhəmət göstərib, övlad demişsən!
Bu xəlvət otaqda rahat yatmışdım,
Könlumdən möhnəti, qəmi atmışdım
Gəldi yatağıma oğrular kimi,
İstədi talasın gül xərmənimi.
Elə zənn edirdi xəbərim olmaz,
Gül-çiçək bağıma girər, yaramaz!
Bağbanın izninə duymadan hacət,
Edər sünbulümu, gülümü qarət.
Əlini gətirdi irəli axmaq,

Vüsal xəzinəmi istədi açmaq.
Mən isə oyandım ağır yuxudan,
Yaxşı ki, özümə gəldim bu zaman,
Məni ayıq görüb, qorxudan əsdi,
Demək, baş tutmadı xainin qəsdi.
Çevrilib yüyürdu qapıya sarı,
Düşündü, xoşbəxtlik olacaq yarı.
Mən isə dalınca yüyürüb ancaq
Qapıdan bayıra basmadan ayaq,
Qısqıvraq yapışdım dal ətəyindən,
Gül kimi ayrıldı öz köynəyindən,
Cırılıb köynəyi əynində, baxsan,
Bilərsən ki, yoxdur sözümdə nöqsan.
Gərək ağır cəza verəsən ona,
Salasan bir muddət qara zindana.
Ya da bədəninə bir dağ vurasan,
Naləsi yüksəlsin göylərə hər an.
Yusifə bu cəza verməyin, əlbət,
Başqa qullara da olacaq ibrət!
Əziz bu sözləri eşidib həmən,
Sanki ayaqları üzüldü yerdən.
Əhvalı pozuldu, bədəni əsdi,
Dili qılınc kimi doğradı, kəsdi.
Yusifə söylədi: – Verərək gövhər,
Səni satın aldım, getdi xəznələr.
Sonra oğulluğa elədim qəbul,
Gözümün üstündə yer tapdı bir qul.
Etdim Züleyxanı sənə havadar,
Oldu kənizlərim sənə pərəstar,
Qullarım qul oldu sənin önündə,
Arxanda durdular yaman günündə.
Verdim var-yoxumu ixtiyarına,
Qıymadım könlünə, arzularına,
Bu ağıllı işmi, söylə, sən allah,
Bu bəd əməlindən Allaha pənah!
Bu fani dünyada, düşünsən bir az,
Yaxşıya yamanlıq eyləmək olmaz!

Yaxşılıq görərək, yamanlıq etdin!
Nankorsan, xəyanət yoluyla getdin!
Beləmi çıxarlar yaxşılığımdan?
Duz yeyib, duzdanı sındıran insan?
Qəzəbli görüncə Yusif Əzizi,
Həyadan pul kimi qızardı üzü!
Dedi: – Mühakimən, əfsus, düz deyil,
Günahsız bir qulu gəl, etmə zəlil!
Züleyxa nə deyir, yalandır ancaq
Onun sözləridir piysiz bir çıraq.
Qadın ki, yaranmış çəp qabırğadan,
Düzlük görünməmiş qadında, inan!
Sağı soldan seçən ağıllı bir kəs,
Əyridən doğruluq gözləməz, əbəs,
O məni ilk dəfə gördüyü gündən,
Ardımca düşərək, qoymaz gözündən.
Gah çıxar qabaqdan, gah da arxadan,
Yüz hiylə, yüz kələk işlədər hər an.
Məni çox çağırmış, mən getməmişəm,
Vüsal süfrəsinə meyl etməmişəm.
Səndəki ehsanı, lütfü görərək,
Xəyanət eləsəm, məhv olam gərək.
Çəkilib bir küncə qəriblər kimi,
Çəkirdim özümün qürbət dərdini.
Züleyxa yanına edərək dəvət,
Hər yerdən, hər yandan açdı söz-söhbət,
Şirin dillə mənim könlümü aldı,
Bu xəlvət otağa gətirib saldı.
Burada istədi kam ala məndən,
Mən isə qurtarıb qaçdım əlindən!
Züleyxa dalımca hızla qaçaraq,
Tutub parçaladı köynəyimi bax.
Onunla rəftarım bu olmuş inan,
Bütün dedikləri yalandır, yalan!
Əgər inanırsan, həqiqət budur,
Əgər inanmırsan, boynumu vurdur!
Züleyxa Yusifi dinləyib o dəm,

Əvvəlcə Allaha yad etdi qəsəm,
Sonra da and içdi qara bəxtinə,
Misir sultanının tacü-təxtinə.
Əgər bir günahsız düşərsə girə,
Rəvadır, Allahı şahid gətirə.
Yalandan düşünüb and içən ancaq
O yalan and ilə ifşa olacaq!
Züleyxa and içib hey ağlayaraq,
Dedi ki, fitnəkar Yusifdir ancaq.
Fitnə çırağını yandıran zaman,
Qadının göz yaşı yağ olar haman!
O yağla alışan çıraq bir anda,
Dünyanı qərq edər alovda, qanda.
Əziz göz yaşına, anda inandı,
Həqiqət görməyə gözü qapandı.

ƏZİZ YUSİFİ CƏZALANDIRMAQ İSTƏYİR, YUSİF YALVARIR, İKİ AYLIQ UŞAQ YUSİFİN GÜNAHSIZ OLDUĞUNU İQRAR EDİR

Əmr etdi sərhəngə Əziz o zaman,
Yusifə bir an da verməsin aman.
Rəhmət ayəsini silib qəlbindən,
Can telini qırsın qəm zərbəsindən!
Aparıb qaranlıq zindana salsın,
Bəlkə o gizli sirr aşkar olsun.
Yusifi salaraq sərhəng önünə,
Gətirdi zindana, möhnət evinə.
Yusif dərd əlindən yanıb inlədi,
Göylərə əl tutub, dua eylədi,
Dedi: – Ey sirlərdən olan xəbərdar,
Sənsən gizli sirri qılan aşikar!
Yalanı doğrudan ayıran sənsən,
Gərək həqiqəti sübut edəsən!
Həqiqət nurundan yaratdın məni,
Qoyma üzərimdə qara ləkəni.

Mənim düzlüyümə bir şahid göstər.
Parlasın həqiqət, o nurlu səhər!
Hümməti önündə göylər baş əydi,
Onun dua oxu hədəfə dəydi.
Züleyxanın yaxın adamlarından,
Bir qadın ki heç vaxt ayrılmaz ondan,
Qucağında iki aylıq bir uşaq,
Orada durmuşdu könlündə maraq.
Uşaq körpə idi, dil açmamışdı,
Dilindən bir kəlmə söz qaçmamışdı.
Nagəhan söylədi: – Əziz, tələsmə!
Yalana inanıb, qəzəbdən əsmə!
Yusifə əziyyət verməkdən əl çək!
Ona yüz mərhəmət edəsən gərək!
Əzizi sarsıtdı uşağın sözü,
Qızardı, saraldı heyrətdən üzü.
Dedi: – Ey südəmər, bilirəm ki, mən,
Allahın əmriylə dilə gəldin sən.
Söylə, kim bu odu alovlandırdı?
Kim şərəfpərdəmi onda yandırdı?
Dedi: – Mən deyiləm xəbərçi, nəmmam[1],
Bir kəsin sirrini bir kəsə açam.
Mişk üzü qaradır xəbərçilikdən
Ki, ətri yayılar çölə pərdədən.
Bahar çiçəkləri pərdədə gəzər,
Hüsnünə vurular, kim salsa nəzər.
Xəbərçi deyiləm, düzünü bilsən,
Bu sirri açasan gərək özün sən.
Yusifin halından yaxşı tut xəbər,
Yoxla köynəyini, o köynək əgər
Parçalanmış olsa qabaq tərəfdən,
Züleyxa arıdır hər cür ləkədən.
Demək, iftiradır Yusifin sözü,
Yalandan bir dastan düzəldir özü.
Köynək cırılmışsa arxadan əgər,
Yoxdur xəyanətdən Yusifdə əsər!

[1] Nəmmam – xəbərçi, aravuran

Onda bil, Züleyxa yalan danışır,
Düz yoldan azaraq, böhtan danışır.
Əziz bu sözlərə qulaq asaraq,
Köynəyi yoxladı, nə gördü ancaq
Köynək parçalanıb arxa tərəfdən,
Hiyləgər qadına söylədi ki, mən
Bildim ki, nə qədər sən fitnəkarsan!
O məsum oğlana atırsan böhtan!
Qurduğun bu kələk, de, nə kələkdir?
Özünə bir çirkin ləkə deməkdir!
Niyə namusunu atdın, ey nigar,
Bir qulun eşqinə oldun giriftar?!
Mələkdin, girərək şeytan donuna,
Təqsiri yıxırsan onun boynuna.
Qadınlar həmişə olmuş hiyləgər,
Onlardan yüz bəla çəkmişdir bəşər.
Əzizi məkr ilə xar edər qadın,
Qadındır batıran kişinin adın.
Hiylədən düşməsin kimsə zillətə,
Hiyləgər qadınlar gəlsin lənətə!
Get, barı tövbə qıl kərim Allaha,
Hiyləni, fitnəni tərk qıl daha!
Ağla, fələklərə yüksəlt ahını,
Yu öz göz yaşınla öz günahını.
Ey Yusif, dilini salıb qəfəsə,
Bu sirri söyləmə daha bir kəsə.
İnandım sözünə paksan, təmizsən,
Yanımda hər kəsdən artıq, əzizsən,
Çalış, sakınasan söz gəzdirməkdən,
Pərdə yırtan deyil, ol pərdə tikən.
Əziz bu sözlərlə çıxdı saraydan,
İstərdi tanınsın həlim bir insan.
Həlimlik yaxşıdır, lakin həddi var,
Səbrdə aqillər həddi aşmazlar.
Qadına güzəştə gedərsə bir ər,
O öz qulağına zəfəran sürtər.
Qadına güzəştə getmə bir an da,
Yıxarsan qeyrəti, yoxsa bir anda.

ZÜLEYXANIN EŞQİ DİLLƏRƏ DÜŞÜR, MİSİR QADINLARI ONU MƏZƏMMƏT EDİR, ZÜLEYXA EŞQİNDƏ HAQLI OLDUĞUNU SÜBUTA ÇALIŞIR

Səlamət küncünə sığışmaz aşiq,
Mələmətdir ancaq eşqə yaraşıq.
Odur təzələyən eşqin qəmini,
Şöhrətə çatdıran eşq aləmini.
Eşq bazarına darğadır töhmət,
Mələmətlə seyqəl tapar məhəbbət.
Aşiqə mələmət yağsa hər yandan,
Olar bu qamçıdan kamil bir insan.
Eşq atı yorulub gedərsə yavaş,
Bu qamçı dəydikdə mütləq alar baş.
Açıldı Züleyxa sirrinin gülü,
Bütün aləm oldu tənə bülbülü.
Misirli qadınlar tutunca xəbər,
Onu məzəmmətə açıldı dillər.
Təqibə başlayıb yaxşı-pisini,
Rişxəndə qoydular onun hissini.
Dedilər: – Namusun qəsdinə girmiş,
Könlünü ibrani bir qula vermiş.
Elə eşq oduna olmuş giriftar
Ki, dini unutmuş, bilməz namus, ar,
Eşq onu azdırmış doğru yolundan,
Vüsal təmənnası edər qulundan.
Qəribə budur ki, qul ondan qaçır,
Bu vüsal istəyir, o bundan qaçır.
Nə üzünə baxıb etina edər,
Nə də ki, onunla bir an yol gedər.
O, bir yana getsə, bu, tez dayanar,
O, bir yerdə dursa, bu tez yollanar.
O, niqabı açar üzdən əliylə,
Bu, gözünü dikər kirpikləriylə.
O gülər, bu isə qəmdən ağlayar,
O açan qapını bu tez bağlayar.
Çirkin görünmüşdür, yəqin, gözünə.

Odur ki, meyl etməz, baxsın üzünə.
Bizimlə oturub dursaydı əgər,
Təkliyi sevməzdi, yəqin, bu qədər.
Hüsnü evimizə işıq salardı,
Biz kama çatardıq, o kam alardı.
Sevilmək heç kəsin əlində deyil,
Hər kəs istəyinə çata bilməz, bil!
Bir çox şux gözəllər var ki, dünyada,
Onları bir kimsə salmayır yada.
Lakin şirin əda çirkinlərdə var
Ki, onlar ürəkdən qanlar axıdır.
Çatdı Züleyxaya gedən söz-söhbət,
İstədi onlara versin nəsihət,
Əmr etdi, qonaqlıq bəzmi düzəlsin,
Məzəmmət edənlər oraya gəlsin.
Sarayda şahanə məclis düzəldi,
Hər cür nazü-nemət ortaya gəldi.
Süfrəyə düzüldü şirni rəngbərəng,
Qaranlıq gecədə parlaq ulduz tək.
Doldu şərbətlərlə büllur kasalar,
Şərbətdə gül ətri, gülab ətri var.
Süfrədən hər yana işıq süzüldü,
Gümüş qədəhlərdən ulduz düzüldü.
Süfrəyə o qızıl-gümüş zinətdi,
Xörəklər ürəyə, cana qüvvətdi.
Quşlardan başlamış balığa qədər,
Düzülmüş süfrəyə hər cür nemətlər,
Rəngbərəng halvalar yığılıb çin-çin,
Məclisi, süfrəni etmişdi rəngin.
Sanki halvalara qatmış gözəllər,
Dişdən badam içi, dodaqdan şəkər.
Qənddən, nişastadan paludə süzdü,
Kərpic tək həyətin fərşinə düzdü.
Qönçəlib o şirindilli gözəllər,
Ağızda luzinə[1], ləbində şəkər,

[1] Luzinə – nişastadan hazırlanan xörək

Luzinə alırdı gözəllərdən kam,
Tərifi dillərə düşmüşdü tamam.
Təzə meyvələri toplayıb bağdan,
Tökmüş su içinə dür kimi bağban.
Təsəvvür eləməz, kim salsa nəzər,
Su ilə bəslənər belə meyvələr.
Cavan tavus kimi kənizlər, qullar,
Məclisə xidmətə hazır durdular.
Misir gözəlləri halqa vuraraq,
Qızıl kürsülərdə şən oturaraq,
Könül istəyəni alıb yedilər,
Süfrə sahibinə tərif dedilər.
Süfrə götürüldü, oxundu şükür,
Züleyxa hamıya etdi təşəkkür.
Sonra hər birinə verdi o qoçaq,
Məkr ilə bir narınc, bir iti bıçaq.
Gözəllər bir əldə bıçaq tutdular.
Digər əldə narınc gün kimi parlar.
Rənginə edərdi qibtə zəfəran,
Özü, səfralılar dərdinə dərman.
Züleyxa söylədi: – Ey nazəninlər!
Gözəllik bəzminin gülü gəlinlər!
İbrani bir qula vurulduğumçun,
Zəhər tökürsünüz kamıma neçin?
Görsəniz, gözünüz ondan nur tapar,
Əfv edin, eşqimi qılarsam iqrar.
Sizləri sınamaq istəyirəm mən,
İcazə verin o çıxsın pərdədən.
Dedilər, razıyıq buna hamımız,
Yusifi görməkdir bizim arzumuz.
Əmr elə, o dilbər məclisə gəlsin,
Nazından başımız göyə yüksəlsin.
Biz ona talibik baş ilə, canla,
Görmədən sevirik onu imanla.
Əlimizdə olan bu narıncları
Ki, sağaldacaqdır səfralıları,
Kəsmərik görmədən onun üzünü,

Budur diləyimiz, bilsən düzünü.
Züleyxa dayəyə söylədi ki, get,
O azadə sərvi bura dəvət et,
De, gəlsin, yıxılaq ayaqlarına,
Can qurban eyləyək şah vüqarına!
Gəlsin, qəmlərimiz azalsın bir az,
Gözümüz yolunda olsun payəndaz!
Dayəyə qılmadı Yusif itaət,
Əfsuna gəlmədi gülüzlü afət.
Yanına yollandı Züleyxa özü,
O ay camallıya bu oldu sözü:
– Bu iki gözümün işığı sənsən,
Könlüm ayrılmayır sənin qəmindən.
Vəslin ümmidilə gözümü açdın,
Sonra məyus edib, yanımdan qaçdın,
Dilə-dişə düşdüm sənin üzündən,
Bütün el içində rüsvay oldum mən.
Tutaq ki, yanında hörmətim yoxdur,
Qədrim, etibarım, qiymətim yoxdur.
Misirli xanımlar qalmış intizar,
Onların yanında məni etmə xar.
Yaralı könlümün məlhəmi sənsən,
Ləbindir yarama hər gün duz səpən.
Bu duzun haqqını rəhm et, unutma,
Vəfasız bilərək, məni yad tutma.
Yüz dəlil gətirdi şirin dil ilə,
Yusifi yumşaltdı o min dil ilə.
Başladı verməyə özünə zinət,
Sərv tək geyindi yaşıl bir xələt.
O xələt üstündən tər ənbər kimi,
Asdı hörüyünü mişki-tər kimi.
Çöhrəsi qızılgül, boyu sərv ikən.
Yaşıl çəmənlikdə tutmuşdu məskən.
Tükü xatırladan incə belinə
Qızıl tuğ bağladı kəmər yerinə.
Əcəbdir, ləl, gövhər ağırlığından,
Onun incə beli tapmadı ziyan.

Başının tacıydı xalis cavahir,
Hər bir gövhərində bir aləm zahir.
Nəleyni doluydu ləlü gövhərdən,
Dolaqlar bağladı inci tellərdən.
Həmayıl elədi ipək bir əba,
Yüz ürək bağlıydı onda hər sapa.
Kənizlər düzüldu dalınca həmən,
Bir təşt gətirdilər xalis gümüşdən.
Kiminin əlində qızıl aftafa.
Kiminin çiynində zərli məhrəba.
Elə bəzəndi ki, o nadir gözəl,
Hər görən çəkərdi şirin candan əl,
Vəsfini qılmıram bundan ziyadə,
Onun hüsnü sözlə olmaz ifadə.
O gizli xəzinə xəlvətxanadan,
Çıxıb cilvələndi gül kimi xəndan.
Misirli xanımlar o gülü görcək,
Dedilər: – Başlayın, narıncı kəsək.
Narınc ilə əli çaşbaş saldılar,
Bıçaqları ələ birbaş saldılar.
Biri barmağını edərək qələm,
Yazdı vəfasından qəlbinə rəqəm.
Birisi ovcunun içini kəsdi,
Qanlı ürək şəkli çəkməkdi qəsdi.
Bıçaqlar işlədi, sel tək axdı qan,
Qan ilə boyandı məclisdə hər yan.
Gözəllər söylədi: – Bu bəşər deyil!
Huri bu gözələ bərabər deyil!
Cismi yaranmamış torpaqdan, sudan,
Mələkdir, enmişdir ərşi-əladan.
Züleyxa söylədi: – Budur o dilbər
Ki, mənə tən edir onunçun ellər.
O gül kimi zərif canın eşqindən,
Tənə oxunuza hədəf oldum mən.
Ona könül verdim, cismü-can dedim,
Vəslinə yetməyə can qurban dedim.
Lakin o, günümü xarab eylədi,

Bütün ümmidimi sərab eylədi.
Əgər o qılmasa mənə itaət,
Zindana düşəcək bir gün, nəhayət!
Zindanda keçəcək günü möhnətlə,
Ömür sürəcəkdir min müsibətlə.
Hər cür sərt adamı ram edər zindan,
Orada ürəklər olar mehriban.
Vəhşi quş ram olmaz insan gücünə,
Məgər ki salına qəfəs küncünə.
Əlini doğramış qadınlar o gün,
Verdi səbri, huşu əldən büsbütün.
Yusifin hüsnündən yara aldılar,
Bir çoxu can verib yerdə qaldılar,
Bir qismi ağıla olub biganə,
O pəri eşqindən oldu divanə.
Çılpaq, ayaqyalın çölə qaçdılar,
Ağıldan əbədi uzaqlaşdılar.
Huşsuz qalanlardan hər kəs oyandı,
Yusifin eşqinin oduna yandı.
Eşqdən məst olub Züleyxa kimi,
Yusif qəfəsində tapdı qəlbini.
Sanki, onun hüsnü mey idi bir küp,
Hər kəs o badədən bir pay götürüb.
İçənlər kimisi məst oldu xumar,
Kiminin varlığı oldu tarümar.
Kimini məhv etdi ondakı camal,
Kimini həsrətlə lal qoydu xəyal.
Onun camalından bəhrəsiz qalan,
Bəhrəsiz yaşamış dünyada, inan.

ZÜLEYXA ƏYAN XANIMLARINI YUSİFƏ VƏSİTƏÇİ SALIR, ONLAR YUSİFƏ HƏM ZÜLEYXANIN, HƏM DƏ ÖZLƏRİNİN MƏHƏBBƏTİNİ BƏYAN EDİRLƏR

Malın müştərisi çox olsa əgər,
Ona alıcılar artıq meyl edər.
Bir aşiq vurulub, sevərsə bir yar,
Ürəyi eşqdə tutacaq qərar.
Rəqibi tapılsa əgər bir nəfər,
Eşq odu qəlbində zəbanə çəkər.
Elə ku Yusifi görən xanımlar,
Lal olub qaldılar, qızışdı bazar.
Eşqi Züleyxanın tüğyan eylədi,
Vəsl üçün qəlbini büryan eylədi.
Dedi: – Yusifimi görənlər əgər,
Eşqi xəncəriylə çox əl kəsdilər.
Deməli, sevməyə ixtiyarım var,
Məzəmmət etməyin məni, xanımlar.
Mənə bir dost kimi yaxın gələrək,
Hamınız bu işdə ediniz kömək.
Məhəbbət çəngini kökləyib hamı,
Başladı çalmağa üzr muğamı;
– Yusif can mülkünün tacidarıdır,
Bizim könlümüzün hökmdarıdır.
Kim istər onunla üz-üzə gələ,
Vurular, ürəyi daş olsa belə.
Əgər ürəyini qəmi yandırar,
Camalı eşqinə haqq qazandırar.
Tapılmaz bir nəfər insan dünyada,
Yusifi görüncə olmaya şeyda.
Sevirsən, qismətin nalədir, ahdır,
Məzəmmət eləmək sənə günahdır.
Fələk dövrə vurub, gəzmiş aləmi,
Görməmiş onun tək könül həmdəmi.
Gedək hüzuruna ehtiram ilə,
Tutaq o dilbəri biz şirin dilə,
Bəlkə də, utansın saymazlığından,

Daş qəlbi yumşalsın, olsun mehriban.
Yusifin yanına getdilər onlar,
Nəsihət verməyə ağız açdılar,
Dedilər: – Ey bizə həyatdan əziz,
Əxlaqı, vicdanı günəşdən təmiz!
Bu bağda qol-boyun yatır gül, tikan,
Sənin tək tikansız gül yoxdur, inan!
Dənizdə ki, doqquz fələk sədəfdir,
Səndəki dörd gövhər sənə şərəfdir.
Lakin məqamını çox uca tutma,
Hərdən aşağı bax, bizi unutma!
Yolunun torpağı olmuş Züleyxa,
Nə üçün çevirdin ona sən arxa?
Onun səndən əgər iltiması var,
Nə olar, rəva qıl, eyləmə israr.
Etdiyi xidməti çıxarma yaddan,
Çalış, xidmət elə, əgər bacarsan.
Onun nazını çək, naz etmə bunca.
Tutma bir sərv tək başını uca.
Qorxuram edəsən qürura adət,
Lovğalıq başına açа fəlakət.
Züleyxa unuda səni büsbütün,
Əlindən görəsən, fəlakət bir gün.
Saqın o dostdan ki, acığa düşər,
Qəzəbdən dostluğun gözünü deşər.
Sel aşsa ananın əgər başından,
Çıxar balasının üstünə, inan!
Qorxudur zindana salmaqla səni,
Ora canilərin olmuş məskəni.
Darlıqda zalimin qəbrinə oxşar,
İnsanlar oradan uzaq qaçarlar.
Məhbusun köksündə darılar nəfəs,
Yaşamaq ümidi sayılar əbəs.
Nə külək yol tapar, nə işıq düşər,
Ölümlə çarpışar zindanda bəşər.
Fərşidir hər cürə bəla tarlası,
Boğucu zəhərdir kəsif havası.

Qapısı bağlıdır ümid üzünə,
Dəyməmiş səhərin nuru gözünə.
Darısqal bağrını sanarsan qırdır,
Əhlinin nəsibi kündə-zəncirdir.
Onların nə suyu, nə çörəyi var,
Həyatdan doyaraq, ac oturarlar.
Zindanın möhnəti dünyaya sığmaz,
Zindana düşənin könlü açılmaz.
Düşər məhbusların işi düyünə,
Qalarlar zindanda yaman bir günə,
Ürəklər odlanar, üzlər saralar,
Ahın tüstüsündən göylər qaralar.
Söylə, rəvadırmı sənin tək canan,
Qaranlıq zindanda qalsın bircə an?
Sən allah, yazığın gəlsin canına,
İzin ver, Züleyxa gəlsin yanına.
Qələm tək təslim ol, xəttinə əyil,
Qorxu nöqtəsini xatirindən sil.
Başqa gözəlləri görməsən əgər,
Yol vermə könlünü çulğasın kədər.
Onunla birtəhər dil tapıb əylən,
Bizi də gizlicə yada sal hərdən!
Hüsn səmasının ulduzuyuq biz,
Misilsiz gözəlik hər bir fərdimiz.
Şəkər ləbimizin söz-söhbətindən,
Züleyxa lal qalar xəcalətindən.
Bu şirinlik ki var bizim ləblərdə,
Züleyxa nəçidir biz olan yerdə?
Yusif danışıqdan bildi ki, onlar
Züleyxa tərəfdən elçi olmuşlar.
Tək onunçun deyil, özləri üçün
Atıb dini, ağlı danmışlar bütün.
Belə bir söhbətdən zəhləsi getdi,
Durmadan onların tərkini etdi.
Əl açıb göylərə dedi, xudaya!
Sənsən yaman gündə çatan haraya.
İsmətli bəndənin pənahı sənsən.

Hər kəs kömək istər dar gündə səndən.
Dövlət çırağısan günahsızların,
Qoruyar onları hikmət hasarın.
Elə zəhləm gedir bu qadınlardan,
Xoşdur, yerim olsun qaranlıq zindan.
Bir an üzlərini görməkdənsə, bil,
Xoşdur məhbus olmaq zindanda yüz il!
Bir göz naməhrəmə baxsa, kor qalar,
Xaliq qarşısında bəndə alçalar.
Bunlar ki əl çəkib ağıldan, dindən,
Qorxuram onların hər hiyləsindən!
Qadın fitnəsindən doymuşam cana,
Qapına icz ilə gəldim amana!
Ya məni xilas et bu qadınlardan,
Ya da nəsibimi et qara zindan!
Yusif zindan etdi Allahdan tələb,
Öz duası oldu həbsinə səbəb!
Nicat diləsəydi xaliqdən əgər,
Gəlməzdi başına bu qəza-qədər!
Yaxa qurtarardı səlitələrdən,
Zindanda müsibət, əzab çəkmədən.

MİSİR QADINLARI ZÜLEYXANI YUSİFİ ZİNDANA SALMAĞA TƏHRİK EDİRLƏR, O DA RAZI OLUR

Hüsnü qarşısında doğrandı əllər,
Büt kimi baş əydi ona gözəllər.
Lakin ismətini atmadı Yusif,
İsməti şəhvətə satmadı Yusif.
O bir günəş oldu, onlar yarasa.
Rəsmdir, günəşdən qaçar yarasa.
Onu saldırmaqçın qara zindana,
Züleyxanı düşmən etdilər ona.
Dedilər: – Ey bədbəxt, ey miskin qadın,
Niyə bu dünyada kama çatmadın?

Yusif bir misilsiz gözəl olsa da,
Səni ki çatdırmır kama, murada.
Yorulduq nəsihət verməkdən ona,
Dilimiz deməkdən döndü suvana.
Lakin dəmirinə kar etmir suvan,
Bircə əlacı var, tutasan divan.
Zindanı isti bir kürəyə döndər,
Yumuşalsın deyə, zindana göndər.
Atəşdə qızaraq yumşalsa polad,
Ondan nə istəsən, qayırar ustad.
Dəmiri qızdırmaq bacarmırsan sən,
Əl çək soyuq-soyuq dəmir döyməkdən.
Fitnə Züleyxanı çıxardı yoldan,
Düşündü: Yusifi ram edər zindan.
Arzu-muradına yetişsin deyə,
Qıldı viranəni vətən xəznəyə.
Aşiqin eşqində olmazsa kamal,
Xudpəsəndlik olar ondakı xəyal,
İstəyər önündə qul olsun yarı,
Əlinə verilsin hər ixtiyarı.
Eşqin bir gülünü iyləyib atsın,
Aşiqin canına yüz tikan batsın.
Bir gecə Əzizlə yatdı Züleyxa,
Hiyləni işvəyə qatdı Züleyxa!
Dedi: – Rüsvay etdi məni bu oğlan,
Misirdə bədnamam onun ucundan.
Arada söz gəzir, danışır hamı,
Deyirlər, sevirəm mən bir qulamı.
Alıb şikar kimi oxundan yara,
Verirəm qanımla su torpaqlara.
Guya eşqi vurmuş bağrıma yüz ox,
Ki, ox ox üstədir, canımda yer yox!
Bir tüküm qalmamış eşqindən xali
Özümdən tük qədər deyiləm hali.
İstərəm son qoyum bu bəd gümana,
O gənci göndərim qara zindana.
Sonra hər tərəfdə onu edim xar,

Carçıya əmr edim, çəksin belə car:
– Kim çıxsa ağanın malına şərik,
Biz onu zindana məhkum edərik.
Ağa hərəminə ayaq basanlar,
Cəzanın, qəzəbin dadını anlar.
Görsələr Yusifi həbs etmişəm mən,
Camaat, əlbəttə, çıxar şübhədən.
Bu söhbət Əzizin könlünü açdı,
Bu fikri bəyəndi, dodağı qaçdı.
Söylədi: Düşündüm mən xeyli zaman
Ki, necə qurtaraq rüsvayçılıqdan?
Fikrimə gəlmədi belə bir tədbir,
Sənin hər bir sözün bir xəzinədir.
Bu gündən verirəm sənə ixtiyar,
O muzi tikanı yolundan qopar.
Züleyxa Əzizdən alınca rüxsət,
Yusifin yanına yollandı xəlvət.
Dedi: – Bu könlümün diləyi sənsən,
Ruhum ilham alır sənin eşqindən
Əziz ixtiyarı vermişdir mənə,
Başın əlimdədir, hakiməm sənə.
İstəsəm, fələklər olar məkanın,
İstəsəm, zindanda çürüyər canın.
Mənə xor baxdığın bu qədər yetər,
Sənin şıltağına dözüm nə qədər?
Mənim istədiyim yola qoy qədəm,
Nə sən xar olasan, nə mən çəkim qəm.
Məni sevindirsən, sevinəcəksən,
İlahi məqama yüksələcəksən.
Lakin əl çəkməsən öz inadından,
Məskənin olacaq qaranlıq zindan.
Ömrünü zindanda verincə başa,
Mənimlə gül, danış, bəxtiyar yaşa!
Yusif gətirməyib bu sözlərə tab,
Verdi Züleyxaya ağır bir cavab.
Züleyxa sarsıldı, həmin cavabdan,
Verdi sərhənglərə qəhr ilə fərman:

Tacı götürdülər başından onun,
Əyninə taxdılar palazdan bir don.
Gümüş ayağına bağlandı dəmir,
Boynuna saldılar bir ağır zəncir.
Eşşəyə mindirib cani sandılar,
Misri küçə-küçə dolandırdılar.
Carçı səslənərək, verirdi elan
Ki, satın alınmış bizim qullardan,
Hər biri qudurub yoldan azarsa,
Ağa hərəminə ayaq basarsa,
Bu yaramaz kimi min müsibətlə,
Zindana düşəcək ağır zillətlə.
Lakin xalq etdikcə ona tamaşa,
Dedi: – Ola bilməz belə iş, haşa!
Kimsəyə toxunmaz belə bir gözəl,
Bu üzün sahibi olmaz bəd əməl.
Bu ki insan deyil, pak bir mələkdir,
Şeytanlıq mələyə nəyə gərəkdir?
Gözəlin əlindən çıxmaz pis işlər,
Ağıllı babalar yaxşı demişlər:
– Bir kəsin gözəlsə əgər camalı,
Camalından artıq olar kamalı.
Çirkinsə birinin siri-sifəti,
Daha çirkin olar, bil, xasiyyəti.
Gözəlin əlindən gəlməz yamanlıq,
Çirkin də yaxşı iş bilməz bir anlıq.
Xülasə, Yusifi salıb böhtana,
Aparıb atdılar onu zindana.
Zindana gəlincə o qəlbi işıq,
Camalı məhbəsə verdi yaraşıq.
Günəş qaranlığa imdada gəldi,
Məhbuslar heyrətdən fəryada gəldi.
Gözəllər şahının bərəkətindən,
Zəncirlilər oldu zəncir tərpədən.
İradət kündəsi – ayaqlarında,
Səadət zənciri boyunlarında.
Şadlığa çevrildi hamıda kədər,

Qəm dağı göründü bir saman qədər.
Bəli, huri bizə olarsa həmdəm,
Cənnətə çevrilər hətta cəhənnəm.
Hər yerdə olarsa gülüzlü dildar,
Küllük gözümüzə görünər gülzar.
Yusif o zindanda tutunca aram,
Züleyxa zindana göndərdi peyqam
Ki, daha verməyin ona əziyyət,
Boynundan zənciri açınız, əlbət!
Əynindən çıxarın palaz donunu,
Qumaşla bəzəyin sərv boyunu.
Həqarət tozundan yuyun saçını,
Qoyun şah başına izzət tacını.
Başqa məhbuslardan ayırın təmiz,
Ayrıca otaqda saxlayın əziz.
Ətirlə, bəzəklə verin yaraşıq,
Olsun gecəsi də gündüz tək işıq.
Fərşinə döşəyin sündüz[1] xalçalar,
Çəkin divarına zərli parçalar.
Zindanban bu əmrə edərək əməl,
Bir otaq bəzədi cənnətdən gözəl.
Yusif köçürüldü yeni mənzilə,
Bəndə xaliqini andı sidq ilə.
Necə ki qılmışdı özünə adət,
Mehraba üz tutub, etdi ibadət.
Xilas olduğundan qadın məkrindən,
Şikayət etməzdi öz taleyindən.
Yoxdur bu dünyada elə bir bəla
Ki, onun axırı əlacsız ola.
Bir əsir bəlaya dözsə nə qədər,
Onun müşkülünü haqq asan edər.

[1] Sündüz – rəngarəng, ipəkqarışıq

ZÜLEYXA YUSİFİN ZİNDANDA OLMASINDAN KƏDƏRLƏNİR VƏ ONA ÇATMAQ ÜÇÜN YOLLAR ARAYIR

Bu abı səqfli qoca dünyada,
İnsan ömrü gedir qəflətdə bada.
Nemətin qədrini bilməmiş insan,
Yoxdur insan qədər naşükür olan.
Bütün ömrü boyu çəksə də ləzzət,
Qiymətini bilməz, görməsə zillət.
Bir aşiq çəkməzsə hicran qəmini,
Böyük nemət bilməz vüsal dəmini.
Fələk hicran odu yandıran zaman,
Şam kimi əriyər bədən, yanar can.
Yusifin hüsnünün bərəkətindən,
Züleyxanın evi olmuşdu gülşən.
Sərv gülüstandan düşcək kənara,
Gülşəni göründü zindandan qara.
O zindan küncündə gül kimi soldu.
Bir dərdi var idi, indi yüz oldu.
Yoxdur aşiq üçün ondan pis bəla
Ki, dildarı gedə, yeri boş qala.
Gülşəndən gül gedib, xar qalsa əgər,
Könül o gülşəndə necə dincələr?
Yusifin ətriylə qaranlıq zindan,
Məhbuslar gözündə oldu gülüstan.
Züleyxa göründə gülsüzdür gülşən,
İnlədi qönçə tək, çıxdı köynəkdən.
Xəzan fəsli bağda qızılgül solar,
Bülbülün bağrını tikan yaralar.
Yandı Züleyxanın canı odlara,
Çəkib yaxasını etdi yüz para.
Pərişan zülfünü tutub yolaraq,
Saldı gül üzünə hiddətlə dırnaq.
Saçı, üzü aydın nişan verirdi
Ki, yar fərağından o can verirdi.
Döyüb sinəsinə öz əliylə daş,

O təbillə salar hicranla savaş.
Gözəllik mülkünün sultanıydı o,
Eşqin qüdrətindən təbilçi oldu.
Xumar gözlərindən yaş axıdaraq,
Başına səpərdi əliylə torpaq.
Qəlbinə tapmasın yol deyə, hicran
Palçıq düzəldərdi torpaqla sudan.
Hicran ki ürəyə yol açdı bir az,
O yolu palçıqla suvamaq olmaz.
İnnab tək dişləyib ləlini dilbər,
Əqiqi əzərdi bir inci qədər.
İstərdi könlündə laxtalanan qan,
Axsın ləbindəki təzə yaradan.
Üzü nülfər kimi göyərsin deyə,
Tutardı o bir cüt gülü silləyə.
Deyərdi: qırmızı – toy libasıdır,
Mənimsə nəsibim yas qarasıdır.
Həsrətlə döyərkən iki dizinə,
Axardı qəlbinin qanı üzünə.
Deyərdi: nə xəta çıxdı əlimdən,
Niyə öz-özümü zəhərlədim mən?
Dünyada bir aşiq indiyə qədər,
Mənimtək canına qəsd etmiş məgər?
Ovdum öz əlimlə iki gözümü,
Kor olub quyuya saldım özümü.
Çiynimə dağ qədər qəm yükü aldım,
O yükün altında əzilib qaldım.
Əlim yetişincə nazlı canana,
Döndü ömrüm boyu ciyərim qana.
Fələk taleyimi gətirdi qara,
Əlimdən çıxartdım yarı dübara.
Bağrım dərd əlindən bir viranədir,
Bilmirəm, bu dərdin dərmanı nədir?
Nalələr qoparıb yanan qəlbindən,
Züleyxa yatmazdı möhnət əlindən.
Bir şeydən Yusifin ətrini duysa,
Ah çəkib, qüssədən batardı yasa.

Bir zaman Yusifin əynində olan,
Köynəyi bağrına basaraq nalan,
Gül kimi ətrini ondan alardı,
Təsəlli tapardı, razı qalardı.
Sürtüb yaxasını gül yanağına,
Öpüş yağdırardı hər bucağına.
Deyərdi: sarılmış onun boynuna,
Canım yüz tel ilə bağlıdır buna.
Əlini qoluna salıb bir zaman,
Taleyin əlindən çəkərdi aman.
Gah gözünə sürtüb, gah da öpərdi,
Gözdən ayağına inci səpərdi.
Bir gün arxasına dəymişdir deyə,
Ətəyini sürtüb nəmli didəyə,
Deyərdi: öpmədim ayağından mən,
Qoy öpüm barı, bu yar ətəyindən.
Elə ki tacını başsız görərdi,
Alaraq üstündən tozu silərdi.
Deyərdi: bu olmuş o başa həmdəm
Ki, onun ayağın öpərdi aləm.
Kəmərini görcək gəlib fəryada,
Yusifin belini salardı yada.
Kəməri edərdi boynuna kəmənd,
Ovçunu qılardı ov kəməndə bənd.
Zərli xalatını açaraq hərdən,
Qanlı yaş tökərdi şəhla gözündən.
Xələtə axdıqca həsrət göz yaşı,
Bəzərdi ləl ilə zərli qumaşı,
Cütlənmiş görəndə başmaqlarını,
Deyərdi: – Bax, öpür aşiq yarını,
Təklikdən dolardı qəlbi qubarla,
Könlündən keçərdi, birləşsin yarla.
Gözü sataşardı dolaqlarına,
Alıb yapışdırar dodaqlarına,
Telindən qəlbinə düyün vurardı,
Göz yaşı dolağı al boyayardı.
Günləri keçərdi bu minval ilə,

Hər şeydən duyduğu yüz məlal ilə.
Didarın qədrini bilmədiyiçün,
Ayrılıq oduna yandı büsbütün.
Bir fayda vermədi qıldığı ah-vay,
Əlacı yox idi, səbirdən savay,
Lakin aşiqlərdə səbr ola bilməz,
Eşqdən ayrılan bir könül gülməz!
Aşiqə ölümdür ayrılıq dərdi,
Görüşüb ayrılmaq daha betərdi.
Ortada olarsa ülfət, ünsiyyət,
Ayrılıq sayılar sonsuz müsibət.
Yaxınlıq olmazsa ortada əgər,
Hicran ağrısına dözər aşiqlər.
Züleyxa möhnətdən doyaraq cana,
Qəsd etdi ölməklə yetsin canana.
Başını vuraraq daşa, divara,
Köksünü istərdi xəncərlə yara.
Çıxıb darğa kimi qəsrin damına,
Tullanmaq istərdi eşqin namına.
Zülfünü eşərək ip kimi möhkəm,
Boğmaq istəyərdi özünü hər dəm.
Dərdü-qəm əlindən candan keçərdi,
Şərbəti tərk edib zəhər içərdi.
Heç nəyə yox idi könlündə maraq,
Ölüm istəyərdi özünə ancaq.
Dayə gəlib öpdü əl-ayağından,
Dedi: – Gözlərinə bu canım qurban!
Dünya muradınca, kamınca olsun,
Piyalən cananın ləliylə dolsun!
Hicrandan, həsrətdən düşəsən uzaq,
Bir daha nəsibin olmasın fəraq!
Nə olar, möhnətdən, qüssədən dincəl?!
Çək, ağıllı balam, dəlilikdən əl.
Edirsən qəmindən bağrımızı qan,
İnsana bu zülmü etməz bir insan!
Bu qoca ananın sözünü dinlə,
Çarə tap dərdinə səbir, təmkinlə.

Səbirsizliyindən düşdün bu oda,
Səbir buludundan çilə su oda.
Dərdü-qəm küləyi əsdiyi zaman,
Gərək saman kimi uçmasın insan.
Məsləhətim budur, ey nazlı sənəm,
Durasan dağ kimi yerində möhkəm.
Səbr ilə qələbə qazanar insan,
Odur insanları xoşbəxt yaşadan.
Kəsmə ümidini, səbrə qıl adət,
Səbr etsən, nəsibin olar səadət.
Səbr ilə sədəfdə inci bəslənər,
Səbr ilə mədəndə yetişər gövhər.
Doqquz ay gözləsən bir qətrə sudan,
Rehimdə bəslənər bir mahi-taban.
Səbr ilə sünbüldə danə yetişər,
Səbr ilə qoradan tər halva bişər.
Züleyxa yansa da hicran qəmindən,
Məsləhət eşitdi öz dayəsindən.
Yaxası çak idi ətəyə qədər,
Çəkdi ətəyinə ayaq o dilbər.
Xeyirxah sözünə qulaq asaraq,
Bir aşiq səbr edər, inanma ancaq?!
Məsləhət verənlər olunca xamuş,
Aşiq o sözləri edər fəramuş.

ZÜLEYXA YUSİFİN FƏRAĞINDA AĞLAYIB İNLƏYİR, DAYƏSİ İLƏ BƏRABƏR GECƏ ZİNDANA GƏLİR, UZAQDAN GİZLİCƏ YUSİFİN CAMALINA TAMAŞA EDİR

Məhəbbət Yusifi məğribdə haman,
Gizləndi fələyin Züleyxasından.
Fələk Züleyxası o günəş üçün,
Üzünü ulduzla bəzədi bütün.
Züleyxa o qədər dərdü-qəm çəkdi,
Deyərdin: – Göz yaşı qanlı şəfəqdi.
Şəfəq göz yaşından oldu bağrı qan,

Qızardı fələyin ətəyi qandan.
Ağlayıb canını yaxdı odlara,
Etdi gündüzünü gecəylə qara.
Qaralsa gecə tək aşiqin günü,
Göylərə yüksələr gecələr ünü.
Qaralar hicrandan günü, rüzgarı,
Gecələr tükənər səbrü-qərarı.
Üzü qara olar gündüzü qəmdən,
Gecəsi qaralar dərdü-ələmdən.
"Gecə hamilədir" məşhur məsəl var,
Səhər aşiqlərə, dərdü-qəm doğar.
Bu uşaq anadan olduğu zaman,
Əmər süd yerinə ürəklərdən qan.
Qanlı bir səhəri gözlərsə ana,
Doğduğu körpə də susayar qana.
Züleyxanın səbri sona yetincə,
Cıxdı qarşısına zülmət bir gecə.
O düşmüş dilbərdən, dildardan uzaq,
Nə fələkdə ay var, nə evdə çıraq.
İşıq saçmayırsa cananın üzü,
Evi rövşən etməz məşəlin yüzü.
Gözü yatmayırdı qəmdən, qüssədən,
Deyirdi, qanlı yaş töküb didədən:
– Bu gecə Yusifim nə xəyaldadır?
Xidmətində kim var, o nə haldadır?
Görəsən, kim ona açmış yatacaq?
Kim onun yastığın sahmanlayacaq?
Kim çıraq yandırmış yatdığı yerdə?
Onu haqq salmasın cahanda dərdə.
Kim açmış kəməri onun belindən?
Kim demiş yatarkən nağıl, görəsən?
Yenə tərtəzədir, görəsən, gülü?
Görən hörülmüşdü süsən sünbülü?
Gülü solmamışmı kəsif havadan?
Olmuşmu o sünbül saçı pərişan?
Qəlbi qönçə kimi sıxılmış məgər?
Bəlkə də, gül kimi açılıb gülər?

Züleyxa özüylə edirdi söhbət,
Gecə yarı oldu, yatmadı, əlbət!
Qalmadı canında heç tabü tavan,
Nə də ürəyində səbirdən nişan.
Canı eşq oduna yaxıldı, budur,
Ağlaya-ağlaya dedi: Dayə, dur!
Dur, qara zindana gedək bu gecə!
O möhnət evinə çataq gizlicə!
Zindan bucağında otururaq tək,
O zindan sakini ayı seyr edək!
Bir zindan ki olmuş o gülə məskən,
O yer zindan deyil, gülşəndir, gülşən!
Bülbülün könlünü açar gülüstan,
Mənimsə qönçəmi açacaq zindan!
Züleyxa sərv tək yola düzəldi,
Dayə kölgə kimi ardınca gəldi.
Ay kimi zindana çatdı Züleyxa,
İstədi gizlicə zindana baxa.
Qapını o saat açdı zindanban,
Göstərdi o parlaq ayı uzaqdan.
Gördü səccadənin üstə oturur,
Onu günəş kimi çulğalamış nur.
Gah durur ayağa şam kimi yanır,
Məhbusların üzü nura boyanır;
Gah da hilal kimi qəddini əyir,
Üzündən ətrafa işıq çiləyir,
Gah düşür torpağa səcdə edərək,
Sanki, gül şaxını əymişdir külək.
Gah başıaşağı sakit oturur,
Sanki bənövşədir, taleyi budur!
Qaranlıq bir küncdə tək otururaq,
Züleyxa Yusifi düşünür ancaq!
Ürəkdən inləyib, çəkirdi nalə,
Nərgisdən səmənə səpirdi lalə.
Dişiylə çeynəyib ləl dodağını,
Cırır dırnağıyla gül yanağını,
Şəhla gözlərindən tökdüyü qan-yaş,
Onun könlündəki sirri etdi faş.

Dedi: Ey gözəllər gözünün nuru,
Qəmli könüllərin kamı, sürur.
Eşqin vücuduma yanar od saldı,
Canım o atəşdə kül olub qaldı.
Səpmədin oduma vüsalınla su,
Vəslin söndürmədi qəlbimdə odu.
Vurdun, rəhm etmədən sinəmə yara,
Ey zalım, qılmadın dərdimə çara.
Məzlumun halına acımadın sən,
Öldüm dərd əlindən, hicran əlindən.
Düşüb qəm oduna, əridim birbaş,
Məni bədbəxt anam doğmayaydı, kaş!
Anam doğsa belə mehriban dayə,
Ey kaş, salmayaydı başıma sayə!
Şirin südlə məni az becərəydi,
Mənə süd yerinə zəhər verəydi.
Züleyxa danışır möhnət əlindən,
Yusif ayrılmayır öz aləmindən.
Onu xatirinə salmaz tük qədər,
Yadına düşsə də, dinməz, gizlədər.
Cecə belə keçdi, dan yeri sökdü,
Fələk Züleyxası göz yaşı tökdü.
Şahlıq təbilindən yüksəldi səslər,
Əzançı səsləndi: Allahü-əkbər!
Kəsildi hürüyən itlərin səsi,
Bitdi çaqqalların ahü-naləsi.
Xoruzlar oyandı şirin yuxudan,
Banlayıb, səs-səsə qatdı hər yandan!
Baş qoyub zindanın astanasına,
Zindandan mənzilə döndü Züleyxa.
Zindan xəlvətində olduqca yarı,
Hey gedib-gələrdi zindana sarı.
Canının qidası gəlib-getməkdi,
Bir küncdə oturub, fəğan etməkdi.
Onun meyl etdiyi qədər zindana,
Kimsə meyl etməzdi bir gülüstana
Bir aşiq görərsə, zindandadır yar,
Zindandan kənarda tutarmı qərar?

ZÜLEYXA, HƏR GÜN QƏSRİN DAMINDAKI QÜRFƏYƏ ÇIXIB, ZİNDANA TAMAŞA EDİR, ONUNLA TƏSƏLLİ TAPIR

Gecədir aşiqlər sirrinə pərdə,
Gecə asan dözər dərdlilər dərdə.
Gündüz görülməyən bir çox işlər var
Ki, gecə görülsə, asan baş tutar.
Züleyxa gecəni yetirdi başa,
Nə gecə? Qəm ilə, möhnətlə qoşa.
Gəldi qarşısına bəlalı səhər,
Yaxdı ciyərini yüz qüssə, kədər,
Zindana getməyə üzü gəlmədi,
Ayağı bağlandı, dizi gəlmədi.
Yeməli, içməli yığdı bir qədər,
Seçdi kənizlərdən gözəl bir dilbər,
Tədbirlə göndərdi onu zindana
Ki, onun yerinə baxsın canana.
Dönüb geri gəldi kəniz zindandan,
Züleyxa qucudu onu mehriban.
Qoyub ayağına gül tək üzünü,
Öpdü gözü yaşlı iki gözünü.
Dedi: – Bu ayaqlar oraya getmiş,
Bu gözlər hüsnünün seyrini etmiş.
Əlim yetməz, öpüm gözünü yarın,
Ayağına qoyam üz o dildarın.
Qoy barı, öpüm o xoşbəxt gözlərdən,
Ki, görür o gözəl surəti hərdən.
Qoy sürtüm üzümü o ayaqlara,
Ki, gedir yar olan qəmli diyara.
Sonra soruşdu ki, necədir halı?
Ruhlara nur saçan günəş camalı?
Üzü dərd əlindən saralmamış ki?
Günü, ruzigarı qaralmamış ki?
Gülü solmamış ki, ağır havadan?
Zərər verməmiş ki, canına zindan?
Yemək aparmışdın, səndən aldımı?

Söylə mən yazığı yada saldımı?
Hey soraq tutardı öz dilbərindən,
Ağlaya-ağlaya qalxıb yerindən.
Yüyürərdi qəsrin damına hər an,
Görünürdü zindan damı oradan:
Qürfədən dalardı zindan seyrinə,
Sədəfə baxardı inci yerinə.
Deyərdi: görmürəm gülüzlü yarı,
Qoy baxım, damımdan damına sarı.
Mən ki yar üzünü görməyə yadam,
O damı, divarı görməklə şadam!
Hər evdə ayüzlü yar etsə mənzil,
O ev bir cənnətdir mənim üçün, bil!
Elə bir günəşi boynuna alan,
Evin divarına, damına qurban!
Onun ayağından öpən astana,
Dönər səadətdən bir gülüstana,
Yar o qəm evində tutunca məskən,
Evimin divarı yıxıldı qəmdən.
Hər evə sərvimin dəysə ayağı,
Xoşbəxtlik o evin olar dayağı.
Məhəbbət qılıncı çəkiləydi, kaş!
Məni zərrələrə çevirəydi, kaş!
O parlaq günəşin qarşısında mən,
Düşəydim zindanın pəncərəsindən!
Qibtəyə layiqdir, məncə, o torpaq!
Ki, qoyur üstünə o dilbər ayaq.
Ətəyi tozundan ətrə qərq olur,
Tükünün feyzindən ənbərlə dolur.
Züleyxanın fikri-zikri, müxtəsər,
Ancaq bu sözlərdi axşama qədər.
Bir ləhzə bir yerdə tutmazdı aram,
Gündüzü qəm ilə olardı axşam.
Qaranlıq çöküncə o nazlı nigar,
Dünənki işini edərdi təkrar.
Nə qədər Yusifin yeri zindandı,
Gecəsi-gündüzü haman-hamandı.

Gündüzlər qürfədən edib tamaşa,
Gecəni verərdi zindanda başa.
Başqa cür keçməzdi günü-rüzgarı,
Gah divar görərdi, gah da dildarı.
Elə vurulmuşdu Yusifə, bilsən,
Can nədir, bilməzdi o nazikbədən.
Elə çıxarmışdı özünü yaddan,
Ki, bilməzdi nədir yaxşıyla yaman.
Kənizlər çağırıb edəndə xitab,
O, huşa gedərək, verməzdi cavab.
Söhbət açılanda deyərdi hərdən,
Heç zaman özümdə olmayıram mən.
Deyərdi: Mən keyəm, buna alışın,
Əvvəlcə tərpədin, sonra danışın.
Tərpədin, özümə gəlim bir qədər,
Yoxsa, nə desəniz, gedəcək hədər.
Könlüm zindandakı yar yanındadır,
Bu can o cananın zindanındadır.
O ay bir könüldə tutarsa məskən,
O könül tutarmı xəbər aləmdən?
Halı Züleyxanın pozuldu bir gün,
Ustanı çağırdı qan almaq üçün,
Elə ki qoluna toxundu neştər,
Axdı qan, torpaqda yazdı hərflər.
Torpağa baxınca hər sahib-kamal,
Yusifin adını oxudu dərhal.
Elə yer tutmuşdu canında canan,
Adı axıb gəldi şah damarından.
Xoşbəxtdir özünü unudan kəslər,
Onlar canlarında cananı bəslər.
Ürəkdə dilbərə elə yer verər
Ki, sığmaz oraya başqa bir nəfər.
Can kimi cismində yer tapar canan,
Tapılmaz tük qədər xali yer ondan.
Nə qoxu, nə bir iz qalar özündən,
Nə dava, nə də sülh olmaz sözündən.
Nə taxta, nə taca meyl olar onda,

Arzular maneə olmaz yolunda.
Məşuqdan danışar, danışsa əgər,
Ondan murad istər, ondan kam istər.
Özünü gətirməz bir an da yada,
Diləyi eşq olar ancaq dünyada!
Bişər, arif olar, xamlığı atar,
Özünü unudar, cananı tutar.
Ey Cami, özünü sən də gəl, unut,
Səni yaradanın ətəyindən tut.
Səadət yolunu tanıyırsan sən,
Nə üçün qaçırsan belə nemətdən?
Hərislər torundan addımla, yan keç,
Get, ədəm mülkündə özünə yer seç!
Bir zaman yox idin, çəkmədin ziyan,
Zənn elə ki, sən heç yaranmamışsan!

YUSİF ZİNDANDAKILARA XEYİRXAHLIQ GÖSTƏRİR, ONLARIN YUXUSUNU YOZUR, ZİNDANDAN APARILAN İKİ NƏFƏRƏ SİFARİŞ VERİR, ONLAR İSƏ BU SİFARİŞİ UNUDUR

Anadan doğulsa xoşbəxt bir nəfər,
Səadət günəşi zülməti silər.
Getsə tikanlığa dönər gülşənə,
Gül ətri yayılar bağa, çəmənə.
Keçsə bulud kimi susuz səhradan,
Bəxtindən o səhra olar gülüstan.
Düşsə külək kimi bağa güzarı,
Hər gül çıraq olub bəzər gülzarı.
Zindana düşsə də, könlü olar şad.
Qılar məhbusları qüssədən azad.
Oldu məhbusların gözündə zindan –
Görüncə Yusifi, bir şən gülüstan.
Onun sayəsində hamı şad oldu.
Məhbuslar könlünə qüssə yad oldu.
Zəncir boyunlarda iqbala döndü,

Gündə ayaqlarda xalxala döndü.
Bir məhbus yatağa düşsəydi əgər,
Xəstəlik etsəydi onu xuncigər,
Yusif oturan tək yatağı üstə,
Dərhal sağalardı, durardı xəstə.
Birinin narahat olsaydı yeri,
Dadına çatardı onun tədbiri.
Təsəlli verərdi açıq üz ilə,
Dar zindan dönərdi geniş mənzilə.
Bir fəqir olsaydı çörək möhtacı,
Şirin ruzigarı keçsəydi acı,
Varlılardan alıb qızıl bir açar,
Darlıq qıfılını açardı naçar.
Dolaşıq yuxular görüb bir nəfər.
Xəyal girdabına düşsəydi əgər,
Yusif o yuxunu təbir edərdi,
Məhbusu girdabdan geri çəkərdi.
Şaha yaxın olan iki bəxtəvər,
Saray xəlvətindən düşüb dərbədər.
Zindanda Yusiflə həmdəm olmuşdu,
Dərdinə, qəminə məhrəm olmuşdu.
Bir gecə hərəsi gördü bir yuxu,
Düşdü canlarına iztirab, qorxu.
Bir yuxu verirdi müjdə nəcatdan,
Bir yuxu deyirdi əl üz həyatdan.
Yuxunu yozmaqdan aciz qalaraq,
Onlar canlarını üzürdü ancaq.
Elə ki Yusifə açdılar söhbət,
Yozdu yuxuları sahibi-hikmət.
Birini aparıb dara çəkdilər
Biri şah yanında oldu mötəbər.
Şahın hüzuruna gedən cavana,
İzzətə, hörmətə yetən cavana,
Yusif söylədi ki, ey nəcib insan,
Şah ilə oturub durduğun zaman,
Onun hüzurunda edəndə söhbət,
Deyib danışmağa tapanda fürsət,

Unutma, məni sal şahın yadına,
Bu yaxşılıq çatar hər imdadına.
Söylə ki, zindanda vardır bir qərib,
Şahın ehsanından qalmış binəsib.
Qoyma günahsıza etsinlər cəfa,
Ədalət bu zülmü görməmiş rəva!
O cavan, şah ilə həmməclis oldu,
Qədəhi etibar meyiylə doldu.
Yusifin sözünü çıxartdı yaddan,
Keçdi neçə illər bu əhvalatdan.
Bəlalı zindanda necə bir məhbus,
Yusif otururdu nəcatdan məyus!
Bəli, hər o kəs ki, Allahı sevər,
Məşuqlar bəzminə o zinət verər!
Rahatlıq yolunu bağlar üzünə,
Kimsədən gözləməz nəcat özünə!
Göz dikər özünə hər kəsdən əvvəl,
Açmaz bir kimsəyə yardım üçün əl!
Tutsa ətəyindən bir kəsin əgər,
Onu öz torunun əsiri edər!

MİSİR PADŞAHI GÖRDÜYÜ YUXUNU YOZMAQ ÜÇÜN YUSİFİ YANINA ÇAĞIRIR VƏ ONUNLA MİSİR ARVADLARI ARASINDA BAŞ VERƏN MACƏRANI YOXLAMAĞA BAŞLAYIR

Dünyada açarsız bir çox qıfıl var,
Nə qədər axtarsan, tapmazsan açar.
Düyünə düşəndə alimin işi,
Fikri səmər verməz, artar təşvişi.
Köməyinə çatmaz bir qüdrətli əl,
Düyünü açmaqda qalar məəttəl.
Bu zaman qeyb əli gətirər açar,
Nəcat qapısını üzünə açar.
Boş çıxdı Yusifin bütün felləri,
Qırıldı qurduğu tədbir telləri,

Yalnız bir Allaha gətirdi pənah,
Darda qalanlara arxadır Allah!
Bütün varlığını Yusif unutdu,
Kərəm ətəyindən xaliqin tutdu.
Misrin hökmdarı o ağıllı şah,
Yeddi öküz gördü yuxuda nagah.
Hamısı kök idi, hamısı şişman,
Biri digərindən gözəl və cavan.
Yeddi başqa öküz göründü bu dəm,
Arıqlıqda sanki bir qamış qələm.
Arıqlar köklərə hücum etdilər,
Onları ot kimi yeyib getdilər.
Yeddi yaşıl sünbül göründü bu an,
Könül qüvvət aldı, göz işıq ondan.
Yeddi quru sünbül onları tutdu,
Şirəsini sorub, tamam qurutdu.
Oyandı padişah yuxudan səhər,
Dedi, yuxusunu yozsun alimlər.
Dedilər, belə bir yuxu mahaldır,
Mənbəyi puç fikir, yersiz xəyaldır!
Belə bir yuxunu yozmaq yaramaz,
Əlac unutmaqdır, düşünsən bir az.
O cavan Yusifi yadına saldı,
Sirrinin üstündən pərdəni aldı.
Dedi, zindanda var gözəl bir oğlan,
Hər kəsin müşkülü həll olar ondan,
Huşyardır, hər cürə yuxunu yozar,
Ancaq o, dənizdə incini tapar.
İzin ver, bu sirri açaraq ona,
Deyim, təbir desin şah yuxusuna.
Dedi: – İcazəyə yoxdur ehtiyac,
Kora iki gözdür ən yaxşı əlac.
Mənim ağıl gözüm kordur o gündən
Ki, belə bir sirri açmayıram mən.
Yol alıb zindana getdi o cavan,
Yusifə danışdı şah yuxusundan,
Yusif ona dedi: – Öküzlə sünbül,

Özü öz halının şahididir, bil!
O arıq öküzlər, quru sünbüllər,
Deyir ki, gələcək çox ağır illər.
Əvvəlcə yeddi il yağış yağacaq,
Torpaqdan bolluca məhsul doğacaq,
Nazü-nemət ilə dolacaq aləm,
Yeddi ilsə, qıtlıq olacaq aləm.
Bütün nemətləri insan yeyəcək,
Xalqlar ac qalaraq qara geyəcək.
Yağış yağmayacaq qara buluddan,
Çöldə olmayacaq nişanə otdan.
Varlılar işrətdən əl çəkəcəklər,
Yoxsullar aclıqdan can verəcəklər.
Yusifdən bu sözü o şəxs eşitdi,
Ədalətli şahın yanına getdi.
Yusifin tökdüyü təbiri bilcək,
Açıldı sultanın qəlbi qönçə tək.
Dedi: – Dur, özünü zindana yetir!
Yusifin özünü buraya gətir!
Elçi deyən sözlər olsa da şəkər,
Daha xoşdur, özü söyləsə əgər!
Bir söz ki deyəcək dilbərin özü,
Niyə bir başqası desin o sözü?
Təzədən o cavan zindana vardı,
O nadir gövhərə müjdə apardı,
Dedi: – Ey behiştin sərvi, tez ol, dur!
Yürü, şah bağında yeni büsat qur!
Yürü, camalınla o bağı bəzə,
Güllər gül üzünə açsın tərtəzə!
Dedi: – Mən bəs necə sevim o şahı
Ki, o mənim kimi bir bigünahı,
Zindanda qılmışdır illərlə məhbus?
Onun kərəmindən olmuşam məyus!
Şah əgər istəyir bu qəm evindən
Qurtarım, əmr etsin mərhəmətindən,
İlk dəfə üzümü görən gözəllər
Ki, heyran qalaraq doğramış əllər,

Yığışıb gəlsinlər hamı bir yerə,
İşim aydın olsun mənim bir kərə.
Desinlər, nə günah gördülər məndən,
Nə üçün zindana salınmışam mən?
Şah bilsin, nə sirrim var ürəyimdə,
Xəyanət ləkəsi yox ətəyimdə.
Xəyanət sayılır ən böyük günah,
Xayinə həmişə düşməndir Allah!
Namusa xəyanət etməmişəm mən,
Başım bəla çəkib sədaqətimdən.
Məncə, lağım atıb, xəznə talayan,
Yaxşıdır, namusa əl uzadandan.
Elə ki şah oldu işdən xəbərdar,
Əmr etdi haman gün bütün qadınlar,
Şahın sarayında cəm olsun, tamam,
Qadınlar pərvanə, şahsa olsun şam
Şahın məclisinə gəldi xanımlar,
Onlara üz tutub dedi hökmdar:
– Nə pislik gördünüz, deyin üzünə,
Bədnamlıq qılıncı çəkdiz üzünə?
Qışınız hüsnüylə yaz ola-ola!
Nə üçün zindana saldınız yola?
O zərif boynu ki, incidər çiçək,
Aqillər zəncirə çəkməsin gərək!
Səba nəsimindən solan bir gülün,
Ayaqda zənciri su olar, bilin!
Qadınlar söylədi şaha: – Ey xoşbəxt,
Tək sənə layiqdir bu tac ilə təxt!
Yusifdə yamanlıq görməmişik biz,
Yoxdur onun qədər vicdanı təmiz!
Necə ki, saf olar sədəfdə gövhər,
O qədər təmizdir o nazlı dilbər.
Züleyxa özü də ordaydı, ancaq
Hiyləni, yalanı atmışdı uzaq.
Eşqin göz yaşıyla yuyaraq təmiz,
Qəlbində ləkədən qoymamışdı iz.
Ruhunda həqiqət qaldırmış bayraq,

Doğruçu səhər tək düz danışaraq,
Sığındı ürəkdən öz Allahına,
Etiraf eylədi hər günahına.
Dedi: – Günahsızdır, o mahi-Kənan!
Mənəm onu sevib yolunu azan.
Vəslindən istədim dərdimə çara,
Sözümü rədd etdi, qovdum kənara.
O mənim zülmümlə düşdü zindana,
Mənim qəmlərimdən yetişdi cana.
Qəmim – həddi aşıb ötdü, nəhayət,
Onun canına da etdi sirayət.
Canına yüz cəfa yetmiş əlimdən,
İndi çıxam gərək xəcalətindən.
Şah ona yaxşılıq edərsə əgər,
Başım iftixarla göyə yüksələr.
Padşah işlərin əslini bildi,
Qönçə tək açıldı, gül kimi güldü.
Dedi: – Haqq söz üçün sizə mərhəba!
Yusifə zindanı kim görmüş rəva?
O hüsn bağında bir güldür xəndan,
Gülə gülşən gərək, nəinki zindan!
Ruh gərək, cismdə yaşasın xoşbəxt,
O şahın məqamı olmalıdır təxt!

YUSİF ZİNDANDAN ÇIXIR, MİSİR PADŞAHI ONA HÖRMƏT EDİR, ƏZİZİ-MİSR ÖLÜR, ZÜLEYXA TƏK QALIR

Bu qoca dünyanın belə rəsmi var,
Acısız şirinlik çətin tapılar.
Doqquz ay rehimdə qan yeyər uşaq,
Çıxar ortalığa ay kimi parlaq.
Daş içrə sıxılar ləl uzun illər,
Günəşdən rəng alıb, əlvan geyinər,
Yusifin gecəsi uzun olsa da,
Səhərin nəsimi yetişdi dada.

Canının möhnəti ağırdı dağdan,
Günəşi parladı o dağ dalından.
Şah böyük ehtiram göstərib ona,
Əmr etdi sarayda olan əyana,
Taxtı günəş olan şah sarayından,
İki ağac yolda açılsın meydan.
Geyinsin əyanlar zər ilə zivər,
Yol boyu sıraya dursun ikişər.
Kəməri qızıldan minlərlə qulam,
Zərkeş xələtlərə geyinsin tamam.
At üstündə çevik quş kimi uçan,
Vəhşi ahu kimi səhrada qaçan,
İgid süvarilər çıxsın pişvaza,
Quş kimi önündə gəlsin pərvaza
İbrani, səryani nəğmələriylə,
Gözəl xanəndələr gəlsinlər dilə.
Şahın sarayından zindana qədər.
Misrin əyanları səf çəkmişdilər.
Yusif ayağına varlı əyanlar,
Qızılı tabaqla etdilər nisar.
Yoxsullar əl atıb tutdular ətək,
Ehsandan geyindi hamı, şal, ipək.
Yusif şaha layiq xələt geyindi,
Şaha məxsus olan bir ata mindi,
Təpədən dırnağa o dağ kimi at,
Zərə, cəvahirə bürünmüş qat-qat.
Tabaqlar dolusu mişklə ənbər.
Bədrələr dolusu dürr ilə gövhər,
Atın dırnağına olundu nisar,
Yoxsullar yoxsulluq daşın atdılar.
Şahın barigahı görünən zaman,
Atdan yenə endi o mahi-Kənan.
Yerə döşədilər xəz ilə atlaz,
Çoxları başını etdi payəndaz.
Necə ki, yeriyər Ay fələk üstə,
O elə yeridi xəz, ipək üstə.
Şah gördü, yaxındır o sahib camal,

Onu bəxti kimi etdi istiqbal.
Şimşad tək qolunu boynundan asdı,
O gülüzlü sərvi bağrına basdı.
Oturtdu özüylə onu diz dizə,
Xoş gəldin deyərək başladı sözə:
Əvvəl yuxusunu dedi hökmran,
Yusif şəkər tökdü ləl dodağından.
Sonra ona verdi cürbəcür sual,
Gah könlünü aldı, gah soruşdu hal.
O, hər bir suala xoş cavab aldı,
Padşah heyrətdən lap dona qaldı
Nəhayət, şah dedi: – Yuxuma səndən
Bir təbir eşitdim, gün kimi rövşən.
Söylə, görməliyəm nə kimi tədbir
Ki, yuxum etməsin ölkəyə təsir?
Yusif ona dedi!: – Bolluq illərdə
Ki quraqlıq sözü gəzməz dillərdə,
Car çəkdir, əmr elə hər kəsin gərək,
İşi-gücü olsun əkmək, becərmək!
Dırnaqla qazıyıb daşları belə,
Əkib becərsinlər alın təriylə.
Sünbüllər yetişib bağlayanda dən,
Yığıb saxlasınlar onu döymədən.
Görürsən sünbüldən nizələr çıxar
Ki, etsin düşməni nizə ilə xar.
Bir müddət anbarda qalar sünbüllər.
Ölkədə başlanar quraqlıq illər,
Ehtiyacı qədər hər kəs o zaman,
Taxıl alıb yeyər, ölməz acından,
Lakin hər bir işi bacaran gərək,
Bilikli, işə can yandıran gərək.
Hər işi mükəmməl bilməli insan,
Biliklə görülən iş olar asan.
Dünyada iş bilən varsa da əgər,
Lakin az tapılar mənə bərabər.
Məndən yaxşısını tapa bilməzsən,
Bu işi gəl mənə həvalə qıl sən.

Şah gördü, Yusifin işə meyli var,
Ona ölkəsində verdi ixtiyar.
Şah kimi oturtdu qızıl bir taxta,
Dedilər əzizi-Misr o xoşbaxta.
Yusif qızıl taxta ayaq qoyanda,
Başlar ayağına endi bir anda.
Saraydan meydana getdiyi zaman,
Göyə yüksələrdi səs çavuşlardan,
Əgər istəsəydi gəzməyə getmək,
Min nəfər yanınca çəkərdi yedək,
Atlanıb çıxanda çölə, şikara,
Atlı qoşun ilə dolardı səhra.
Yusifi göylərə qaldırdı Allah,
Adını dillərə saldırdı Allah.
Misrin Əzizinin taleyi döndü,
Calalı pozuldu, çırağı söndü.
Taqəti tükəndi bu alçalmaqdan,
Əcəl bir ox vurub saldı ayaqdan.
Züleyxa saxladı Əzizə matəm,
Yusifin qəmindən oldu qəddi xəm.
Nə əlində qaldı Əziz calalı,
Nə də sona yetdi Yusif məlalı.
Fələyin qəribə bir qanunu var,
Birini gec sevər, tez gözdən salar.
Birini günəş tək qaldırar göyə,
Birini döndərər yerdə kölgəyə.
Aqillər fələyin felinə uymaz,
Etibar eləməz, məhəl də qoymaz!
Çiynini dik tutmaz səadətindən,
Canını əritməz fəlakətindən.
Dilbərə verilsə bir könül əgər,
Nə şadlıq axtarar, nə də qəm çəkər.
Tutmaz ətəyini dünyanın qəmi,
Nə də şadlıq ilə keçər bir dəmi.
Qəm-qüssə dünyada qalxsa ayağa,
Hər yerdə qəm vursa dağ kimi dalğa,
İslanmaz ətəyi o dalğalardan.

Ayrılmaz dilbərin qəmindən bir an.
Əgər şadlıq seli tutsa dünyanı,
Sevincə qərq etsə hər bir insanı,
Aşiq o şadlıqdan tez üz döndərər,
İstəməz əksilsin qəmi tük qədər.

ƏZİZİN ÖLÜMÜNDƏN SONRA ZÜLEYXANIN AHÜ-ZAR ETMƏSİ VƏ YUSİFİN FƏRAQ ODUNA YANMASI

Züleyxa möhnətlə ötən bir quşdu,
Qəfəsdə quş kimi tək oturmuşdu.
Bir zaman yar idi ona səadət,
Yaşardı gül kimi gülşəndə afət.
Evdə bəslənərdi o zərif çiçək,
Üstündə əsərdi Əziz kölgə tək.
Eyşü-işrət üçün hər şeyi vardı,
Üzü çıraq kimi işıq saçardı.
Dilindən düşməzdi Yusifin adı,
O idi diləyi, eşqi, muradı.
Elə ki Əziz də əlindən getdi,
Xoşbəxtlik büsbütün onu tərk etdi.
Təkcə Yusif oldu könül həmdəmi,
Canını sarsıtdı Yusifin qəmi.
Viranə bir evdə salaraq məskən,
O möhnət mülkünü sandı bir vətən.
Qəmindən nə yatıb, nə də yeyərdi,
Gözdən qan-yaş töküb belə deyərdi:
– Necə xoşbəxt idim o günlər, aman,
Ki, bir mənzildəydi mənimlə canan
Mənim olmasa da, gözüm önündə
Gəzərdi, üzünü görərdim gündə.
Özümü qılaraq nemətdən məhrum,
Əlimlə zindana düşdü o məzlum.
Gecələr gizlicə gedib zindana,
Baxardım ayüzlü əziz canana.

Gündüzlər zindana baxdıqca hər dəm,
Könlüm güzgüsündən silinərdi qəm.
İndisə düşmüşəm ayrı onlardan,
Sinəmdə yaralar, ürəyimdə qan.
Yardan ayrılalı, yalqız qalalı,
Könlümdə yaşayır yalnız xəyalı.
Cismimin ruhudur o əziz xəyal,
Onsuz yaşamağım mahaldır, mahal.
Gəldi bu sözlərlə ahü nəvaya,
Ahından od düşdü Günəşə, Aya.
Başı üstdə çətir var idi ahdan,
Fələk etdi onu üzünə qalxan.
Sipər olmasaydı, bil, ah oxları,
Fələyin köksünü yarardı yarı.
Qopduqca ahından o qara tüstü,
Çətirlə büründü başının üstü.
Bəla günəşindən o nazənin qız,
Qorunardı haman çətirlə yalnız!
Qanlı yaş tökərdi kirpiklərindən,
Laxta-laxta qana yaş deyirəm mən!
Dodağı yanardı ürək odundan,
Kirpiyi o oda çiləyərdi qan.
Dodaqdan silməzdi qanı o dilbər,
Açardı üzündə qandan lalələr.
Ənniktək üzünə yaxaraq qanı,
Yarla təzələrdi əhdü-peymanı,
Bu əhdü-peymana gülüzlü nigar,
Öz ciyər qanını edərdi nisar.
Dırnaqla qoparıb gül yanağını,
Gözdən axıdardı qan bulağını.
Qanı mürəkkəbdi, gözləri davat,
Könlünün qəminə yazardı barat.
Salıb sinəsinə, üzünə dırnaq,
Cananı canında görərdi ancaq.
Əliylə dizinə döydükcə həmən,
Nilufər rəngini alardı sənəm.
Yəni yar eşqində mən dərbədərəm,

Yusif bir günəşsə, mən nilufərəm.
Məşriq günəşidir sevdiyim dilbər,
Mən onun eşqində olum nilufər.
Bağrını döyərdi sənubər kimi,
Sorardı barmağın neyşəkər kimi.
Ağappaq əlləri olardı əlvan,
Yaralı barmaqdan sızılan qandan.
Qanlı barmağını edərəm qələm,
Ovcunu kağıza döndərib hərdəm,
Yazardı qəmindən, eşqindən dastan,
Lakin oxumazdı o xətti canan.
İllərlə bu idi işi, peşəsi,
Canına işlədi hicran tişəsi.
Aldı gəncliyini əlindən fələk,
Qır kimi saçları ağardı süd tək.
Gecə köçüb getdi, açıldı səhər,
Mişkinə kafurdan düşdü ləkələr.
Qəzanın oxuyla qarğa vurulmuş,
Onun yuvasında oturdu bayquş.
Qarğanın yerini bayquş tutunca,
Qocalıq məskəni oldu bağ-bağça.
Ağladı, gözünün qarası itdi,
Nərgis bağçasında yasəmən bitdi.
Fələk işlətdiyi hiylə, təzvirdən,
İşıqlı gözləri qaraldı birdən.
Həyat çeşməsini tapmadı məgər,
Zülmətdən işığa eylədi səfər.
Məgər Hindistandan götürdü örnək,
İşləri tərsinə döndü hindu tək!
O üz ki gül kimi gülərdi müdam,
Soldu, necə solar nilufər axşam.
Naz ilə qaşında düyünlənən çin,
Endi qalxan kimi üzünə çin-çin.
Hələ xatirimə gətirmirəm mən
Ki, su ləpələnsin, külək əsmədən!
Lakin əsməsə də, əssə də külək,
Üzü ləpəliydi onun dəniz tək.

Sərv tək qəddini qəm yükü əymiş,
Başı halqa kimi ayağa dəymiş.
Əynində nə atlaz, nə də ipək var,
Nə də paltarında gövhər parlayar.
Bəyaz gərdənində yoxdur gərdənbənd,
Qalmamış üzündə o zərli rubənd.
Altında döşəyi bir ovuc torpaq,
Balışı kərpicdir, bədəni çılpaq.
Yusifin eşqiylə o torpaq döşək,
İpəkdən yumşaqdır, tirmədən qəşəng.
Balışı kərpicdən olsa da əgər,
Sanardı cənnətdə yatır o dilbər,
Mən onun halını müxtəsər dedim.
Deşərək yüz inci, yüz gövhər, dedim.
Düşməzdi dilindən Yusifin adı,
Yox idi Yusifdən qeyri muradı.
O vaxt ki doluydu xəznəsi zərlə,
Minlərlə mücrüsü ləlü gövhərlə.
Kim ona versəydi Yusifdən xəbər,
Ayağı altına səpərdi gövhər.
Ağzını gül kimi açıb birinci,
Nə qədər tutsaydı, qoyardı inci.
Xalqı varlandırdı onun bəxşişi,
Tükəndi xəznədə qızıl-gümüşü.
Palaza büründü o nazikbədən,
Oldu bel bağısı xurma lifindən.
Yusifdən bir kimsə vermədi xəbər,
Sükut qıfılıyla bağlandı ləblər.
Keçdi o günlər ki hər dil, hər dodaq,
Yusifdən yarına verərdi soraq.
Belə bir qərara gəldi o canan,
Yol üstə bir daxma qursun qamışdan.
Düşərsə oradan yarın güzarı,
Ayaq səslərini eşitsin, barı.
İşrət məclisinin sazı susaraq,
Canan vüsalından düşmüşdü uzaq.
Əldən ixtiyarı büsbütün çıxmış,

Dərdü-qəm o sərvi torpağa yıxmış.
Bir xəbər gətirən yoxdur yarından,
Qasid gözləyirdi yar diyarından.
Gah etdi küləyə sirrini bəyan,
Gah quşa söylədi, xəbər ver yardan!
Bir yolçu görüncə yolda o dilbər,
Üzünün, gözünün tozunu silər,
Gah əlindən öpər, gah ayağından,
Deyərdi bu gəlmiş yar torpağından,
Bilirdi bu yoldan keçsə cananı,
Gözü görməyəcək, şanlı sultanı,
Yolunun tozundan alıb təsəlli,
Yol üstdə durardı dünya gözəli.

ZÜLEYXA YUSİFİN YOLU ÜSTƏ QAMIŞDAN ALAÇIQ TİKDİRİR, YOLDAN KEÇƏN YUSİF QOŞUNUNUN AYAQ SƏSİNDƏN TƏSƏLLİ ALMAQ İSTƏYİR

Təklikdən Züleyxa artıq bezikdi,
Yol üstə qamışdan bir daxma tikdi.
Daxmanı hər yandan qamış çulğamış,
Ney kimi inildər, sızlar hər qamış.
Fəraq nəğməsini başlayan zaman,
Nalələr yüksələr hər bir qamışdan.
Hicran atəşinə canı yanardı.
Ahından qamışlar alovlanardı.
Qamış alaçıqda sanki bir şikar
Yıxılmış, almışdı dövrəsin oxlar.
Lakin o, eşqdən bixəbər idi,
Gözündə hər bir ox neyşəkər idi.
Deyirlər, Yusifin vardı bir atı,
Dördnala çapardı bu kainatı.
Rəngi ala idi fələklə ortaq,
Gecədən gündüzə vurmuşdu yamaq.
Onda nur da vardı, zülmət də vardı,

Gecəsi gündüzlə tən barabardı.
Düymüş quyruğunu çarxın qurşağı,
Bədrin kasasını qırmış dırnağı,
Qızıl bir hilal var hər dırnağında,
Sanki ulduz parlar çarxın tağında.
Daşlar əzilərdi o qızıl naldan,
Yüz ulduz doğardı hər bir hilaldan.
Çaparkən salsaydı nalın birini,
Fələkdə tutardı hilal yerini.
Ovlaqda qaçarkən sanki, bir ceyran,
Ox kimi ötərdi ovun yanından.
Onu çapsaydılar şərqdən qərbə,
Şimşək tək uçardı almadan zərbə.
Tozu vurmasaydı geriyə əgər,
Qopardığı toza çatmazdı sərsər.
Təpədən dırnağa batsa da tərə,
Bir qətrə o tərdən axmazdı yerə.
Sanki, bir sel idi o, qətrələrdən,
Süzülüb keçərdi geniş çöllərdən.
Gövhər xəznəsiydi, su tək axardı,
Qamçısız, nalından şimşək çaxardı.
Axurda ram olub dursaydı əgər,
Fələklər olardı o ata mehtər.
Ona su verərdi öz mənzilində,
Günəş çeşməsindən Ay sətilində.
Hər gecə azuqə olardı ata,
Samanı – kəhkəşan, sünbülü – arpa.
Arpası ələnsin deyə, asiman,
Xəlbir hazırlamış gecə sapından!
Qumları arpadan seçsinlər deyə,
Sidrənin quşları düşər səcdəyə.
Yəhəri tərəzi bürcündən nişan,
Cüt hilal asılmış sol və sağından.
Yusif o hilala basaraq ayaq,
Yəhərə qalxardı ay kimi parlaq!
Ətrafı titrədər atın şeyhəsi,
Batardı bu səsdən göylərin səsi.

Kişnəyib ürəkdən qaldıranda səs,
Köç təbli çalmağa gəlməzdi həvəs.
Hamı yüyürərdi o aya sarı,
Aya baş əyərdi səyyarəvarı.
Züleyxa at səsi eşidən zaman,
Küçəyə çıxardı qamış daxmadan.
Həsrətlə yolunun üstə durardı,
Ağlayıb, eşqinə matəm qurardı.
O yoldan Yusifsiz keçəndə karvan
Uşaqlar deyərdi ona yalandan:
Budur, Yusif gəlir yanınca alay,
Hüsnünə vurulmuş Günəş ilə Ay.
Züleyxa deyərdi: – Nazlı balalar,
Bu qəmli könlümə qoymayın qubar.
Baş alıb yol ilə bu gələnlərdən,
Yusifin ətrini duymayıram mən.
Hansı bir mənzilə getsə o dildar,
Dünyanı mişk ətri, gül ətri tutar.
Hansı bir məhmilə otursa canan,
Bəxş edər ətriylə xəstələrə can.
Yusif bir karvanda olsaydı əgər,
Hüsnünə olsaydı heyran könüllər,
“Yusifdən bir xəbər yox” – deyərdilər,
“Yarından bir əsər yox” – deyərdilər.
Züleyxa deyərdi: – Aldanmaram mən,
Yarın gəldiyini danmayın məndən.
Yusif can mülkünə olmuş hökmran,
Gizlətmək olurmu onu yarından?
Ətri can bağrına bahar gətirər,
Can deyil, cahana nobar gətirər.
Canlar təzələnər, novbahar olar,
Dünya başdan-başa laləzar olar.
Çavuşlar deyəndə “uzaq ol, uzaq!”
O hicran xəstəsi qulaq asaraq,
Deyərdi: – Uzağam illər boyu mən,
Yüz möhnət gördüyüm öz sevgilimdən.
Yardan ayrı düşüm haçana qədər?

Kaş əcəl çataydı, yaşamaq yetər!
Deyib bu sözləri, düşərdi bihuş,
Edərdi özünü özü fəramuş.
Yetişən olmazdı dada, haraya,
Çəkilib gedərdi qamış daxmaya.
Oturub, ağlayıb, etdikcə fəryad,
Od tutub yanardı o qəlbi naşad.
Günü belə keçdi bir xeyli zaman,
İşi ağlamaqdı, munisi fəğan.

YUSİF ŞAHLIQ TAXTINA ƏYLƏŞİR, QARDAŞLARI ACLIQ ÜZÜNDƏN TAXIL APARMAQ ÜÇÜN MİSİRƏ GƏLİRLƏR

Yusifə Allahın mərhəmətindən,
Şahlıq tac-taxtı verildi birdən.
Camaat acından olarkən tələf,
Üz tutdu Yusifin qəsrinə tərəf.
Onun qarşısında düşüb torpağa,
Çörək istəyirdi həm qul, həm ağa.
Xalqın kədərindən ürəyi doldu,
Qəmdən buğda kimi yanıb qovruldu.
Arpanı, buğdanı satsınlar deyə,
Yeni şah bir fərman verdi ölkəyə:
Azacıq bir müddət keçincə bundan,
Dəhşətli aclığa tutuldu Kənan.
Hər kəsin qızılı, gümüşü vardı,
Verib əvəzində buğda alardı.
Nə inci, nə yaqut qaldı, nə gövhər,
Sataraq, taxıla verib yedilər.
Dolandıqca dövran, keçdikcə zaman,
Aclıq atəşinə tutuşdu Kənan.
Yusif qardaşları tapmadı çörək,
Onları da saldı bu oda fələk.
Yəqubun yanına gedərək onlar,
Çörəkdən söz açıb, qan ağladılar.

Ata mehribanlıq edib onlara.
Dedi: – Ürəyimə vurdunuz yara!
Ulduzlar seyrindən olmuşam agah,
Ki, vardır Misrdə xeyirxah bir şah,
Bilikdə Allahın feyzinə məzhər[1],
Qəlbi təmizlikdə bir nurlu səhər.
Günəş tək aləmə üzü nur saçar,
Xalq ona üz tutar, ona əl açar.
Sizin halınızdan tutarsa xəbər,
Yəqin, hörmət edər, yardım göstərər.
Bilincə Misirdə belə bir şah var,
Səfərə çıxmağa hazırlaşdılar.
Alıb lazım olan əmtəələrdən,
Dəvəyə yükləyib, çıxdılar evdən.
Keçib səhralardan bir xeyli zaman,
Kənandan Misirə yetişdi karvan.
Yusif taxtü-tacı buraxıb o gün,
Ova çıxacaqdı səyahət üçün.
Parlaq günəş kimi nur saçır üzü,
Qoşunla dolmuşdu o çölün düzü.
Əynində gövhərlər parıldayardı,
Min qızıl kəmərli qulları vardı.
Onun arxasınca yollandı ləşkər,
Sanki, bir dənizdə coşdu ləpələr.
Yusif, o ayüzlü, günəşbüsatlı,
Şikar arxasınca gəzirdi atlı.
Bu dəmdə qardaşlar yetişdi yoldan,
Gördülər at çapır, ov gəzir sultan.
Tamaşa etməyə durub bir yanda,
Şah ötüb buradan keçən zamanda,
Qəribləri görüb dayandı dərhal,
Çağırıb yanına verdi çox sual.
Qardaşlar hər yandan verdilər xəbər,
Kənandan, Yəqubdan söz söylədilər.
Yusifin xoşuna gəldi bu söhbət.

[1] Məzhər – aşkara çıxaran

Nisgilli qəlbində coşdu məhəbbət,
Yurd, ata həsrəti, canını yaxdı,
Gözündən üzünə incilər axdı.
Əmr etdi yanınca gedən əyana,
Qayğı göstərilsin əhli-Kənana.
Şəhərə aparıb etsinlər hörmət,
Hər biri göstərsin onlara xidmət.
"Nəcib insanlardır" söylədi, bunlar
Misirdə ən əziz qonağımdırlar.
Aparın mənzilə, xidmətdə durun,
Onlara layiqli bir məclis qurun!
Döşəyin süfrəyə dadlı xörəklər,
Şərbətdən, şəkərdən, nə istəsələr.
Yusifin əmrinə edib itaət,
Əyanlar göstərdi onlara hörmət.
Alıb gətirdilər şəhərə birbaş,
Bütün şəhər əydi qonaqlara baş.
Yusif də gəzərək bir az çölləri,
Döndü dostlarıyla şəhərə geri.
Çatdı Günəş kimi mənzilə həmən,
Düşdü bir Ay kimi atın belindən.
Əyanlar yeridi sağ və solundan,
Qəsrinə yollandı o şanlı sultan!
Bağlandı zəncirə əzmiylə fələk,
Taxta qədəm qoydu o bir Günəş tək!
Taxtını vücudu qərq etdi nura,
Söylədi: – Əzizlər gəlsin hüzura!
Əzizlər Yusifi aldı araya,
Sanki, bəzək verdi ulduzlar Aya!
Yusif qardaşları tutunca xəbər,
Dəvətsiz saraya tərəf gəldilər.
Yusif ləblərindən saçdı gövhəri,
Dedi ki: Bismillah, gəlin içəri!
Gəlib baş əydilər hamısı tək-tək,
Günəşin önündə səyyarələr tək!
Dedilər: – Ey bəxti cavan padişah,
Təxtini, tacını hifz etsin Allah!

Bizə göstərdiyin izzət, ehtiram,
Edib cümləmizi sənə bir qulam.
Yusif şad görunur zahirdə, amma
Ürəyində vardı müşkül, müəmma!
Batində qəlbinə kədər çökürdü,
Gizlicə gözündən gövhər tökürdü.
Kənan əzizləri Misrə çatanda,
Ürəyi təsəlli tapdı bir anda.
Çağırdı onları taxtın yanına,
Gülər üz göstərdi mehmanlarına.
İncilər saçıldı şahın ağzından,
Dedi: – Gəldiyiniz yola can qurban!
Zatınız, südünüz, təmizdir – deyə,
Bu gəliş şərəfdir bizim ölkəyə.
Xoşdur, mübarəkdir qədəmləriniz,
Sizin tək qonaqla fəxr edirik biz!
Gəlişiniz verdi gözlərə işıq,
Sizinlə ölkəmiz tapdı yaraşıq.
Yusif çalışırdı ki, gündən-günə,
Etsin qonaqları məhrəm özünə.
Artdıqca onlara Misirdə hörmət,
Onlarda artardı vətənə rəğbət.
Lakin o gülüzlü böyük hökmdar,
İcazə verməzdi getsinlər onlar.
Onlar israr edib hey yalvarardı,
Yusif öz sözündə möhkəm durardı.
Bu gün razılaşıb qalsa da onlar,
Sabah edərdilər getməkdə israr.
Yusif başqa tədbir düşündü bir gün,
Çağırıb quluna dedi: – get özün,
Apar, qonaqların mallarını sat,
Göstər qiymətini birə ikiqat.
Taxıldan hazırla elə barxana,
Güclə gedib çatsın dəvə Kənana!
Qul şaha baş əyib, bazara getdi.
Yusif nə demişdi, elə də etdi.
Bir gün Yusif ilə söhbət zamanı,

Qardaşlar yad etdi yenə Kənanı!
Xoş sözlər Yusifin ağzında qaldı,
Ürəyi sıxıldı, rəngi saraldı.
Qəlbi dərya kimi coşaraq kindən,
Qara bulud kimi qopdu yerindən.
Dedi: – Ey qəddarlar bu sözdür doğru.
Ki, siz casussunuz, ya da ki, oğru!
Düz adam tanınar düzlük üzündən,
Yalançı tələyə düşər sözündən.
Düzlük, təmizlikdən dəm vurdunuz siz,
Mən də xatirinizi tutardım əziz.
Əgər sözünüzdə yoxdursa yalan,
Doğruçu səhər tək danışın, əlan!
Yalançı səhər tək etsəniz riya,
Düşəcək başınız min bir bəlaya.
Qəzəblə üz tutub o, zindanbana,
Aparın bunları, dedi, zindana!
Hamı bir ağızdan dedi qardaşlar
Ki, ey bu ölkənin fəxri hökmdar!
Nə casus, nə oğru, bəlkə də, açıq,
Çörəkçin Kənandan gəldik, möhtacıq!
Bu bəd əməllərdən, bil, arıyıq biz,
Yəqub peyğəmbərin övladıyıq biz!
Atamız bizimçün edir ahü-zar,
Oturub daima çəkir intizar.
Bir oğul qəmiylə ürəyi dolmuş,
O qədər ağlamış, gözü kor olmuş.
Dedi: – Yəqub sizə atadır əgər,
Yoxdur sizdən özgə övladı məgər?!
On ağız süsən tək açıldı birdən,
Dedilər: – Razıyıq mərhəmətindən,
Bir oğlu da vardır, Yəqubun, ancaq
Adı İbn-Yəmin, sayılır uşaq.
Var idi bir oğlu, adı da Yusif,
Uşağı qurd yedi, etdik təəssüf.
Atamız çox sevir İbn-Yəmini,
Onunla unudur Yusif qəmini.

Nə gecə, nə gündüz ayrılır ondan,
Onsuz bir zindandır Yəquba cahan!
Dedi: – Doğrudursa əgər sözünüz,
Kənana gedərək Misrə dönünüz!
Söz verin Kənandan qayıdan zaman,
Gələcək sizinlə o cavan oğlan!
Bu vədə siz əməl etsəniz əgər,
Yanımda qədriniz daha yüksələr!
Taxıl bağışlaram o qədər sizə
Ki, bolluqla çatsın qəbilənizə!
Bir nəfər sizlərdən girov qalacaq,
Geri qayıtmağa and için ancaq!
Qardaşlar and içdi böyük Allaha
Ki, hamı qayıtsın Misrə bir daha!
Şərt kəsib, and içib, yəmin etdilər,
Yəhudanı girov qoyub, getdilər!

QARDAŞLAR KƏNANA QAYIDIR, ƏHVALATI ATALARINA SÖYLƏYİRLƏR

Ötüb Nil çayı tək Misrin yanından,
Oldular sürətlə Kənana rəvan.
Dəvələr boynunda noxta boşaldı
Misr eli, Nil çayı geridə qaldı.
Hər dəvə üstündə taxıl var bir yük,
Yüklərin hər tayı anbardan böyük.
Keçib səhraları, aşıb dağları,
Dəvələr yorturdu Kənana sarı.
Batdı yük altında tərə hər dəvə,
Karvan yaxınlaşdı, nəhayət, evə.
Dedilər Yəquba: – Qayıtdı karvan,
Lakin Yəhudadan görünmür nişan!
Yəqubun fəryadı yüksəldi göyə,
Ağlayıb, səs saldı bütün ölkəyə.
Ürək qanı oldu gözündən cari,
Qaçdı yola tərəf divanəvari.

Şütüdü yel kimi, qan-tərə batdı,
Gəlib toz içində, karvana çatdı.
Ürək ağrısından qıldı ahü-zar,
Dedi: – Ey hissdən məhrum oğullar!
Hanı o qardaş ki, alıb getdiniz,
Yusif tək gözümdən iraq etdiniz?!
Nə oldu, o qaldı qürbət ellərdə,
Sizinlə vətənə dönmədi bir də!?
Mənə yetməzdimi Yusifin qəmi,
Bu qəm də könlümün oldu həmdəmi?
Ah çəkdi, püskürdü od ciyərindən,
Mum kimi əridi oğul qəmindən!
Qocanın halını görüb oğullar,
Torpağa döşənib, qan ağladılar!
Dedilər: – Boş yerə, ata, qurma yas!
Bizim sözümüzə bir an qulaq as!
Elə ki, biz Misrə yetişdik yoldan,
Bizə hörmət etdi, əvvəlcə, sultan.
Hər gün məclis qurub, edirdi söhbət,
Biz ondan duyurduq sonsuz məhəbbət.
Sonra birdən-birə dəyişdi üzü,
Oğruya, casusa oxşatdı bizi.
Biz ona söz açdıq öz nəslimizdən,
Şaha bir hekayə söylədik sizdən.
Misrin sultanına dedik: – Ey sərvər!
Bizim atamızdır Yəqub peyğəmbər!
Dedi: – Sözünüzdə yoxdursa yalan,
Sizə atadırsa o piri-Kənan,
Gediniz Kənana, söyləyin Yəqub,
Sizinlə göndərsin mənə bir məktub.
Sizin sözünüzü təsdiq eyləsin,
Kimdir və nəçidir, açıq söyləsin.
Bizdən şübhəliydi, odur ki, xosrov,
Yəhudanı tutub, saxladı girov!
Bizə and içdirdi ölkə sərvəri
Ki, gərək dönəsiz Kənandan geri.
Dedi: – Bir də Misrə gəlsəniz əgər,

İbn-Yəmin ilə gəlin bərabər.
Siz əgər bu əhdə vəfa etsəniz,
Məndən ənam alıb, hörmət görərsiz,
Dedilər ki: Ata, fövt olar fürsət,
Ver bizə tezliklə getməyə rüsxət.
Sonra da ənbər saç qələm dilindən,
Şaha bir məktub yaz sən öz dilindən.
Dilini qələm tək açaraq Yəqub,
İşarə verdi ki, yazılsın məktub.
Katib itilədi qələmin dərhal,
Ağzını tər mişkə saldı dalbadal.
Kağız üstə qələm çilədi ənbər,
Naməyə möhrünü vurdu peyğəmbər.

YUSİF QARDAŞLARI İKİNCİ DƏFƏ MİSİRƏ GEDİR VƏ İBN-YƏMİNİ APARIRLAR

Məktub hazır oldu, Yəqub bu zaman,
Verdi övladına sidq ilə fərman.
Səfərə özünüzü hazır ediniz,
İbn-Yəmini də alıb gediniz!
Yenə Misrə tərəf yollandı karvan,
Yolda mənzil edib rahat olmadan.
Gecələr yuxunun daşın atdılar,
Sürətlə yol gedib, Misrə çatdılar.
Burada əyanlar kimi on qardaş,
Şahın sarayına getdilər birbaş!
Qəsrin qapısına basınca ayaq,
Yusif dəvət etdi, onları qonaq.
Sevincdən oldular gül kimi xəndan,
Sidq ilə oldular şaha sənaxan[1].
Söylənən duaya qulaq asaraq,
Yusif fikrə getdi, dinmədi ancaq.
Sükut davam etdi bir neçə saat,

[1] Sənaxan – tərif söyləyən, duaçı

Dilindən çıxmadı bir söz də – heyhat!
Keçdi yeddi saat, şah gəldi dilə,
Dedi qonaqlara bir xoş dil ilə:
– Səfa gətirdiniz, Misrə, şadam mən,
Əhdinizə vəfa etdiniz, – əhsən!
Qardaşlar duaya yenə dil açdı,
Hər biri ağzından gövhərlər saçdı.
Ağılla, kamalla etdilər dua,
O səhvi, xətanı əfv edən şaha.
Dedilər: –Yəqubdan məktubumuz var!
Bax, İbn-Yəmin də qarşında durar!
Bir qardaş irəli keçdi, bu zaman,
Əlində o namə piri-Kənandan.
Taxtının önündə qılaraq təzim,
Öpərək naməni eylədi təqdim.
Görüncə adını atasının, şah,
Gözü yaşla doldu, çəkdi dərin ah!
Axdı ayağına gözlərindən yaş,
Durub hərəminə yollandı birbaş!
Naməni əlində tutub oturdu,
Oxudu, həsrətdən başına vurdu.
Məktubu gözünə sürtüb ağladı,
Ahı başı üstə duman bağladı.
Naməyə səpdiyi inci, yaqutdu,
Xəttini tovrata bərabər tutdu.
Gah onu tac kimi qoydu başına,
Qərq etdi gözünün qanlı yaşına.
Yəqubun gözünün işığı bu dəm,
Qılmadı kimsəni dərdinə həmdəm.
Dedi, – Qonaqlara hörmət edərək,
Süfrə döşəsinlər, versinlər xörək.
Şahın mətbəxindən xörəklər gəldi,
Nazü-nemət dolu süfrə düzəldi.
Yusif əmr verdi hər iki nəfər,
Üz-üzə oturub xörək yesinlər.
Məclisə gələrək hər iki qardaş,
Bir süfrə başında oldular həmaş.

Təsadüf Yusifə elədi kömək,
Qaldı İbn-Yəmin o məclisdə tək!
Ah çəkib, şam kimi od tutub yandı,
O ahdan Yusifin canı odlandı.
Dedi: – Bu nə ahdır, niyə qəmginsən?
Nə üçün ahından odlandı sinən?!
Dedi İbn-Yəmin: – Ey izzətli şah,
Nisgilli könlümdən yüksəldi bu ah.
Mənim də qardaşım vardı bir zaman
Ki, artıq sevərdim onu hamıdan.
O günəşcamallı qalsaydı əgər,
Həmaşım olardı bu gün, ey sərvər!
Dedi: – Haradadır indi qardaşın
Ki, onun qəmində axar göz yaşın?
İbn-Yəmin dedi: – Böyük hökmdar,
Deyirlər yemişdir onu canavar.
Dedi: – Ey ürəyi yaxan şəm kimi,
Mən bu gün mehriban bir həmdəm kimi,
İcazə ver, sənin yoldaşın olum,
Yusifin yerinə həmaşın olum!
Ay kimi var idi önündə pərdə,
Pərdə arxasına gedib bir yerdə,
Ay ilə müştəri kimi mehriban,
Bir süfrə başında saldılar məkan.
Şövq ilə yedilər doyunca xörək,
O gün təzələndi, demək, duz-çörək!
İbn-Yəmin etdi şah ilə söhbət,
Yusifin qəlbində coşdu məhəbbət.
Yusif də başladı sözə-söhbətə,
O İbn-Yəmini saldı heyrətə.
Mehri, məhəbbəti yetmədi sona,
Bir çox hekayələr söylədi ona.
Rəmz ilə söz açdı babalarından,
Yaxınlıq sirrini eylədi bəyan.
İbn-Yəmin ona qulaq asaraq,
Könlündə doğurdu bir şübhə, maraq.
Yanan sinəsindən qopdu odlu ah,

Dedi: – Ey günəşdən ulu padişah!
Səni and verirəm, mən bir Allaha,
Ki, bir gözlə baxır qula, həm şaha.
Nuru hər zərrədə əyandır onun,
Lütfü bir keçilməz ümmandır onun.
Bir sirri gizlətmə məndən lütf eylə
Yoxsa Yusifmisən? Düzünü söylə!
Az qaldı ki, Yusif getsin özündən,
Pərdəni götürdü sirrin üzündən.
Dedi: – O atasız, o qərib mənəm,
Qardaşlar əliylə dağlanıb sinəm!
Qul kimi möhnətlə, dərdlə satıldım,
Zindanlar küncünə bir gün atıldım.
Ata həsrətiylə möhnətə dözdüm,
Yad eldə zillətə, töhmətə dözdüm!
Bu dəm çatdı başa hicran günləri,
Yetdi bir-birinə mehrü müştəri!
Bilincə mehriban süd qardaşdılar,
Qol açıb, öpüşüb, qucaqlaşdılar!
İki gül şövq ilə oldu həmağuş,
Uçdu başlarından saat yarım huş.
Beləcə qardaşlar huşsuz qaldılar,
Xoşbəxtlik yar oldu, tez ayıldılar.
Dedi İbn-Yəmin Yusifə: – Qardaş,
Ey mənim dərdimə, qəmimə yoldaş!
Sənin möhnətindən, hicran qəmindən,
Bu zalim fələyin hər sitəmindən,
Atamız qocalmış, bezmiş, yorulmuş,
O qədər ağlamış, axır kor olmuş!
Nə vaxtdır olmusan Misirdə sultan,
Nə üçün atanı bir anmamısan?!
Özünü nə üçün yüksəkdə tutdun?
Oğulluq borcunu niyə unutdun?
Yusif üzr istədi, dedi: – doğrudur,
Nə edim, Allahın fərmanı budur!
Bu qədər vəfasız bilmə məni sən,
Allahın əmrinə əməl etdim mən.

İndi mən vermişəm belə bir qərar
Ki, bir də Kənana getsin qardaşlar.
Bir tədbir görmüşəm, biləsən gərək,
Çalışaq, qəzanın işini görək.
Mənə yəqindir ki, yaxındır o gün,
Atamla görüşmək olacaq mümkün.
Tezliklə bu hicran sona çatacaq,
Biz gərək o günü gözləyək, ancaq!
Qardaşlar Kənana getdiyi zaman,
Mənimlə qalmaqçın sən bir az yuban
Çalış, bu səfərdə onlarla getmə,
Onlar qayıdacaq geri, qəm etmə!
Onlara bir hiylə quracağam mən,
Sən ancaq bu işdə incimə məndən.
Deyərəm qursunlar belə bir kələk,
Onları bu kələk sarsıtsın gərək.
Qızıldan çanağı alıb anbardan,
Gətirsin anbardar hamıdan pünhan.
Onu tutarlı bir bəhanə üçün,
Sənin barxananda gizlətsin o gün.
Sənin barxananda tapılsa çanaq,
Onlarla getməyin baş tutmayacaq!
Deyib dinlədilər, verdilər qərar,
Belə bir hiyləyə razılaşdılar.

TAXIL ÇANAĞI GİZLİ SURƏTDƏ İBN-YƏMİNİN YÜKÜNƏ QOYULUR, YUSİF ONU OĞRU ADI İLƏ QUL EDİB YANINDA SAXLAYIR

O günün səhəri şahın dilindən,
Gedib anbardara tapşırıq verən,
Çanağı gizlətmək əmrini verdi,
Bu işi anbardar başa yetirdi.
Elə ki qardaşlar hazır oldular,
Getməyə icazə istədi onlar.
Yusif də onlara mane olmadı,

Səfərə yollandı Yəqub övladı.
Səhər nəsimi tək çıxdılar çölə,
Onların sürəti oxşardı yelə.
Şahın məmurları çatıb arxadan,
Acıqla səslənib dedilər: – Dayan!
Kəsib qarşısını bu dəm karvanın
Ki, alçaq oğrular, bircə dayanın!
Yəqub uşaqları oğru adlandı,
Əlbəttə, bu töhmət açıq yalandı.
Qardaşlar başladı anda, amana:
Dedilər: salmayın bizi böhtana!
Təmiz ailədə böyümüşük biz,
Peyğəmbərlər olmuş bütün nəslimiz!
Məmurlar yükləri gəzdi bir zaman,
O qızıl çanaqdan olmadı nişan.
Çatdı İbn-Yəmin yükünə növbət,
Çanağı tapdılar onda, nəhayət!
Yoldan qaytardılar kənanlıları,
Döndülər Yusifin qəsrinə sarı.
Yusif söylədi: – Ey nankor adamlar,
Məgər yaxşılıqdan belə çıxarlar?
Hamısı dedi: – Ey ədalətli şah,
Əgər İbn-Yəmin işləmiş günah,
Yəquba bağışla, keç günahından,
O məzlum qocanın saqın ahından.
Kini, küdurəti çıxar qəlbindən,
Cavansan, qocaya güzəştə get sən!
Şah dedi: – Bu sözlər bir əfsanədir,
Sizdə oğruların cəzası nədir?!
Qardaşlar dedilər: – Ey rəhmdil şah,
Bizdə kim işləsə, belə bir günah,
Yəni oğurlansa bir kəsin malı,
Oğru o adamın qulu olmalı!
Dedi: – Bu qanunu edirəm qəbul,
Mənə İbn-Yəmin olsun bir il qul!
Hamı bu qərardan gəldi dəhşətə,
Şahla başladılar sözə, höccətə.

Biri söylədi: – Ey xalqın əmini,
Hörmət qoy, bizə ver İbn-Yəmini!
Yoxsa elə nərə çəkərəm ki, mən,
Bütün misirlilər gedər özündən!
Sonra qulağına qoyub əlini,
İstədi nərəyə açsın dilini.
Ağzını açanda Yusif əliylə,
Endirdi ağzına onun bir şillə.
Sonra Yusif özü çəkdi bir nərə,
Hamı huşdan gedib, sərildi yerə!
Keçdi xeyli zaman, ta ayıldılar,
Şahın məclisindən çıxarıldılar.
Xəcalət çəkdilər, sirr olmadı faş,
Getdilər Yəqubun yanına birbaş!
Möhnətkeş qocaya verdilər xəbər
Ki, İbn-Yəmindən görünməz əsər!
Qəlbində dəniz tək qəm vurdu dalğa,
Huşunu itirib düşdü torpağa.
Elə ki özünə gəldi bir kərə,
Ah çəkdi, tüstüsü qalxdı göylərə.
Gül tək yaxa yırtıb, çıxdı köynəkdən,
Lalə tək dağlandı qanlı ürəkdən.
Ağlayıb soruşdu oğlanlarından
Ki, İbn-Yəminə nə olmuş, aman?!
Oğlanlar birbəbir dedilər: – Ata,
Çıxmış İbn-Yəmin əlindən xəta!
Yükündən tapılmış oğurluq çanaq,
Cəzası olmuşdur şaha qul olmaq!
Yəqubu sarsıtdı bu qara xəbər,
Sanki sinəsinə vurdular xəncər.
Bir müddət bu ağır möhnətə dözdü,
Xəcalət, müsibət canını üzdü.
Birini çağırıb oğullarından,
Dedi: – Gəl, yanımda əyləş bir zaman,
Qələmi al ələ ədəb ilə sən,
Misir sultanına namə yaz məndən.
Yaz mənim dilimdən şaha çox dua

Ki, Yəqub əl açıb, gəlmiş qapına.
Qocayam, fəqirəm, rəhm qıl mənə,
Salma bundan artıq hicran dərdinə!
Fələyin cövründən gülşənim solmuş,
Nərgis gülü kimi gözüm kor olmuş.
Qırx il qara keçmiş gecəm, gündüzüm,
Yusif həsrətiylə gülməmiş üzüm.
Düşün ki, qarşında dilsiz bir şamam,
Oğul fəraqında yol vermə yanam!
Lütf ilə halıma mənim nəzər qıl,
Duamdan, ahımdan saqın, həzər qıl!
Yazılıb, bir zərfə qoyuldu məktub,
Misir sultanına göndərdi Yəqub.
Qasid gəlib çatdı şah hüzuruna,
Məktubu ədəblə yetirdi ona.
Yusif zərfi açıb, aldı məktubu,
Sanki qarşısında gördü Yəqubu.
Yırtdı yaxasını, qopardı fəğan,
Tacını torpağa saldı başından.
Dəniz tək qəlbində qəm vurdu dalğa,
Yağış tək üzünü sürtdü torpağa.
Ağlayıb yalvardı bir pak Allaha,
Əl açdı qul kimi uca dərgaha.
Dedi: – And verirəm səni, ey xuda,
Yəqubun gözünü tutan buluda!
Qoyma bundan artıq çəkim müsibət,
Onun didarını qıl mənə qismət.
Bu dəm vəhy gəldi: – Ey nütfəsi pak,
Görüş yaxındadır, qılma sinən çak[1].
Qaldır lalə kimi üzünü yerdən,
Atan məktubuna bir cavab yaz, sən!
Yusif durdu, saray səmtinə getdi,
Katibi yanına tez tələb etdi.
Dedi: – Gəl, qələmlə yarat bir ecaz,
Mişk ilə kafura can sözləri yaz!

[1] Çak – parçalanmış

Katib ki, əlinə aldı qələmi,
Xətt üstə yoluna saldı qələmi.
Qələmə əl atıb, ütarid[1] kimi,
Günəş üstə çəkdi bir gecə rəsmi.
Bir namə bəzədi o sahibzəka,
Məzmunu düzlükdə Xətti-üstüva.
Kağızda bir naxış saldı ki, qələm
Yusifin könlündən silindi ələm.
Katib o naməni yazıb bitirdi,
Yusif öz əliylə qasidə verdi.
Qasid şah əmrini bilərək şərəf,
O saat yollandı Kənana tərəf.
Səadət elçisi çatdı mənzilə,
Naməni Yəquba verdi əliylə.
Məktubu açanda məktub oxuyan,
İlk sözü başladı Allah adından.
Sonra İbrahimə oxudu salam,
Yəqubun vəsfini şərh etdi tamam.
Namənin mənalı hər bir sözündən,
Yəqub sarsılaraq, getdi özündən.
Elə ki o qoca özünə gəldi,
Təmiz ürəyindən bir səs yüksəldi.
Dedi: – Bu naməni yazan, şübhəsiz,
Özü peyğəmbərdir, bilməliyik biz!
Yusifin yuxusu düşdü yadına,
Bu rəmzi bağladı onun adına.
Vəcd ilə söylədi oğlanlarına
Ki, tez Misrə gedin şahın yanına.
Keçin bu yollardan iti külək tək,
Axtarın Yusifi gözdə bəbək tək!

[1] Ütarid – ulduz adıdır

YƏQUB ÖVLADLARI BİR DAHA MİSİRƏ GƏLİR VƏ YUSİFLƏ GÖRÜŞÜB DEYİŞİRLƏR

Yenə Misrə tərəf yollandı karvan,
Keçdilər sürətlə uzaq yollardan.
Misrə çatan kimi Yəqub övladı,
Şahın sarayına tərəf yollandı.
Şah dedi: – Gəlsinlər yanıma yenə,
Qardaşlar getdilər şahlıq qəsrinə.
Qonaq xatirini əziz tutdu şah,
Taxtının önündə həm oturtdu şah.
Yusif ehtiramla sözə başladı,
Dedi: – Ey Yəqubun əziz övladı!
Məndə bir ibrani namə vardır, siz
Oxuyun, şərh edin, dili bilsəniz.
Verdi xidmətçiyə zərfi bu zaman,
Qardaşlardan biri tez aldı ondan.
Elə ki açaraq o xəttə baxdı,
Sanki, gözlərində ildırım çaxdı.
Namə tək qıvrıldı, gözü qaraldı,
Dəhşətdən bozarıb, sonra saraldı.
Verdi başqasına utandığından,
Onun da başından yüksəldi duman.
Birbəbir qardaşlar xəttə baxaraq,
Solub saraldılar, susdular, ancaq!
Bir az düşündülər, dedilər: – Ey şah,
Yalan danışmırıq, şahiddir Allah!
Bizim Yusif adlı qulumuz vardı,
Yaman tənbəl idi, yeyib yatardı.
Biz onun əlindən zinhara çatdıq,
Aparıb onu bir tacirə satdıq,
Yazmışıq bu xətti o zaman ey şah,
Qırx il əvvəl olan işdir bu, vallah!
Padşah dedi: – Ey Yəqub övladı,
Verdiyiniz cavab doğru olmadı.
Yetər qələm kimi qoşa dillilik,
Yalanı doğrudan seçə bilirik.

İşiniz namə tək açıqdır, açıq!
Başınız qələm tək bıçağa layiq!
Bu namə göstərir iç üzünüzü,
Odur ki, qaradır namənin üzü.
Kim belə bir zülmü edər insana?
Nə ad vermək olar siz bivicdana?
Namənin dolaşıq sətirlərindən,
Qara bir taleyi oxuyuram mən!
Qələm tək diliniz iti olmasın,
Ney kimi içiniz yellə dolmasın!
Bu xəttin məzmunu bəllidir sizə,
Lakin doğru gəlmir dillərinizə.
Mənim bir camım var, sirri açandır,
Hər yerdə, hər zaman haqq danışandır!
Əgər kənarına barmaqla vursam,
Açıb həqiqəti, deyəcək tamam!
Şah dedi: – Gedin, o camı gətirin!
Qoy üstü açılsın hər gizli sirrin!
Bir nəfər məclisdən çıxaraq getdi,
Camı əl üstündə tez hazır etdi.
Toxundu o cama Yusif əliylə,
Sonra dodaqaltı gələrək dilə,
Dedi: – Ey qorxusuz mərdimazarlar,
Bu cam sirrinizi eləyir aşkar!
Deyir, bunların bir qardaşı vardı,
Təmiz ürəkliydi, Yusifdi adı.
Uşaqkən nur kimi onu aldılar,
Atası gözündən uzaq saldılar.
Azğınlar div kimi aparıb onu,
Mənzili etdilər bir kor quyunu!
Bir daha gördünüz, səsləndi bu cam,
Qoy, sizə şərh edim, sözünü tamam!
Deyir: – Bu zülm ilə doymayıb hələ,
Qəlbinə dağ vurub, satdılar kölə!
Onu alan şəxsə dedilər, hökmən,
Bu qulu zəncirdə, damda saxla sən!
Yəqub övladına bu iş yararmı?

Sizin məzhəbinizdə bu qayda varmı?
Qızdı günəş kimi Yusif dərindən,
Dolu bulud kimi qopdu yerindən.
Dedi: – Ey zalımlar, söyləyin mənə,
Sizi xilas edər hansı bəhanə?!
Sizi bu Misirdə elə edim xar,
Halınıza ağlasın quşlar, balıqlar!
Qılıncla boynunuz vurulsun gərək,
Bu cəza hamıya dərs olsun gərək!
Kəsdi qılınc kimi səbrini qəzəb,
Cəlladı məclisə eylədi tələb.
Cəlladın dalınca gedərək nazir,
Etdi qılınc əldə cəlladı hazır.
Görüncə cəlladı şah verdi fərman,
Aparın, bunlara verməyin aman!
Başladı cəlladlar durmadan işə,
Düşdü məclis əhli qorxu, təşvişə.
Hərəsi birinin boynundan dartdı,
Şahın məclisindən kənara atdı.
Şah isə gizlicə sərkərdələrə,
Çağırıb demişdi: – Bilin, bir kərə,
Məqsədim deyildir qonaq öldürmək,
Onlara qıymayın, sonunu görək!
Bundan xəbərsizdi Yəqub övladı,
Ərşə yüksəltdilər ahü-fəryadı:
– Səni and veririk haqqın özünə,
Yəqubun qan sızan ağlar gözünə!
İbrahim Xəlilin gülüstanına,
İshaqın sinədən qopan ahına!
Qəriblər halına yansın ürəyin,
Öldürmə ki, Allah olsun köməyin!
Onların ahından yandı fələklər,
Ağlayıb yalvardı göydə mələklər.
Keçdi həqq onların günahlarından,
Bir mələk də gəlib Allah yanından,
Yusifə yetirdi xaliqdən peyğam[1]

[1] Peyğam – sifariş

Ey Yusif, onlardan alma intiqam!
Vermə yazıqlara bunca əziyyət,
Yetər çəkdikləri işgəncə, zillət!
Kənandan neçə yol min müsibətlə,
Gətirib qaytardın geri zillətlə.
Biz keçdik onların hər günahından,
Rəhmə gəl, sən də ver, onlara aman!
Bu idi Allahın əmri, nə etmək?
Olmazdı bu əmrin əksinə getmək!

YUSİF QARDAŞLARININ GÜNAHINI ƏFV EDİR, ONLARA MƏRHƏMƏT GÖSTƏRİR VƏ ATASININ VÜSALINA ÇATIR

Allahın vəhyini Yusif eşitcək,
Camalı açıldı, təzə qönçə tək.
Buyurdu, hüzura gəlsin qardaşlar,
Onlara məhəbbət eylədi izhar.
Dil açıb, şam kimi alışdı başdan,
Sorğu-sual etdi hər bir qardaşdan.
Açdı könülləri hər bir sualı,
Soruşdu: – Necədir Yəqubun halı?
Görüncə danışır şah xoş dil ilə,
Gəldi tuti kimi qardaşlar dilə.
Dedilər: –Yusifdən ayrı düşəli,
Bükülüb qaməti, titrəyir əli.
Yusifdir diləyi, Yusifdir sözü,
Nərgis tək qəmində kor olmuş gözü.
Qırx il bu qəm ilə sinə dağlamış,
Yaz buludu kimi daim ağlamış.
İndi də itirib İbn-Yəmini,
Salmış ürəyinə onun qəmini.
Gözü yolda qalıb, ürəyi naşad,
Rəhm elə Yəquba, onu qıl azad!
Eşitcək bu sözü qardaşlarından,
Yusifdə nə taqət qaldı, nə tavan.

Səbir piyaləsi dolaraq daşdı,
Ağladı, ürəyi oda tutaşdı.
Günəş tək üzündən niqabı aldı,
Ay kimi buluddan çıxıb ucaldı.
Dedi: – Ey qardaşlar, bu cah, bu calal,
Mənimdir Misirdə bu dövlət, bu mal!
Quyuya salınmış o Yusif mənəm!
Satılıb alınmış o Yusif mənəm!
Qardaşlar başladı qan ağlamağa,
Düşdü göz yaşı tək hamı torpağa.
Taxtından enərək Yusif bu zaman,
Onlarla danışdı şirin, mehriban.
Məhəbbətlə qucdu onları bir-bir,
Sanki, heç birində yox idi təqsir.
İnsanlıq üzündən hörmət göstərdi,
Məhəbbət, ehtiram, izzət göstərdi.
Verdi hər birinə şahanə xələt,
Yarandı arada bir səmimiyyət.
Bir yerdə oturub söhbət edərək,
Qovuşdu qardaşlar südlə şəkər tək!
Babalar demişkən, düşünsən bir az,
Təmiz ürəklərdə kinə yer olmaz!
Qardaşlar söylədi Yusifə bir gün,
Sənsən böyük şahı bu yer üzünün!
Sən bizi əfv etdin ağır günahdan,
Özün əfvimizi istə Allahdan!
Bilirik, etmişik böyük cinayət,
Daima çəkirik xiffət, xəcalət,
Allahın eşqinə keç bu günahdan,
İstə əfvimizi böyük Allahdan!
Dedi: – Nə sıxılın, nə də ağlayın,
Allahın əfvinə ümid bağlayın!
Bir daha dil açıb danışdı onlar,
Atadan, Kənandan söhbət saldılar.
Yusif cavabında dedi: – Məncə, siz
Bir daha Kənana səfər ediniz!
Qocaya bu sirri veriniz xəbər

Ki, hər şeydən agah olsun peyğəmbər!
Gətirin Kənandan Misrə atamı,
Qoy gəlsin onunla qohumlar hamı!
Səfər tədarükü görülsün deyə,
Yusif hazırladı bir çox hədiyyə!
Taxtın arxasına keçərək bir an,
Çıxartdı əynindən köynəyi sultan.
Silindi könlündən möhnəti, dərdi,
Köynəyi Yəquba töhfə göndərdi.
Xoş bir saat seçib yükləndi karvan,
Misirdən Kənana oldular rəvan.
Əzizlər bir mənzil yol getmişdilər,
Səbaya qeybdən yetişdi xəbər.
Yusif köynəyinin ətrini alsın,
Kənan mühitinə o ətri salsın.
Məhəbbət elçisi nəsimi-səba,
Çatdırdı bu ətri o gün Yəquba.
Köynəyin ətrini duyub Kənanda,
Elə bil, Yusifi tapdı bir anda.
Oğul həsrətində olsa da qəmgin,
Duyduğu ətirdən tapırdı təskin.
Xoşbəxtlik üzündən elə bu zaman,
Gəlib oğlanları çatdılar yoldan.
Müjdə gətirdilər Yusifdən ona,
Yəqubun möhnəti yetişdi sona.
Bir qızılgül kimi köynəyi o dəm,
Qardaşlar ataya verdilər bahəm.
Qoca o köynəyi üzünə sürtdü,
Bağrına basaraq gözünə sürtdü.
Köynəkdən Yusifin ətri saçıldı,
Qocanın nərgis tək gözü açıldı.
Elə bil, yenidən cahana gəldi,
Cavan sərv kimi qəddi düzəldi.
Dedilər: – Yusifdə qalmamış qərar,
Sizi görmək üçün çəkir intizar.
İstəyir şad olub, deyib güləsiz,
Elliklə yığışıb Misrə gələsiz!

Olub ötənləri cavanlar bir-bir,
Yəquba nəql edib qıldılar təsvir.
Qoca əmr verdi qohum-qardaşa,
Səfər tədarükü yetincə başa.
Böyük cəlal ilə Yəqub peyğəmbər,
Etdi Misrə tərəf Kənandan səfər.
Karvan son mənzilə yetişən zaman,
Yusif Misr elinə verdi bir fərman:
Bəzənsin şəhərdə qapı, darvaza,
Bütün şəhər əhli çıxsın pişvaza!
Camaat axışıb gəldi hər yerdən,
Əyanlar, əşraflar çıxdı şəhərdən.
Yusifin ardınca ellər yürüdü,
Çölü başdan-başa ləşkər bürüdü.
Qırx min tamaşaçı düzüldü yola,
Misrin gözəlləri çatdı qol-qola.
Şahlar da çıxdılar şəhərdən kənar,
Yusifin yanınca bir çox tacidar,
Piyada gedirdi yüz ehtiramla,
Qulağı sırqalı bir çox qulamla.
Çavuşlar səslənib, "Yol verin!" – deyir,
Yəqub pişvazına ellər yeriyir.
Yusif atasına çatdığı zaman,
Düşdü ədəb ilə ərəbi atdan.
Sanki günəş göydən aşağı düşdü,
Yusif hörmət üçün torpağa düşdü.
Ata da dözməyib əydi başını,
Çilədi torpağa o göz yaşını.
Ata öz oğlunu bağrına basdı,
Oğul qollarını boynundan asdı.
Qucub bir-birini şirin can kimi,
Bir budaqda qoşa nardan kimi.
Sevincdən atanın göz yaşı axdı,
Ağladı, oğul da ataya baxdı.
Nə xoşdur dünyada, ah, vüsal dəmi,
Bir dəm unutdurar yüzillik qəmi!
Çatdı bir-birinə oğulla ata,

Sanki, qovuşdular yeni həyata.
Sevincdən açılıb güldü üzləri,
Elə bil, laləydi, güldü üzləri.
Ata ilə oğul, xoşhal, mehriban,
Oldular cəlalla şəhərə rəvan.
Yusif şah Yəquba dedi: – Ey ata,
Sən mənimlə otur, şah kimi taxta!
Pak ürəkli qoca taxta oturdu,
Cavan şah ədəblə önündə durdu.
Yusif unutmadı qardaşlarını,
Sildi mərhəmətlə göz yaşlarını.
Qardaşlıq rəsminə edib riayət,
Bəxş etdi onlara şəhər, vilayət.
Hərəsi bir yerdə hökmdar oldu,
Yusif sayəsində bəxtiyar oldu.

ZÜLEYXA YOL ÜSTƏ YUSİFİN QABAĞINI KƏSİR, ONDAN MƏRHƏMƏT GÖRMÜR, EVƏ GEDİB BÜTÜ QIRIR, ALLAHA İNAM GƏTİRİR, YOL ÜSTƏ QAYIDIR, YUSİFİN GƏLMƏSİNDƏN XƏBƏR TUTUR VƏ ONDAN MEHRİBANLIQ GÖRÜR

Könül verən aşiq bilməz qənaət,
Vüsal şövqü artar saətbəsaət.
Bir dilək üstündə qalmaz iki dəm,
Atar yeni-yeni diləyə qədəm.
Gül ətri duyunca istər ki, görsün,
Görüncə tər gülü, çalışar dərsin.
Züleyxa yol üstə xeyli oturdu,
Yar vəsli havası başına vurdu.
Züleyxa pərəstiş edərdi bütə,
Bir gecə əyləşib bütün önündə,
Dedi: – Ey canımın qibləsi olan,
Başım ayağına enmiş hər zaman.
Sənə tapınıram illərdən bəri,
İtmişdir gözümdən görmək gövhəri.

Aç gözün, gör necə xar olmuşam, xar!
Gözümün nurunu geriyə qaytar!
Nə qədər mən qalım Yusifdən ayrı?
Bir göz ver, üzünü seyr edim, barı!
Hər zaman, hər yerdə olsam da ancaq
Diləyim Yusifi görmək olacaq!
Yazığam, rəhm elə, kamımı ver sən,
Sonra nə istəsən, özün bilərsən.
Bu qədər canımı üzməyim yetər,
Bunca hər əzaba dözməyim yetər!
Bir həyat deyildir həyatım, inan!
Ölmək çox yaxşıdır, bu yaşamaqdan!
İnləyib başına torpaq sovurdu,
Göz yaşı torpaqda gölməçə vurdu.
Günəş bir şah kimi taxta çıxanda,
Yusif yola çıxdı atlı bu anda,
Züleyxa yol üstə qəlbi pərişan,
Yusifin yolunu kəsdi bağrı qan,
Sanki, şikayəti, diləyi vardı,
Çavuşlar səsləyib dedi: – "Yol verin!"
Qulağı tutuldu səmanın, yerin.
Atların şeyhəsi göyə yüksəldi,
Qulaqlar bu səsdən cəzana gəldi.
Kimsə göstərmədi o kora maraq,
Bir hala düşdü ki, gözlərdən iraq!
Ümidsiz ürəyi oldu yüz para,
Şadlıq məclisindən düşdü avara.
Ağlayıb, sızlayıb, fəğan edirdi,
Ah çəkib, odlanıb, geri gedirdi.
Gəldi qəm evinə kama çatmamış,
Az qaldı ahından odlansın qamış.
Daş bütü gətirib qoydu önünə,
Dil açıb təsəlli verdi özünə:
– Ey izzət şişəmə ağır daş vuran,
Yolumun üstündə daş olub duran,
Sən oldun baxtımı yoldan azdıran,
Bu qəmli könlümü daş ilə qıran,

Hər zaman başımı əydim səcdənə,
Könlümü, sirrimi tapşırdım sənə,
Hər iki dünyadan əlimi üzdüm,
Bir murad istəyib zillətə dözdüm.
Sən daşsan, mən daşdan qurtaram gərək,
İncini daş ilə sındıram gərək.
Dedi, sonra alıb əlinə bir daş,
Bütü Xəlil kimi sındırdı birbaş.
Bütü qırdı, çevik qalxdı yerindən,
Tamam dərdü-qəmi bitdi, deyəsən.
Büt qırmaq işindən dincəldi bir az,
Qanlı göz yaşıyla aldı dəstəmaz.
Üzünü torpağa qoyub ağladı,
Şəriksiz Allaha ümid bağladı.
Dedi: – Eşqin ilə edər iftixar,
Bütlər, bütpərəstlər, bütqayıranlar.
Nurun etməsəydi büt üzündə əks,
Pərəstiş etməzdi o bütə bir kəs.
Bütyonan mehrindən olsa bixəbər,
Onu büt yonmağa nə vadar edər?
Bütün qarşısında durub çoxları,
Büt deyil, çağırır pərvərdigarı.
Bütpərəst olduğum qələtdi, Allah!
Bu mənə çəkilməz möhnətdi, Allah!
Mən xəta yoluna düşdüm əzəldən,
Lütfünlə bağışla bu xətanı sən!
Tərk etdim xətanı, ey pərvərdigar!
Məndən aldığını geriyə qaytar!
Qoy könlüm qurtarsın Yusif dağından,
Gedib lalə yığım Yusif bağından.
Yusif o səfərdən geri dönərkən,
Züleyxa yol üstə qopardı şivən:
Dedi: – "Sən olasan, o pərvərdigar
Ki, şahı qul edər, qulu hökmdar.
O xaliq ki, deyil tərifə möhtac,
Miskin bir bəndəyə bağışlamış tac.
Elə ki bu sözü Yusif eşitdi,

Sanki, onun huşu başından getdi.
Pərdədara dedi: Bu dua deyən
Aldı taqətimi, tabımı əldən.
Dayanma, onu tez bu yoldan götür,
Mənim xəlvətimə izzətlə yetir.
Dinləyim təklikdə şərhi-halını,
Bilim keçmişini, istiqbalını.
Soruşum, etdiyi bu dua nədir
Ki, mənə bu qədər göstərdi təsir.
Darda qalmamışsa bu bədbəxt insan,
Sözündə bu qədər təsir haradan?!
Yüz can əsirgəməz bəndə o şahdan
Ki, dərdi anlayar baxışdan, ahdan.
Olar məzlumlara doğruçu səhər,
Yoldan azmışlara yolu göstərər.
Edər doğruçunun dərdinə dərman,
Verməz yalançıya, zalimə aman,
Bizim zəmanədə elə şahlar var,
Hər işdə özünə qazanc axtarar.
Pul rəngi görüncə gülümsər üzü,
Yüz məzlum ölsə də, yaşarmaz gözü.
Bir şahdan ki, pula göstərir həvəs,
Ədalət gözləmək əbəsdir, əbəs!

ZÜLEYXA YUSİFİN HƏRƏMXANASINA GƏLİR, ONUN DUASININ BƏRƏKƏTİNDƏN GÖZLƏRİ AÇILIR, YENİDƏN GƏNCLƏŞİR VƏ GÖZƏLLƏŞİR

Varmı aşiq üçün bundan xoş bir iş,
Ola sevdiyinin ürəyi geniş.
Yarın xəlvətinə yol tapıb gedə,
Məşuqun vəsliylə könlün şad edə.
Açıb dərdlərini söyləyə bir-bir,
Qalmaya qəlbində deyilməmiş sirr.
Yusif ayrılaraq öz qoşunundan,
Gəldi mənzilinə o şanlı sultan.

Pərdədar dedi: – Ey ölkə sərvəri,
Nəcib sifətləri dillər əzbəri,
Qapıda dayanmış o qoca qadın
Ki, kəsib yolunu, dedi muradın,
Əmr etdin ki, olub onunla yoldaş,
Sənin sarayına gətirim birbaş.
Dedi: "Gör hacəti varsa, qıl rəva,
Əgər dərdlidirsə, axtarın dəva.
Söylədi: Açmayır o ürəyini,
Mənə danışmayır öz diləyini.
Dedi: Ver icazə, yanıma gəlsin,
Nə var ürəyində desin, dincəlsin.
İcazə alınca, rəqqasələr tək,
Züleyxa xəlvətə xəlvət girərək,
Qönçə kimi açdı, gül kimi güldü,
Ağzından inci tək sözlər töküldü:
Gülməyi Yusifi saldı heyrətə,
Onunla başladı sözə, söhbətə.
Dedi: – Adın nədir, nişanın nədir?
Dərdini de görüm, dərmanın nədir?
Dedi: – Mən o gün ki, üzünü gördüm,
Dünyada tək sənə könlümü verdim.
Canımı, könlümü vəqf etdim sənə,
Əlimdə nə gövhər qaldı, nə xəznə.
Verdim gəncliyimi eşqində bada,
Qocaldım, kor oldum qəmdən dünyada.
Sən isə bu yüksək məqama çatdın;
Məni bir kərəlik qəlbindən atdın.
Yusif tanıyaraq onu bu sözdən,
Acıdı halına, yaş tökdü gözdən.
Dedi: – Ey Züleyxa, tanıdım sənsən,
Nə üçün belə bir hala düşmüşsən?
"Züleyxa" – deyincə Yusif o dilbər,
Züleyxalığından oldu bixəbər.
Ah çəkdi, ürəkdən qopardı fəryad,
Yıxılıb özündən getdi, çəkdi dad.
Elə ki özünə gəldi bir qədər,

Yusif ləblərindən səpdi incilər:
Dedi: – O gəncliyin, camalın hanı?
Dedi: – Oldu sənin vəslin qurbanı!
Dedi: – Gözündəki nur niyə söndü?
Dedi: – Fəraqında zülmətə döndü!
Dedi: – Sərv qəddin nədən əyildi?
Dedi: – Hicran yükü yüngül deyildi!
Dedi: – O tükənməz sərvətin hanı?
Tacü-taxtın hanı, şövkətin hanı?
Dedi: – Kim hüsnündən mənə söz açdı,
Vəsfində dilindən gövhərlər saçdı,
Qıldım ayağına başımı nisar,
Ona bağışladım, xəznəmdə nə var!
Başına əzəmət tacı qoyaraq,
Səpdim qapısında başıma torpaq.
Qalmadı əlimdə sərvətim, malım,
Nə deyim, görürsən, necədir halım?
Dedi: – Nəyə vardır səndə ehtiyac,
Kimdən gözləyirsən dərdinə əlac?
Dedi: – Ehtiyacım sənədir ancaq
Dərdimə əlac da səndən olacaq!
Əgər and içərək, vədə versən sən,
Açıb dərdlərimi söyləyərəm mən,
Yoxsa gətirmərəm dərdimi dilə,
Buradan gedərəm yeni dərd ilə.
And içdi Allahın qüdrət kanına,
Nübüvvət[1] qəsrinin pak ərkanına,
Ona ki atəşi qıldı gülüstan,
Xələt alıb geydi cənnət bağından.
Dedi: – Nə diləyin olarsa məndən,
Bil, rəva qılaram, gəlsə əlimdən.
Dedi: – Qəbul elə bu diləyimi,
Qaytar gəncliyimi, gözəlliyimi.
Bir də istəyirəm açılsın gözüm,
Hüsnünün bağından gül dərim özüm.

[1] Nübüvvət – peyğəmbərlik

Duaya başladı Yusif durmadan,
Həyat suyu axdı dodaqlarından.
Ölmüş camalına bəxş etdi həyat,
Üzündən silindi qocalıq qat-qat.
Qayıtdı bulağa axıb gedən su,
Cavanlıq bağçası güllərlə dolu.
Kafuru boyandı mişk rənginə,
Ağarmış saçları qaraldı yenə.
Oldu ağ saçları şəvə tək qara,
Gözünə nur gəldi onun dübara.
Əyilmiş qaməti yenə düzəldi,
Yanağının rəngi yerinə gəldi.
Qırx yaşdan on dördə qayıtdı birdən,
Gənclik nemətini tapdı yenidən.
Hüsnünü bəzədi qüdrətin əli,
On qat gözəlləşdi dünya gözəli.
Yusif ona dedi: – Ey gözəl nigar,
Başqa bir mətləbin varsa, qıl izhar.
Dedi: Bir mətləbim yoxdur dünyada,
Diləyim bircədir, vəslindir o da!
Gündüz sənə baxıb murada çatım,
Gecə ayağına baş qoyub yatım.
Sərv qamətinin sayəsində mən,
Şəhd-şəkər əmim gülər ləbindən.
Yaralı qəlbimə qoyaraq dərman,
Vəslinlə kam alım mən bu dünyadan.
Arzu çiçəyim ki saralıb soldu,
Vəslin bulağından ona verim su.
Yusif Züleyxaya qulaq asaraq,
Başını aşağı saldı susaraq.
Nə təsdiq elədi, nə qıldı inkar,
Qeybdən ilhama oldu intizar.
"Hə", "yox" arasında qalmışdı heyran.
Cəbrayıl uçaraq gəldi bu zaman,
Yusifə söylədi: – Ey şərəfli şah,
Sənə çox-çox salam göndərir Allah.
Gördü ki, Züleyxa yalvarır sənə,

Atmış acizliklə əl ətəyinə,
Ahı duasını ərşə yetirdi,
Kərəm dəryasını cuşa gətirdi.
Vurmadıq yeni bir yara qəlbinə,
Ərşdə siğəsi oxundu sənə.
Sən də ümidini çıxartma boşa,
Kəsdir kəbinini, yaşayın qoşa!
Allahın kərəmi yar olsa əgər,
Ondan doğulacaq qiymətli gövhər!

YUSİF VƏ ZÜLEYXA KƏBİN KƏSDİRİR, ZÜLEYXA MURADA ÇATIR

Yusifə Allahdan yetişdi fərman,
Alsın Züleyxanı o mahi-Kənan.
Toya hazırlaşdı Yusif o saat,
Quraraq şahlara layiq bir büsat.
Gəldilər məclisə şahlar, əyanlar,
İzzətlə taxt üstdə tutdular qərar.
Xəlil qanunuyla, Yəqub diniylə,
Eşqin, gözəlliyin xoş ayiniylə,
Züleyxa verildi Yusifə ərə,
Yusif malik oldu nadir gövhərə.
Hamı başlarına gövhər səpərək,
Şah dedi, el dedi, "Toyun mübarək!"
Ehtiram edərək hər bir qonağa,
Yusif üzr istədi, qalxıb ayağa,
Qıldı Züleyxanı şirin dillə şad,
Gəlini gərdəyə göndərdi damad.
Çıxdı pişvazına kəniz, pərəstar,
Əyildi önündə taclar və başlar.
Gözəl camalına olaraq aşiq,
Verdilər bəzəklə ona yaraşıq.
Elə ki toy bitdi, təmtəraq bitdi,
Qonaqlar birbəbir evinə getdi,
Ay saldı üzünə ənbərdən niqab,

Yerə gümüş pərdə döşədi məhtab.
Firuzə fələyin çatıldı tağı,
Yandı minlər ilə ulduz çırağı.
Fələk sürəyyadan taxdı gərdənbənd,
Yaqutu gövhərə şəfəq etdi bənd.
Gecənin zülməti sanki bir pərdə,
Sirrini gizlətdi xalqın, hər yerdə.
Xəlvətə çəkildi məhrəmlə məhrəm,
Qara pərdə ilə örtüldü hərəm.
Züleyxa gərdəkdə çəkir intizar,
Ürəyi yerində tutmayır qərar.
Susuz ləblərinə toxunan sumu?
Həqiqətmi, yarəb, yoxsa yuxumu?
Bu sudan atəşi sönəcəkdirmi?
Gecəsi gündüzə dönəcəkdirmi?
Gah dolub gözləri yaşla şadlıqdan,
Gah edir könlünü hicran fikri qan.
Deyirdi: "– Bu işə inanmıram mən,
Üzümə bu xoşbəxt gün doğa birdən".
Gah da öz-özünə düşünüb bir az,
Deyirdi: "– Ümidi kəsmək yaramaz!"
Qəlbini sarsıtdı bu çəkişmələr,
Üz-üzə gəldilər sevinclə kədər.
Bir də gördü, pərdə çəkildi lay-lay,
Mənzili bəzədi bir pərdəsiz ay.
Züleyxa görüncə onun üzünü,
Nuru qamaşdırdı iki gözünü.
Səbrü-qərarını əlindən aldı,
Düşüb kölgə kimi torpaqda qaldı.
Yusif əhvalına salınca nəzər,
Bildi ki, məhəbbət canını üzər,
Gətirib qızıl taxt üstünə saldı,
Baş-başa uzanıb, qoynuna aldı.
Ətrilə huşunu qaytardı ona,
Yuxudan ayıldı, bayılmış sona.
O üz ki baxmazdı Yusif bir zaman,
Daima göz yumub, qaçardı ondan,

Nə gördü: üz deyil, ay parçasıdır,
Naxışla bəzənmiş Çin xarasıdır.
Dəyməmiş o üzə bəzəkçi əli,
Huridən gözəldir cənnət gözəli.
Aldı qərarını əldən o camal,
Qucuyub öpməyə başladı dərhal.
Öpdü şəkər kimi şirin ləbindən,
Dişi tər innabı üzdü yerindən.
Vüsal süfrəsində o əziz qonaq,
Sandı ki, duzdandır o bir cüt dodaq.
Odur ki, öpüşlə başladı işə,
Duz ilə başlanar yemək həmişə.
Duzundan daddıqca şövqi çoxaldı,
Qolların kəmər tək belinə saldı.
O kəmər altında zəhmət çəkmədən,
Nişan tapdı nadir bir xəzinədən.
Birinci tapmağa tələbi vardı,
Xəznədən incini sədəf axtardı.
Qoydu qarşısına o şirin dilli,
Gümüş bir mücürü, ağzı qıfıllı.
Nə o mücürüyə bir əl uzanmış,
Nə onu xəznədar yada inanmış.
Saldı o qıfıla yaqutdan açar,
Açıb qoydu ona bir dürri-şəhvar.
Ərğəvan şaxəsi qopdu yerindən,
İki gül ayrıldı biri-birindən.
Atını darısqal meydana saldı,
O qədər çapdı ki, sustalıb qaldı.
Bir at baş aparsa meydanda əgər,
Nəfəsi təngiyər, nalları düşər.
Gecəykən yuxudan qalxdı bir susuz,
Su üçün bulağa getdi yuxusuz,
Hərçənd ki əvvəlcə bulaqda batdı,
Su içib qayıtdı, yerində yatdı.
İki qonça vardı bulaqda qoşa,
Səhər nəsimiylə çatdı baş-başa.
Birisi açıldı, digəri qaldı,
Açmayan açanın içinə daldı.

Yusif qonça dərdi hüsnün bağından,
Gördü incisini deşməmiş zaman.
Dedi: “Necə qaldı bakir bu gövhər,
Qonçan açılmadı, açıldı səhər?”
Dedi ki, Əzizdən qeyri görməmiş,
O isə bağımdan qonça dərməmiş.
Şöhrətdə nə qədər olsa da qoçaq,
Bu kimi işlərdə süst idi ancaq.
Mən səni yuxuda gördüm uşaqkən,
Adını, yerini soruşdum səndən.
Mərhəmət göstərib, şad etdin məni,
Sən mənə tapşırdın bu xəzinəni.
Qorudum, etmədim bir kəsdən həras[1],
Kimsə gövhərimə vurmadı almas.
Şükürlər olsun ki, həmən əmanət,
Bu gün çatdı sənə bütöv, səlamət.
Qorxu qılıncına olsam da hədəf,
Qoymadım etsinlər incimi tələf.
Yusif bu sözləri eşidən zaman,
Yüksəldi gözündə o mahi-taban.
Dedi: – “Ey huridən, mələkdən gözəl,
Sən bunu istərdin, neçə il əvvəl?
Bununçünmü məndən intiqam aldın?
Məni böhtanınla zindana saldın?”
Dedi: – “Üzr istərəm, mən o zamanlar,
Məhəbbət dərdinə oldum giriftar.
Canım əriyirdi eşqin odundan,
Könlümun dərdinə tapmazdım dərman.
Səndəki gözəllik, məlahətli üz,
Şövqimi artırdı hər gün birə yüz.
Eşqin oldu məni yoldan çıxaran,
Etdim, etdiyimə oldum peşiman.
Öldürsən, məzəmmət etmərəm səni,
Lakin üzürlü tut, bağışla məni.
Bir günah ki ona eşq olub səbəb,
Məşuqun könlündə doğurmaz qəzəb.

[1] Həras – qorxu

ZÜLEYXANIN MƏHƏBBƏTİ YUSİFƏ QALİB GƏLİR VƏ ONUN ÜÇÜN XÜSUSİ İBADƏTXANA TİKDİRİR

Xoşbəxt o kəsdir ki, aşiq yaranmış,
Sevib-sevilməkdə şöhrət qazanmış.
Eşqdə sədaqət göstərsə əgər,
Hər aşiq sevilər, kama yetişər.
Züleyxa könlünü eşqə vermişdi,
Hörmətlə, kədərlə gün keçirmişdi.
Hələ uşaq ikən gülüzlü canan,
Gəlinciyi bilib canlı bir insan,
Yar kimi sevərdi olsa da uşaq,
Eşqbazlıq idi oyunu ancaq.
İki gəlinciyi qoyub yan-yana,
Deyərdi: – "Bu, aşiq olmuşdur ona".
Elə ki tanıdı sağdan solunu,
Öyrəndi oturub-durmaq yolunu,
Gördü macəralı yuxu o nigar,
Yusifin eşqinə oldu giriftar.
Öz doğma yurdundan düşdü dərbədər,
Misir ölkəsinə elədi səfər.
Gəldi öz şəhrindən Yusif şəhrinə,
Qərq oldu, düşərək eşqin bəhrinə.
Yusifin eşqiylə tutuşdu oda,
Verdi gəncliyini ümidlə bada.
Qocaldı, eşqdən döndümü? – Haşa!
Kor oldu, istədi hüsnə tamaşa.
Gözləri açıldı, gənc oldu yenə,
Dünya tabe oldu onun eşqinə,
Nə qədər yaşadı, sevdi, sevildi,
Vəfanı həyatın mənası bildi.
Ondakı tükənməz vəfa, nəhayət,
Yusifin qəlbinə qıldı sirayət.
Yusif o gözələ elə vuruldu
Ki, özü-özündən xəcalət oldu.
Elə məftun etdi onu dilaram,

Bir an görməsəydi, tutmazdı aram.
Yanından durmazdı bir an ayağa,
Üz-üzə qoyardı, dodaq-dodağa.
Şənlik tarlasını qərq etdi suda,
Ehtiyac duyuldu hər ləhzə oda.
Züleyxa gözündə açıldı pərdə,
Həqiqət nurundan pay aldı bir də.
O günəş, qəlbini elə ovutdu
Ki, hətta Yusifi onda unutdu.
Bəli, ömür boyu o məsum nigar,
Məcazi bir eşqə oldu giriftar!
Həqiqət günəşi parlayan zaman,
Bütün maneələr qalxdı aradan.
Həqiqət cəzbəsi daha yüksəkdi,
Ona təsir edib, ardınca çəkdi.
Bir gecə Yusifin qaçdı yanından,
Yıxılıb dursa da, qaçdı o canan.
Yusif arxasınca qovdu cananı,
Tez tutmaq istədi o, Züleyxanı.
Arxadan ətəyin cənginə saldı,
Köynəyi cırılıb əlində qaldı.
Züleyxa söylədi: – "Neçə il əvvəl,
Sənin köynəyini cırdım ey gözəl!
Bu gün o qisası sən məndən aldın,
Cırıb, köynəyimi bu günə saldın.
Aramızda bir fərq olsa da əgər,
Köynəyi cırmaqda olduq bərabər".
Yusif Züleyxaya nəzər salaraq,
Bildi ki, istəyir doğru yol tapmaq.
Kaşanə tikdirdi onun adına,
O kaşanə oldu ibadətxana.
Firuzə kərpicdən çatıldı tağlar,
Fərşi behişt kimi həmişə bahar.
Mühəndis çalışıb göstərdi hünər,
Bəzədi fərşindən səqfinə qədər.
Bacadan səadət nurunu saçdı,
Xoşbəxtlik qasidi qapısın açdı.

Tağları hurinin başına bənzər,
Ölsün qürfəsinə[1] salan bəd nəzər.
Şüşəsi əksindən günəş nur almış,
Kölgə, o sarayın həsrəti qalmış,
Rəssamlar orada çox zəhmət çəkir,
Qələmlə divara ağaclar əkir.
Hər şaxə üstündə bir quş oturmuş,
Dimdiyini yumub, boynunu burmuş.
Naxışlar çəkilmiş taxça-rəfinə,
Asılmış yüzlərlə qəndil səqfinə.
Yusif Züleyxanın əlindən tutdu,
Gətirib, orada taxta oturtdu.
Dedi: – "Mənə qarşı mərhəmətindən,
Nə qədər ömrüm var, xəcalətəm mən.
O zaman ki mən qul, sən xanım idin,
Adıma möhtəşəm saray tikdirdin.
Nə qədər ki vardı əlində imkan,
Ona bəzək vurdun cəvahiratdan.
Mən, cavab olaraq iltifatına,
Tikdirdim adına ibadətxana.
Get, ibadət elə o bir Allaha
Ki, qələmçəkəndir hər bir günaha.
Sənə yoxsul ikən sərvət yetirdi,
Zəif qoca idin, cavanlıq verdi.
Nur gəldi yenidən iki gözünə,
Rəhmət qapısını açdı üzünə.
Bir ömür qatlaşdın dərdə, hicrana,
Xaliqin lütfü ilə çatdın canana.
İndi bir sözümə qılıb itaət,
Otur, xaliqinə elə ibadət".
Züleyxa şah kimi taxta oturdu,
Xaliqə ibadət dəstgahı qurdu.
Allahın fəzlindən alaraq imdad,
Yaşadı Yusifin vüsalıyla şad.

[1] Qürfə – eyvan, loja

YUSİF ANASINI VƏ ATASINI YUXUSUNDA GÖRÜR, ONLARIN DƏVƏTİNİ QƏBUL EDİB ALLAHDAN ÖLÜM İSTƏYİR, ZÜLEYXANI İZTİRABA SALIR

Həsrətdə qalanda bəxt olsa əgər,
Özü gözləmədən vüsala yetər.
Tale pərisiylə olub həmağuş,
Hicran dərdlərini edər fəramuş.
Qəm, qüssə tozunu könlündən silər,
Şadlıqla yaşayar bir neçə illər.
Birdən üz döndərər səadət ondan,
Xəzan küləyi tək yenə də hicran,
Əsər, viran qoyar vüsal bağını,
Qırar xoş arzunun qol-budağını,
Züleyxa Yusifə çatıb aldı kam,
Qıldı yar vəsliylə könlünü aram.
Üzünə səadət güldü, oldu şad,
Yaşadı dünyanın qəmindən azad.
Lakin vüsal dövrü yetişdi sona,
Qırx yaşa çatınca o gözəl sona,
Cavan ağac kimi hey barla doldu,
Dalbadal bir neçə övladı oldu.
Onun arzusunca dövr etdi fələk,
Qalmadı könlündə daha bir dilək.
Bir gecə mehraba Yusif əydi baş,
Yuxu hücum çəkdi bəxtinə birbaş.
Gördü ki, hər tərəf nura büründü,
Atası, anası gözə göründü,
Dedilər: – "Hardasan? Bizi tap, oğul!
Ayrılıq qoymamış bizdə tab, oğul!"
Bu yuxu əlindən qərarı aldı,
Canına ayrılıq atəşi saldı.
Yusif öz Turundan uzaqlaşaraq,
Əbədi aləmə meyl etdi ancaq.
Çıxıb bu aləmin dar səhnəsindən,
Sirli bir aləmə yollandı həmən.
Bu fəna mülkünü tərk etsin deyə,

Bəqa mehrabına əl açdı göyə.
Dedi: – Ey başlara qoyan ulu tac!
Səndən hacətini istər hər möhtac!
Məni əziz tutdun hamıdan artıq,
Başıma tac ilə verdin yaraşıq.
Bu fani dünyadan doymuşam cana,
Şahlığın sonu da fənadır, fəna!
Könlüm əbədiyyət mülkünü istər,
Vəslinə yetməkçin mənə yol göstər!
Din yolunu tutan hər bir xeyirxah,
Sənin astananda dayanar, Allah!
Məni də naqislər əlindən qurtar,
Qoy tutum kamillər səfində qərar!
Züleyxa bu sirri eşitdi, yandı,
Elə bil varlığı oda qalandı.
Bildi ki, bu dua qəbul olacaq,
Məhəbbət bağında güllər solacaq.
Yusif kamanından atılan bir ox,
Hədəfə dəyəcək, buna şübhə yox!
Köçüb bir daxmaya geyindi qara,
Pərişan zülfünü tökdü ruxsara,
Saldı kədərindən üzünə cırmaq,
Sovurdu başına kül ilə torpaq!
Ayrılıb sevincdən qəmə yar oldu,
Həmdəmi göz yaşı, ahü-zar oldu.
Dedi: – "Ey dərdlilər dərdinə dərman,
Yaralı sinəyə məlhəm qoyansan!
Nakamı murada çatdıran sənsən,
Bağlı qapıları açan özünsən!
Əlinlə açılar bütün müşküllər,
Səndən şəfa tapar sınıq könüllər.
Silən sinəmizdən firqət dağını,
Mum kimi əridən möhnət dağını,
Dərdü-qəm əlindən ürəyi qanam,
Bu gün öz işimə özüm heyranam.
Yusifin dərdinə mən necə dözüm?
Yusifsiz dünyanı görməsin gözüm!

Züleyxaya onsuz həyat nə gərək?
Əvvəlcə o deyil, mən öləm gərək!
O ölsə, ömrümün gülşəni solar,
Onsuz yaşamağın nə mənası var?
Vəfa qanununa sığışmaz, əlbət,
Ki, aşiq yaşasın, ölsün məhəbbət!
Əgər məni ondan ayıracaqsan,
Ondan əvvəl apar məni dünyadan.
Mən onun eşqiylə diriyəm ancaq
Onsuz istəmirəm dünyada qalmaq".
Gecəni gündüzə qatıb o gündən,
Ağlayıb, sızlayıb, getdi özündən.
Bəli, hər kəsin ki, ürək dərdi var,
Gecəsi, gündüzü bir rəngdə olar.

YUSİF VƏFAT EDİR, ZÜLEYXA İSƏ HİCRAN DƏRDİNƏ TAB GƏTİRMƏYİB HƏLAK OLUR

Bir gün səhər-səhər Yusif oyandı,
Üzündən hər tərəf nura boyandı,
Şahlıq libasını geyinib həmən,
Atlanmaq qəsdiylə çıxdı evindən.
Ayaq üzəngiyə qoyduğu zaman,
Cəbrayıl söylədi: – "Tələsmə, dayan!"
Mələyin əlində bir alma vardı
Ki, cənnət bağına bəzək vurardı.
Almanı Yusifə verdi həmin an,
İyləyib almanı, Yusif verdi can!
Çatdı damağına ətri cənnətin,
Oldu müsafiri əbədiyyətin.
Yusif tərk edincə fani cahanı.
Aləmi çulğadı xalqın fəğanı.
Bütün xalq ağlayıb, fəğana gəldi,
İnilti səsası göyə yüksəldi.
Züleyxa söylədi: – "Nədir bu fəğan?
Nə olmuş ağlayır yer ilə göy qan?"

Dedilər ki: –Yusif, o mehriban şah,
Taxtını tabuta döndərmişdir, ah!
Köçərək bu fani dünya evindən,
Tapmış əbədiyyət mülkündə vətən.
Eşitcək bu sözü o nazlı dilbər,
Sanki, varlığını qarət etdilər,
Özünü sərv tək torpağa saldı.
Üç gün kölgə kimi torpaqda qaldı.
Dördüncü gün isə bir an ayıldı,
Yusifi soruşdu, yenə bayıldı.
Üç kərə bu əməl olundu təkrar,
Üç gün tamam huşsuz qaldı o nigar!
Nəhayət, özünə gəldi birtəhər,
Yenə də Yusifdən istədi xəbər!
Bildi nə yataqda onu görən var,
Nə də tabutunu bir götürən var!
Hər kəsdən soruşdu, dedilər ancaq
Xəznə tək Yusifi udmuşdur torpaq!
Züleyxa bu zülmü görcək fələkdən,
Yırtıb yaxasını, çıxdı köynəkdən.
Yarıq sinəsindən sanki yol açdı,
Gizli od qəlbindən şölələr saçdı.
Alov püskürdükcə yarıq yaxadan,
Yanğı azalmayıb, artdı hər zaman,
Dırnaqla üzünə rəqəm yazırdı,
Sanki qan axmaqçın arxlar qazırdı.
O arxlardan axıb sızıldıqca qan,
Səməni bəzədi, sanki, ərğəvan.
Dırnağı üzünü elə qanatdı,
Gözünün bəbəyi al qana batdı.
Daş vurdu döşünə, gah da dizinə,
Şillələr yağdırdı qanlı üzünə,
Gah gümüş üstündə əqiq bitirdi,
Gah lalə üstündə nilfər yetirdi.
Əl atıb başına saçını yoldu,
Başına döyməkdən qolu yoruldu.
Sərvin bağçasında qalmadı reyhan,

Lakin usanmadı sünbül yolmaqdan,
Yanan ürəyindən hey fəğan çəkdi,
Qəmli sinəsindən əl-aman çəkdi
Ki, taxtın bəzəyi o Yusif hanı?
Məzlumlar köməyi o Yusif hanı?
Bu qəmli dünyadan köçdüyü zaman,
Əcəl şərbətini içdiyi zaman,
Elə tələsmiş ki, gözləməmiş mən,
Görüşüb öpəydim üzəngisindən.
Başını yasdıqda görmədim, aman!
Üzündən tər çiçək dərmədim, aman!
Dəydi vücuduna qafil ox əgər,
Niyə mən sinəmi etmədim süpər?
Taxtaya çevrildi o şah üçün taxt,
Taxta oldu şahlıq taxtından xoşbəxt.
Mən gülab tökmədim ağlar gözümdən,
Cismini yumadım o gülabla mən.
Boyunu kəfənə tutan zamanda,
Önündə səcdəyə gedən bir anda,
Niyə o kəfəni tikmədim özüm?
Canım sap olaydı, iynəsi gözüm!
Qəmi ürəkləri büryan edəndə,
Məhmili dünyadan köçüb gedəndə,
Niyə fəğanımla aləm dolmadı,
Dilim məhmilinin zəngi olmadı?!
Onda ki açdılar torpaqda yataq,
Oldu o incinin sədəfi torpaq.
Niyə süpürmədim mən o torpağı,
Mənzilim olmadı onun qucağı?!
Əfsus, itirdiyim fürsətə əfsus!
Əfsus, bu çəkdiyim möhnətə əfsus!
Gəl canım, gör məni, məhrumam necə?
Fələyin əlində məzlumam necə?
Məndən uzaqlaşdın, bir yad etmədin,
Görüşünlə məni sən şad etmədin.
Vəfa belə olmaz, ey vəfadarım!
Yar yarı unutmaz, sevimli yarım!

Məni xatirindən silib, tərk etdin,
Qan, torpaq içində buraxıb getdin.
Sancdın ürəyimə elə bir tikan,
Qəbrimdən o tikan bitəcək, inan!
Sən elə bir yerə etmisən səfər
Ki, geri dönməmiş ordan bir nəfər.
Əlacım budur ki, uçum, yüksəlim,
Qanadlı quş kimi yanına gəlim.
Deyib bu sözləri, məhmil istədi,
Məhmili gül kimi üzü bəzədi.
Axıtdı gözündən sel kimi qan-yaş,
Yusifin qəbrinə yollandı birbaş.
Orada yox idi yarından nişan,
Yalnız bir təpəcik gördü torpaqdan.
O torpaq üstünə qəlbi məlallı,
Düşdü sayə kimi günəş camallı.
Qəbri göz yaşıyla gövhərə tutdu,
Saralmış üzüylə saf zərə tutdu.
Gah başından öpdü, gah ayağından,
Ah çəkib, vay deyib, qopardı fəğan:
– Ey gül rişəsi tək torpaqda qalan,
Mənəm torpaq üstə gül kimi solan!
Xəznə tək torpağa getdin birinci.
Mən torpaq üstünə səpirəm inci.
Sən özün su kimi hopdun torpağa,
Məni bir çöp kimi atdın qırağa.
Fərağın cismimi qərq etdi qanda,
Xəyalın odladı məni bir anda.
Od vurdun canıma "çör-çöpdür" – deyə,
Tüstüsü burulub, yüksəldi göyə.
Göz açıb, baxmadı tüstümə bir kəs,
Gözdən su səpmədi üstümə bir kəs.
Ağlayıb, köksünü sürtürdü yerə,
Ölüm arzuladı haqdan yüz kərə.
Həsrətdən tükəndi səbri, qərarı.
Əyildi ki, öpsün o tək məzarı,
İki barmağını gözünə atdı,

Qoşa nərgisiri oyub çıxartdı.
Onları torpağa saldı o dilbər,
Dedi: – Yaş torpaqda nərgis xoş bitər.
Bir göz ki gül üzün görməyəcəkdir,
Bu bağda o gözlər nəyə gərəkdir?
Rəsmdir, əzizi ölən adamlar,
Tabutu üstündə gözün çıxarar.
Düşmüşdü tabutdan ayrı o nigar,
Qıldı gözlərini qəbrinə nisar.
Sövkədi qəbrinə qanlı üzünü,
Can verib həyata yumdu gözünü.
Xoşbəxtdir, o aşiq ki verəndə can,
Vüsal müjdəsini alar canandan.
Dostlar hadisədən olub xəbərdar,
Gəlib, matəmində qan ağladılar.
Yusifə tutmuşdu matəm nə qədər,
Ona da o qədər yas tutdu ellər.
Yaslının yasında oturdu hamı,
O nakam gözələ yas qurdu hamı.
Ağlayıb oxşamaq yetincə sona,
Dedilər verilsin gərək qüsl ona.
Necə yaz yağışı yuyar bir gülü,
Yudu göz yaşıyla onu Misr eli.
Səmən şaxəsindən çıxan qönçə tək,
Cisminə verdilər kəfənlə bəzək.
Üzündən sildilər hicran tozunu,
Yusifin qəbrinə qoydular onu.
Bu xeyri görməmnş heç kəs ölümdən
Ki, ölüncə canan tutsun əlindən.
Bu şirin dastanı nəql edən ustad,
Qılmış qocalardan bu hədisi yad
Ki, Yusif ölərkən Misr ellərində
Basdırıldı Nilin bir sahilində.
Digər sahilini çulğadı bəla,
Qırdı insanları qəhətlik, vəba.
Qəbri köçürdülər digər sahilə,
Burada yüz bəla üz verdi elə.

Nəhayət, verdilər belə bir qərar.
Daş tabut içinə onu qoysunlar.
O zaman qır ilə suvandı tabut,
Nil çayı dibinə tullandı tabut.
Gör necə iş qurdu fələk onlara.
Yenə də ayırdı öləndən sonra.
Sonsuz kin var imiş çərxin zatında,
Asudə qoymadı torpaq altında.
Birini qərq etdi eşqin gölündə,
Biri susuz qaldı hicran çölündə.
Nə gözəl demişdir eşqə diz çökən.
Eşqdən dünyada min ziyan çəkən,
Hər kəsin ki eşqi kamala çatmış,
Rahat yaşamağın daşını atmış.
Qara məzarda da olsa məskəni,
Yenə para-para olar kəfəni.
Xoşdur aşiq üçün dözüb hicrana,
Ölərək yetişsin vəsli-canana.
Çoxları dünyaya demiş – "Əlvida!" –
Hamıdan mərd öldü ancaq Züleyxa.
Əvvəl gözlərini oydu o nigar,
Sonra cananına can qıldı nisar.
Rəhmətə qərq olsun belə bir aşiq,
Tapsın cananından gözləri işıq.

FƏLƏKDƏN ŞİKAYƏT

Fələk qıvrılıbdır sanki əjdaha,
Daima hazırdır bizi udmağa.
Olmuşuq əlində çərxin giriftar,
Əjdaha kamından çıxmaqmı olar?
Hər kəsə vurmuşdur fələk bir yara,
Hələ bir kimsəyə qılmamış çara.
Heç kəs olmamışdır zülmündən xilas,
Dağını görməyən sinə tapılmaz!
Sanma ki, hər ulduz birər çıraqdır,

Mərdlərin köksünə vurulan dağdır.
Minlərlə dağ vurub qoymamış məlhəm,
Nə məlhəm axtarır, nə də çəkir qəm.
Qaranlıq gecədə fələyə baxsan,
Görərsən, nur süzür yüz min bacadan.
O nurdan bizlərə bir fayda yetməz,
Qəmli könlümüzü bir an şad etməz.
Gündüzlər şir kimi görünər bir rəng
Gecələrsə olar xallı bir pələng.
Gecələr pələngdir, gündüzlərsə şir,
Gör, bizə nə qədər zülmü yetişir.
Yeri var bəxtimdən mən qan ağlayam
Ki, şirlə, pələnglə bir çuvaldayam.
Ey fələk! Bir kəslə dostluq etsən sən,
Mütləqa axırda üz döndərərsən!
Bu yeddi asiman çox dolanmışdır,
Ay, Günəş, ulduzlar işıqlanmışdır,
Hamısı sənlə əlbirdir onlar,
Tor qurub, can quşun etmişlər şikar.
Bu yazıq quşcuğaz, hələ də, inan,
Götürə bilməmiş bir dən o tordan.
Cisimlər ayrılar biri-birindən.
Qovuşar əslində hər şey yenidən,
Can quşu ayrılar yuvadan o dəm,
Qalar dənsiz, susuz qəm ilə həmdəm,
Fələyin işinə diqqət et bir az,
Bu qədər zülm edər, əsla yorulmaz!
Mehrinə inanan sadə səhər tək,
Şəfəq kimi axşam qan udsun gərək!
Qəmsiz yaşamamış bir an da insan,
Ömrü başa verir matəmlə dövran,
Bağın seyrinə çıx olanda bahar,
Dalıb tamaşaya, bu sirri axtar!
Nə üçün qönçənin bağrı qan olmuş?
Hər çiçək torpağın üstündə solmuş?
Niyə gül, köynəyi para-paradır?
Ağzı od püskürür, bağrı yaradır?

Kim vurub yıxmışdır sərvi-rəvanı?
Qanda qərq eləmiş kim ərğəvanı?
Zülfü pərişandır sünbülün nədən?
Yaşarmış nərgisin gözü şəbnəmdən?
Bənövşə geyinmiş matəm qarası,
Lalənin bağrında hicran yarası.
Qəlbi şaxə-şaxə olan sənubər,
Cisminə günəş hey xəncər endirər!
Çəkilmiş qızıl gül bağrına min dağ,
Səmənin üzünə salınmış dırnaq.
Küləkdən ağaclar qəmli rəqs edər,
Quşların səsində qəm var dağ qədər.
Qumrunun şivəni tutmuş hər yanı,
Deyər: – "Bu dünyada rahatlıq hanı?"
Min dastan oxuyur şaxədə bülbül,
Deyər: – "Xoşbəxt odur ki, aşiq deyil".
Göyərçin boynunu etmişdir çənbər
Ki, çıxmaz çənbərdən salim bir nəfər.
Düşün, bu dünyada belədirsə yaz,
Onu xəzan ilə özün et qiyas!
Payızda əsdikcə soyuq ruzigar,
Saralıb tökülər yerə yarpaqlar.
Bu soyuq, ayrılıq əlamətidir,
Yarından ayrılan yar həsrətidir.
Ayrılıq qəmindən saralar üzlər,
Adətdir, vüsalı ayrılıq izlər.
Bağı şaxta vurmuş, solmuş gülzara,
Qarğa yasa gəlmiş əynində qara.
Düzəltmiş, lüt qoyub hər bir budağı,
Tavus quyruğundan qarğa ayağı.
Nəstərən başından düşmüşdür ləçək,
Yanarsan, narvəni lüt-üryan görcək.
Bağa bəzək verən o nar ağacı
Ki, başında vardı ləldən yüz tacı,
İndi narlar gülür, içinə baxsan,
Görərsən orada yüz piyalə qan.
Şamama – bostanın, bağın bəzəyi,

Geyinmiş əyninə sarı köynəyi,
Saralıb-solubdur üzündə qubar,
Yarından ayrılmış, çəkər intizar.
Buz örtüb çeşmənin üstünu bərk-bərk,
Zireh düzə bilmir ləpədən külək.
Çinar əl-qol açıb qaçmış bir zaman,
İndi donub qalmış bağda soyuqdan.
Əlini qoltuqdan çıxara bilməz.
Sınar qürurundan, lakin əyilməz!
Yazı elə keçir, payızı belə,
İnsanlar doğulur, ölür qəm ilə!
Bu aləmdə qəmsiz yaşayan varmı?
Pərişan bir könül heç açılarmı?
Dünyada şadlıqdan yoxdur bir əsər,
Olsa da, üzünü görməmiş bəşər.
Bir başı sevdaya salsa məhəbbət,
Olacaq nəsibi ayrılıq, həsrət.
Rahatlıq fikrini çıxar başından,
Düşünmə ki, bir an şad olacaqsan.
Şad görün, ürəyi dağlı olsan da!
Baş əymə, zəncirə bağlı olsan da!
Dünyada bir şeyə vurulsan əgər,
Salsa məhəbbəti qəlbində əsər,
Bir gün atacaqsan həsrətlə onu,
Hicranla yetəcək hər işin sonu.
Çalış, bu zənciri ayağından aç!
Faydasız arzular kəməndindən qaç!
Əgər sən qaçmasan, onlar qaçacaq,
Səni yıxmaq üçün əl-qol açacaq.
Fələk, sən yatanda, bil, ayıq qalar,
Sənə verdiyini geriyə alar!
Vurar ayağına bir daş o qoçaq,
Qaçış meydanında olarsan çolaq.
Bu daş zərbəsindən qıçın axsasa,
Alarsan əlinə ağacdan əsa.
Əgər bir budağı qırarsa külək,
Paya vurmaq ona eləməz kömək!

Zərbə taqətini əlindən alar,
Qüvvətli əlində tutarsız qalar.
Əlini hər işə atsan belə sən,
Faydalı heç bir iş gəlməz əlindən!
Əlindən çıxmışsa əlinin kiri,
Tələş fayda verməz, burax tədbiri!
Gözündən nur getmiş, nə ümidlə sən,
Görməyən gözünə sürmə çəkirsən?
Bunu etmişsənsə adət özünə,
Çalış, sürməni çək, görən gözünə!
Bir göz ki, kor olmuş, düşünsən bir az,
Firəngi eynəklə sağaltmaq olmaz!
Ağzında gümüşdən "sin"[1]ə oxşayan,
Ləbin miqdarında "lam" və "bey"[2] sayan,
Dişlərin şəddəsi çox seyrəlibdir,
Tökülən qalana üstün gəlibdir.
Sən isə danışıb güldüyün zaman,
Onlara çəkirsən pərdə dodaqdan.
O qədər əfəlsən, o qədər sərtsən,
Bütün vücudunla belə şikəstsən.
Canın bir üzvündə tapdıqda illət,
Hər yerdə dərdindən açırsan söhbət.
Cisminin bir yeri əskilən zaman,
Dördəlli tutursan fani dünyadan.
Nə üçün bu sirrə etmirsən iqrar
Ki, hər kəs nə əkmiş, onu da yığar!
Dünyanı sanaraq əbədi mənzil,
Olmursan oradan köçməyə mayil.
Məgər o dünyadan yoxdur xəbərin
Ki, ona bağlıdır xeyrinlə şərin.
Qorxuram ki, əcəl çatdığı zaman,
Könlün ayrılmaya yenə dünyadan.
Canında yüz arzu, dilək, vəsvəsə,
Ölüm, həyatının kökünü kəsə.

---

[1] Sin (s) hərfi şəklində yazıldığından şair sağlam dişləri ona oxşatmışdır.

[2] "Əbcəd" hesabı ilə "s" hərfi 30, "b" hərfi isə 2-dir ki, birlikdə 32 dişin sayını göstərir.

Əcəl qədəhini içəsən, ancaq
Bircə arzun ola sənin – yaşamaq!
Eşitdim Calinus, o böyük insan
Ki, onun mislini görməmiş cahan,
Canı boğazına çatan bir gündə,
Demişdir ki: "Ey, kaş, gözüm önündə,
İynə gözü qədər deşik olaydı,
Məzardan dünyaya gözüm baxaydı".
O qədər şirindi gözündə həyat,
Bir iynə gözündən axtardı nəcat.
Üzünə elə bir qapı aç bir gün,
Sabahın aləmi ondan görünsün.
Keçməsin belə bir arzu könlündən!
Ki, fani aləmə baxasan hərdən.
Dünya bir başmaqdır, ayağı sıxar,
Onun yüz çınqıllı, qumlu dağı var.
Çalış, o başmağı at ayağından.
Atmasan, yorulub, yolda qalarsan.
Göyün pərdəsindən döşə payəndaz,
Bunca pərdəsizlik sənə yaraşmaz!
O pərdə dalında sonsuz işıq var
Ki, hər zərrəsindən bir günəş parlar.
Yüksəl, hər arzudan, diləkdən əl çək!
Günəşə qovuşub yox ol zərrə tək!
Əgər yoxa çıxsan, xilas olarsan,
Ayrılıq qəmindən, hicran dağından!

İDRAK ƏLİ KAMALA ÇATMAQ CİLOVUNDA, MÖHKƏM VƏ İRADƏ AYAĞI CƏHALƏTDƏN QAÇMAQ YOLUNDA BƏRQƏRAR OLAN ƏZİZ OĞLUMA NƏSİHƏT

Ey ağıllı bala, ədəbli oğul,
Daima Allahın pənahında ol!
Atalıq borcumdur, məni eşit sən!
Çalış, bəhrə götür nəsihətimdən!

Sənin yeddi, mənim yetmiş yaşım var,
Sən gəncsən, mən isə gücsüz, ixtiyar!
Getmiş günüm, həftəm, ay, ilim bada,
Yanıram keçmişi saldıqca yada.
İndi mən əkinə başlasam, inan!
Güldən artıq bitər tarlamda tikan.
Nə qədər çalışıb, çapalasam mən,
Faydalı heç bir iş gəlməz əlimdən.
Çalış, tut nə qədər qolda gücün var,
Səadət çətrinin altında qərar.
Bir iş gör ki, xeyir çıxsın qarşına,
Səadət yağışı yağsın başına.
Əvvəlcə, biliyə göstərib həvəs,
Cəhlin, nadanlığın rişəsini kəs.
Bilir insanların, məncə, hər biri
Ki, cahil ölüdür, alimsə diri.
Özünü ağıllı sayan bir insan,
Ölülərlə yoldaş olmaz heç zaman!
Sənə bu sirri də bilmək gərəkdir
Ki, elm sonsuzdur, ömür gödəkdir.
İki yol dünyaya gəlməyir insan,
O elmi öyrən ki, mahir olasan!
İşdə biliyinə xalqı inandır
Ki, əməlsiz bilik, gülsüz tikandır!
Kimya elmini bilsən də əgər,
Nə xeyri, etməsən öz misini zər?
Əməl xələtilə özünü bəzə,
Saxla bu xələti həmişə təzə!
Bir əməl ixlasdan olarsa ari,
Çəkər arifləri xamlığa sarı.
Xam işdən bir fayda görməmiş insan,
Halvanın xamından azarlanarsan.
Sən ixlas sahibi oldunsa əgər,
Ayıq ol, bu yolda vardır yüz xətər.
Yeməyə, geyməyə qul olma, əlbət,
Qarnına, əyninə az elə xidmət.
İstidən, soyuqdan saxlayır libas,

Kişisən, kişiyə bəzək yaraşmaz!
Paltarın palazdan olarsa əgər,
Səni yüz fitnədən xilas eyləyər.
Tülkü tək geyinsən yumuşaq paltar,
Dərini başından tez çıxararlar.
Şirniyə aldanma, gəl, mənə inan!
Şəhdi zəncir olub, tutar yaxandan!
Bu qanlı dənizdə acılığa döz,
Sədəfin bağrına inciləri düz!
Kimin süfrəsinə barmaq uzatsan,
Yumruğunla vurma onun başından!
Birinin duzunu dadmışsan əgər,
Salma duzdanına pis gözlə nəzər.
Ehsan ver, heç zaman unutma bunu
Ki, hər bir sərvətin yetişər sonu.
Dostlara borc vermək məsləhət deyil,
Borc vermək dostluğun qayçısıdır, bil!
Çalış, dostun yükü ağır olmasın,
Borc əyər belini hər bir insanın.
Bəxşişin həddini bilməsən əgər,
Yoxsulluq axırda qəddini əyər.
Dosta can qurban et, lakin hər zaman,
Ayırmağı bacar, dostu düşmandan.
Dost odur ki, daim vəfalı olsun,
Qəlbi sədaqətin nuriylə dolsun.
Alsın ağır yükü sənin çiynindən,
Köməyinə çatsın yorulanda sən,
Əlindən yapışsın darda qalanda,
Oduna su səpsin canın yananda.
Qoşulsan bilmədən yaman bir işə,
Düşsün sənin üçün fikrə, təşvişə.
Necə çıxararlar tükü xəmirdən,
Qoruyub çıxarsın səni təhqirdən.
Yaxşılıq yoluna səni sövq etsin,
Özü də bu yolda sənlə getsin.
Belə dost tapılsa, qulu ol, oğlum!
Ar deyil olmağın dosta qul, oğlum!

Yoxsa dost tutmadan ömrü ver başa,
Yaman dostdan isə dostsuz, tək yaşa!
Çəkmə zəmanənin dərdini, şad ol!
Dünyanın qəmindən çalış, azad ol!
Həyatda çoxdursa faydalı peşə,
Qüvvəni sərf elə daim bir işə!
Gecəni gündüzə qatıb hər zaman,
Çalış, öz peşəndə mahir olasan!
Olmazsa dünyada peşən, sənətin,
Bekar gəzmə, əgər varsa qeyrətin.
Kitab oxumağı çalış, qıl adət,
Çünki kitabdadır əsl səadət!
Alimlər haqqında məşhur məsəl var;
Alim gorda, bilik kitabda qalar.
Tənhalıq küncünün şurudur kitab,
Bilik səhərinin nurudur kitab!
Muzdsuz, minnətsiz ustadlıq edər,
Bağışlar bilikdən sənə min gövhər.
Özü dilsiz ikən deyər sirləri,
Ağıllı bir dostdur, libası dəri.
İçi qonça kimi dolmuş varaqla,
Hər varağında var inci tabaqla.
Rəngli bir dəriyə bürünmüş özü,
Qiymətli gövhərdir, lakin hər sözü!
Üz-üzə söykəmiş səhifələri,
Hər biri mişk üzlü gözəl bir pəri.
Vursa dodağına barmaq bir nəfər,
Onları bir rəngdə, bir üzdə görər.
Min lətifə söylər, hamısı əlvan,
Məna inciləri səpərlər haman.
Gör, onlarda necə ibarələr var,
Yunan hikmətinə işarələr var.
Sənə gah tarixi izah edərlər,
Gah da gələcəkdən verərlər xəbər.
Şeir dəryasının cumub dibinə,
Mirvari tökərlər ağlın cibinə.
Gah da bir dost kimi tutub əlindən,

Haqq sözlə edərlər gözünü rövşən.
Mənim hər sözümə assan da qulaq,
Sən öz məqsədindən əl çəkmə ancaq,
Məqsədə yetməyin olmazsa mümkün,
Zəhmətdən, tələşdan əl çəkmə bir gün!
Dil açıb bir sirri dediyin zaman,
Xeyrini, şərini unutma bir an.
Bir quş qanad açıb, uçsa qəfəsdən,
Yenidən sən onu tuta bilməzsən.
Ürəyində varsa şək-şübhə əgər,
Etmə hikmətləri dilində əzbər.
Tük qədər olsa da zərif bir hikmət,
Qaranlıq ürəyə yol tapmaz, əlbət!
Naşı sufilərlə dostluğu burax,
Xamın xam iş gələr əlindən ancaq!
Ağıllı işlərdən qoyarlar səni,
Bağından dərərlər kal-kal meyvəni.
Meyvələr ayrılsa kal-kal ağacdan,
Dəyməzlər qiyamət qopsa da, inan!
Əlin ki qızıldan, gümüşdən boşdur,
Boş əli bir pirə uzatsan, xoşdur!
Pirə sidq əlini uzatsan əgər,
Səadət olacaq sənə müyəssər.
Sən də İsa kimi həmişə tək yat!
Təkliyi əlindən buraxma, heyhat!
Gecə sübhə qədər yatmamaq, inan!
Yaxşıdır bir huri qucub yatmaqdan.
Gülxəndə isti gül üstə yatsan sən,
Xoşdur o yumuşaq yorğan-döşəkdən!
Qorxursan ki, nəfsin baş alıb getsin
Xəta meydanında azğınlıq etsin.
Bağla ayağına zənciri, evlən,
Nəfsin tərpənməsin bir də yerindən!
Bir qızı almağa etdikdə niyyət,
Yetir hüsnünə yox, nəfsinə diqqət!
Qadının həyadan qızarsa üzü,
Birinci gözəldir dünyada özü.

Bir üz ki naməhrəm gözdən saqınar,
Pərdədə olsa da, günəş hüsnü var.
Şahların hüzuru yanar bir oddur,
Çalış, tüstü kimi oddan uzaq dur.
Oddan yüksələrsə işıq məşəli,
Uzaqdan faydalan, getmə irəli!
Qorxuram o oda məftun olasan,
Həyat işığından məhrum qalasan.
Vəzifə axtarma, əgər ağlın var
Ki, gah təyin edib, gah çıxararlar.
Elə bir kürsüdə oturma ki, sən
Başqası qaldırsın səni yerindən.
Çalış, azad yaşa, mənsəbə uyma!
Yüz mənsəb olsa da, sən məhəl qoyma!
Qüruru başından çıxar, huşyar ol!
Hər kəsin yanında təvazökar ol!
Sünbül ki baş alıb göyə yüksələr,
Başına orağın zərbəsi dəyər.
Dən isə sakitcə səpilər yerə,
Quş alıb qaldırar onu göylərə.
Nə qədər məqamın olsa da yüksək,
Başını dik tutma, qürurdan əl çək!
Kiçiklərlə otur, qazan etibar,
Rəqəmin qiyməti sıfırla artar.
Bir şeyi vəd etmə, etdin, qıl əməl,
Vədə xilaflıqdan, ey oğul, çək əl
O xaliq ki, bizə bəxş edib nemət,
Demiş: vədə verdin, əməl et, əlbət!
Öyünmə, əfəllər kimi, atanla,
Sən öz hünərinin oğlu ol, bala!
Tüstü doğulsa da atəşdən əgər,
Nə fayda, onda yox nurdan bir əsər!
Atanı xatırla yalnız xəlvətdə,
Könlünü şad elə, saxla hörmət də.
Nasehdən nəsihət eşidəndə sən,
Gərək toxum kimi cana əkəsən.
Sözü bir qulaqdan eşidər nadan,

O saat çıxarar digər qulaqdan.
Torpaqda qalmadan toxum göyərməz!
Sədəf dərhal sudan inci yetirməz!
Məsəl var, babalar deməmiş əbəs,
Bircə söz deyilsə əhlə olar bəs.
Qəzanın dənizi coşarsa əgər,
Yurdsuz bir qurbağa nə edə bilər?
Səadət axtarsan, fani cahanda,
Allahdan əlini üzmə bir an da!

KİTABIN BİTMƏSİ

Cami! Ariflərə üzünü döndər,
Bu qədər ki xamlıq etmişsən, yetər!
Yetkin ol, düşsən də qara torpağa,
Azad ol, özünə özün ol ağa!
Lakin, təbiətdə belə qayda var;
Hər meyvə kal ikən budaqda qalar.
Elə ki, dəyməyə başladı həmən,
Tökülər, başına daşlar dəymədən!
Ariflər əlindən naz-nemət al,
Xamlara nə əl aç, nə də məhəl sal!
Tamahın kökünü kəs qənaətlə,
Tələbin qolunu sındır hümmətlə.
Qənaət mülkündə bir ev tik, otur,
Simurğ ol, üzlət[1] də aşiyanə qur!
Dil aç, məzlumların vəsfində danış,
Alçaq əməllərdən qaçmağa çalış!
Şahlara baş əymə çörək üçün sən,
Yoxsa çörək deyil, qapaz yeyərsən!
İlin dörd fəslinə diqqət ilə bax,
Zəmanə onlarla dolanır, ancaq!
Bildirin, bu ilin yazını düşün,
Payızı eynidir, baxsan büsbütün!

[1] Üzlət – tənhalıq, guşənişinlik.

Yaylar da eynidir, diqqət et bir az,
Onları sadəcə ayırmaq olmaz!
Nə qədər ecazkar olsa da təkrar,
İnsanın təkrardan zəhləsi qaçar!
Düşün öz xeyrini, əl çək ziyandan,
Varlığın bəhəri yoxluqdur, inan!
Çalış, boş fikirlər yormasın səni,
Ürəyin olmasın divlər məskəni.
Cahilə söz-söhbət açma eşqdən,
Kor gözü çıraqla aça bilməzsən!
Hər cür pis əməldən çalış, uzaq dur,
Təriqət əhlinin şüarı budur!
Nəfsin şişə kimi olmazsa təmiz,
Tutmaz xatirini ariflər əziz.
Ömrünün çırağı bir püflə sönər,
Başındakı ağıl tüstüyə dönər.
Canından qaranlıq gəncliklə getmiş,
Gününü qocalıq nura qərq etmiş!
Çatmışdır zülmətin, korluğun sonu,
İşıq bürümüşdür indi yolunu.
Zülmətdə yetmədin murada bir dəm.
Bu işıqlı yolda addımla möhkəm.
Bəlkə də çatasan o xoş mənzilə
Ki, vəfa qoxusu oradan gələ.
Saçın ağarmışsa, bu ki ar deyil!
Saçı ağ olanın üzü ağdır, bil!
Hər cür süniliyi çıxar qəlbindən,
Saçını boyama başqa rəngə sən!
Başına düşmüşdür qocalıqda qar.
O qardır, əriyib gözündən axar!
Ağla, tövbə üçün gözdən axıt su,
Onunla qəlbindən qara rəngi yu!
Qəlbindən qaranı yuya bilməsən,
Nə xeyir görərsən qara əməldən?
Qələmi at yerə, əlin titrəyir,
Varağı cır, tulla, fikrin hərzədir!
Fikir çırağında qalmamış işıq,

Təbin bağçasında yoxdur yaraşıq.
Əlində tutaraq qarğa ayağı,
Nə üçün gəzirsən bu gözəl bağı?
Yerişdə tovusu yamsılayırsan,
O ayaq, bu yeriş deyildir asan.
Vəhmdən, xəyaldan qurtarmağın, bil,
Əlacı şeirlə söz demək deyil!
Hanı böyük ustad? Hanı Nizami?
Hanı onun nəzmi, incə kəlamı?
Bu gün pərdədədir böyük sənətkar,
Təbinin gövhəri hər yerdə parlar.
O bu gün pərdədə olsa da özü,
Pərdəsiz demişdir mənalı sözü.
Pərdəli sözlərin nə mənası var?
İnsan təkcə sirri qəbrə aparar.
Hər sirrə vaqifdir şəriksiz allah,
Başqa cür düşünmək sayılır günah.
Bu qorxunc aləmdən ümidini kəs,
Qüdsiyyət bağının seyrinə tələs!
Bu fani dünyadan gözünü çəkən,
Tapar əmn-amanlıq ərşində məskən.
Qəlbindən şübhəni-şəkki qoparsan,
Vəhdət sirlərinə bir yol taparsan.
Yolun qorxuludur, mənzilin uzaq,
Götür yolun üçün özünlə ərzaq.
Aqillər əliboş etməzlər səfər,
Karvanda pəhləvan olsan da əgər.
Ariflər demişkən, oruc tutmaqdan
Məqsəd qənaətdir çörəyə, inan!
Qoca arvadların işidir namaz,
Onlar nə etdiyin özü də qanmaz.
Kişisən, çalış, bir könül al ələ,
Ariflər desinlər sənə: “Bax belə!”
Elə bir könül ki şərh edib keçdim,
Vəsfində qiymətli incilər deşdim.
Elə bil könülü axtarsan əgər,
Mənim mürşüdümdən tutarsan xəbər…

***

Çox şükür ki, yaman olsa da dövran,
Sona çatdırıldı bu gözəl dastan!
Könlümün min dərdi, min qəmi vardı,
Nəzmin, qafiyənin meydanı dardı!
Fərağət mülkünə arxalanaraq,
Girdi bu məclisə cəsarətlə bax,
Əl çəkdi dünyadan, qəmlə ötüşdü,
Çıxdı çətinlikdən düz yola düşdü.
Dizimdən baş yükü çəkildi yüngül,
Gizli yükdən azad olundu könül!
Qələm bir at kimi baş alıb getdi,
Gah Həbəş, gah Rumda xoş mənzil etdi.
Çapdıqca arxada qaldı əsərlər,
Hazıra qayibdən verdi xəbərlər.
Nə qələm vurandan qaçdı bir kərə,
Nə gözlük elədi ona məsxərə.
Tibet mişki ilə doluydu dəvat,
Yazmaqda qələmə göstərdi imdad!
Təblənin ağzını möhürlədi mum,
Mumsuz təblə olar mişkdən məhrum!
Varaqlar qurtardı pərişanlıqdan,
Bir yerə yığılıb, oldular divan.
Yüz varaq bir cildə yığışdı gül tək,
Onları dağıtmaz bir daha fələk!
Qoy artsın bu gülün ətri dəmadəm,
Yaşasın, nə qədər yaşayır aləm!
Eşq ilə yazılmış bu kitaba bax!
Aşiqdən, məşuqdan danışır ancaq!
Oldu tuti kimi yediyim şəkər,
"Yusif və Züleyxa" adlandı əsər!
Bəzənmiş, necə bir yaşıl gülüstan,
Hüsnü ziyadədir İrəm bağından!
Onun hər dastanı bir gülüstandır,
Hər sözü dillərdə bir dastandır!
Minlərlə gül açmış o gülüstanda,

Yüz nərgis uyumuş naz ilə onda.
Onun hər nöqtəsi çiçəkdir, güldür,
Hər bir ibarəsi şeyda bülbüldür.
Kafur lövhəsində mişkdən hər xətt,
Vermiş kölgə kimi işığa zinət!
Onun mətnindəki gözlü hərflər,
Mənaca dalğalı dənizə bənzər.
Axar hər tərəfə o bulaqlardan,
Lətafətlə dolu sular durmadan.
Xoşbəxt o kəsdir ki, ola bəxti yar,
Tuta o bulağın üstündə qərar!
Dağıla qəmləri baxdıqca suya,
Könlündən kədərin tozunu yuya.
Boy ata canından sərv tək vəfa,
Əl açıb göylərə eləyə dua.
Allahın mərhəmət sərçeşməsindən,
Bu susuz canımı siyrab edim mən,
Bu tər çiçəkləri qucuyan zaman,
Yadından çıxmasın bu qoca bağban.
Qələm bu lövhədə döndü nəqqaşa,
İlin axırında yetirdi başa.
Tarixi səkkiz yüz səksən doqquzdan,
O yana keçmədi bir gün də, inan!
Beyt-beyt saydım, bitdikdə əsər,
Dörd min rəqəmini aşdı beytlər.
İlahi! Aşiqlər xatirinə sən,
Bu arzu, diləyi qəbul et məndən!
Bu təzə gəlinin dadına haqla,
Onu hər eybdən, qüsurdan saxla!
O böyük sultana qıl onu qismət
Ki, şir sifətlidir, aslan təbiət!
Xüsusən, o bəxti cavan hökmran
Ki, adı Aslandır, ləqəbi Aslan!
Mərdlik meydanında göstərmiş hünər,
İki şir demişdir ona igidlər!
Biri tamah adlı divdən qorunar,
Biri aslanlarla sərpəncə vurar!

Adını rəmzlə çəkdim mən onun
Ki, yaman gözlərdən amanda olsun!
Yoxsa, necə onun müdrik gözündən,
Gizlədə bilərdim bu gövhəri mən?
Təbi şeir deməkdə tükü tən yarar,
Qələmi o tükdən atlas toxuyar!
Salar könülləri şeriylə tora,
Aşiqi çatdırar xoş arzulara.
Çəkər aşiqlərin qəlbini bəndə,
Gözəllər ləbini döndərər qəndə.
Göydən nazil olan bir işıq kimi,
Adıyla xətm etdim bu kitabımı!
Bütün insanları keçirdim gözdən,
Ondan başqasına yol tapmadım mən.
Nə qədər dünyada dolanır dövran,
Canı sağlam olsun, qəlbi şadman!
Nə varsa, Allahdan qeyri, unutsun,
Onun kərəmini nəzərdə tutsun!
Sözünü qurtardın sən dua üstə,
Cami! Allahından mərhəmət istə!
Qara iş öyrənmə öz qələmindən,
Qəlbini təmiz yu göz yaşınla sən!
Bu çöldən keçərkən qələmini at,
Qara fikirləri başından çıxart!
Dilini sükutla cəzalandır sən
Ki, sükut yaxşıdır söz söyləməkdən!

Son

Baharistan

DİBAÇƏ

...İndiki ürəkaçan bir vaxtda, ürəyimin parçası oğlum Ziyaəddin Yusif ərəb dilini yenicə öyrənməyə, ədəb elmini təzəcə dərk etməyə başladığı bir çağda onu xatırlatmaq istəyirəm ki, yeniyetmələr və zəhmətə alışmamış uşaqlar ürəklərinə yatmayan, ağıllarına batmayan sözlər eşitdikdə qəlblərinə bir dəhşət, beyinlərinə bir vəhşət çökür.

Onun başını qarışdırmaq, könlünü şənləndirib tədrisə alışdırmaq üçün mən bəzən məşhur şeyx, böyük ustad Müsləhəddin Sədi Şirazinin ən qiymətli və nəfis təbərrüklərindən (hesab edilən) "Gülüstan"dan bir neçə sətir oxuyardım.

Məsnəvi

Elə bir "Gülüstan" ki behişttək ürək açır,
Torpağı gül qoxuyur, yarpağı ətir saçır.
Babları da behiştin qapıları qədərdir[1],
Şirin hekayələri sanki abi-kövsərdir.
Mənaları gizlənmiş, bürünərək pərdəyə,
Hurilər qibtə edir, ona "afərin!" deyə.
Şerinin sərv ağacı buludlara dayanmış,
Lütfünün şəbnəmindən böyük çaylar yaranmış.

Bu zaman birdən fikrimə gəldi ki, mən də onun qiymətli fikirləri və lətif şeirlərinə oxşar bu səpkidə bir neçə sətir, bu üslubda bir neçə varaq yazım ki, hazırlar üçün bir dastan, qaiblər üçün bir ərməğan olsun.

Fikrimə necə gəlmişdisə, elə də yerinə yetirildi.

[1] Babları da behiştin qapıları qədərdir – Kitabın səkkiz fəsildən ibarət olduğuna işarə edilir. Dini kitabların dediyinə görə, behiştin də səkkiz qapısı vardır.

Q i t ə

Əgər Sədi yaratmış məndən əvvəl "Gülüstan",
Səd ibni Zəngi[1] üçün vurmuş ona hər rəngi.
Mənsə "Baharistan"ı o şah üçün yazmışam,
Qul olmağa layiqdir ona Səd ibni Zəngi[2].

Q i t ə

Gəlin tamaşaya "Baharistan"ı,
Siz orada "Gülüstan"lar görərsiz.
Gülüstanın hərəsinin lütfündən,
Çiçək yığar, sünbül, reyhan dərərsiz.

Bu "Baharistan" səkkiz rövzəyə[3] (fəslə), hər rövzə isə müxtəlif rəngli və müxtəlif ətirli ayəyə (bölməyə) ayrılmışdır; nə xəzanın pozucu yeli onun rəngini soldura bilər, nə zamanın dağıdıcı əli onun ətrini öldürə bilər...

Tikan, alaq, kol-kos, çör-çöpü olmayan bu bağa tamaşaya gələnlərdən bircə şey xahiş olunur ki, mübarək qədəmlərini buraya qoyub, etibarlı nəzərlərini buraya saldıqda, onu əkib yetişdirməkdə ürəyinin qanını, bəsləyib böyütməkdə şirin canını əsirgəməyən bağbana dua oxumaqla onu yad, səna qılmaqla onu şad etsinlər...

[1] Səd ibn Zəngi – Atabəylərdən olub, 1195-1226-cı illərdə Şirazda hökmranlıq etmişdir. Sədi "Gülüstan" əsərinin əvvəlində onu tərifləyir və kitabını onun adına yazdığını söyləyir.

[2] Qul olmağa layiqdir ona Səd ibni Zəngi – "Baharistan" teymurilərin ən məşhur hökmdarlarından biri Sultan-Hüseynə ithaf edilmişdir. Görünür, Cami burada Sultan-Hüseyni (1469–1506) nəzərdə tutur.

[3] Rövzə – Bir neçə mənası vardır. Burada "bağ" mənasında işlənmişdir.

BİRİNCİ RÖVZƏ (BAĞ)

Heratın o müdrik qocası[1] ... Əbdüllah Ənsari öz əshabələrinə belə vəsiyyət etmişdir:

"Hər ağıllı qocadan bir söz öyrənin, bunu bacarmasanız, onların adlarını xatırlayın ki, fayda görə biləsiniz".

Rübai

Sənin namü nişanında eşq var,
Məktubunda, peyğamında eşq var.
Məhəlləndən keçən olur aşiqin
Yəqin ki, dam-divarında eşq var.

***

Bir dəfə Şibli[2] əleyhirrəhmənin[3] başına hava gəlmişdi. Onu xəstəxanaya apardılar. Bir dəstə yığılıb görüşünə getdilər. Soruşdu: "Siz kimsiniz?" Dedilər: "Sənin dostların".

Yerdən bir daş götürüb onlara hücum etdi, hamısı qaçdı. Şibli dedi:

"Ey dostluq iddiasında olanlar, geri qayıdın, dost dostdan qaçmaz və onun cəfa daşlarından saqınmaz".

Q i t ə

Dost odur ki, pislik görsə dostundan,
Daha artıq hörmət edə o dosta.
Min daş dəysə dost əlindən başına,
Məhəbbətlə qarşı gedə o dosta.

---

[1] Herat qocası – XI əsrin sufi şeyxi, filosofu və şairi Əbdüllah Ənsari nəzərdə tutulur. 1006-cı ildə anadan olmuş, 1088-ci ildə vəfat etmişdir.

[2] Şibli – Şibli Cəfər ibn Yunis Bağdadi. Dövrünün görkəmli sufilərindən olmuşdur. Ərəbcə şeirləri vardır. (Ölümü 945/46).

[3] Əleyhirrəhmə – yəni ona rəhmət, rəhmətlik, mərhum. Qədim Şərq ədəbiyyatında, yüksək inşa ilə yazılmış əsərlərdə ölmüş böyük adamlar, xüsusilə sufi, şeyx, şair və alimlər haqqında belə deyilərdi. Məsələn: Sədi əleyhirrəhmə və s.

Əbülhəsən Quşçi[1] əleyhirrəhmə deyibdir: “Dünyada ən xoşa gəlməyən o adamdır ki, onun dostluğu ya əvəzə üçün olsun, ya qərəzə üçün”.

Rübai

Hicran günü dost əlindən çəkən dad,
Dostluğunda vəslə edən istinad,
Dost deyildir, nakişidir o kəs ki,
Öz dostunu məqsəd üçün edir yad.

Şeyx Əbusəid Əbülxeyr[2] əleyhirrəhmədən soruşdular ki, təsəvvüf nədir. Dedi: “Odur ki, başındakını çıxarasan, əlindəkini verəsən, hər nə etsələr dözəsən”.

Rübai

Sufilik eyləmək istəsən əgər,
Başdan çıxmalıdır eyşü işrətlər.
Var-yoxu verməli, yoxsullaşmalı,
Dözməli nə yazsa qəzavü-qədər.

Şəqiq Bəlxi[3] deyibdir: “Qaçın dövlətlilərin dostluğundan. Elə ki könlünü ona verdin, səxavətindən şirnikləndin, demək, özünə yeni bir Allah tapdın…”

Yusif ibn Hüseyn Ərrazi[4] əleyhirrəhmə demişdir: “Bütün yaxşılıqlar elə bir evdədir ki, onun açarı təvazö və özünü kiçik tutmaqdır; bütün pisliklər elə bir evdədir ki, onun açarı “biz, biz” və “mən, mən” deməkdir...”

[1] Əbülhəsən Quşçi – XV əsrin görkəmli alimlərindən olubdur. Atası Uluqbəyin yanında rəsədxanada işləmiş, özü isə onun quşçusu olduğundan, “Quşçi” ləqəbini almışdır. 1474/75-ci illərdə vəfat etmişdir.

[2] Şeyx Əbusəid Əbulxeyr – Ərəb həkimi (1177–1225).

[3] Şəqiq Bəlxi – Sufi şairlərdən olub, dövrünün müdrik alimlərindən hesab edilmişdir. Çoxlu həkimanə sözləri vardır. 752/53-cü illərdə vəfat etmişdir.

[4] Yusif ibn Hüseyn Ərrazi – Əbu Yəqub ləqəbi ilə məşhurdur. Dövrunün görkəmli şeyxlərindən hesab edilmişdir. (Ölümü – 954/55).

***

Bir dərviş Xacə Əbdülxaliq Əcdəvani[1] əleyhirrəhməyə demişdir: "Behişt və cəhənnəmi seçməkdə Allah ixtiyarı mənə versə idi, mən cəhənnəmi seçərdim; çünki behişt nəfsin istəyidir, cəhənnəm isə Allahın əmri".

Xacə onun sözünü rədd edərək deyir: "Bəndə hara, ixtiyar hara! Hara desə get, gedəcəyik, harda desə qal, qalacağıq".

Q i t ə

Ağa buyurmayınca özbaşınalıq etmə,
Ey özünü bəndə, qul adlandıran avara.
Oradakı ağanın hökmü, əmri rəvandır,
Orada bəndə hara, özbaşınalıq hara!?

***

Xacə Bahaəddin Nəqşbəndi[2] əleyhirrəhmədən soruşdular ki, sizin nəslinizin silsiləsi hara gedib çatır. Dedi: "Heç kəsin nəslinin silsiləsi heç yerə gedib çatmaz".

Rübai

Əbada hiylə var, yoxdur bir bəhər,
Duada riya var, yoxdur bir səmər,
Sən kəndin kökünə silsilən demə,
İnsanın kökündən yoxdur bir xəbər.

[1] Xacə Əbdülxaliq Əcdəvani – Sufi alimlərdəndir, 1220/21-ci illərdə vəfat etmişdir.

[2] Xacə Bahaəddin Nəqşbəndi – Nəqşbəndilik təriqətinin əsasını qoyanlardan hesab edildiyindən, "Nəqşbəndi" ləqəbini qazanmışdır. 1317/18-ci illərdə vəfat etmişdir.

İKİNCİ RÖVZƏ (BAĞ)

...MƏSLƏHƏT. Həkim o adama deyərlər ki, şeylərin necə olduğunu mümkün qədər doğru bilsin, əməllərini bacardığı qədər düzgün həyata keçirsin.

Rübai

Xoşbəxt odur fani işdən əl çəkə,
Əbədilik naminə tədbir tökə.
Nə mümkünsə hamısını öyrənə,
Öyrəndimi, dərhal toxumun əkə.

***

Hekayət.

İskəndər Rumi[1] cahangirliyinin ilk illərində böyük hiylə işlədərək bir qalanı fəth etdi və onu viranəyə çevirməyi əmr etdi. Dedilər: "Orda çox bilikli, çətin məsələləri həll edən bir alim vardır". Onu çağırtdırdı. Gəldikdə çox çirkin, ürək bulandıran, zövq əhlində nifrət oyadan bir sifətə malik olduğunu gördü. Dedi: "Bu nə qəribə sir-sifət, nə eybəcər bir xilqətdir". Həkim bu sözdən bərk tutuldu, pərt halda gülə-gülə dedi:

Q i t ə

"Çirkin" deyə vurma mənə tənə sən,
Ey fəzilət, mərhəmətdən bixəbər.
Bədən qındır, ruh isə iti qılınc,
Qılınc kəsər, qında olmaz bir təpər.

Sonra dedi: "Əxlaqı xalq ilə düz gəlməyənin dərisi bədəni üçün elə bir dar məngənəyə çevrilər ki, zindan onun yanında geniş bir istirahətgaha oxşar".

[1] İskənddr Rumi – Məşhur yunan sərkərdəsi Makedoniyalı İskəndər nəzərdə tutulur (er. əvvəl 356–323).

Q i t ə

Kim edərsə hamı ilə pis rəftar,
Onu qəmə, qüssəyə düçar bilin.
Həbsi üçün göstərməyin təşəbbüs,
Dərisini ona həbsdən dar bilin.

Bir də dedi: "Paxıl rahat olmaz, yaradanını da sakit qoymaz, başqalarına nə versə, gözü götürməz, özünə isə layiq olmadığı hər şeyi istər".

Q i t ə

Həsədə vərdiş edən hər adamın xasiyyəti
Allahın hökmünə də etiraz etməkdir, inan,
Kimdə nə görsə, o saat deyəcək hardandır?
Neçin Allah ona vermiş, mənə yox, ahü aman!

Bir də dedi: "Ağıllı, səxavətli adamlar mallarını dostlarla yeyərlər, ağılsız xəsislər isə (yeməyib) düşmənlərə qoyarlar".

Q i t ə

Səxavətli, hər nə keçsə əlinə,
Səpər dostun ayağına, nəyi var.
Nə toplasa təbiəti xəsislər,
Ölümündən sonra düşmənə qalar.

Bir də dedi: "Kiçiklərlə şitlik edib zarafatlaşmaq böyüklüyü hörmətdən salmaq, rüsvayçılıq tozu qaldırmaqdır..."

Bir də dedi: "Yumruq vurmağa adət etmiş adamlar zəiflərin təpiyi altında məhv olarlar".

Q i t ə

Yaxşı dinlə sən bu sözü, ey könül,
Onu demiş arif, hüşyar adamlar:
"Düşmənçilik xəncərini siyirən,
Düşmənçilik qılıncından məhv olar!"

İskəndər öz qulaqlarının bu hikmət cəvahiri ilə dolduğunu hiss etdikdə, onun ağzını, öz qulağı kimi, cəvahirlə doldurdu və o qalanı viran etməkdən vaz keçdi.

HİKMƏT. Şəfqət saçan yer üzərində nəsihət toxumundan başqa bir şey əkməmiş Fridun öz övladlarına bu vəsiyyəti yazmışdır: "Günlərin səhifəsi ömür səhifəsidir, ona ən gözəl əməllər və ən dəyərli əsərlərdən başqa heç nə yazmayın".

Q i t ə

Bu dünyanın səhifəsi adamların ömrüdür,
Fikirləşib tapmış bunu çox ağıllı bir insan.
Xoşbəxt o vaxt olarsan ki, bu pak, təmiz səhfəyə,
Yalnız yaxşı, xeyir əməl, gözəl əsər yazasan!

HİKMƏT. Alimlərdən biri demişdir ki, hikmət haqqında qırx dəftər yazdım, bir fayda görmədim, oradan qırx söz ayırdım, ondan da bir bəhrə götürmədim, ondan da dörd söz seçdim və istədiyimi onlarda tapdım. Birinci[1].

İkinci. Malın nə qədər çox olur olsun, onunla qürrələnmə, çünki gec-tez zamanın gərdişindən puç olub gedəcəkdir.

Rübai

Sadəlövh adamtək vurulma vara,
O bənzər tez keçən ağ buludlara.
Tez ötən şeylərə bel bağlamazlar
Ağıllı adamlar, düşsə də dara!

[1] Birinci... – Qadın ləyaqəti təhqir edildiyindən, qadınlara qarşı etibarsızlıq, etimadsızlıq təbliğ edildiyindən, ixtisara salınmışdır.

Üçüncü. Gizli sirrin varsa, onu heç bir dostuna demə. Çox zaman elə olur ki, dostluq dönüb düşmənçiliyə çevrilir və dostluq aradan gedir.

Q i t ə

Düşmənlərdən gizli tutmaq istədiyin bir sirri,
Yaxşı olar, oğul, onu dosta da deməyəsən.
Çox görmüşəm bu kəcrəftar fələyin gərdişindən,
Düşmən dönüb dost olmuşdur, dost isə qəddar düşmən.

Dördüncü. O peşəyə xor baxma ki, onu tərk etdikdə acından ölə-sən, artıqtamahlıqdan qaç, nə zəruridirsə, ona yol aç.

Q i t ə

Lazım olan bir sənəti axtar sən,
Veyil-veyil dolanmaq çox yamandır.
Lazım olan bir sənəti tapdınmı,
Möhkəm yapış, əldən vermə, amandır.

HİKMƏT. İbn Müqəffə[1] deyir ki, hind alimlərinin kitabxanasını yüz dəvəyə yükləyirdilər. Şah onların azaldılmasını xahiş etdi, bir dəvəyə endirdilər, yenə ixtisarını xahiş etdi, dörd kəlmə ilə kifayətləndilər.

Birinci. Şahların ədalətli olmaları.

Məsnəvi

Ədalətli olarsa bu dünyada şəhriyar,
Böyüklər də, kiçik də, rahat-farağat yaşar.
Yox, əgər qəddar olub, ciyərləri dağlasa,
Göyə fəğan qalxacaq, yer batacaqdır yasa.
Əyri-üyrü dünyada yaratmaqçın səadət
Yalnız bir şey lazımdır: hökmdardan ədalət!

İkinci. Rəiyyətin sədaqətli və itaətkar olması.

[1] İbn Müqəffə – Dövrünün ən məşhur alim və mütərcimlərindən hesab edilmişdir. Məşhur "Kəlilə və Dimnə" əsərini orta fars (pəhləvi) dilindən ərəb dilinə ilk dəfə tərcümə etmişdir. Didaktik əhəmiyyətli orijinal əsərləri də olmuşdur. 36 yaşında ikən 762/63-cü illərdə tikə-tikə doğranılaraq, təndirdə yandırılmışdır.

B e y t

Hökmə tabe olmamaqdır şah zülmünə səbəb, bil!
Buğda biçməz arpa əkən, bu mümkün bir iş deyil.

Üçüncü. Bədənin sağlamlığını qorumaq. Acmadıqca əli təama uzatmamalı, yedikdə isə doymadan əli taamdan çəkməli.

Rübai

Xəstəlik törədən amilləri sən,
Çalış ki, özündən kənar edəsən.
Uzaq ol dərmandan[1], acmamış yemə,
Doymamış əlini götür süfrədən.

Dördüncü. Üzlərini yad adamlardan gizlətmək və gözlərini yabançı adamlardan çəkmək barədə qadınlara nəsihət.

Q i t ə

Əsl arvad odur ki, naməhrəm bir kişiyə,
Göz bəbəyi olsa da, üzünü göstərməsin.
Əgər kişi deyilsə onun qanuni əri,
Göy mələyi olsa da, gözünü göstərməsin.

HİKMƏT. Dörd kəlmə var ki, dörd padşah demiş və sanki dörd kamandan bir ox atmışlar. Kəsra[2] söyləmişdir: "Demədiyim sözdən heç vaxt peşman olmamışam, lakin çox olub ki, dediyimdən qan və torpaq içində yatmışam".

[1] Uzaq ol dərmandan – orijinalda: uzaq ol nadan həkimlərdən.

[2] Kəsra – Sasani sülaləsindən olan şahlara verilən ləqəbdir. Əsasən Xosrov Ənuşirəvan və ondan sonra gələnlərə aid edilir. Cami Ənuşirəvanı nəzərdə tutur. (531–579).

Q i t ə

Məclisdə boş danışmaqdan susub durmaq yaxşıdır,
Hələ peşman olmamışdır sirri gizli saxlayan.
Lakin sirri faş eyləyib söz gəzdirən adamlar,
Çox görmüşəm, peşman olmuş yersiz danışmağından.

Qeysər buyurmuşdur: "Mənim demədiyim sözə qüdrətim dediyimdən çox çatar, yəni demədiyimi hər vaxt deyə bilərdim, lakin dediyimi dana bilmərəm".

Q i t ə

Deyilməsi çətin olan şeyləri
Asanlıqla demə sən hər yetənə.
Gizli sözü lazım olsa deyərsən,
Desən, gizlətməsi düşər çətinə.

Çin xaqanı bu mənanı aşağıdakı kimi demişdir: "Çox vaxt deməyin pərişanlığı deməməyin peşmançılığından ağır olubdur".

Q i t ə

Gizli bir sirr yadına düşən zaman,
Dərhal onu söyləməyə atma can.
Qorxuram ki, açıb demək təqsiri
Ağır olsun gizlətmək günahından.

Hind hökmdarı bu barədə söz açaraq belə demişdir: "Dilimdən qaçırdığımı bir daha geri qaytara bilmərəm, demədiyimin sahibiyəm, istəsəm deyərəm, istəməsəm demərəm".

Q i t ə

Gizlin sirlə deyilmişə fərq qoy sən,
Bu barədə qəribə bir məsəl var:
O – qınında saxlanılan xəncərə,
Bu – kamandan atılmış oxa oxşar.

***

Hekayət.

Hind padşahı Bağdad xəlifəsinə çoxlu hədiyyələrlə birlikdə tibb elmində mahir, hikmət elminə vaqif bir filosof da göndərdi. Xəlifə gəldikdə o ayağa qalxıb dedi: "Mən üç şey gətirmişəm ki, onlar yalnız soltanlara və xaqanlara layiqdir". Xəlifə soruşdu ki, onlar nədir. Dedi: "Birincisi elə bir boyadır ki, ağ tükü qaraldır, heç vaxt rəngi dəyişmir və tük ağarmır; ikincisi elə bir məcundur ki, nə qədər xörək yeyirsən ye, mədə ağırlaşmır, kəhlik azmır və iştah küsmür; üçüncüsü elə bir dərmandır ki, beli bərkidir, şövqi artırır, təkrardan nə qüvvət azalır, nə ehtiras zəifləyir".

Xəlifə bir az fikirləşdikdən sonra dedi: "Mən səni daha ağıllı bilir, daha kamallı hesab edirdim. Dediyin boyaya gəldikdə bilməlisən ki, qürur, təkəbbür, fisq və fücur mayasıdır. Tükün qaralığı zülmət, ağlığı nur əlamətidir. Yalnız nadan adamlar nuru zülmətlə örtə bilər.

Q i t ə

Ağ tükünü qara rəngə boyayarsa bir axmaq,
Qocalıqda cavan olmaq xəyalına düşsə gər,
Dövlət quşu şikarinə çıxan arif yanında
Ağ şahinə ola bilməz qara qarğa bərabər!

O dediyin məcuna gəldikdə, bilməlisən, mən elə çox yeyən qarınqulu adamlardan deyiləm ki, ondan ləzzət alam. Bundan əlavə, onun daha pis bir cəhəti var: gərək cırtbaşı elə yerə qaçasan ki, görməməli şeylər görəsən, eşitməməli səslər eşidəsən, xoşa gəlməyən şeylər iyləyəsən. Ağıllı adamlar demişlər: "Aclıq məzacda olan elə bir xəstəlikdir ki, onun əlacı yemək və içməkdir. Axmaq o adamdır ki, özünü xəstəliyin ixtiyarına verib məzacını korlaya, sonra əziyyət çəkib, çətinliklə onun əlacını axtara".

Q i t ə

Xacə saxlar iştahını ancaq ona görə ki,
Bəlkə iştah gücü ilə rəxnə tapsın məzacı.
Sonra əlinə keçən hər çiyi, hər bişmişi
Yeyər ki, bəlkə olsun o rəxnənin əlacı.

Qadınlara qarşı şövqi artıran dərmana gəldikdə, bilməlisən, bu, ağıldan uzaqdır, divanəlik və cünunluqdur; necə ola bilər ki, yer üzünün xəlifəsi bir qızcığaz qarşısında diz çöksün, ona yaltaqlıq etsin?!

***

Hekayət.

Kəsranın məclisində üç böyük alim söhbət edirdi: rum filosofu, hind həkimi və Büzürcmehr. Söz gəlib dünyada nəyin ən dözülməz şey olduğu məsələsinə çatdı. Rumlu dedi: "Qocalıq, süstlük, yoxsulluq və əliboşluq"; hindli dedi: "Canın xəstəliyi və qəm-qüssənin çoxluğu"; Büzurcmehr dedi: "Ölümə yaxınlaşmaq və yaxşı əməldən uzaqlaşmaq".

Hamı Büzürcmehrin sözü ilə razılaşdı...

HİKMƏT. Bir alimdən soruşdular: "Adam nə vaxt yeməyə can atar?" Dedi: "Dövlətli acanda, kasıb tapanda"...

***

HİKMƏT. Bir alim öz oğluna deyirdi: "Səhər ağzına bir şey qoymamış evdən çıxma, çünki toxluq səbr və təmkin nişanəsi, aclıq əsəbilik və qanıqaralıq əlamətidir".

Q i t ə

Oruc tutmaqla, xacə, gəl olma tündxasiyyət,
Həlimliyin hüsnünü unutmamaq yaxşıdır.
O oruc ki gətirir tündlük, süstlük, nasazlıq,
O orucu tutmaqdan heç tutmamaq yaxşıdır.

***

HİKMƏT. Süfrə sahibi dəstərxanın qırağında oturub özünü onun ortasında görərsə, ciyərin qanını yemək onun çörəyini yeməkdən, ürəyinin qanını içmək onun qəndabını içməkdən yaxşıdır.

Q i t ə

Çörək mənim, süfrə mənim deyənin,
Uzaq olun evindən, həyətindən.
Bostandakı tərəvəzin xoş olar
Onun təzə, əmlik quzu ətindən.

***

HİKMƏT. Kimə beş şey verilibsə, yaxşı yaşamağın cilovu da onun əlindədir:

Birinci – möhkəm sağlamlıq, ikinci – daimi əmin-amanlıq, üçüncü – nemət, dördüncü – sədaqətli dost, beşinci – əbədi rahatlıq. Kimi bunlardan məhrum ediblərsə, yaxşı yaşayış qapılarını da onun üzünə bağlayıblar.

Q i t ə

Bütün dünya alimləri bu fikrə olmuş şərik,
Xoş güzəran, bol həyatın yalnız beşcə şərti var:
Əmn-amanlıq, can sağlığı, kafi maaş, bir də ki,
Sədaqətli, səmimi dost, xoşxasiyyət gözəl yar.

***

HİKMƏT. Ölümlə birlikdə zavala uğrayan neməti ağıllı adamlar nemət hesab etməmişlər. Ömür nə qədər uzun olur olsun, elə ki, sona çatdı, o uzunluqdan nə fayda?! Nuh[1] Əleyhissəlam min il ömür sürmüşdür və indi də beş min ildir ki, ölmüşdür.

O nemət qiymətlidir ki, əbədi olsun, zavalın pozucu əli ona çatmasın.

Q i t ə

Arif üçün nemət odur dünyada,
Ömür boyu şən yaşaya bir insan.
Qızıl-gümüş nemət deyil, sən ölsən,
Fərqlənməz ki, onlar qəbir daşından.

[1] Nuh – Məşhur əfsanəvi Nuh nəzərdə tutulur. Dini kitablarda "Nuhun tufanı" bunun adı ilə bağlıdır. Əfsanəyə görə yaşı beş yüzə çatdıqda tufan baş vermişdir. Yəqin Cami də həmin əfsanəyə görə Nuhun 500 il hökm sürdüyünü yazır.

***

HİKMƏT. Büzürcmehrdən soruşdular: "Ən pakizə şah kimdir?" Dedi: "Odur ki, təmiz adamlar ondan arxayın olsunlar, xainlər isə ondan qorxsunlar".

B e y t

Şah odur ki, başda ağıl, ürəyində hiss ola,
Yaxşılarla yaxşı ola, pislər ilə pis ola!

***

Hekayət.

İskəndər öz məmurlarından birini böyük və şərəfli bir işdən götürüb, kiçik və hörmətsiz bir vəzifəyə qoydu. Bir gün İskəndər o adama rast gəldi və soruşdu: "İşlər necə gedir, vəzifəndən razısanmı?" Cavab verdi: "Şahın ömrü uzun olsun, adamı vəzifə böyüdüb şərəfli edə bilməz, bəlkə adamına görə vəzifə böyük və şərəfli hesab edilər. Deməli, nə vəzifə olur olsun, orada xoşxasiyyətlilik, ədalət və insaf olmalıdır".

Bu söz İskəndərin xoşuna gəldi, onun əvvəlki vəzifəsini özünə qaytardı.

Q i t ə

Sənə böyük mənsəb, məqam gərəksə,
Çalış elmə, fəzilətə çatasan.
Heç bir insan mənsəb ilə yüksəlməz,
Mənsəbi yüksəldən insandır, insan.

HİKMƏT. Üç iş üç cür adama yaraşmaz: şahlara xəbislik, alimlərə varlanmaq üçün hərislik, dövlətlilərə xəsislik.

Q i t ə

Üç şey eyibdir üç kəsdə:
Hökmdarda – xəbislik,
Alimdə – tamahkarlıq,
Dövlətlidə – xəsislik.

***

HİKMƏT. Ağıllı adamlar deyiblər ki, dünya ədalətlə abad, zülmlə bərbad olar. Ədalət sarayı min fərsəng[1] məsafəyə işıq saçar, zülm evi min fərsəng sahəyə qaranlıq yayar.

Q i t ə

Çalış ədalətə ki, sübh tək tülu etsin,
Cahana nur yayılsın onun şüasından.
Ədaləti buraxıb zülmə adət etsən əgər,
Qaranlığa bürünər, dəhr olar qara zindan.

***

Hekayət.

Bir qeyrətli dərviş bir qüdrətli şahla dostluq edir və tez-tez onun görüşünə gedirdi. Bir gün şahdan özünə qarşı bir soyuqluq hiss etdi, ha fikirləşdi, tez-tez görüş və çox-çox söhbətdən başqa bir səbəb tapmadı. Gediş-gəliş ayağını kəsdi, söz-söhbət büsatını yığdı.

Bir gün şah həmin dərvişə rast gəldi, dayandırıb dedi: "Ey dərviş! Səbəb nədir ki, bizdən qaçırsan, söhbətə gəlmirsən, qapı açmırsan?!"

Dərviş dedi: "Səbəbi odur, bilirəm ki, "nə üçün gəlmirsən" sualı "nə üçün gəlirsən" sorğusundan yaxşıdır".

Q i t ə

Bir dövlətli bir dərvişə dedi ki:
"Bəs çoxdandır neçin bizə gəlmirsən?!"
Cavab verdi: "Belə deməyin xoşdur
Hiddət ilə "neçin gəldin" deməkdən".

[1] Fərsəng – Məsafə vahidi, təqribən 6 –7 km-ə bərabərdir.

ÜÇÜNCÜ RÖVZƏ (BAĞ)

HİKMƏT. Şahların varlığı insaf və ədalət üçündür, cəlal və əzəmət üçün deyildir...

Hekayət.

Tarixdə yazılmışdır ki, dünyanın hakimiyyəti beş min il mağların və atəşpərəstlərin əlində olmuşdur. Səltənət ona görə bu xanədanın əlində bu qədər çox qalmışdır ki, onlar rəiyyətə zülm etməmiş, onlarla ədalətlə rəftar etmişlər...

Q i t ə

Ədalətlə insaf gərəkdir şaha,
Fərq eləməz kafir olsun, ya dindar.
Mömin olan zalim şahdan yaxşıdır
Adil olan dinsiz, kafir hökmdar!

***

HİKMƏT. Padşahın yaxın adamı bilikli həkim[1] olmalı, zarafatcıl nədim[2] olmamalıdır; çünki birincisindən kamal, ikincisindən zaval artar.

Q i t ə

Alimlərin hər mənalı sözü gövhər kimidir,
Xoş ona ki, mücrü etmiş sinəsin bu gövhərə
Ariflərin ürəkləri hikmət xəzinəsidir,
Yaxşı saxla, qoyma getsin xəzinə uzaq yerə.

HİKMƏT. Padşaha yaxın olanlar yüksək dağlara qalxan, lakin nəticədə fələyin işi, zamanın gərdişi sayəsində o dağlardan yerə yıxılan

[1] Həkim – Klassik Şərq ədəbiyyatında filosof, hikmət sahibi, alim mənasında işlədilir.

[2] Nədim – Qədimdə, şah saraylarında xüsusi vəzifə sahibinə deyərdilər. Nədimlər şahın ən yaxın adamları hesab edilər, onun məhrəmanə söhbətlərində, eyş-işrət məclislərində iştirak edərdilər.

adamlara oxşarlar. Əlbəttə, təbiidir ki, daha yüksəkdə olanların yerə dəyməsi daha ağır, aşağıda olanların yıxılması daha yüngül nəticə verər.

Q i t ə

Şaha yaxın olanın uca olar eyvanı,
Oraya qalxan insan, yüksəklikdən qıl həzər.
Qorxuram ki, oradan yıxılasan bir zaman.
Bil ki, yüksəkdə olan yerə dəysə, bərk dəyər.

***

HİKMƏT. Padşahların nədimlərinin əli düz və sözü düz olmalıdır ki, rəiyyətlərin və məmurların vəziyyəti haqqında şaha doğru məlumat versinlər. Deyirlər ki, Ərdəşir Babəkan[1] hər şeydən xəbərdar şah imiş. Səhər nədimlər gəldikdə deyərmiş ki, filankəs bu gecə nə yeyib, filan arvad və ya cariyə ilə nə söhbət edib. Kim nə etmiş idisə, hamısını deyərdi, camaat elə bilərdi ki, ona vəhy gəlir, göydən mələkələr xəbər gətirir. Mahmud Səbüktəkin[2] də belə imiş.

Q i t ə

Xəbəri olmasa şahın ordudan,
Onun qəzəbindən qorxarmı qoşun?
Zülm üçün minlərlə bəhanə tapar,
Fisq üçün minlərlə düzəldər oyun.

***

HİKMƏT. Aristatalis[3] deyir: "Padşahların ən yaxşısı odur ki, leş ətrafında dolanan quzğuna oxşasın, ətrafında quzğun dolanan leşə oxşamasın; yəni o öz dövrəsində olanların halından xəbər tutmalıdır, dövrəsində olanların isə bundan xəbəri olmamalıdır, nəinki şah özü öz halından bixəbər, ətrafındakılar isə onun halından xəbərdar... (olsunlar)".

[1] Ərdəşir Babəkan – Sasani sülaləsinin banisi hesab edilir. 224/6-cı illərdə V.Ərdəvana qarşı çıxaraq onu məğlub etmiş və Əşkanilər sülaləsinə son qoymuşdur.

[2] Səbüktəkin – Qəznəvilər sülaləsinin banisi, Soltan Mahmudun atası.

[3] Aristatalis – Məşhur yunan alimi və filosofu Aristotel nəzərdə tutulur. (Eramızdan əvvəl 384–322).

***

Q i t ə

Şahlar gərək qartal kimi yaxşı görsün ətrafı,
Dövrə vurmuş quzğunların hər addımın izləsin.
Lakin gərək leş olmasın, dövrə vurmuş quzğunlar
Onu didib, sonra da ki, dimdiyin təmizləsin.

***

Hekayət.

Nuşirəvan[1] Novruz və ya Mehrcan[2] bayramında məclis qurmuşdu. Gördü ki, orda iştirak edən qohumlarından biri qızıl badələrdən birini götürüb qoltuğuna soxdu. Özünü görməzliyə vurub heç nə demədi. Məclis qurtardıqda şərabdar[3] dedi: "Heç kəs çıxmasın, hamını axtaracağam, qızıl badələrdən biri çatmır".

Nuşirəvan dedi: "Qoy (getsinlər), götürən verməyəcək, görən də xəbərçilik etməyəcəkdir".

Bir neçə gün keçdikdən sonra həmin adam Nuşirəvanın yanına gəldi, əynində təzə paltar, ayağında yeni çəkmə var idi. Nuşirəvan paltarına işarə edərək dedi: "Bu ondandır?" Kişi çəkmə üzərindən ətəyini çəkib əlavə etdi: "Bu da ondandır".

Nuşirəvan güldü və bildi ki, badəni ehtiyac üzündən götürmüşdür. Sonra əmr etdi, ona yüz misqal[4] da qızıl verdilər.

Q i t ə

Əgər sənin günahından xəbər tutmuş adil şah,
Boynuna al, aman istə o adil padşahdan,
İnkar etmə, çünki inkar özü başqa günahdır,
Çox vaxt inkar ağır olur o əvvəlki günahdan!

---

[1] Nuşirəvan – Sasani sülaləsinin ən görkəmli hökmdarı olmuş, məzdəkilər hərəkatını yatırtdıqdan sonra "adil" ləqəbini qazanmış və bu ad ilə də tarixdə şöhrət tapmışdır. (531–579).

[2] Mehrcan – Qədim İran bayramlarından "Mehrəgan"ın ərəbləşmiş formasıdır. Novruz bayramından sonra ən böyük bayram hesab edilərdi. Bayram payızda keçirilərdi.

[3] Şərabdar – Qədim şah və hökmdarların eyş-işrət məclisində şərab işlərinə baxan adam, saqi, saqibaşı.

[4] Misqal – Ağırlıq çəki vahidi, təqribən 5 q.

***

Hekayət.

Məmunun[1] bir qulamı var idi. Taharət[2] suyunu hazırlamaq onun öhdəsində idi. Hər neçə gündən bir aftafa və ya sətil itirdi. Bir gün Məmun ona dedi: "Kaş burdan apardığın aftafa və sətili elə bizə sata idin". Qulam dedi: "Bundan sonra belə edərəm. İndi bu sətili alın". Dedi: "Neçəyə satırsan?" Dedi: "İki dinara".

Əmr etdi, ona iki dinar verdilər. Dedi: "Demək, bu sətilin canı sənin əlindən qurtardı". Dedi: "Bəli".

Q i t ə

Öz quluna əsirgəmə pulunu,
Tamah ölsün, gözü doysun hər zaman.
Mal verməklə qoru ondan canını,
Yoxsa sənə qəsd edər tamahından.

***

Hekayət.

Həccac[3] ovlaqda öz ordusundan ayrı düşdü, bir təpə üstünə gəlib gördü ki, bir ərəb öz çuxasını həşəratdan təmizləyir, dəvələri onun yan-yörəsində otlayır. Dəvələr Həccacı gördükdə hürkdülər. Ərəb başını qaldırıb qəzəblə dedi: "Bu biyabanda belə göz qamaşdıran paltarla gəzən kimsə, Allah ona lənət eləsin".

Həccac heç nə deməyib irəli gəldi və dedi: "Salam olsun sənə, ey ərəb".

Ərəb dedi: "Sənə nə salam olsun, nə savab".

Həccac su istədi. Ərəb dedi: "Aşağı en, zəhmət və əziyyətlə özün iç. Mən nə sənin dostun, nə də nökərinəm".

---

[1] Məmun – Əbülabbas Əbdüllah ibn Harunərrəşid. Əbbasi xəlifələrindən yeddincisidir. 786/87-ci illərdə anadan olmuş, 833-cü ildə vəfat etmişdir. Məmun dövründə bir sıra yunan kitabları ərəb dilinə tərcümə edilmişdir.

[2] Taharət – Bir şeyi pak etmək, su ilə özünü yumaq, murdar şeyləri suya çəkmək və s.

[3] Həccac – Həccac ibn Yusif əlsəqəfi. Əməvi xəlifələrinin ən məşhuru və ən qəddarı hesab edilir. 20 il hakimiyyət başında olmuş və 120 mindən çox adam edam etdirmişdir (661–715).

Həccac aşağı enib su içdi, sonra ərəbə dedi: “Ey ərəb, adamların ən yaxşısı kimdir?”

Ərəb dedi: “Səndən iraq, peyğəmbər Ə.S.”[1] Əbutalib oğlu Əli haqqında soruşdu. Dedi: “Əzəmət və alicənablığının tərifi ağıza sığışmır”. Sonra dedi: “Əbdülməlik ibn Mərvan[2] haqqında nə deyə bilərsən?”.

Ərəb cavab vermədi.

Həccac dedi: “Ey ərəb, mənə cavab ver”. Ərəb dedi: “Pis adamdır”. Soruşdu: “Nə üçün?” Dedi: “Elə bir iş tutub ki, məşriqdən məğribə qədər xalq cana doymuşdur”. Dedi: “O hansı işdir?” dedi: “Bu murdar və qəddar Həccacı müsəlmanlara əmir təyin etmişdir”.

Həccac heç nə demədi.

Birdən bir quş uçub civildədi. Ərəb üzünü Həccaca tutub soruşdu: “A kişi, sən kimsən?” Dedi: “Bu nə sorğu-sualdır?”. Ərəb dedi: “Bu quş mənə xəbər verdi ki, bura bir qoşun yaxınlaşır və onun əmiri sənsən”.

Bu sözləri deməkdə idi ki, Həccacın qoşunu gəlib çatdı. Ona baş əydilər. Ərəb bunu gördükdə rəngi qaçdı.

Həccac əmr etdi ərəbi də özləri ilə aparsınlar. Sabahısı gün səhər süfrə saldırdı. Camaat yığıldıqda, Həccac həmin ərəbi də çağırdı. Ərəb içəri girib dedi: “Ey əmir, sənə salam olsun”. Həccac dedi: “Mən sən deyən kimi deməyəcəyəm. Sənə də salam olsun”. Sonra dedi: “Yemək istəyirsənmi?” Dedi: “Taam sizinkidir, icazə versəniz yeyərəm”. Dedi: “İcazə verirəm”.

Ərəb əlini uzadıb yeməyə başlarkən dedi: “Bismillah, inşallah, taamdan sonra da nə olsa, xeyir olacaqdır”.

Həccac dedi: “Heç bilirsənmi ki, dünən mənim başıma nə gəlib?” Ərəb dedi: “Allah xatirinə, dünən sənin mənim aramda olan sirri bu gün açma”. Sonra Həccac dedi: “Onda gərək iki şeydən birini qəbul edəsən: ya mənim yanımda qal, səni yaxın adamlarımdan biri edim, ya səni Əbdülməlik ibn Mərvanın yanına göndərim, onun haqqında dediklərini də ona xəbər verim”. Ərəb dedi: “Başqa bir iş də eləmək olar”. Dedi “O hansıdır?” Dedi: “Odur ki, qoyasan, mən sağ-salamat öz vətənimə qayıdam, nə mən sənin üzünü görəm, nə sən mənim”.

Həccac güldü, dedi ona min dirhəm verib vətəninə yola salsınlar.

---

[1] Ə.S. – Əleyhissəlam.

[2] Əbdülməlik İbn Mərvan – Əməvilərin beşinci xəlifəsidir, 644/45–705/6-cı illərdə yaşamış, 21 ilə yaxın xəlifəlik etmiş, çox zalım olmuş, özündən daha qəddar olan Yusif oğlu Həccacın hakimiyyət başına keçməsinə imkan yaratmışdır.

Q i t ə

Arif gərək xoş bir söz söyləməklə
Zalimləri adil etsin hər zaman.
Səxavətli ehsandan əl çəkibsə,
Öz yoluna qaytarsın onu haman!

***

Hekayət.

Yəzdgörd[1] oğlu Bəhramı[2] öz hərəmxanasının namünasib bir yerində gördü, ona əmr etdi: "Xaricə çıx, hacibə[3] otuz şallaq vur, onu hərəmxanadan qov, yerinə filankəsi qoy". Bəhram, atası necə buyurmuşdusa, elə də etdi, lakin on üç yaşlı bir uşaq olduğundan, atasının nə üçün hacibə qəzəbi tutduğunu başa düşmədi.

Sonra bir gün Bəhram yenə də hərəmxanaya gəlib içəri girmək istərkən ikinci hacib əlini onun sinəsinə qoyub geri qaytardı. Dedi: "Bundan sonra səni buralarda görsəm, otuz şallaq əvvəlki hacibə xəyanət etdiyin üçün, otuz şallaq da mənə xəyanət etmək istədiyin üçün vuraram".

Bu xəbər Yəzdgördə çatdı. İkinci hacibi çağırıb tərifləndi, hədiyyə verib, xələt bağışladı və vəzifəsini artırdı.

Q i t ə

Şahı elə qorumaq lazımdır ki, heç zaman,
Astanadan keçməsin nə qul, nə də ki, azad.
Dövlət sirri kimidir hərəm, gərək oraya
Yel də əsə bilməsin, quş da salmasın qanad.

---

[1] Yəzdgörd – Sasanilər sülaləsinin son hökmdarı III Yəzdgörd nəzərdə tutulur. (632–653).

[2] Bəhram – Sasani şahlarından Bəhram-Gur nəzərdə tutulur. (421–438/9).

[3] Hacib – Saray xidmətçisi, hərəmxana baxıcısı, pərdədar.

***

Hekayət.

Hörmüz ibn Şapurun[1] vəziri ona məktub yazdı ki, dərya sövdəgərləri çoxlu cəvahir gətirmişlər, onları yüz min dinara şah üçün almışam. İndi eşidirəm ki, şah onları istəmir, əgər bu doğrudursa, filan tacir yüz min dinar qazancına istəyir. Hörmüz cavabında yazdı ki, yüz min və yüz-yüz min dinar olsa belə, yenə də lazım deyil. Biz sövdəgərliklə məşğul olsaq, bəs şahlığı kim edəcəkdir və ya tacirlər nə ilə məşğul olacaqdır?

Q i t ə

Sultanların şəninə belə işlər yaraşmaz,
Dövlət yığmaq qəsdilə tacir olsun hökmdar.
Şah edərsə alveri özünə sənət, peşə,
Bəs sövdəgər, tacirlər nə ilə məşğul olar?!

***

Hekayət.

Əmirəlmöminin Ömər[2]... öz xəlifəliyi dövründə Mədinəyi-Münəvvərə[3] şəhərində bir divara suvaq çəkirdi. Bir yəhudi yaxınlaşıb şikayət etdi ki, Bəsrə[4] hakimi məndən yüz min dinarlıq mal alıb, indi pulunu vermir, get-gələ salır. Ömər dedi: "Kağızın varmı?" Dedi: "Yox". Ömər yerdən bir saxsı götürüb üstünə yazdı: "Səndən şikayət edən çox, razı qalan isə heç yoxdur. Ya zülmdən əl çək, ya hakimiy-

[1] Şahpur, Şapur – Ümumiyyətlə, şah oğlu. İranda bir neçə şahın adı olmuşdur. Ən məşhuru Ərdəşir Babəkanın oğlu I Şapurdur.

[2] Ömər– Ömər ibn Xəttab, 634–644-cü illərdə xəlifəlik etmiş və xəlafəti xeyli genişləndirmişdir (580–644).

[3] Mədinəyi-Münəvvərə – Mədinə şəhərinin adıdır. Şərqdə, xüsusilə dini ədəbiyyatda, müqəddəs hesab edilən şəhərlərin adları bu "müqəddəsliyi" bildirmək üçün cüt deyilir. Məsələn, Məkkəyi-Müəzzəmə, Məşhədi-Müqəddəs, Beytəlmüqəddəs, Kərbəlayi-Müəlla və s.

[4] Bəsrə – İraqda şəhər adıdır.

yətdən!” Axırda yazdı ki, “Ömər Xəttab oğlu”. Nə möhür vurdu, nə imza atdı. Lakin onun zəhmi adamları elə basmışdı ki, o saxsını Bəsrə hakiminə verdikdə, atdan düşüb yeri öpdü, dərhal yəhudinin pulunu verdi. Yəhudi heç atdan da düşmədi.

Q i t ə

Olmasa şahlarda hörmət, siyasət,
Onun dövlətini yıxarlar asan.
Aslanın dırnağı, dişi olmazsa,
Çolaq bir tülkü də çəkinməz ondan.

***

Hekayət.

Həccaca qarşı üsyan etmiş adamlardan bir qadını tutub onun yanına gətirdilər. Həccac qadınla danışır, o isə gözünü yerə dikir, başını yuxarı qaldırmırdı, nə ona cavab verir, nə də üzünə baxırdı. Orda olanlardan biri dedi: “Axı, əmir sənինlə danışır, nə üçün dinmirsən, ona baxmırsan?!” Dedi: “Mən elə bir adamın üzünə baxmaqdan utanıram ki, Allah onun üzünə baxmır”.

Q i t ə

Zalimin üzünə baxma, çünki o,
Cəhənnəmdə açıq qapıya bənzər,
Cəhənnəm qapısı açılan gündən,
Allah da lütf ilə salmamış nəzər.

***

Hekayət.

İskəndərdən soruşdular: “Yaşının azlığına, təcrübənin yoxluğuna baxmayaraq, az müddətdə bu qədər dövləti necə ələ gətirdin, bu qədər məmləkəti necə fəth etdin?” Dedi: “Düşmənlərlə düşmənçiliyi azaltdım – ara qızışdırmaqdan əl çəkdilər; dostlarla dostluğu möhkəmlətdim – lazım olanda köməyə gəldilər...”

Hekayət.

Bir gün İskəndər öz sərkərdələri ilə bir yerdə oturmuşdu. Onlardan biri dedi: “Allah sənə çoxlu dövlət və qüdrət vermişdir, sən də çox arvad al ki, övladların çox olsun, səndən dünyada yadigar qalsın”.

İskəndər dedi: “Kişidən yadigar övlad deyil, xeyir, əməl və yaxşı ad qalar, bir də yaxşı deyil ki, dünya kişilərinə qələbə çalmış bir adama qadınlar qalib gəlsin”.

Q i t ə

İndi ki ata bilmir, onun əziz övladı
Ağıllı olacaqdır, yoxsa səfeh bir axmaq.
Ariflərin gözündə yaxşı ad üstün olar,
Övlad üçün arvada nəyə lazım qul olmaq?

DÖRDÜNCÜ RÖVZƏ (BAĞ)

MƏSLƏHƏT. Bağışlamağın hüsnü orasındadır ki, əvəzsiz olsun. Əvəz və qərəz xatirinə olsa, bəxşiş olmaz, əvəzi çıxmaq, qərəzi yumaq üçün olar.

Q i t ə

Bilirsənmi, səxavətli heç, kimdir?
Təmənnasız bəxşiş verən insanlar.
Əvəz, qərəz üçün verilsə bəxşiş,
Bəxşiş deyil, alver, ticarət olar!

Hekayət.

Əbdüllah ibn Cəfər[1]... haqqında deyirlər ki, bir dəfə səfərə çıxmışdı, bir xurmalıqda karvana keşik çəkən bir qara qula üç çörək gətirdiklərini gördü. Elə bu zaman hardansa bir it də gəlib çıxdı. Qulam çörəyin birini itə atdı, it yedi, birini də atdı, onu da yedi, üçüncüsünü də atdı, it onu da yedi. Əbdüllah soruşdu: "Hər gün sən nə yeyirsən?" Dedi: "Gördüyün qədər". Dedi: "Bəs nə üçün özün yemədin!" Dedi: "Bu it burada qəribdir, güman edirəm ki, uzun yoldan gəlibdir, ac olar. İstəmədim o ac qalsın". Dedi: "Bəs bu gün nə yeyəcəksən?" Dedi: "Oruc tutacağam".

Əbdüllah öz-özünə dedi: "Hamı əliaçıqlıqda məni danlayır, bu qulam məndən də əliaçıqdır".

O, qulamı, xurmalığı, orda nə var idisə hamısını aldı, qulamı azad edib, onların hamısını da ona bağışladı.

Q i t ə

Öz nəfsini öldürərək, tikəsin
İtə atan əliaçıq bir insan,
Qul olsa da, belə səxavətilə,
Layiqlidir, məncə, hər bir ağadan.

[1] Əbdüllah ibn Cəfər – Məhəmmədin əmisi oğlu, Əbdülmütəllibin nəvəsi. Onun əliaçıqlığı haqqında çoxlu rəvayət və hekayətlər vardır.

***

Hekayət.

Mədinədə bütün din elmlərinə vaqif bir alim var idi. Bir dəfə yolu qul satanlar məhəlləsinə düşdü, xanəndə bir qız gördü. Onun səsinin məlahətinə Nahid qibtə edir, üzünün təravətinə günəş həsrət çəkirdi. Səsinin məlahətindən, üzünün təravətindən, zülfünün şəvəsindən, özünün işvəsindən alimin ağlı itdi: nəğməsinin ahəngdarlığından, rəqsinin füsunkarlığından ixtiyari əldən getdi, dar düşüncə məcrasından geniş məhəbbət səhrasına çıxdı.

Q i t ə

Gözəl sima, yaxşı səs ayrı-ayrı olduqda,
Valeh edir adamı, heyran qoyur insanı.
Hər ikisi birləşib vəhdət təşkil etdikdə,
Ona qarşı durmağa insanda qüdrət hanı?!

Müxtəsəri, o alimlik simasını itirdi, rüsvayçılıq libasına büründü. Ah-zar edir, Mədinə bazarını gəzirdi.

Dostları onu danlamağa başladılar, faydası olmadı. Öz-özu ilə danışır və bu şeri oxuyurdu:

Rübai

Onuntək naz ilə kim süzə bilər?
Aşiqin ürəyin kim üzə bilər?
Hər gələn deyir ki, əl götür ondan,
Onun fərağına kim dözə bilər?

Bu əhvalat Əbdüllah ibn Cəfərə çatdı... O, kənizin sahibini çağırıb, qırx min dirhəmə qızı aldı və əmr etdi, alimin huşunu başından çıxaran təranəni həmin səslə oxusun. Onu kimdən öyrəndiyini soruşdu. Qız dedi, filan müğənnidən. Əbdüllah onu tapdırdı, sonra alimi çağırtdırıb dedi: "Divanəsi olduğun o təranəni qızın müəlliməsindən eşitmək istəyirsənmi?" Dedi: "Bəli". Əbdullah müğənniyə dedi, həmin havanı oxusun. Oxuması ilə alimin huşunu itirməsi bir oldu, elə güman etdilər ki, öldü. Əbdullah ibn Cəfər dedi: "Gördünüzmü, bu kişinin ölümünə

səbəb olmaqla, nə günaha batdıq". Sonra əmr etdi, onun üzünə su vurdular. Özünə gəldi. Ona dedi: "Biz sənin o qızı bu qədər sevdiyini bilmirdik". Dedi: "Vallah, gizlində olanı aşkara çıxanından daha artıqdır". Əbdüllah soruşdu: "Həmin qızın bu təranəni oxumasını istəyirsənmi?" Dedi: "Onu aşiq olmadığım bir adam oxuduqda nə hala düşdüyümü gördünüz, əgər onu divanəsi olduğum öz məşuqəmin ağzından eşitsəm, gör nə hala düşərəm". Soruşdu: "Onu görsən tanıyarsanmı?" Ağlaya-ağlaya dedi:

B e y t

Deyirsən: "Tanıyarsan, göstərsəm o cananı?"
Vallah, ona tay yoxdur, gəzsən bütün dünyanı.

Əmr etdi kənizi gətirib ona verdilər. Dedi: "Bu sənindir, and olsun Allaha, heç ona gözümün ucu ilə də baxmamışam". Alim Əbdüllahın əlindən öpüb ayağına düşdü və dedi:

Rubai

Kərəmindən ağlım gəldi özümə,
Hicran bitdi, tale güldü üzümə.
Axıtdığım qanlı yaşlar qurtardı,
Rahat oldum, yuxu gəldi gözümə.

Sonra kənizin əlindən tutub evlərinə yollandı.

Əbdüllah bir qulama əmr etdi: "Qırx min dinar al, apar onlara ver ki, məişətin ağırlığından qəlblərinə qubar çökməsin, qoy rahat yaşayıb bir-biri ilə kef çəksinlər".

***

Hekayət.

Müaviyyənin xəlifəliyi vaxtında hər il dövlət xəzinəsindən Əbdüllah ibn Cəfərə min dirhəm pul verirdilər. Xəlifəlik Yəzidə çatdıqda, beş min dirhəmə qaldırdı. Onu məzəmmət etməyə başladılar ki, bu qədər pul bütün müsəlmanların maaşıdır, nə üçün bir adama verirsən?

Dedi: “Mən bunu bütün Mədinə möhtaclarına verirəm və bilirəm ki, o, pulu ehtiyacı olan heç kəsdən əsirgəməz”.

Əbdüllahdan gizlin bir adam da onunla Mədinəyə göndərdilər ki, onun necə dolanacağına göz yetirsin. Bir ay içərisində Əbdüllah bütün pulları payladı, deyildiyinə görə, bir az da hələ borca düşdü.

Q i t ə

Dünya keçsə bir kərim padişahın əlinə,
Nə bir dünya, yüz dünya olsa da azdır yenə.
Bundan dərvişin qəlbi düşməməli təşvişə,
Şahın səxavətidir dərviş üçün xəzinə.

Hekayət.

İbrahim ibn Süleyman[1] ibn Əbdülməlik ibn Mərzan nağıl edir ki, Xəlafət bəni Ümiyyələrdən[2] bəni Əbbasilərə[3] keçdikdə Əbbasilər bəni Ümiyyələri tutur və öldürürdülər. Mən Kufənin[4] kənarında, təpə üstündə tikilmiş bir evin damında oturmuşdum. Birdən Kufədən qara ələmlərin zahir olduğunu gördüm, elə güman etdim ki, məni tutmağa gəlirlər. Damdan düşüb qiyafəmi dəyişdim və Kufəyə gəldim, heç kəsi tanımırdım ki, onun evində gizlənə bilim. Böyük bir evin qapısına yetişdim, bir xoşsifət adamın at üstə olduğunu, qulam və xidmətçilərin onun ətrafında durduğunu gördüm. Salam verdim. Soruşdu: “Kimsən, nə istəyirsən?” Dedim: “Qaçaq bir adamam, düşmənlərdən qorxuram, sənin evinə pənah gətirmişəm”.

Məni öz mənzilinə apardı, hərəmxanasının yaxınlığında bir otaq ayırdı. Bir neçə gün orada qaldım. Məni yaxşı yedirdir, içirdir və geyindirirdi, lakin heç bir şey soruşmurdu. Hər gün bir dəfə ata minib gedir, sonra tez geri qayıdırdı. Bir dəfə ondan soruşdum: “Hər gün görürəm, ata minib gedir və tez də geri dönürsən, deyə bilərsənmi hara gedirsən?” Dedi: “İbrahim ibn Süleyman mənim atamı öldürüb,

[1] İbrahim ibn Süleyman – Əməvilərin 7-ci xəlifəsinin oğlu.

[2] Bəni Üməyyə – Əməvi sülaləsi bu ad altında məşhurdur (661–750-ci illərdə xəlafətdə olmuşdur).

[3] Bəni Əbbasilər – Əbbas övladları, onların nəsilləri bu ad altında məşhurdur. (750–1258-ci illərdə xəlafətdə olmuşlar).

[4] Kufə – İraqda, Fərat sahilində 636-cı ildə salınmış bir şəhərin adıdır.

eşitmişəm bu şəhərdə gizlənir. Hər gün gedirəm ki, bəlkə onu tapıb, atamın qanını alam".

Bunu eşitdikdə taleyimin küskünlüyünə təəccüb etdim, qəza məni gətirib ölümümü arzulayan bir adamın evinə çıxarmışdı. Canım boğazıma yığılmışdı, atasının, babasının adını soruşdum, gördüm ki, doğru deyir.

Dedim: "Ey cövmərd, mənim boynumda sənin böyük haqqın var, mənim də borcumdur ki, sənin düşməninin yerini deyib, səni onu axtarmaq əzabından xilas edim. İbrahim ibn Süleyman mənəm, atanın qisasını məndən al".

İnanmadı. Dedi: "Həyatından bezibsən, istəyirsən bu yol ilə əziyyətdən canını qurtarasan".

Dedim: "Vallah, onu mən öldürmüşəm".

Əlamətlərini dedim, gördü düz danışıram. Gözü qızardı, rəngi qaraldı, bir anlığa başını aşağı saldı. Sonra dedi: "Tezliklə sən də atamın yanına gedəcəksən, qisasını o özü səndən alar, mən isə sənə aman vermişəm və onu pozmaq istəmirəm; lakin özümə də çox arxayın deyiləm, ola bilər sənə ziyanım dəysin, ona görə, tez ol, burdan çıx". Sonra min dinar mənə pul verdi, alıb ordan çıxdım.

Məsnəvi

Ey cavanlar, cavanmərdlik öyrənin,
Mərdə baxın, ondan mərdlik öyrənin.
Qəlbinizdə saxlamayın ədavət,
Dilinizə gətirməyin şəmadət.
Yamanlığa yaxşılıqla ver cavab,
Pislik edən qoy özü çəksin əzab.
Yaxşılıqda olsan əgər peşəkar,
Qarşına həmişə yaxşılıq çıxar.

***

Hekayət.

Bir gecə Misrin Cümə məscidinə od düşüb onu yandırdı. Müsəlmanlar güman etdilər ki, bu, xaçpərəstlərin işidir, onların evlərinə od vurub yandırdılar. Misir padşahı evlərə od vuranları tutdurub, bir yerə

yığdı. Sonra əmr etdi, onların arasında püşk atsınlar, kimin bəxtinə nə çıxsa, o cəzanı versinlər. Kağızların bəzilərində "ölüm", bəzilərində "əl kəsmə", bəzilərində "qamçı" yazılmışdı. Birinin bəxtinə "ölüm" çıxmışdı. Dedi: "Mən ölümdən qorxmuram, lakin anam vardır və onun məndən başqa kəsi yoxdur". Onun yanındakının bəxtinə "qamçı" çıxmışdı, o, öz kağızını həmin adama verib dedi: "Mənim anam yoxdur". Bunu onun əvəzinə öldürdülər, ona bunun əvəzinə qamçı vurdular.

Q i t ə

Qızıl-gümüş verməklə cavanmərdlik asandır,
Əsl mərdlik odur ki, olsun can hesabına.
Bilsə ki, dostu onun canına möhtac olmuş,
Canını qurban versin, baxmasın əzabına.

***

Hekayət.

Hatəmdən[1] soruşdular: "Özündən səxavətli adam görmüsənmi?" Dedi: "Bəli. Bir gün bir yetim qulamın evinə düşmüşdüm. Onun on baş qoyunu var idi. Dərhal birini kəsib bişirdi və mənim qabağıma qoydu. Bir parçası çox xoşuma gəldi, yedim, dedim: "Nə ləzzətlidir". Qulam xaricə çıxıb qoyunların hamısını kəsir və həmin yerini bişirib mənim qabağıma gətirir, mənim isə bundan xəbərim olmur. Ata minib getməyə hazırlaşarkən evin kənarında çoxlu qan axıdıldığını gördüm, soruşdum: "Bu nədir?" Dedilər: "O, bütün qoyunlarını kəsmişdir". Onu çox danladım. Dedim: "Nə üçün belə etdin?" Dedi: "Sənin xoşuna gələn məndə ola, necə ola bilər ki, onu sənə verməkdə xəsislik edəm? Bu, ərəblər arasında çox pis xasiyyət hesab edilər".

Sonra Hatəmdən soruşdular ki, bəs sən onun muqabilində nə verdin? Dedi: "Üç yüz qırmızı tük dəvə, beş yüz qoyun". Dedilər: "Onda sən daha səxavətlisən". Dedi: "Yox, onun nəyi vardısa, hamısını vermişdi, mənim verdiyim isə varımın çox az bir hissəsi idi".

[1] Hatəm – Hatəmi Tai. Tai qəbiləsindən olan bir ərəbin adıdır. Şərq ədəbiyyatında ən səxavətli bir surət kimi ümumiləşdirilmişdir. Tarixi şəxsiyyət olduğu mübahisəlidir.

Q i t ə

Yarım tikə çörəyi olan yoxsul bir gəda,
Hamısını verirsə, saxlamırsa özünə.
Əlbəttə ki, üstündür səxavətdə o şahdan
Ki, bütün sərvətindən verir yarım xəzinə.

Hekayə.

Bir ərəb səxavətli bir əmirə qəsidə yazıb ona oxudu və axırda dedi: "O bəxşiş və xələt verməyə adət etmiş əlini mənə tərəf uzat..." Əmir əlini uzatdı, ərəb onun əlindən öpdükdə, əmir zarafatyana dedi: "Dodaqlarının tükü əlimi daladı". Ərəb dedi: "Qızmış şir pəncəsinə korşamış kirpi iynələri nə edə bilər?!" Əmir dedi: "Bu dediyin söz o oxuduğun qəsidədən daha çox xoşuma gəldi".

Əmr etdi, qəsidəyə min dirhəm, o sözə isə üç min dirhəm verdilər.

Q i t ə

Birisini mədh edib, qaldırsan da göylərə,
Yenə alçaq görünər, olmasa söz anlayan.
Söz anlayan odur ki, fərq qoymağı bacara,
Pisi yaxşıdan seçə, yaxşını da əladan.

BEŞİNCİ RÖVZƏ (BAĞ)

Hekayət.

İki ağıllı adam arasında eşq haqqında söhbət düşdü. Biri dedi: "Eşqin xasiyyəti həmişə bəla və əziyyətdir, aşiq həmişə iztirab və məşəqqət içərisində olar". O biri dedi: "Sus, görünür, sən dalaşmaqdan sonrakı barışığın ləzzətini, fəraqdan sonrakı vüsalın şərbətini dadmamısan. Heç kəsin qəlbi aşiqlərin qəlbi qədər təmiz, heç kəsin ürəyi sevməyi bacarmayanların ürəyi qədər kəsif ola bilməz".

Q i t ə

Qəlbin gözəlliyidir aşiqliyin səbəbi.
Gözəlliyə meyl edər qəlbi gözəl olanlar.
Biri höccət eləyib, məndən dəlil istəsə,
Deyərəm məlum şeydir: "Hər kəs öz tayın tapar!"

Hekayət.

Ağıllı, kamallı, Əştər ləqəbli bir cavan qəbilə başçılarından olan Ceyda adlı gözəl bir qıza aşiq olmuşdu. Onlar bir-birini görüb sevmiş, aralarında olan dostluq telləri möhkəmlənmişdi. Onlar bu sirri uzaq və yaxın adamlardan gizlədir, mümkün olduqca üstüörtülü saxlamağa çalışırdılar. Lakin necə ki, demişlər:

B e y t

Eşq elə bir sirdir ki, gətirmək olmur dilə,
Lakin örtmək də olmur onu min pərdə ilə.

Nəhayət, onların sirlərinin üstü açıldı, gizlin işləri aşkara çıxdı. İki tayfa arasında dava düşdu, adam öldürüldü, qan axıdıldı, Ceydanın tayfası öz doğma vətənini buraxıb başqa yerə köçməyə məcbur oldu.

Fəraq günləri uzandıqca, hicran odu yanır, vüsal arzusu alovlanırdı. Bir gün Əştər öz dostlarından birinə dedi: "Mənə yoldaşlıq edib, başqa yerə gedə bilərsənmi, Ceyda ilə görüşmək üçün mənə kömək edə bilərsənmi? Artıq dözə bilmirəm. Gündüzüm gecəyə, gecələrim

gündüzə çevrilmişdir”. Dedi: “Baş üstə, göz üstə. Mən hazıram. Nə desən edərəm, hara desən gedərəm”.

Hər ikisi qalxdılar, səfərə layiq yaraqlandılar, iki gün, iki gecə yol getdilər, gəlib həmin diyara çatdılar. Həmin tayfaya yaxın bir dağın ətəyində dayandılar, orada yurd saldılar.

Əştər dostuna dedi: “Qalx, bu itmiş dəvənin cilovundan tutub, soraqlaşa-soraqlaşa həmin tayfanı tap, mənim adımı onun quzularına baxan, arzularına məhrəm olan, sirlərini saxlayan filan kənizdən başqa heç kəsə demə. Məndən ona salam yetir, Ceydanı soruş və bizim harada düşdüyümüzü ona nişan ver”.

Mən qalxıb həmin tayfanın olduğu yerə getdim. Mənə rast gələn ilk adam həmin kəniz oldu. Əştərin salamını çatdırdım. Ceydanın kefini soruşdum. Dedi ki, əri onu bərk qısqanır və gözdən qoymur. Lakin siz gecə namazı vaxtı filan təpənin dalındakı filan ağacın altında olun.

Mən tez qayıdıb həmin xəbəri Əştərə çatdırdım. Hər ikimiz miniklərimizi cilovlayıb, ehmalca yola düşdük, vaxtında gəlib vədə verilmiş yerə çatdıq.

Rübai

Həyəcan içində çəkir intizar,
Göz yaşı axıdır, edirdik ah-zar.
Qəflətən eşitdik həmayil səsi,
Bildirirdi ki: “Yaxındadır yar!”

Əştər yerindən sıçrayıb onu qarşıladı, salam verib əlindən öpdü. Mən üzümü çevirib yan tərəfə getmək istədim. Çağırdılar ki, geri qayıt, nalayiq bir iş görülməyəcək, namünasib bir söz deyilməyəcəkdir. Mən geri qayıtdım. İkisi bir yerdə oturub keçmişdən, gələcəkdən danışdılar, axırda Əştər dedi: “Arzu gözüm intizardadır ki, bu gecə mənimlə bir yerdə qalasan, fəraq dırnağı ilə ümid üzümü cırmayasan”.

Ceyda dedi: “And olsun yaradana ki, bu mümkün deyildir, mənim üçün bundan daha çətin bir iş ola bilməz. İstəyirsən ki, yenə də əvvəlki qanlı hadisələr baş versin, ruzigar üz döndərsin, yenidən qəm və kədər qapıları mənim üzümə açılsın?”

Əştər dedi: “And olsun o Allaha ki, bu sözlərə baxmayacağam və səni heç yerə buraxmayacağam”.

Misra

Nə deyirlər desinlər, nə edirlər etsinlər.

Ceyda dedi: “Sənin bu dostunda o təpər varmı mənim dediklərimi yerinə yetirə?!”

Qalxıb dedim: “Hər nə desən, onu edərəm, min əziyyətə dözərəm, canım da lazım olsa, onu verərəm”.

Paltarlarını çıxarıb dedi: “Bunları gey və öz paltarlarını mənə ver”. Sonra dedi: “Qalx, get mənim çadırıma, pərdənin dalında otur. Ərim gəlib sənə bir piyalə süd gətirəcək və deyəcək ki, bu sənindir, al. Sən tələsmə, almağı yubandır. O, südü sənin əlinə verəcək və ya yerə qoyub gedəcək, bir də sabah səhərə qədər gəlməyəcəkdir”.

Necə demişdi, elə də etdim. Onun əri süd gətirdikdə, mən naz eləməyə başlayıb vaxtı uzatdım, südü yerə qoymaq istəyərkən, mən də onun əlindən almaq istədim, əlim piyaləyə toxundu, piyalə çevrildi, süd yerə dağıldı. Qəzəblənib dedi: “Bu mənimlə qoz-qoz oynayır”.

Əlini uzadıb o biri evdən maral dərisindən hörülmüş, başdan ayağa qədər bərk bürülmüş, gövdəsi incə, başı yumru qamçını götürdü.

Q i t ə

Yoğunluqda əfi ilan kimidir,
Uzunluqda əjdahaya bənzəyir.
Çılpaq bədən üzərini o zalim,
İlan kimi zolaqlarla bəzəyir.

Mənim dalımı təbil kimi çılpaq edib, müharibə günündə təbbal döyən kimi, arasıkəsilmədən döyəcləməyə başladı.

Qorxumdan cınqırımı çıxara bilmirdim ki, səsini tanıyar, ağrıdan dayana bilmirdim, sanki dərimi soyurdular. Belə qərara gəldim yerimdən qalxam, xəncərlə qanını axıdam. Sonra düşündüm ki, heç bir əlin yatıra bilməyəcəyi fitnə qalxa bilər. O qədər dözdüm ki, anası, bacısı gəlib məni onun əlindən aldılar və onu itələyib bayıra saldılar. Bir saat keçməmişdi ki, Ceydanın anası gəldi, elə bildi mən Ceydayam. Mən hıçqırıqla ağlayıb dalımı ona çevirdim və paltarımı başıma çəkdim. Dedi: “Qızım, Allahdan qorx, ərinin xoşuna gəlməyən işlər tutma,

ərinin bir tükü min Əştərə dəyər. Əştər kimdir ki, sən onun üstündə əziyyət çəkəsən və zəhər kimi şərbət içəsən". Ayağa qalxıb dedi: "Bacını göndərəcəyəm bu gecə sənin yanında yatsın, hayına qalsın". Sonra çıxıb getdi.

Bir saat keçməmişdi ki, Ceydanın bacısı gəldi, ağlamağa başlayıb, məni döyənə pis-pis söyüşlər yağdırdı. Mən dinmədim, uzanıb yanımda yatdı, əlimi uzadıb ağzını bərk-bərk tutdum və dedim: "Sənin bacın indi Əştərin yanındadır, mən isə onun əvəzinə bu əziyyətə düçar olmuşam. Səsini çıxarma, bu sirri heç kəsə açma, yoxsa siz də rüsvay olarsınız, mən də".

Əvvəl bərk qorxmuşdu, sonra yavaş-yavaş özünə gəldi, axırda mehribanlaşdı. Səhərə qədər lətifə danışır və hey gülürdü. Səhər olcaq Ceyda gəldi. Bizi görcək qorxub soruşdu: "Vay, bu sənin yanındakı kimdir?" Dedim: "Qorxma, sənin bacındır. Özü də nə yaxşı bacın vardır". Soruşdu: "O burda nə qayırır?" Dedim: "Özündən soruşarsan, vaxtımız yoxdur".

Paltarımı alıb özümü Əştərə çatdırdım. Hər ikimiz ata minib yola düzəldik. Mən yolda əhvalatı ona danışdım, dalımı açıb qamçıların yerini göstərdikdə, çox üzr istədi və dedi: "Atalar deyiblər ki, dostu bərkdə yoxlarlar, xoş gündə dostluğa nə var?!".

Q i t ə

Bir gün sənə, ey könül, qəm üz verərsə əgər,
Qəm çəkən dostun olsa, qəm eyləməz sənə kar.
Dostu ağ gündə deyil, sınayarlar bərk gündə,
Səadətli günlərdə dostlar tapmağa nə var!?

ALTINCI RÖVZƏ (BAĞ)

Bir gün Əsməi[1] Harunun[2] məclisində idi. Paludədən söz düşdü. Əsməi dedi: "Hələ də bir çox ərəb var ki, paludənin nə olduğunu bilmir". Harun dedi: "Gərək bunu sübut edəsən, edə bilməsən, demək, yalandır".

Bir dəfə Harun ova çıxmışdı. Əsməi də onun yanında idi. Gördülər ki, bir bədəvi ərəb gəlir. Harun əmr etdi onu çağırsınlar. Əsməi bədəvinin yanına gəlib dedi ki, əmirəlmöminin səni istəyir, gəl gedək. Ərəb dedi: "Məgər möminlərin də əmiri olur?!"

Əsməi dedi: "Bəli". Ərəb dedi: "Mən belə adam tanımıram". Əsməi ərəbi söydü və dedi: "Vələdüzzina". Ərəb qəzəbləndi, Əsməinin yaxasından tutub o tərəf-bu tərəfə sürüməyə başladı və söydü.

Harunu gülmək tutdu. Sonra o, Harunun yanına gəlib dedi: "Ya əmirəlmöminin, bu kaman daşıyan kişi məni söymüşdür, mənim qisasımı ondan al". Harun dedi: "İki dirhəm sən ona ver". Ərəb dedi: "Bu nə sözdür, o, məni söyüb, indi mən ona hələ iki dirhəm də verməliyəm?" Harun dedi: "Bəli, mənim hökmüm belədir". O, üzünü Əsməiyə çevirib dedi: "Ey ikiqat vələdüzzina, əmirəlmöminin hökmü ilə mənə dörd dirhəm ver".

Harun az qalırdı gülməkdən qəşş eləsin. Sonra əmr etdi, onu da özləri ilə apardılar. Saraya çatıb cah-calalı, dövlət və malı gördükdə, onun gözündə Harun daha da böyüdü, yaxınlaşıb dedi: "Əssələməleyküm, ya Allah". Harun dedi: "Sus, nə deyirsən?!" Dedi: "Əssələməleyküm, ya peyğəmbər". Dedilər, ay həpənd, nə danışırsan, bu əmirəlmöminindir. Dedi: "Əssələməleyküm, ya əmirəlmöminin". Harun dedi. "Əleykəssəlam".

Onu süfrə başında oturtdular, qabağına müxtəlif yeməklər qoydular, axırda paludə gətirdilər. Əsməi dedi: "Ümid edirəm, o, paludənin nə olduğunu bilməyəcək". Harun dedi: "Belə olsa, sənə bir bədrə[3] verərəm".

Ərəb əlini uzadıb paludəni elə yeməyə başladı ki, aydın oldu o, paludənin nə olduğunu bilmir. Harun ondan soruşdu: "Yediyin nədir?" Ərəb dedi: "And olsun səni xəlafətə çatdıran o Allaha ki, bilmirəm nədir... Lakin güman edirəm ki, bu, nar olmalıdır".

---

[1] Əsməi – Ərəb filoloqu (740–825/831-ci illərdə yaşamışdır).

[2] Harun – Harunərrəşid nəzərdə tutulur. 786–809-cu illərdə xəlifə olmuşdur.

[3] Bədrə – Qızıl pul kisəsi, içərisində on min dirhəm olan pul kisəsi.

Əsməi dedi: “Ya əmirəlmöminin, indi mənə iki bədrə verməyin vacib oldu, bu nəinki paludənin, heç narın da nə olduğunu bilmir”. Harun əmr etdi, Əsməiyə iki bədrə, ərəbə isə o qədər verdilər ki, dövlətdən qəni oldu.

Q i t ə

Kimdir kəramətli, bilmək istəsən,
O kəsdir ki, bilməz sabahkı gün var.
Dəyərli-dəyərsiz nə keçsə ələ,
Tapıb bir bəhanə, onu bağışlar.

Hekayət.

Xəlifə bir gün qəlyanaltı edirdi, qabağında qızardılmış quzu var idi. Səhradan bir ərəb gəldi, xəlifə onu yaxına çağırdı.

Ərəb oturcaq iştah ilə yeməyə girişdi. Xəlifə dedi: “Nə olub ki, quzunu belə parçalayıb, marça-marçla yeyirsən? Sanki onun atası sənə kəllə vurubdur”. Ərəb dedi: “Yox, bu belə deyildir, amma sən ona elə mərhəmət gözü ilə baxır, mənim parçalayıb yeməyimdən elə darıxırsan ki, deyəsən, onun anası sənə süd veribdir”.

Q i t ə

Xacə öz malını elə sevir ki,
Hər şeyi çox əziz tutur canından,
Qoyun-quzusuna bəla üz versə,
Ana, balasını eyləyər qurban.

LƏTİFƏ. Bəhlulə dedilər: Bəsrə divanələrini say! Dedi: “Onları saymaqla qurtaran deyil, desəniz ağıllıları say, sayaram, çünki onlar o qədər də çox deyil”.

Q i t ə

Ağıllı bildiyin hər bir adamda
Cünun mayasından kiçik bir pay var
Dünyada baş verən bəladan qaçıb,
Cünun kölgəsində o tutar qərar.

***

LƏTİFƏ. Bir alim sirlərinə vaqif olan bir dostuna məktub yazırdı. Bir adam onun yanında oturmuşdu, gözucu onun məktubunu oxuyurdu. Bu, həmin alimə toxundu, o yazdı: "Əgər mənim yanımda nakişi, oğrutəbiət bir adam oturub, oğrun-oğrun məktubumu oxumasaydı, bütün sirlərimi sənə yazardım". O adam dedi: "Ey ağa, vallah mən sənin məktubunu oxumuram, bu nə sözdür yazırsan?" Dedi: "Ay axmaq, oxumursansa, bəs hardan bildin mən nə yazıram?!"

Q i t ə

Kim bilərsə oğurluqla bir kişinin sirrini,
Layiq olar çağırasan onu oğru, cibkəsən.
Hələ bir də bu iş üçün muzd istəsə, kafidir
Tüpürəsən surətinə, nakişi ad verəsən.

***

Hekayət.

Bir sərxoş evindən çıxıb küçənin ortasına yıxıldı, qusub ağız-burnunu buladı. Bir it gəlib onu yalamağa başladı. Elə təsəvvür etdi ki, adamdır, onun üz-gözünü təmizləyir. Təşəkkür edib dedi: "Allah sənin balalarını sənə çox görməsin". İt bir ayağını qaldırıb onun üzünə fəvvarə vurdu. Sərxoş dedi: "Afərin sənə, ağa, üzümü yumaq üçün isti su da gətirdin".

Q i t ə

Sərxoş rəva görərsə, çirkin qusuntu ilə
Öz bığını bulayıb yaxasını pak etsin.
Layiqdir o sərxoşun çirkab olmuş bığını,
Bir it isti sidiklə yuyub təmiz pak etsin.

***

LƏTİFƏ. Bir culfa bir alimin evinə əmanət qoymuşdu. Bir neçə gündən sonra ona ehtiyacı oldu. Alimin evinə getdi, gördü, döşəkcə üstə əyləşib, qarşısında cərgə ilə oturan uşaqlara dərs verməklə məşğuldur. Dedi: "Ey ustad, o əmanətə ehtiyacım var". Dedi: "Bir saat

otur, dərs qurtarsın, verərəm”. Bir saat oturdu, dərs uzandı, o isə tələsirdi. Alimin adəti bu idi ki, dərs deyərkən, başını yırğalayardı. Culfa elə bildi ki, dərs demək elə baş yırğalamaqdan ibarətdir. Dedi: “Ey ustad, mən sənin əvəzinə başımı yırğalayaram, sən get, mənim əmanətimi gətir ki, tələsirəm”. Alim bunu eşitdikdə gülüb dedi:

Q i t ə

Məclisdə dəm vurar şəhər fəqihi[1],
Bilirəm hər elmi tamam, mükəmməl.
Lakin ondan hər nə sual etdikdə
Ya başın bulayar, ya oynadar əl.

***

LƏTİFƏ. Bir kor qaranlıq bir gecədə, əlində çıraq, çiynində sənək, yol gedirdi. Bir dələduz ona yanaşıb dedi: “Ay axmaq, gecə və gündüz sənin qarşında eyni, qaranlıq və işıq sənin gözündə bərabərdir, bu çırağın nə faydası var?” Kor gülüb dedi: “Çıraq mənim üçün deyil, sənin kimi kor dələduzlar üçündür ki, mənə toxunub bardağımı sındırmasınlar”.

Q i t ə

Nadanın halını tez bilər nadan,
Bilikli olsa da İbn-Sinadan,
Kora tənə vurma “gözlüyəm” deyə,
Kor da öz işində gözlüdür inan.

***

LƏTİFƏ. Vəhm ibn Fazil nəql edir ki, bir dostumla yolda durub söhbət edirdim. Bir arvad gəlib qabağımda dayandı və diqqətlə üzümə baxmağa başladı. Onun bu hərəkəti çox uzun çəkdiyi üçün qulamı göndərdim, səbəbini öyrənsin. Qulam geri qayıdıb dedi: “Deyir: mənim gözüm böyük bir günah etmişdi, ona cəza vermək istəyirdim, nə qədər düşündüm, bu çirkin sifətə baxmaqdan daha ağır cəza tapa bilmədim”.

[1] Fəqih – Şəriət qanunlarını bilən, fiqh elmindən başı çıxan ruhani, din hüquqşünası.

Q i t ə

Yuyulmadı günahdan gözlərimin naməsi,
Onu iki yüz dəfə göz yaşımla yudumsa.
Qurtarmaqçın sabah mən qiyamətin odundan,
Bu gün baxıb o çirkin üzünə, verdim cəza.

***

LƏTİFƏ. Cahiz[1] deyir: "Məni heç belə utandıran olmamışdı. Bir gün bir arvad məni tutub heykəltəraş dükanına apardı. Təəccüb etdim. Səbəbini heykəltəraşdan soruşdum. Dedi: bu arvad mənə bir şeytan surəti yaratmağı sifariş etdi. Mən dedim, şeytan görməmişəm, necə düzəldim? Tutub səni gətirdi, dedi: "Bax, belə!"

Q i t ə

Qəribə yanağın, əcəb üzün var.
Bu günə salammaz kimsə özünü.
Şeytan surətini çəkmək istəyən,
Gəlib görməlidir sənin üzünü.

***

LƏTİFƏ. Birisi bir çirkin adamın dua etdiyini, günahlarının bağışlanıb, cəhənnəm odundan nicat istədiyini gördü, dedi: "Dostum, bu çirkin üzü də sən cəhənnəmdən əsirgəyirsən və onun odda yanmasına heyifsilənirsən?!"

Q i t ə

Sən üzünü görməyirsən, bu üzdən
Sənə deyil, qoy baxana vay olsun.
Bu üz ilə səni odda yaxsalar,
Sənə deyil, qoy yaxana vay olsun.

[1] Cahiz – Əlcahiz. Əsl adı Əmir ibn Bəhrdir. Məşhur ərəb alim və yazıçısı. Bir sıra qiymətli əsərlərin müəllifidir (773–869).

***

LƏTİFƏ. Çirkin üzlü birisi bir həkimin yanına gedib dedi ki, ən çirkin yerimə bir çiban çıxıbdır. Həkim dərhal diqqətlə onun üzünə baxıb dedi: “Yalan danışma, mən sənin üzünə baxıram, orda heç bir çiban görmürəm”.

Q i t ə

Şəriətdə rəva deyil çirkin yerlər görünə.
Ona görə örtülüdür beldən aşağı yerlər.
Axı sənin hər yerindən çox çirkindir sifətin,
Başqa yerdən çox üzünü örtsən, məqbul görünər.

***

LƏTİFƏ. Böyük burunlu bir kişi bir arvadı istəyir, özünü ona belə tərifləyirdi: “Mən az yatan, ağırbatman, tədbirli, arvad şıltağına səbirli bir adamam”. Arvad dedi: “Səbirli olmasaydın, qırx il o boyda burunu gəzdirə bilməzdin”.

Q i t ə

Nə vaxtadək hara gəldi soxacaqsan burnunu?
Buna-ona mane olan burnun yaman böyükdür.
Hər an sənin əyilməyin taət üçün deyildir.
Yer üstünə səni əyən daşıdığın bu yükdür.

***

LƏTİFƏ. Zarafatcıl bir adam üz-gözünü tük basmış birisinə dedi: “Tez ol, nə qədər ki üzün başına çevrilməyib, tüklərini qırxdır”.

Q i t ə

Xacə hər gün bir tük çəksə üzündən,
Tüklərinin sayı olmaz müəyyən.
Çünki bir az keçən kimi haman tük
Bitəcəkdir öz yerində yenidən.

***

LƏTİFƏ. Xəlifə bədəvi bir ərəblə nahar edirdi. Birdən ərəbin tikəsində bir tük gördü, dedi: "Ya ərəb, o tükü tikəndən götür". Ərəb dedi: "Tikədə tükü seçə biləcək qədər diqqətlə adamın ağzına baxan bir şəxsin süfrəsində çörək yemək haramdır". Sonra and içdi ki, bir də onun çörəyini yeməsin.

Q i t ə

Süfrə açan zaman evin sahibi,
Qonağı güdməsi yaxşı deyildir.
Yediyi şeylərə gözaltı baxıb,
Saymasın qəlbində tikəni bir-bir.

***

LƏTİFƏ. Bir dəstə adam oturub insanların kamilliyindən və naqisliyindən danışırdı. Onlardan biri dedi: "Kimin iki görən gözü yoxdursa, yarımadamdır, kimin evində gözəl arvadı yoxdursa, yarımadamdır, kimin dəniz səyahətindən xəbəri yoxdursa, yarımadamdır". Orada bir kor var idi, hələ evlənməmiş və səfər görməmişdi, qışqırıb dedi: "Əzizim, əcəb söz danışırsan, sən ki belə başlamısan, yarımadam nədir, mənə heç adam demək olmaz"...

LƏTİFƏ. Bəhlul Harun-ərrəşidin yanına gəldi. Vəzirlərdən biri dedi: "Ey Bəhlul, muştuluğumu ver. Əmirəlmöminin səni öküz və eşşəklərə sərkərdə təyin etmişdir".

Bəhlul dedi: "Mənə qulaq as, əmrimi yerinə yetir, sən də mənim rəiyyətlərimdənsən".

Q i t ə

Müjdə verdin: öküzə, eşşəyə mən şah olum,
Belə şaha rəiyyət, a kəlləxər özünsən.
Dedin, mənim qoşunum ayı, donuz olacaq,
Bu hesaba birinci girən nəfər özünsən.

***

LƏTİFƏ. Zalım şahlardan birinin dövründə bir dövlətli öldü. Həmin zalım şahın vəziri onun oğlunu çağırıb soruşdu: "Atan nə qoyub getmişdir?" Oğlu dedi: "Var-dövlətdən filan və filanı, varislərdən isə böyük vəziri, bir də ki, mən yazığı, fəqiri".

Vəzir güldü, dedi, onun mirasını ikiyə böldülər, yarısını ona verdi, yarısını şaha götürdü.

Q i t ə

Yetimin malını şahınkı bilər
O vəzir ki, zülmə etmişdir adət.
Ədalət zənn edər tamam olanda,
Yarıya böləndə bilər kəramət.

***

LƏTİFƏ. Bir türkdən soruşdular: "Nəyi çox sevirsən: bu günün qarətini, ya sabahın cənnətini?" Dedi: "Bu gün qarət edəm, cah-calal toplayam, sabah da Fironla cəhənnəmdə yanam".

Q i t ə

Bilirsənmi, bir türk cənnət tərifini eşidib
Tez vaizdən soruşdu ki, orada qarət varmı?
Dedi: yoxdur, dedi: pisdir cəhənnəmdən o cənnət,
Qarətsiz də bir məkanda düşüb qalmaq olarmı?

LƏTİFƏ. Bir dilənçi bir qapıdan çörək istədi. İçəridən səs gəldi ki, bağışlayın, ev sahibləri evdə yoxdur. Dilənçi dedi: "Mənə çörək lazımdır, ev sahibləri ilə əylənmək lazım deyildir".

Q i t ə

Bir gəda qapına gələndə sənin
Pay ver o gədaya dövlətdən, maldan,
Bəhanə gətirmə, boş yola salma,
Ona nağıl demə əhlü əyaldan.

LƏTİFƏ. Bir müəllimin oğlu xəstələndi və can verməyə başladı. Müəllim dedi: “Mürdəşiri çağırın onu yusun”. Dedilər: “Hələ ölməyibdir”. Dedi: “Eybi yoxdur, siz onu yuyub qurtarana qədər o da ölüb qurtarar”.

Q i t ə

Hər kəs xislətinə tabe olaraq,
Tələssə işində vaxtından qabaq.
Elə bil orucu yeyir günorta,
Ya da ki, çəkməni tez çəkir suya.

***

LƏTİFƏ. Bir müəllimdən soruşdular: “Sən böyüksən, qardaşın?” Dedi: “Mən bir yaş böyüyəm, lakin gələn bu vaxta qədər onun yaşının üstə bir il də gələcək, yaşıd olacağıq”.

Q i t ə

Əli boş qalaraq nə soruşursan,
Filankəs, görəsən, necə dolanır?
Özgənin ömrünü saya-saya sən,
Öz ömrün boş keçib odlara yanır.

***

LƏTİFƏ. Bir nəfər can üstə idi. Ağzından pis iy gələn biri də onun yanında oturub şəhadətini təlqin edir və nəfəsini onun üzünə vururdu. Xəstə nə qədər üzünü çəkirdisə, o da o qədər ağzını ona çox yaxınlaşdırırdı. Axırda xəstə təngə gəlib dedi: “Əzizim! Niyə məni qoymursan rahat və təmiz öləm, yoxsa istəyirsən məni ən murdar şeylə bulayasan?!”

Q i t ə

Tapılmaz dünyada fəzilət əhli,
Hər füzul adamı dinləmək olmaz.
Kimin dodağından riya tökülsə,
Duasını qəbul eyləmək olmaz.

***

LƏTİFƏ. Bir kişi bir adamı tutub gileylənirdi: "Eyib deyilmi, məni tanımırsan, haqqımı vermirsən, heç utanmırsan?" O adam təəccüb edib dedi: "Mən səni tanımıram və nə demək istədiyini də başa düşmürəm".

O kişi dedi: "Mənim atam vaxt ilə sənin ananı istəmişdi, əgər almış olsaydı, indi biz qardaş idik".

O adam dedi: "Doğrudan da, bu elə bir qohumluqdur ki, sənin mirasından mənə, mənim mirasımdan da sənə düşər".

***

LƏTİFƏ. Bir qozbelə dedilər: "İstəyirsən Allah sənin qozunu götürüb başqaları kimi belini düz eləsin, yoxsa başqalarını da sənin kimi qozbel eləsin?" Dedi: "İstəyirəm hamını qozbel eləsin, indiyə qədər onlar mənə necə baxırdılarsa, mən də bundan sonra onlara elə baxım".

Q i t ə

Düşmən sənə eyib tapıb tənə vuran zamanda,
Öz eybini anlayaraq onu islah edərsən.
Sən eyibsiz oturmaqdan, şübhəsiz, daha xoşdur
Görəsən ki, öz eybinə tutulmuşdur o düşmən.

***

LƏTİFƏ. Bir adam Cuci ilə on dirhəm davası edirdi. Qazının yanına getdi, qazı soruşdu: "Şahidin varmı?" Dedi: "Yox". Dedi: "Onda and içdirəcəyəm". Dedi: "Onun andına nə etibar?!"

B e y t

Hər anda yalandan min and içəcək,
Bədəvi ərəblər ayran içən tək.

Cuci dedi: "Ey qazı, bizim məhəlləmizdə bir imam vardır, pəhriz saxlayan, düz danışan və xeyirxah bir adamdır. Onu çağır, and içdir, bəlkə bu adamın ürəyi sakit ola".

***

LƏTİFƏ. Bir ərəb dəvəsini itirmişdi. And içdi ki, tapsa bir dirhəmə satsın. Dəvəni tapdıqdan sonra içdiyi anddan peşman oldu. Dəvənin boynundan bir pişik asdı və qışqırdı: "Kim alır, düz deyirəm, dəvə bir dirhəm, pişik yüz dirhəm, ancaq birini o birindən ayrı satmıram".

Bir adam çatıb dedi: "Bu nə yaxşı ucuz dəvədir, kaş o zınqrov (qəlladə) bunun boynundan asılmaya idi".

Q i t ə

Sənə xəsis dəvə belə bağışlasa, rədd elə
Ki, səxavət əhlinə bu adət deyil əzəldən.
O, minnətdən boynuna bir zəncir bağlar, yəqin bil,
Ki, min dəfə ağır olar bəxş etdiyi dəvədən.

***

LƏTİFƏ. Bir ərəb bir dəvə itirmişdi, qışqırırdı: "Kim dəvəmi tapıb mənə gətirsə, ona iki yüklü dəvə bağışlayacağam". Ona dedilər: "Əcəb işdir? Havaxtdan bir dəvə ikisindən üstün olubdur?" Dedi: "Tapmaq ləzzətini, ondakı sevinc şərbətini dadmadığınız üçün belə deməyə haqqınız vardır".

Q i t ə

İtmiş bir şey gərəksiz də olsa, sən
"Cəhənnəmə!" demə, onu dur, axtar!
Ağıllılar yanında bil həmişə
Tapmaq zövqü tapıntıdan xoş olar.

***

LƏTİFƏ. Bir həkim qəbiristanlıqdan keçəndə əbasını başına çəkərmiş, səbəbini soruşduqda, deyərmiş. "Burdakı ölülərdən utanıram. Hansının yanından keçirəm, görürəm, mən neştər vurmuşam, hansına baxıram, görürəm, mən dərman vermişəm".

Rübai

Ey rəyi xəstəyə xəstəlik verən,
Qədəmi ölümü çəkib gətirən.
Can almaq işini bizim ölkədə
Aldın Əzrailin sanki əlindən.

İkinci rübai

Sən ey təbabəti hörmətdən salan,
Çəksə də xəstələr əlindən aman,
Sənə duaçıdır, səndən razıdır,
Mürdəşir, kəfənçi və qəbirqazan.

***

LƏTİFƏ. Bahar günlərindən birində dostlarla birlikdə bağları, dağları gəzməyə çıxmışdıq. Gözəl bir yer tapdıq, orda süfrə açdıq. Uzaqdan bir it bunu görüb tez özünü oraya çatdırdı. Yoldaşlarımızdan biri daş götürüb çörək atırmış kimi itə atdı. İt onu iyləyib, saymazyana geri döndü. Ha çağırdıq, qayıtmadı, hamımız təəccüb etdik. Yoldaşlarımızdan biri dedi: "Bilirsinizmi indi bu it nə düşünür? Düşünür ki, bu bədbəxtlər xəsislikdən və aclıqdan özləri çörək əvəzinə daş yeyirlər, bunların süfrəsindən nə ummaq olar?!"

Q i t ə

Xacə süfrə açanda etinasız olsa da,
Yaxın, uzaq baxana bu süfrədən pay çatar:
Yaxındakı pişiyin çubuq dəyər başına,
Uzaqdakı itə də tez-tez durub daş atar.

***

LƏTİFƏ. Bir oğlandan soruşdular: "İstəyirsənmi atan ölsün, mirası sənə qalsın?" Dedi: "Yox, istəyirəm bir dövlətli atamı öldürsün, həm mirası mənə qalsın, həm də qan bahasını alım".

Q i t ə

Oğul var atanın mirası üçün
İstər ölsün ata, dövləti qalsın.
İstəməz ki, ölsün öz əcəlilə,
İstər öldürsünlər, qan-baha alsın.

***

LƏTİFƏ. Bir şair bir alimə şeir oxuyurdu, sona çatdıqdan sonra dedi: "Bunu ayaqyolunda yazmışam". Dedi: "And olsun Allaha, düz deyirsən, bu şeirdən elə onun iyi gəlir".

Q i t ə

Şair adı vermə ona ki, şeri
Kədər və fərəhdən qalxıb yüksəlir.
Zövq əhli duyacaq o nəsimi ki,
Hansı bəhrlərdən keçərək gəlir.

LƏTİFƏ. Bir şair bir təbibin yanına gedib dedi: "Elə bil bir şey mənim ürəyimdə yumurlanıb, hərdən ürəyim sıxılır, oradan butün bədənimə titrətmə düşür, tüklərim biz-biz olur". Təbib hal əhli idi, soruşdu: "Bu yaxınlarda elə bir şeir yazmısanmı, onu heç kəsə oxumamış olasan?" Dedi: "Bəli". Dedi: "Onda oxu". Oxudu. Dedi: "Bir də oxu". Oxudu. Sonra dedi: "Dur get, artıq xilas oldun, həmin bu şeir idi ki, ürəyində yumurlanmışdı və onun soyuqluğu bədəninə yayılmışdı. İndi ki, ürəyini boşaltdın, artıq nicat tapdın".

Q i t ə

Bu necə şeirdir, sorsan alimdən,
Dilinə mənasız, hərzə söz gələr.
Oxusan xəstənin qulağına sən,
Qızması çəkilib, yaman titrədər.

***

LƏTİFƏ. Bir vaiz minbərdən olduqca biməzə bir şeir oxudu və fəxrlə dedi ki, vallah, mən bunu namaz üstə yazmışam. Eşitdim, orda olanlardan biri dedi: “Namaz üstə deyilən şeir belə dadsızdırsa, gör indi bu şeir üstə qılınan namaz nə qədər də dadlı olar”.

Q i t ə

Söylədin ki, dünən gecə namaz qılan zamanda
Qəribə bir şeir yazdım, bütün şeirdən yüksək.
Sən o şeri söylədinsə aşağıkı ağızdan,
Deməli ki, batil oldu namazın dəstəmaz tək.

Mənzumə

Bir şair oxudu duzsuz bir qəzəl,
Dedi ki, əlifi bütün pozmuşam.
Söylədim, ən yüksək sənət odur ki,
Bütün hərflərin pozasan tamam.

Mənzumə

Dünən sən başlanğıc beyti oxuyub,
İnci dəryasıdır, – dedin, – bu mətlə.
Yaraşmaz bir bəhri tək demək, çünki
Bir ayrı bəhrdir hər ayrı misrə.

YEDDİNCİ RÖVZƏ (BAĞ)

Bu fəsil Camiyə qədər olan şairlərin tərcümeyi-halına həsr edilir və onların şeirlərindən çoxlu misallar gətirilir. Adları çəkilən şairlər və onların şeirləri Azərbaycan oxucularına məlumdur.

Ona görə biz bu fəsli tərcümə etməyi lazım bilmədik.

SƏKKİZİNCİ RÖVZƏ (BAĞ)

...Hekayət.

Bir tülkü bir qurdla dostluğundan dəm vurur və ondan ayrı oturub-durmurdu. Bir dəfə yenə ikisi gəzərkən bir bağa rast gəldilər: qapısı bağlı idi, divarları tikanlı. Ətrafını gəzib bir külüf tapdılar. Bu külüf tülkü üçün geniş, qurd üçün dar idi. Tülkü asanlıqla girdi, qurd çox çətinliklə keçə bildi. Cürbəcür üzümlər gördülər, rəngbərəng meyvələrə təsadüf etdilər. Tülkü bic olduğundan, əvvəlcədən qaçmaq yolunu nəzərə aldı, qurd gic olduğundan, dürt deyincə yeyib yerində qaldı. Birdən əlində böyük bir dəyənək olan bağbanın onlara tərəf gəldiyini gördülər. Beli incə tülkü külüfdən tez eşiyə çıxdı, qarnı şişman qurd ilişib deşikdə qaldı. Bağban çatıb ağacla o qədər vurdu ki, tükü yolunmuş, dərisi soyulmuş qurd ölmə-dirilmə halda zorla külüfdən özünü bayıra saldı.

Q i t ə

Ey xacə, qızılla sən zor göstərmə,
Axırda dünyadan zəlil gedərsən.
Bu nazü-nemətdir kökəldən səni,
Bir düşün, nəhayət, əlil gedərsən.
Bu yekə cüssənlə, gələcək bir gün,
Ölüm qapısından səfil gedərsən.

***

Hekayət.

Neştərində öldürücü zəhər, təbiətində kin və qəzəb olan bir əqrəb səfərə çıxmışdı. Böyük bir çayın kənarına çatdı, quruyub yerində qaldı. Nə keçməyə qüdrəti, nə dönməyə qeyrəti vardı. Tısbağa onun vəziyyətini görüb halına yandı, dalına mindirib özünü suya vurdu, üzə-üzə o biri sahilə üz qoydu. Bu zaman qulağına bir səs gəldi; əqrəb nə iləsə onun dalına vururdu. Soruşdu: "Bu nə səsdir?". Dedi: "Bu, tikan-

dır, səni sancıram, bilirəm kar etməyəcəkdir, ancaq nə çarə, canımı bu azarın əlindən qurtara bilmirəm". Tısbağa öz-özünə dedi: "Yaxşısı budur ki, bu mərdümazarın canını bu azarın əlindən mən qurtarım".

Bunu deyib suyun altına cumdu, dalğa vurub əqrəbi apardı, sanki belə bir əqrəb heç yox idi.

Q i t ə

Bu şər, fəsid məclisində tərbiyəsiz cavanlar,
Yüz cür hiylə qurmaq üçün olurlar əldə alət.
Yaxşıdır ki, qərq olalar ölüm girdablarında,
Həm özləri xilas olsun, həm xalq yaşasın rahət.

Hekayət.

Bir siçan bir neçə il bir baqqalın dükanında quru və yaş meyvələrdən yeyib kef ilə dolanırdı. Baqqal bunu görür, lakin özünü o yerə qoymur və cəza vermirdi. Atalar demişkən, bu o günə qədər davam etdi ki,

B e y t

Alçaq, rəzil adamların mədəsi tox olan tək,
Min cür hay-küy sala-sala pəhləvanlıq edəcək.

Siçanın da qarnı doydu, bu qərara gəldi ki, baqqalın kisəsini doğrasın, ağdan, sarıdan nəyi varsa, hamısını oğurlasın. Elə də etdi, gümüşdən, qızıldan nə var idisə, hamısını dartıb öz yuvasına daşıdı. Bir gün baqqalın pula ehtiyacı oldu, əlini kisəyə atdı, onu yoxsulların cibi, acların mədəsi kimi boş gördü. Siçanın işi olduğunu başa düşdü. Pişik kimi pusquda durdu, siçanı tutub ayağına bir ip bağladı, sonra buraxdı, ipin uzunluğundan bildi ki, yuvası hara qədərdir. Sonra siçanın yuvasını dağıdıb, evinə çatdı. Gördü, nə gördü: siçanın evində sərraf dükanında olduğu kimi qızıl gümüşə qatışıb, dinar dirhəmə qarışıb. Öz ma-

lını götürüb yerinə qayıtdı, siçanın quyruğundan tutub pişiyə atdı. Siçan öz cəzasına çatdı, necə çatdı; nankorluğun acısını daddı, necə daddı.

Q i t ə

Şuri şərdən can qurtarmaz bu dünya hərisləri,
Xoşbəxt odur şurü şərdən yaxasını yan tutar.
Qənaətdə əzizlik var, ruha rahatlıq vardır,
Həddən artıq hərislikdə baş ağrısı, möhnət var.

Hekayət.

Bir tülkü yol üstündə durub o yan-bu yana baxır, ov axtarırdı. Birdən uzaqdan qaraltı göründü, yaxınlaşıb yırtıcı bir qurdun böyük bir itlə sədaqətli sirdaş, səmimi yoldaşlar kimi bir yerdə gəldiklərini gördü, nə bu onun hiyləsindən qorxurdu, nə o bunun xəyanətindən ehtiyat edirdi. Tülkü qabağa qaçıb salam vəzifəsini yerinə yetirdikdən sonra dedi:

"Allaha şükür, köhnə düşmənçiliyiniz yeni dostluğa, qədim ədavətiniz təzə mehribanlığa çevrilmişdir. Lakin bir şey bilmək istəyirəm: bu sirdaşlığın səbəbi nədir, bu yoldaşlığın baisi kimdir?".

İt dedi: "Bizim dostlaşmağımızın səbəbi çobandır. Çobanın qurdla düşmənçiliyi qoyuna görədir, mənim qurdla düşmənçiliyim isə çobana görə. Bu gün dostluğundan feyziyab olduğum bu qurd dünən özünü bizim sürüyə vurdu, bir quzunu götürüb qaçdı. Adətim üzrə quzunu qurddan saldırmaq üçün onun dalınca yüyürdüm, lakin çata bilmədim. Geri qayıtdıqda çoban çomağını qaldırıb nahaq yerə məni döyməyə başladı. Mən də dostluğu kəsib ondan qaçdım, gəlib köhnə düşmənimlə dostlaşdım".

Q i t ə

Düşmənlə dost ol ki, o da heç zaman
Düşmənlik tiyğilə vurmasın səni.
Dostunu o qədər incitmə ki, o
Özünə dost etsin sənə düşməni.

Hekayət.

Tülküyə dedilər: “Yüz dinar alıb bu xəbəri kənd itlərinə çatdıra bilərsənmi?” Dedi: “Vallah, yaxşı muzd verirsiniz, canımdan keçmək qorxusu olmasaydı, ondan əl çəkməzdim”.

Q i t ə

Alçaqdan kəramət ummaq odur ki,
Gəmini salasan böyük tufana.
Düşmənə əyilmək mal, mənsəb üçün
Zərbədir, ölümdür hər mərd insana.

***

Hekayət.

Bir dəvə bir səhrada otlayır və onun kol-kosu ilə dolanırdı. Bir tikan koluna rast gəldi; gözəllər zülfü tək təravətli, sevimlilər üzü tək məlahətli idi. Boynunu uzatdı ki, kolun boynunu üzsün, gördü ortasında bir əfi ilan yatıb, elə qıvrılıb ki, başı quyruğuna çatıb. Geri döndü və onu yeməkdən əl çəkdi. Kol elə güman etdi ki, dəvənin fikrini dəyişməsi onun tikanlarından qorxması, iynələrinin ona batmasıdır. Dəvə bunu duyub dedi: “Mənim qorxuma səbəb qonaqçının aşkar tikanı deyil, bəlkə də o gizlənmiş qonaqdır, tikanın vuracağı yaradan deyil, ilanın dişindəki zəhərdən qorxdum, dərdini çəkməsəydim, qonaqçını bir tikəyə yeyərdim”.

Q i t ə

Nanəcib adamdan qorxarsa nəcib,
Canından qorxmur o, hörmətdən qorxur.
Hər kəs kül üstünə ayaq qoymursa,
Altında gizlənən atəşdən qorxur.

***

Hekayət.

Ac-yalavac, bir tikə çörəyə möhtac bir it bir şəhərin darvazası ağzında durmuşdu. Birdən gördü ki, bir dəyirmi fətir, şəhərdən çıxıb,

diyirlənə-diyirlənə səhraya tərəf gedir. İt onun dalınca düşüb qışqırdı: "Ey canımın qidası, ruhumun qüvvəti, ayaqlarıma güc, əllərimə qüdrət verən, sən baş alıb hara gedirsən? Yolun haradır, məqsədin hara?!"

Dedi: "Bu çöldə canavarlar və pələnglərin sərkərdələri ilə dostluğum var, onların ziyarətinə gedirəm". İt dedi: "Məni qorxutma, nəhəngin kamına, aslanın ağzına getsən də, dalınca gələcəyəm".

Q i t ə

Mən haman adamam, ömür boyunca
Sevgi və arzumla bəzərəm səni,
Əgər sən dünyanı dolansan, mən də
Ardınca düşərək gəzərəm səni.

Q i t ə

Onlar ki, çörəkçin candan keçərlər,
Alçaq adamlardan umarlar çörək.
Əgər başlarına yüz qapaz dəysə,
Yenə ac it kimi cumarlar, çörək?

Hekayət.

Bir qurbağa cütündən aralanmış, onun fikrindən dəniz kənarında tək dayanmışdı. O, bərk darıxır, dərdini dağıtmaq üçün o tərəf-bu tərəfə baxırdı. Birdən suyun içində gözünə bir balıq sataşdı.

Məsnəvi

O suda bir balıq gördü ki, haman
Su kimi axaraq keçir durmadan.
Qayçı tək doğrayır gümüş rəqqası,
İkiyə bölünür suyun atlası.
Ya da bir dəyişməz hilala bənzər,
Sağ-sola hərəkət eyləyib üzər.

Qurbağa onu görcək dostluq etmək xəyalına düşdü. Özünün tənhalığından söz saldı, balıqla dost olmaq arzusunu bildirdi. Balıq dedi:

“Dostlar arasında bir münasibət olmalıdır. Əgər belə münasibət yoxsa, onlar necə həmsöhbət ola bilər? Mən dənizin dibində yaşayıram, sən suyun kənarında; mən ağzımı açıram su dolur, sən ağzını açırsan səs-küy qopur, sənin oxumağın bəlaya qalxandır, səsini eşidən qulağını tıxayır, üzünü görən gözünü qapayır. Mənim gözəlliyim isə başıma bəladır, şəklimi görənlər həsrətlə baxır, özümü görənlərin ağzının suyu axır. Göydəki quşlar məni udmaq üçün suya batırlar, səhradakı vəhşilər məni tutmaq üçün can atırlar. Ovçular məni ələ keçirmək üçün bəzən ayaq üstə durur, torlar qururlar, gah tavada bişirmək üçün bellərini əyir, hey güc vururlar”.

Bunu deyib suyun dibinə daldı, qurbağa isə yenə sahildə tək qaldı.

Q i t ə

Xasiyyətcə düz gəlməyən adamlarla oturma,
Ürəkləri birləşdirən eyni cinsli gövhərdir.
Cinsi cinslə ya nacinslə yoxlasan,
Bu, yağla su; osa şirü şəkərdir.

Müqayisə et: biri süd ilə şəkər, o biri su ilə yağ kimidir.

Hekayət.

Göyərçinə dedilər: “Nə üçün ildə ikidən artıq bala çıxara bilmirsən, toyuqca da yoxsan?!” Dedi: “Göyərçin balaları ata-analarının dimdiyindən dolanır, toyuq cücələri isə adamların zibilindən. İki dimdiklə iki baladan artıq dolandırmaq olmaz, yarım qalaq zibil ilə gündə min cücə saxlamaq olar”.

Q i t ə

İstəsən ki, halal olsun qismətin,
Bir evdə çox arvad saxlama, aman!
Çünki bu darısqal, qaranlıq yerdə
Halalın harama qatışar, inan.

Hekayət.

Bir sərçə ata evini buraxıb leylək yanında yurd saldı. Ona dedilər: “Sənə yaraşmır, belə balaca boyunla elə böyük bir quşa qonşu olur, yer

tutmaqda, mənzil salmaqda özünü ona tay edirsən”. Dedi: “Mən də elə bu fikirdəyəm. Ancaq öz fikrimə əməl edə bilmirəm. Mənim qonşuluğumda bir ilan yaşayır. Mən hər il bala çıxardır, müsibətlə onları böyüdürəm. Qəflətən hücum edib balalarımı tutur, bir göz qırpımında hamısını udur. Bu il ondan qaçmışam, bu böyük qonşumun ətəyindən yapışmışam. Ümid edirəm, bu, mənim qisasımı ondan alacaq, hər il o, mənim balalarımı özünə qida etdiyi kimi, bu il bu onu öz balalarına qida edəcəkdir”.

Q i t ə

Şirin meşəsində yaşasa tülkü,
Qurdların dişindən nə qorxusu var?
Kiçiyin zülmündən qurtarar o kəs
Ki, böyük adamın yanında yaşar.

Hekayət.

İtdən soruşdular: “Nə səbəbə sənin durduğun qapıya bir yolçu yaxınlaşa bilmir, oturduğun astanadan bir dilənçi keçə bilmir?”

Dedi: “Mən acgözlük və artıq tamahkarlıqdan usanmışam, az yeyib qənaət etməkdə şöhrət qazanmışam, süd əvəzinə yalaq, ət əvəzinə sümüklə dolanmışam. Lakin dilənçilər tamahkar, acgöz və hərisdirlər, xurcunları bir həftəlik yeməklə dolu olduğu halda, hər gələnə əl açarlar, çantasında ongünlük sursat olduğu halda, hər qapını döyər və ehtiyac üçün əllərində çomaq tutarlar. (Odur, harda olsa, onları axtarıb tapıram, ya hürüb qorxuduram, ya dişləyib qapıram).”

Q i t ə

Hər kimin ki, ürəyinə ayaq basdı qənaət,
Acgözlüyün əl-qolunu bağladı o haman gün.
Harada ki, qənaət öz mətaını döşədi,
Kasad etdi ehtirasın bazarını büsbütün.

Hekayət.

Bir tülkü balası anasına dedi: “Mənə bir hiylə öyrət ki, itə rast gəlsəm, canımı onun əlindən qurtarım”. Anası dedi: “Bunun üçün hiy-

lə çoxdur, ancaq ən yaxşısı odur ki, evdə oturasan, nə itə rast gələsən, nə canını qurtarmaq üçün hiylə axtarasan”.

Q i t ə

Düşmən sənə itlik etsə, darıxma,
Ona qarşı hiylə etmə, aqil ol!
Min kələkdən faydalıdır həlimlik,
Nə sülhə, nə davaya sən vermə yol.

***

Hekayət.

Bir qırmızı arı bir şana hücum edib onu yeməyə başladı. O inildəyib dedi: “Bu qədər şirin bal ola-ola məndə nə var ki, onu qoyub mənə hücum edirsən?”.

Qırmızı arı dedi: “Əgər o baldırsa, sən bal şanısan, əgər o şirindirsə, sən şirinlik kanısan”.

Q i t ə

O həqiqət adamına eşq olsun ki, hər zaman
Quru salam göndərməkdən üz döndərib vəsl istər.
Fər pərdəsi arxasında əsli görən kimi tez
Fəri atıb hərarətlə həqiqət və əsl istər.

***

Hekayət.

Gördülər bir qarışqa zorla bir çəyirtkəni çəkib aparır. Təəccüb edib dedilər: “Bu qarışqaya baxın, görün bu balaca bədənlə bu böyüklükdə gövdəni necə dartıb aparır?!” Qarışqa bunu eşidib güldü və dedi: “İgidlər yükü qeyrət və cəsarət zoru ilə dartarlar, bədənin böyüklüyu, cüssənin zorbalığı ilə aparmazlar”.

Q i t ə

Yer-göy aciz qalan yükü
Çəkə bilməz bu cismü can.
Eşq əhlindən kömək alıb,
Hümmət ilə çəkər insan.

***

Hekayət.

Noxtası ayağına dolaşa-dolaşa bir dəvə çöldə otlayırdı. Bir siçan onu yiyəsiz görüb tamaha düşdü, noxtasından tutub yuvasına dartmağa başladı. Dəvə də təbiətən üzüyola olduğundan, kim noxtasından yapışdısa, onun dalınca getməyə adət etdiyindən, siçana müqavimət göstərmədi. Siçanın yuvasına çatdıqda balaca bir deşik olduğunu gördü və dedi: "Ay korafəhim, bu nə işdir tutdun, bu balaca deşiyə mən necə girəcəyəm? Nə bundan sonra sənin evin böyüyəcək, nə mənim bədənim kiçiləcək. Mənimlə sənin dostluğun necə baş tuta bilər, mənimlə sənin yoldaşlığın necə davam edə bilər?!"

Q i t ə

Dəvə kimi yol gedirsən hey əcəlin yolunda,
Dalındasa tamah yükü həddindən artıq çoxdur.
Yaxşı olar bu yükünü yüngül edib gedəsən,
Bu yüklərə o darısqal qəbr evində yer yoxdur.

Hekayət.

Bir qoyun bir arxdan atlandı, quyruğu yuxarı hoppandı. Keçi gülüb dedi: "Ayıb yerin görsəndi". Qoyun üzünü geri çevirib dedi: "Ay insafsız, mən illər boyu sənin ayıb yerini görmüşəm, lakin gülməmişəm, istehza edib ələ salmamışam, sən ömründə bircə dəfə mənim ayıb yerimi görməklə nə üçün gülürsən?"

Məsnəvi

Nanəcibin özündə min eyib var,
Xalq içində gəzir aydın, aşikar.
Bir nəcibdə azacıq nöqsan görcək,
Min lənətlə o şəxsi yad edəcək.
O hey bundan deyib gələr çox hədə,
Busa ondan danışmaz bir kəlmə də.

***

Hekayət.

Bir öküz öz sürüsü içərisində ən qüvvətli sayılar və başqalarına başçılıq edərdi. Canavar sürüyə daraşanda onun buynuzuna rast gələr, geriyə çəkilməyə məcbur olardı. Birdən ona bədbəxtlik üz verdi, fələk ondan üz döndərdi: buynuzu sındı. Bundan sonra hər canavar gələndə qaçıb başqa öküzlərin dalına girərdi, səbəbini soruşanda deyərdi:

Rübai

O gündən ki, sərvim getdi, qaldım tək,
Döyüş meydanında soyudum həmən.
Məsəl var, deyərlər: vuruş çağında
Zərbə hərbədəndir, davasa mərddən.

Hekayət.

Bir dəvə ilə bir dovşan yoldaşlıq edir, bir yerdə yol gedirdilər. Bir böyük çaya çatdılar. Çaya birinci dəvə girdi. O, çayın ortasına çatanda, su da onun qarnına çatmışdı. Qışqırıb dovşana dedi: "Qorxma, gəl, su qarından yuxarı qalxmır". Dovşan dedi: "Doğru deyirsən, lakin qarın-dan qarına fərq var. Sənin qarnına çatan su mənim başımdan aşar".

Q i t ə

Ey qardaşım, heç kim səni səndən yaxşı tanımaz,
Tük qədər də sən özünü artıq vermə qələmə.

Sənə səndən yüksək qiymət versələr də bilmədən,
Öz həddini yaxşı anla, çox füzulluq eləmə!

Hekayət.

Bir tavusla bir qarğa bağda rastlaşdılar, bir-birinin hünər və eybini görüb fikirləşdilər. Tavus qarğaya dedi: "Sənin ayağında olan o qırmızı çəkmə mənim atlas paltarıma, zərbaft qanadıma, naxışlı quyruğuma yaraşır (həqiqətə qalsa, o elə əslində mənim olmuşdur). O vaxt yoxluq gecəsindən varlıq gündüzünə qədəm qoyduqda, biz səhv edib başmaqlarımızı dəyişik salmışıq, mən sənin üzüqara çarığını, sən mənim üstü qırmızı çəkməmi geyibsən". Qarğa dedi: "Deyəsən, həqiqət bunun tərsinədir. Dəyişiklik düşübsə də, başqa geyimlərdə düşübdür. Sənin yerdə qalan bütün paltarların mənim çəkmələrimə yaraşır. Görünür, yuxulu olduğumuz halda, səhvən sən mənim paltarımı geyibsən, mən də sənin paltarını".

O yaxınlıqda bir bağa oturub onların sözlərinə qulaq asır və mubahisələrinə diqqət edirdi. Başını qaldırıb dedi: "Ey əziz dostlar və təmiz məxluqlar, bu boş mübahisədən əl çəkin və bu yersiz mübadilə haqqında danışmayın... Kimin nəyi var, onunla razılaşsın, getsin, rahat yaşamağa başlasın".

Q i t ə

Başqasına, həsəd çəkmək heç ağıldan deyildir,
Uzaqlaşma bir an belə ağıldan, fərasətdən.
Xalqdan tamah, həsəd kimi ürəyə dərd gətirər,
Tamahını kəsib qurtar bu daxili zülmətdən.

Hekayət.

Bir tülkü bir kaftarın çənginə keçdi. Kaftar tamah dişini qıcıyıb, iti dişləri ilə onu sıxmağa başladı. Tülkü qışqırıb dedi: "Ey şir kimi qüvvətli, pələng kimi qüdrətli ağam. Bu yazıq quluna rəhmin gəlsin, Allaha bax, mənim bu dünyanı gəzən ayağımı burax. Bir də ki, bir dəri bir sümükdən və ya bir kilkə tükdən ibarət olan məni yeməkdən sənə nə olacaq? Nə ürəyin dincələcək, nə qarnın doyacaq...".

Nə qədər belə söz dedisə, kaftara təsir etmədi. Tülkü dedi: "Heç olmasa, mənim yaxşılıqlarımı yadına sal, haqqımı itirmə. Məndən nə

qədər dostluq istəyibsən, dostluq etmişəm, kömək diləyibsən, kömək göstərmişəm".

Kaftar tülkünün bu yalan sözündən qəzəbləndi, özündən çıxdı, ağzını açdı desin ki, "bu nə axmaq sözdür, havaxt və harada belə bir iş olubdur?".

Ağzını açmaqla tülkünün qaçmağı bir oldu.

Q i t ə

Xoş dil ilə düşmənindən qurtarmaq baş tutmursa,
Yaxşıdır ki, vuruşmaqçın başlayasan pis dilə.
Paslı qıfıl ahəstəcə açılmazsa, yəqin ki,
Onu daşla sındıraraq son qoyarsan müşkülə.

***

Hekayət.

Bir çaqqal səhər yuxusu vaxtı bir xoruzu tutdu. Xoruz ah-fəryad edib dedi: "Mən yatanların bançısı, oyaq qalanların azançısıyam. Gəl məni öldürməkdən vaz keç, qanımı nahaq yerə axıtma".

B e y t

Nə üçün sən mənimlə səbəbsiz vuruşursan,
İstəyirsən qəlbimdən günahsız tökülsün qan?

Çaqqal dedi: "Mən sənin ölümündən əl çəkə bilmirəm, ancaq xahişindən də keçə bilmirəm. Ona görə bu qərara gəlmişəm ki, ixtiyarı sənə verim, necə istəsən, elə də edim. İstəyirsən bir zərbə ilə canını alım, istəyirsən tikə-tikə doğrayıb qazana salım".

Q i t ə

Bir yaramaz şər atarsa sənə, əqlə arxalan,
Ancaq əqlin tədbirilə dəf olunar şurü şər.
Yalvarmaqla xilas olmaq fikrinə heç düşmə sən,
Çünki pisdən qurtaran tək daha pisi rast gələr.

XATİMƏ (SON)

Ürəyimə damır, fikrimdə dolanır ki, bu kitab qurtarana oxşamır; xəyal düşünməkdən, qələm işləməkdən yorulmur. Lakin yazanın təb güzgüsünü yorğunluq pası basdığından, oxucunun mərhəmət əli onu cilalandırmadığından, burada dayanmağı məsləhət bildim.

Ey Cami, aç sözün büsatını sən
Ki, sözdən daha xoş bir büsat yoxdur.
Lakin xamuş olub sakitcə otur,
Əgər bu halətdə bir nişat yoxdur,
Təbində şadlığın nə mənası var,
Əgər bu məclisdə qəlbi şad yoxdur.

Burda deyilən şeirlər, nağıl edilən hekayələr başqalarının adından deyilməyibsə, bu kitabı yazanın öz fikrinin məhsuludur.

Rübai

Cami ki, hər yerdə bir əsər yazsa,
Heç kəsdən sözü borc almağa getməz.
Kimin ki, dükanda öz malı çoxdur,
Özgənin malına dəllallıq etməz.

Mən oxucuların alicənablığına bel bağlayıb ümid edirəm ki, bir nöqsan görsələr, mərhəmət göstərib ona göz yumacaqlar, rüsvay etmək üçün ağızlarını açıb dillərini işə salmayacaqlar...

Bu kitabın yazılma tarixi haqqında.

Bu gözəl əsərdə qələm gəzərkən,
Cami öz təbini sınadı gözəl.
Bitməkdə tarixin bilmək istəsən,
Səkkiz yüz doxsanın üstə iki gəl!

MÜNDƏRİCAT

Ön söz 4

Yusif və Züleyxa
(*tərcümə edəni Mübariz Əlizadə*)

Xitab 13
Eşq fəzilətinin bəyanı və əsərin nəzmə çəkilməsinin səbəbləri 14
Söz fəziləti çəmənindən gül toplayıb dəstə düzəltmək və əsərin nəzmə çəkilməsi səbəbinin tamamlanması teli ilə onu bağlamaq 16
Qeyb gecə məclisində Yusif camalının şəminin işıqlanması və Adəmin könül pərvanəsinin o atəşə yanması dastanı 18
Yusif camalının fidanı qeyb gülzarından həyat bağçasına gətirilir və Yəqubun göz yaşı Züleyxanın könül eşqi ilə onu bəsləyir 20
Camal günəşinin tüluyu ilə məğrib ölkəsi məşriq olan Züleyxanın əsli-nəsəbi haqqında 24
Yusif camalı günəşinin qılıncını Züleyxa ilk dəfə yuxuda görür və qında olan bu qılıncla öldürülür 29
Səhər nəsimi əsərək Züleyxanın yuxulu nərgiz gözlərini açır və gecəki röyanın xəyalından qönçə kimi ürək qanını udub, dodaqlarını möhürləyir 32
Züleyxanın əhvalını görən kənizlər heyrətə düşür və eşq düyünü dayənin barmaqları ilə açılır 34
Züleyxa Yusifi ikinci dəfə yuxuda görür və eşq onu cünun uçurumuna çəkir 39
Züleyxa üçüncü dəfə Yusifi yuxuda görür. Adını və yerini bilir və ağla gəlir 43
Qonşu padşahlar Züleyxaya elçi göndərir və Züleyxa ümidsizlikdən sarsılır 46
Züleyxanın atası Misir Əzizinin yanına elçi göndərir və Züleyxa eşqini ona bildirir və Əziz onu qəbul edir 49
Misir tərəfdən qəbul nəsimi əsir və Züleyxa kəcavəsini gül qönçəsi kimi o ölkəyə aparır 52
Züleyxa çadır deşiyindən Misrin Əzizini görür və aldandığını bilib fəryad qoparır 57

Züleyxa Misirin Əzizi ilə birlikdə
Misirə gəlir və misirlilər onu qarşılayıb
başına tabaq-tabaq cəvahir səpirlər 60
Züleyxa Yusif fəraqında gün keçirir
və ahu-nalə edir 63
Qardaşları Yusifə həsəd aparır
və atalarından onu ayırırlar 67
Yusif Günəşin, Ayın və on bir ulduzun
ona səcdə etdiyini yuxusunda görür və
bu yuxu qardaşlarının ona qarşı həsədini artırır 69
Yusifi atasından ayırmaq üçün qardaşlar
məsləhətləşirlər Qardaşlar Yusifi çölə aparmaq
üçün atalarından icazə istəyirlər 73
Qardaşları Yusifi səhraya aparır
və zillətlə onu quyuya salır 75
Misirə gedən karvan quyunun başına çatır
və Yusifi oradan çıxarır 79
Malik Yusifi Misirə çatdırır, padşah
onların gəlməsindən xəbər tutur və
Əzizi onları qarşılamağa göndərir 81
Yusif Nil çayında çimir və calal ilə
Misir padşahının bargahına yola düşür 83
Züleyxa şah sarayı qarşısında
Yusifi görür və tanıyır 85
Yusif qullar bazarında hərraca qoyulur,
Züleyxa onu çox baha qiymətə özünə qulluğa alır 88
Ad qəbiləsinin başçısının qızı Yusifin yanına gəlir,
ona eşq elan edir, Yusifin nəsihəti ilə tərki-dünya olur 91
Züleyxa Yusiflə müsahib olur
və ona xidmət edir 96
Yusif Züleyxaya özünün quyuya
salınma əhvalatını söyləyir 99
Yusif çoban olmağı arzu edir 101
Züleyxa Yusifdən vüsal tələb edir
və Yusif onu rədd edir 103
Dayə Züleyxadan yanıb əriməsinin səbəbini soruşur 105
Züleyxa dayəsini Yusifin yanına göndərir,
ondan vüsal istəyir, Yusif isə onu rədd edir 107
Züleyxanın özü Yusifin yanına gedir,
ona yalvarır, lakin Yusif onun
təklifini yenə də rədd edir 110

Züleyxa Yusifi bağa göndərir və
öz eşqi ilə onu təqib edir....113
Kənizlər Yusifə yaxınlaşır, onun diqqətini
cəlb etmək istəyirlər, Yusif nəsihətlə
onları düz yola dəvət edir....117
Züleyxa dayəsinin yanına gedir və Yusifi yola
gətirmək üçün ondan tədbir istəyir....120
Dayə saray tikdirir, hər yeri Yusif və
Züleyxanın şəkli ilə bəzətdirir....122
Züleyxa Yusifi yeni saraya dəvət edir
və ondan vüsal istəyir....125
Züleyxa Yusifi yeddinci otağa gətirir,
ondan murad istəyir, Yusif onu rədd edir....130
Yusif Züleyxanın əlindən qaçır,
Əziz onu görür, lakin Yusif
sirri açmır, Züleyxa Yusifə
böhtan atır və Əzizi inandırır....138
Əziz Yusifi cəzalandırmaq istəyir,
Yusif yalvarır, iki aylıq uşaq
Yusifin günahsız olduğunu iqrar edir....141
Züleyxanın eşqi dillərə düşür,
Misir qadınları onu məzəmmət edir,
Züleyxa eşqində haqlı olduğunu sübuta çalışır....144
Züleyxa əyan xanımlarını Yusifə vasitəçi salır,
onlar Yusifə həm Züleyxanın, həm də
özlərinin məhəbbətini bəyar edirlər....150
Misir qadınları Züleyxanı Yusifi zindana
salmağa təhrik edirlər, o da razı olur....153
Züleyxa Yusifin zindanda olmasından kədərlənir və
ona çatmaq üçün yollar arayır....158
Züleyxa Yusifin fərağında ağlayıb inləyir,
dayəsi ilə bərabər gecə zindana gəlir,
uzaqdan gizlincə Yusifin camalına tamaşa edir....162
Züleyxa hər gün qəsrin damındakı qürfəyə
çıxıb zindana tamaşa edir, onunla təsəlli tapır....166
Yusif zindandakılara xeyirxahlıq göstərir,
onların yuxusunu yozur, zindandan aparılan
iki nəfərə sifariş verir, onlar isə bu sifarişi unudur....169
Misir padşahı gördüyü yuxunu yozmaq üçün
Yusifi yanına çağırır və onunla misir arvadları
arasında baş verən macəranı yoxlamağa başlayır....171

Yusif zindandan çıxır, Misir padşahı ona hörmət edir,
Əzizi-Misr ölür, Züleyxa tək qalır....175
Əzizin ölümündən sonra Züleyxanın ahü-zar etməsi və
Yusifin fəraq oduna yanması....179
Züleyxa Yusifin yolu üstə qamışdan alaçıq tikdirir,
yoldan keçən Yusif qoşununun
ayaq səsindən təsəlli almaq istəyir....183
Yusif şahlıq taxtına əyləşir, qardaşları aclıq
üzündən taxıl aparmaq üçün Misirə gəlirlər....186
Qardaşlar Kənana qayıdır,
əhvalatı atalarına söyləyirlər....191
Yusif qardaşları ikinci dəfə Misirə gedir və
İbn-Yəmini aparırlar....193
Taxıl çanağı gizli surətdə İbn-Yəminin yükünə qoyulur.
Yusif onu oğru adı ilə qul edib yanında saxlayır....197
Yəqub övladları bir daha Misirə gəlir və
Yusiflə görüşüb deyişirlər....202
Yusif qardaşlarının günahını əfv edir, onlara
mərhəmət göstərir və atasının vüsalına çatır....205
Züleyxa yol üstə Yusifin qabağını kəsir, ondan
mərhəmət görmür, evə gedib bütü qırır,
Allaha nam gətirir, yol üstə qayıdır, Yusifin
gəlməsindən xəbər tutur və ondan mehribanlıq görür....209
Züleyxa Yusifin hərəmxanasına gəlir, onun duasının
bərəkətindən gözləri açılır, yenidən
gəncləşir və gözəlləşir....212
Yusif və Züleyxa kəbin kəsdirir,
Züleyxa murada çatır....216
Züleyxanın məhəbbəti Yusifə qalib gəlir və
onun üçün xüsusi ibadətxana tikdirir....220
Yusif anasını və atasını yuxusunda görür,
onların dəvətini qəbul edib Allahdan
ölüm istəyir, Züleyxanı iztiraba salır....223
Yusif vəfat edir, Züleyxa isə hicran dərdinə
tab gətirməyib həlak olur....225
Fələkdən şikayət....230
İdrak əli kamala çatmaq cilovunda, möhkəm və
iradə ayağı cəhalətdən qaçmaq yolunda
bərqərar olan əziz oğluma nəsihət....235
Kitabın bitməsi....241

Baharistan

(*tərcümə edəni Rəhim Sultanov*)

Dibaçə....249
Birinci rövzə (bağ)....251
İkinci rövzə (bağ)....254
Üçüncü rövzə (bağ)....265
Dördüncü rövzə (bağ)....274
Beşinci rövzə (bağ)....281
Altıncı rövzə (bağ)....285
Yeddinci rövzə (bağ)....297
Səkkizinci rövzə (bağ)....298
Xatimə (son)....309

ƏBDÜRRƏHMAN CAMİ

SEÇİLMİŞ ƏSƏRLƏRİ

“ÖNDƏR NƏŞRİYYAT”

BAKI–2004

Buraxılışa məsul: *Əziz Güləliyev*

Texniki redaktor: *Rövşən Ağayev*

Tərtibatçı-rəssam: *Nərgiz Əliyeva*

Kompyuter səhifələyicisi: *Rəşad Həmidov*

Korrektor: *Ceyran Abbasova*

Yığılmağa verilmişdir 07.06.2004. Çapa imzalanmışdır 22.12.2004.
Formatı 60x90 $^{1}/_{16}$. Fiziki çap vərəqi 20. Ofset çap üsulu.
Tirajı 25000. Sifariş 227.

Kitab “Şərq-Qərb” mətbəəsində çap olunmuşdur.
Bakı, Aşıq Ələsgər küç., 17.